ELMİRA AXUNDOVA

# SİZİN ARANIZDA ƏN BÖYÜK DİSSİDENT MƏN İDİM

*Heydər Əliyev və yaradıcı ziyalılar*



I CİLD



**Axundova Elmira Hüseyn qızı**

Moskva vilayətinin Ramensk rayonunda anadan olub. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirib. Filologiya üzrə fəlsəfə doktorudur. Azərbaycan Yazıçılar Birliyinin Ağsaqqallar Şurasının üzvüdür. 1995-ci ildən 2020-ci ilədək Prezident yanında Əfv Komissiyasının üzvü olmuşdur.

1980-1990-cı illərdə Azərbaycan Yazıçılar İttifaqında (indiki Azərbaycan Yazıçılar Birliyi) və Respublika Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda işləyib. 1990-2003-cü illərdə bir sıra Rusiya və qərb kütləvi informasiya vasitələrinin – «Literaturnaya qazeta», «Delovoy mir», «Obşaya qazeta» nəşrlərinin, «Azadlıq» radiostansiyasının xüsusi müxbiri olub.

III, IV və V çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı (2005-2020) olmuşdur. 2008-2019-cu illərdə respublikanı MDB Parlamentlərarası Assambleyada təmsil edirdi. 2020-2023-cü illərdə Azərbaycanın Ukraynada Fövqəladə və Səlahiyyətli səfiri işləmişdir.

40-dan çox kitabın, həmçinin yerli və xarici mətbuatda dərc edilmiş yüzlərlə məqalənin və bədii-publisistik oçerkin müəllifidir. Onun ssenariləri əsasında respublikada bir sıra bədii televiziya filmləri və kinofilmlər çəkilib.

2003-cü ildə «Şöhrət» ordeni ilə təltif olunub. 2005-ci ildə «Əməkdar jurnalist» fəxri adı alıb. 2013-cü ildə Elmira Axundova Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu ilə təltif edilmişdir. 2014-cü ildə 6-cildlik «Heydər Əliyev. Şəxsiyyət və zaman» roman-tədqiqatına görə Ədəbiyyat sahəsində Dövlət Mükafatına layiq görülüb. 2018-ci ilin may ayında E.Axundova «Xalq yazıçısı» fəxri adına layiq görülmüşdür. 2023-cü ildə 2-ci dərəcəli «Vətənə xidmətə görə» ordeni ilə təltif edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT NAZİRLİYİ

Elmira Axundova

# SİZİN ARANIZDA ƏN BÖYÜK DİSSİDENT MƏN İDİM

*Heydər Əliyev*
*və yaradıcı ziyalılar*

I CİLD

Bakı – 2025

**Elmira Axundova. Sizin aranızda ən böyük dissident mən idim**
***Heydər Əliyev və yaradıcı ziyalılar.*** I CİLD
Bakı: "Tuna" QSC, 2025. 312 s.

**Tərcüməçilər:** S.Məmmədzadə
Y.Quluzadə
O.Məmmədov (Qəbələli)

Fotoşəkillər Heydər Əliyevin şəxsi arxivindən, həmçinin Prezidentin fotoqrafı Rafiq Bağırovun arxivindən götürülmüşdür.

ISBN: 978-9952-578-41-6

© Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, 2025



# MÜNDƏRİCAT


**Kiçik müqəddimə ............................................ 5**

I FƏSİL

**HEYDƏR ƏLİYEV GƏNCLİYİNİN HOBBİLƏRİ...... 7**

II FƏSİL

**DTK SƏDRİ VƏ YARADICI ZİYALILAR ........................................ 31**

III FƏSİL

**BİRİNCİ KATİB: «GÜRZLƏ ZİNDAN ARASINDA» ................................ 65**

IV FƏSİL

**HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN YARADICI ZİYALILARI ........ 199**

V FƏSİL

**HEYDƏR ƏLİYEV VƏ MÜSTƏQİLLİK DÖVRÜ MƏDƏNİYYƏTİ ........................................ 231**


# ■ KİÇİK MÜQƏDDİMƏ

Əziz oxucu, bu kitabın ilk səhifəsini açmazdan əvvəl Sizə bir neçə kəlmə demək istəyirəm. Bizim Ümummilli Liderimiz Heydər Əlirza oğlu Əliyev barədə çox kitablar, monoqrafiyalar, elmi araşdırmalar işıq üzü görüb. Bu baxımdan 2023-cü il – Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ili çox məhsuldar oldu.

Amma oxuyacağınıza ümid etdiyim bu kitab unikaldır. Əvvəla, o, böyük liderin həm sovet dövründə, həm də müstəqillik zamanında yaradıcı ziyalılarla münasibətləri kimi az tədqiq olunmuş mövzuya həsr olunub. İkincisi, kitabda Heydər Əliyevlə şəxsən tanış olmuş, onunla ünsiyyət saxlamış, yaradıcılıqları prezident tərəfindən yüksək qiymətləndirilmiş, dövlət mükafatlarına layiq görülmüş ədəbiyyat və mədəniyyət xadimlərinin səsləri sanki qulaqlarımızda canlı səslənir. Bu söhbətlərin əksəriyyəti eksklüzivdir – nə Elçin, nə Şəfiqə Məmmədova, nə Rasim Balayev, nə Tahir Salahov və başqaları mətbuat təmsilçilərinə bu cür müsahibələr veriblər. Hesab edirəm ki, bu söhbətlərdə təkcə Heydər Əliyevin obrazı, yaxud bu və ya digər cəhəti deyil, elə müsahiblərin özləri də oxucu üçün bəzən gözlənilməz, naməlum tərəflərdən açılır. Onlar müəlliflə çox canlı, səmimi, bəzən çox məhrəm dialoq aparır, təkcə müsahibənin qəhrəmanı barədə deyil, həm də öz həyatları haqda danışırlar və quru rəsmiyyətdən uzaq söhbətlər oxucu ictimaiyyətində şəksiz maraq doğurur. Müsahibələrdən bəziləri 2022-2023-cü illər ərzində haqqin.az, day.az, trend.az, br.az kimi tirajlı saytlarda dərc olunub və çox geniş auditoriya toplayıb.

Bundan başqa, təəssüf ki, müsahiblərimdən bəziləri indi həyatda deyillər, bu da bizim söhbətlərimizə xüsusi dəyər qazandırır…

Müsahibələrdən əvvəl «Sizin aranızda ən böyük dissident mən idim» başlıqlı geniş bədii-publisistik esse təqdim olunur. Həmin sözlər Azərbaycan yazıçılarına ünvanlanıb, amma Heydər Əliyev eynisini rəssamlara, musiqiçilərə, heykəltaraşlara da deyə bilərdi. O, ədəbiyyat və incəsənət xadimlərinə xüsusi qayğı, diqqət, hətta həssaslıqla yanaşırdı. Heydər Əliyev onların himayəçisi və dayağı idi, yaradıcı ziyalıların problemləri ilə dərindən maraqlanır, bu adamlara həm mənəvi, həm də maddi dəstək olurdu, bəzən uşaq kimi bir-birindən küsmüş korifeyləri barışdırırdı. Onları öz övladları kimi sevirdi.

Kitab da məhz bu barədə – yaradıcılığa, doğma torpağa və xalqa, böyük liderə sevgidən bəhs edir...

**Elmira Axundova**
**Azərbaycan Respublikasının Xalq yazıçısı**



## I FƏSİL

# HEYDƏR ƏLİYEV GƏNCLİYİNİN HOBBİLƏRİ

...Naxçıvanlılar təhsilə həmişə çox ciddi yanaşırdılar. Hamı eyni dərəcədə kasıb yaşayırdı, irəli getmək, cəmiyyətdə görkəmli yer tutmaq üçün yeganə vasitə yaxşı oxumaq idi. Xüsusilə də inqilabdan sonrakı illərdə sovet hökumətinin ölkə əhalisinin qeyri-pravoslav hissəsinin sosial ayrı-seçkiliyini aradan qaldırdığı və keçmiş Rusiya imperiyasının ucqarlarda yaşayan xalqların siyasi və mədəni-maarifləndirmə cəhətdən inkişafı üçün şərait yaratdığı vaxtlarda.

İzzət xanımla Əlirza kişinin ailəsində böyüyən uşaqların hərəsinin bir sahədə istedadlı olması hiss olunurdu və onların hamısı da biliklərə can atırdılar. Onu demək kifayətdir ki, ailənin böyük övladı – ilk dəfə parta arxasına 17 yaşında (!) oturmuş Həsən Əliyev cəmi bir onillik ərzində fəhlə-gənclər məktəbi şagirdindən Pambıqçılıq Elmi-Tədqiqat İnstitutunun aspirantınadək yol keçmişdi. 40-cı illərdə o artıq respublikanın nüfuzlu torpaqşünas alimlərindən biri idi, Azərbaycan Elmlər Akademiyasının yaranmasında fəal iştirak etmiş və onun ilk həqiqi üzvlərindən biri seçilmişdi.

Əlirza kişinin Həsəndən sonrakı övladı Hüseyn uşaqlıqdan rəssam olmağı arzulayırdı. O, 1932-ci ildə Ə.Əzimzadə adına rəssamlıq məktəbini, 1935-ci ildə isə Leninqrad Rəssamlıq Akademiyasını (həm də azərbaycanlılar arasında birinci olaraq) bitirərək arzusuna çatdı. Ümumiyyətlə, bu ailədə hamı şəkil çəkməyi xoşlayırdı və bacarırdı. Heydər Əliyevin rəsm çəkmək qabiliyyəti barədə bir qədər sonra danışacağıq.

Ancaq Aqil Əliyevin bu ailədə qardaşların hamısının gözəl rəsm çəkmək bacarığı barədə söhbətləri şəxsən mənim üçün yenilik idi: «Heydər çox gözəl rəsmlər çəkirdi. Ancaq onun rəsmləri qalmayıb. Biz o vaxtlar buna o qədər də əhəmiyyət vermirdik. Hüseyndən sonra isə ailədə «baş rəssam» mən oldum. Hətta iki il rəssamlıq texnikumunda da oxudum. Bu texnikum Naxçıvanda müharibə başlamazdan bir az əvvəl açılmışdı, o, onillik məktəb səviyyəsində deyildi, sırf professional xarakter daşıyırdı. Səhər məktəbə, günorta texnikuma gedirdim. Orada bizə akvarellə, yağlı boya ilə şəkil çəkməyi öyrədir, kompozisiya, rəngkarlıq dərsləri keçirdilər. Mən hətta 20-yə yaxın akvarellə çəkilmiş şəkli sərgidə nümayiş etdirmişdim. Üçüncü kursda texnikumu atdım. Müharibə başladı, hər şey dağılıb getdi, şəkillər də məktəbdə itib-batdı.

Böyük qardaşım Həsən də çox gözəl rəsmlər çəkirdi. Evimizdə Həsənin yağlı boya ilə işlədiyi rəsm əsəri vardı. Biz Bakıya köçəndə o da yoxa çıxdı».

Heydər məktəb yaşına çatanda valideynləri onu 1 saylı «beynəlmiləl» məktəbə qoydular. Aqil Əliyevin söylədiyinə görə, həmin məktəb şəhərin mərkəzində, qədim birmərtəbəli, kürsülü binada yerləşirdi. Bu, deyəsən, bolşeviklərin əlindən ölkəni tərk etmiş keçmiş xanların evi idi. Vaxtilə həmin məktəbdə oxuyan Fikrət Qədimov bildirdi ki, bu bina artıq yoxdur.

Beynəlmiləl məktəbin üç – Azərbaycan, rus, erməni bölməsi vardı. Heydər Əliyev Azərbaycan bölməsində oxuyurdu. Lakin rusdilli yaşıdları ilə daimi ünsiyyət və rus dilində çoxlu mütaliə nəticəsində artıq bir neçə ildən sonra o fikrini rus dilində sərbəst izah edə bilirdi. Lətif Hüseynzadə deyir ki, Heydər





pedaqoji texnikuma daxil olanda o, rus dilində təmiz danışırdı. Özü rus bölməsində təhsil alan Fikrət Qədimov da bu fikri təsdiq edir: «Heydər Əliyev rus bölməsinin şagirdləri ilə yaxınlıq edir, rus dilini müstəqil öyrənməyə çalışırdı. Ona görə də texnikuma daxil olanda o artıq rus dilində səlis danışa bilirdi».

Prezidentin qardaşının fikrincə, rus dilini öyrənməkdə bədii ədəbiyyatın mütaliəsi böyük rol oynamışdı:

«Heydər çox mütaliə edirdi, o vaxtlar əldə edilə bilən bütün bədii ədəbiyyatı oxumuşdu. Evimizdəki dolab kitab ilə dolu idi. O, kitabları ya mağazadan alır, ya da kitabxanadan gətirirdi. Özü də oxuyurdu, biz də. Bu, Azərbaycan dilində olan kitablardı. Sonra isə o, rus dilində kitablar gətirməyə başladı. Bu, hələ onun orta məktəbdə oxuduğu vaxtlar idi. Yadımdadır ki, o, rus dilində Hötenin «Faust» əsərini gətirmişdi. Onun bu kitabı necə maraqla oxuduğunu görüb, mən də həvəsləndim, ancaq tezliklə bu fikrimdən vaz keçdim, çünki heç bir şey başa düşmürdüm.

Heydər ədəbiyyatı çox sevir, onu həm oxuyur, həm də yaxşı qavrayırdı. Yadımdadır ki, sovet dönəmində, elə ondan çox-çox sonralar da Bakıya xaricdən – Orta Asiyadan, digər müttəfiq respublikalardan gələn nümayəndə heyəti ilə söhbət zamanı o həmin ölkələrin ədəbiyyatı, yazıçıları haqda elə fikirlər söyləyirdi ki, qonaqlar mat qalırdı. Bunun əsası isə hələ Naxçıvanda yaşadığımız vaxtlarda qoyulmuşdu».

*(Aqil Əliyevin xatirələrindən.)*

Naxçıvanın 1 saylı məktəbinin məzunlarından bir çoxu respublikanın adlı-sanlı alimləri, müəllimləri, incəsənət xadimləri oldular. Onların arasında Heydər Əliyevlə bir sinifdə oxuyan, hətta bir müddət eyni parta arxasında oturan Azərbaycanın Xalq artisti Zəroş Həmzəyeva da vardı. O, uşaqlıq illərinin xatirələrini tanınmış jurnalist Svetlana Mirzəyeva ilə belə bölüşmüşdü:

«Biz o dövr üçün qeyri-adi olan beynəlmiləl məktəbdə oxuyurduq. Buraya muxtar respublikanın müxtəlif şəhər və kəndlərindən gəlmiş ən qabiliyyətli

uşaqlar toplanmışdı. 30-cu illərdə əyalətdə bu cür yeni tipli məktəb açmış, o vaxtlar Naxçıvan maarifinin başında duranların uzaqgörənliyi və müdrikliyi məni bu gün də heyrətləndirir. Azərbaycanda bu cür internatlar xeyli sonra meydana çıxmağa başladı. Məktəbdə biz səylə oxuyur, çoxlu bədii ədəbiyyat mütaliə edir, Nizami Gəncəvidən tutmuş o dövrdə gənclərin sevimlisi olan Səməd Vurğun, Süleyman Rüstəm kimi cavan şairlərin əsərlərini əzbər öyrənirdik. Biz incəsənətə maraq göstərir, təbiəti sevir, öz diyarımızın, Azərbaycanın tarixini yaxşı bilirdik...»

* * *

Mahaldakı bütün evlər kimi, Heydər Əliyevin evinin də konkret ünvanı vardı: Papanin küçəsi, 28. Ancaq yerli camaat öz küçələrinin yeni adlarına uzun müddət alışa bilmirdilər. Öz aralarında, eləcə də gəlmələrlə söhbət zamanı öz yaşayış yerlərini bu və ya digər məhəllələrlə tanıtmağa çalışırdılar. Naxçıvan başdan-başa bu cür məhəllə-kvartallara bölünürdü. Misal üçün, Heydər Əliyevin ailəsi Zəviyə məhəlləsində yaşayırdı. Mən Heydər Əliyevin müəllimi Lətif Hüseynzadə ilə görüşənə qədər heç kim bu adın mənşəyi ilə bağlı bir söz deyə bilmirdi.

Naxçıvanın qocaman sakinlərindən olan Lətif müəllimin sözlərinə görə, əvvəllər bu məhəllədə Bəktaş təriqətinin davamçıları olan Bəktaşilər* yaşayırmış. Onların çoxusu Türkiyədən köçüb gəlibmiş. Bəktaşilər təcrid olunmuş şəkildə yaşayır, onların baxışlarını və həyat tərzini bölüşə bilməyənlərdən kənar gəzməyə çalışırdılar. Ona görə də onları münzəvilər (zəviyə – künc-bucaq sözündən götürülüb) adlandırırdılar. Yəni «küncə, bucağa sığınanlar», insanlardan qaçanlar, kənarlaşanlar, təcrid olunanlar. Adi şiə məscidlərinə getmək istəmədiklərindən onlar özləri üçün yeni məscid tikməyi qərara aldılar. Ancaq

* Bəktaşi – İslamın XII-XIII əsrlərdə yaranmış, Türkiyədə və Balkanlarda geniş yayılmış sufi cərəyanının davamçıları.





tikinti başa çatmadı. Qırmızı kərpicdən tikilən gözəl binanı elə «Zəviyə məscidi» də adlandırdılar. Bir müddət boş qalan bina sovet hökuməti gələndən sonra uşaqlar üçün «Pionerlər evi»nə çevrildi. Sonralar ona alman kommunisti Ernst Telmanın adını verib klub kimi istifadə etməyə başladılar.

E.Telman kim olub, Naxçıvan əyalətilə onun nə əlaqəsi var, bunu heç kim dəqiq bilməsə də, kluba böyük həvəslə gedirdilər. Xüsusilə də orada film nümayiş etdiriləndə. 30-cu illərin ortalarında tədricən səssiz filmləri səsli filmlər sıxışdırıb aradan çıxarmağa başladı. 1936-cı ildə Naxçıvanda ilk səsli filmin nümayişi oldu.

«Heydərlə mən klubda göstərilən, Duqlas Ferbenks çəkilən bütün filmlərə dəfələrlə baxmışdıq, Çarli Çaplinin filmlərini çox xoşlayırdıq. Əlbəttə ki, «Volqa-Volqa», «Şən uşaqlar» kimi klassik sovet filmlərini də. Heydərin qardaşı Aqil kinomexanikin köməkçisi olduğundan bizim üçün seanslara pulsuz getmək imkanı yaradırdı. O, uşaqlıqdan çox işgüzar, əməksevər oğlan idi. Əvvəlcədən gəlib hansı filmi göstərəcəklərini bildirirdi. Biz də Heydərlə gedirdik. Bizim pulumuz yox idi. Bir seansın qiyməti isə 25 qəpikdən 50 qəpiyə qədər idi».

*(İbrahim İsmayılovun xatirələrindən.)*

«Vaxtımızın çoxunu Pionerlər evində keçirirdik. Təxminən beşinci sinifdən etibarən biz məktəbdən gəlib, yeməyimizi yeyib, dərslərimizi hazırlayır, sonra isə ora gedirdik – dama, şahmat oynayır, kinoya baxırdıq. Şəhərimiz kiçik olduğundan heç bir nəqliyyat işləmirdi, odur ki, piyada gedirdik. Valideynlərimiz də bizdən arxayın idilər, bilirdilər ki, biz Pionerlər evindəyik. Orada meydançası olan kiçik bir bağ vardı, bu bağda bizə yemək verirdilər. Yay vaxtı biz ora səhər gedir, axşam saat altıya qədər orada qalırdıq. Səhərlər də, günorta da orada yemək yeyirdik. Axşam isə evimizə gedirdik. Bu da, yayda pionerlərin asudə vaxtlarını keçirməyin bir forması idi».

*(Aqil Əliyevin xatirələrindən.)*

30-cu illərin ortalarında bu klubda həvəskar uşaq teatrı fəaliyyətə başlayacaq və burada gənc Heydərin qeyri-adi aktyorluq istedadı üzə çıxacaq. Onun bu məharətindən mən bir qədər sonra bəhs edəcəyəm...

Yeddinci sinfi bitirdikdən sonra Heydər pedaqoji məktəbə daxil olmaq qərarına gəlir. Halbuki o, onuncu sinfədək oxuya bilərdi. Ancaq o nə üçünsə qərara almışdı ki, müəllim olmalıdır. Görünür, bu işdə o illərdə Naxçıvanın pedaqoji məktəbinin (onu bəzən texnikum da adlandırırlar), ümumiyyətlə, müəllimliyin böyük nüfuza malik olması da əsas rol oynamışdı.

Texnikum ibtidai sinif müəllimi hazırladığından burada ixtisaslaşma yox idi. Tələbələr bütün fənləri – ana dili və ədəbiyyat, fizika, riyaziyyat, tarix, eləcə də bu dərslərin tədrisi metodikasını keçirdilər. Sonra müdavimləri hansı fənnə daha çox meyilliliyindən asılı olaraq bölüşdürürdülər.

O vaxt dərslik sarıdan korluq çəkirdilər. Sovet hökuməti köhnə dərslikləri yararsız hesab etmişdi, yeniləri isə təzə-təzə yaradılırdı. Ona görə də mühazirə sistemindən istifadə edir, müəllimlər tələbələrə öyrətmək istədiklərini diqtə edərək yazdırırdılar. Dərslər Azərbaycan dilində keçirilirdi. Rus dilini ayrıca fənn kimi keçirdilər. Həsənbəy Qazıyev adlı çox güclü müəllimin hesabına texnikumda rus dili çox gözəl tədris edilirdi. O ən yaxşı tələbəsi olan Heydər Əliyevlə fəxr edirdi, onu başqalarına nümunə göstərirdi: «Görürsünüz, Heydər rus dilini necə gözəl bilir?!»

Böyüklərə məxsus ağlı və təmkini ilə seçilən bu boylu-buxunlu, gözəl gənci başqa müəllimlər də fərqləndirirdilər. Lətif Hüseynzadə danışır ki, müəllimlər çox vaxt öz aralarında mübahisə edirdilər: biri deyirdi ki, ondan yaxşı tarixçi olar, başqası etiraz edib, onun anadangəlmə ədəbiyyat müəllimi olduğunu söyləyir, riyaziyyat müəllimi isə Heydərin dəqiq elmlər üçün yarandığını bildirirdi. İbrahim İsmayılov isə onun gözəl xətti olduğunu deyir:

«Aramızda o ən qabiliyyətli idi. Həqiqətən, Allah ondan heç nəyi əsirgəməmişdi: xarici görkəm də, boy-buxun da, ağıl da, dərrakə də vermişdi».





Heydər bütün gününü texnikumda keçirirdi, çünki orada çox maraqlı tədbirlər keçirilirdi. O vaxtlar sinifdənkənar dərnəklər çox inkişaf etmişdi. Məsələn, texnikumda ədəbiyyat və dram dərnəkləri, təbiətşünaslıq və təsvirisənət dərnəkləri fəaliyyət göstərirdi. Heydər bu dərnəklərin hamısında iştirak etməyə can atırdı. Yaşıdları xatırlayırlar ki, müəllimlər tələbələr arasında bədii qiraət üzrə yarışlar təşkil edirdilər. Heydərin gözəl nitq qabiliyyəti var idi, o, Sabirin, Süleyman Rüstəmin şeirlərini söyləyəndə zalda tam sakitlik hökm sürürdü.

Texnikumda Heydər Əliyevlə eyni kursda oxuyan Səfərəli Babayev o günləri belə xatırlayır: «...Heydər Əliyev texnikumda təşkil edilən bütün tədbirlərdə mütləq iştirak edirdi. O, səhnəyə çıxıb gur səslə, aydın tələffüzlə Süleyman Rüstəmin məşhur şeirindəki «Çapayev çapa-çapa» misralarını söyləyəndə tələbə və müəllimlərlə ağzınadək dolu olan zal sükuta qərq olurdu. Ümumnaxçıvan tədbirlərinə nümayəndə göndərmək lazım olanda qiraət ustası Heydər Əliyevi göndərirdilər, o da texnikumu layiqincə təmsil edirdi. Öz doğma dilini gözəl bilən Heydər rus dilində də əla çıxış edə bilirdi»[1].

Pedaqoji texnikumun böyük kitabxanasında vaxtilə Türkiyədən göndərilmiş çoxlu kitab var idi. Sovet hökuməti şəhərdə yaxşı ictimai kitabxanalar yaratmışdı, ona görə də gənclər həm Azərbaycan ədəbiyyatı, həm də dünya klassikası ilə tanış ola bilirdi. Lətif Hüseynzadə xatırlayır ki, Heydər Əliyevin qoltuğunda həmişə hər hansı bir kitab olurdu. Məsələn, Rəşad Nuri Güntəkinin müəllimlərin həyatından bəhs edən məşhur «Çalıquşu» romanını o, bir neçə dəfə oxumuşdu. Bu populyar türk yazıçısının digər əsərlərini də çox sevirdi. Lətif müəllim şagirdlərini türk poeziyasının ən gözəl nümunələri ilə tanış edirdi, odur ki, gənc Heydərin Namiq Kamalın, Ziya Göyalpın, Yəhya Kamalın, Tofiq Fikrətin şeirləri ilə tanışlığı təsadüfi deyildi. Heydər Əliyevin öz sözlərinə görə, Tofiq Fikrət onun ən sevimli şairlərindən biri idi.

---

[1] Мирзоева С. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. Баку, 2004. С.67.

1994-cü il noyabrın 2-də Türkiyə parlamentində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyini təntənə ilə qeyd etdilər. Parlamentin yığıncağında çıxış edən Azərbaycan prezidenti Heydər Əliyev hələ ilk gənclik çağlarında türk dilini ciddi şəkildə öyrəndiyini, türk ədəbiyyatı və poeziyası ilə maraqlandığını söyləmişdi: «İndi, bəlkə, bu elə də böyük sirr hesab olunmasın, ancaq o vaxtlar mən türk dili lüğəti və dərsliyi əldə edib, türk dili öyrənməyə başladım. Bu gün bunu açıq da, demək olar ki, mənim müəllimim vardı, o iki-üç il mənə türk dilini öyrətdi. Mən Türkiyənin tarixini, ədəbiyyatını öyrənirdim. Əbdülhəmid, Tofiq Fikrət və bir sıra başqaları mən orta məktəbdə oxuduğum dövrdə ədəbiyyat dərsliklərinə salınmışdı. Həmin görkəmli yazıçı və şairlərin portretləri indiyədək mənim gözümün qarşısındadır»[2].

*(Əslində, türk ədəbiyyatı və poeziyasına gənclik marağı sonralar dövlət təhlükəsizlik orqanlarındakı iş prosesində onun çox karına gəlmişdi. Xidməti anketi doldurarkən «hansı xarici dilləri bilirsiniz?» sualına tərəddüd etmədən «türk dilini» cavabını yazmışdı.)*

İbrahim İsmayılov qeyd edir ki, «Heydər bədii ədəbiyyatı, xüsusilə poeziyanı çox sevirdi. Hüseyn Cavid, Mikayıl Müşfiq... Sonralar Səməd Vurğun, Məmməd Rahim kimi şairlərin əsərlərindən nümunələr gətirməyi çox xoşlayırdı».

Heydər Əliyevin mənəviyyatında onun iki görkəmli həmyerlisi – Cəlil Məmmədquluzadə və Hüseyn Cavid daha parlaq iz qoyub. Bütün Şərqdə məşhur olan satirik «Molla Nəsrəddin» jurnalının banisi və redaktoru, məşhur dramaturq, kiçik hekayə-novellalar kralı Cəlil Məmmədquluzadə geriliyə və cəhalətə, onların hər cür təzahürlərinə qarşı barışmaz mübarizəsi ilə gəncin qəlbində qürur hissi doğururdu. 30-cu illərin əvvəllərində «Molla Nəsrəddin»in illüstrasiyalı nömrələri, demək olar ki, hər bir naxçıvanlının evində var idi. Aqil Əliyev xatırlayır ki, böyük qardaşları Həsən və Hüseyn bu jurnalın onlarla nömrəsini alıb evdə iri qutularda saxlayırdılar. Pedaqoji texnikumda oxuyarkən Cəlil Məmmədquluzadənin Naxçıvan Dram Teatrında uğurla tamaşaya qoyulmuş «Ölülər» pyesi ilə tanış olandan sonra gənc Heydər sözün həqiqi mənasında sarsıntı keçirdi.

[2] Heydər Əliyev mədəni irsimizin keşiyində. Bakı, 2001, k. 1. S. 94.





Mənim jurnalist arxivimdə Heydər Əliyevlə 1990-cı ilin sonunda etdiyim şəxsi söhbətlərin diktofon yazısının mətnləri qorunub saxlanır. O vaxt mənə «Literaturnaya qazeta»nın tapşırığı ilə Naxçıvana gedərək Siyasi Büronun istefada olan keçmiş üzvü ilə görüşmək nəsib olmuşdu. Başqa mövzularla yanaşı, biz ədəbiyyat məsələlərinə də toxunduq. O illərdə yaradıcılığı ilə dərindən maraqlandığım, hətta əsərlərinin təhlili ilə bağlı namizədlik dissertasiyası müdafiə etdiyim Cəlil Məmmədquluzadə haqqında da söhbət düşdü. Sən demə, Mirzə Cəlilin irsi mənim həmsöhbətim üçün də çox qiymətli imiş. O mənə dedi:

– Bu yazıçını mən gənclik çağlarımdan tanıyıram və sevirəm. Onunla ilk tanışlıq məktəb dərsliyindəki «Poçt qutusu» hekayəsi ilə başlayır, hekayələrini, «Danabaş kəndinin əhvalatları» povestini dəfələrlə oxumuşam. Ancaq məndə ən çox təəssürat oyadan «Ölülər» pyesi oldu. Yuxarı siniflərdə oxuyarkən mən teatra böyük maraq göstərir, tez-tez yerli dram teatrının tamaşalarına gedib baxırdım. O vaxtlar Naxçıvan teatrının istedadlı rejissorlardan, gözəl aktyor heyətindən ibarət güclü kollektivi vardı. Səməd Pəhləvi, İsa Musayev, Miribrahim Həmzəyev, Eyyub Haqverdiyev, Rza İsfəndiyarlı, Firuzə Əlixanova... sonralar Zəroş xanım Həmzəyeva, Mirhəsən Mirişli və başqaları da onlara qoşuldu *(Heydər müəllimin təntimədən bir-birinin ardınca onlarla ad çəkməsi məni heyrətləndirdi)*.

Beləliklə, teatrımız Mirzə Cəlilin «Ölülər» pyesini tamaşaya qoydu və mən də böyük məmnuniyyətlə bu tamaşaya bir neçə dəfə baxdım. Yadımdadır ki, Kefli İsgəndər obrazını İsa Musayev, Məşədi Oruc surətini Miribrahim Həm-

zəyev oynayırdı. «Ölülər» pyesi dərin fəlsəfi əsərdir. Öz fəlsəfi siqlətinə görə o, Azərbaycan ədəbiyyatının dramatik əsərləri arasında ilk cərgədə durur. Eyni zamanda, onu digər əsərlərdən fərqləndirən cəhət dərin milli ruhu, xəlqiliyidir. Naxçıvan teatrının kollektivi bütün bu xüsusiyyətləri öz quruluşlarında tamamilə əks etdirə bilib. Sonralar artıq Bakıda işləyərkən Mirzə Cəlilin pyesinə Azərbaycan Dövlət Dram Teatrının səhnəsində tamaşa etdim. Ona rəhmətlik Tofiq Kazımov quruluş vermişdi. Bu tamaşada modernizmə geniş yer verən rejissor əsəri müasirləşdirmişdi. Nəticədə pyes ilkin, yalnız özünəməxsus koloritini bir qədər itirmişdi.

Mən Cəlil Məmmədquluzadənin publisistikası ilə də tanışam, onun müstəqil Azərbaycan mətbuatının, Azərbaycanda qabaqcıl demokratik fikrin yaranmasındakı rolunu yüksək qiymətləndirirəm. Mən həmişə Mirzə Cəlili Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində böyük şəxsiyyət hesab etmişəm. Odur ki, respublikaya rəhbərlik edərkən ona Naxçıvanda heykəl ucaldılmasını özümə borc bilmişəm. Layihənin müəllifi heykəltaraş Mirqasımov idi. Yadımdadır ki, bu işlə bağlı onun qarşısına çətinliklər çıxmışdı, ona mane olurdular. O, bir neçə dəfə mənim qəbuluma gəlmişdi. Mən ona kömək eləməyə çalışdım, sonra muxtar respublikanın paytaxtında heykəl qoyulmasına dəstək verdim, məxsusi olaraq Naxçıvana gələrək heykəlin təntənəli açılışında iştirak etdim. Bir arzum da vardı – Bakıda Cəlil Məmmədquluzadənin ömrünün son illərini yaşadığı mənzildə onun ev-muzeyini yaratmaq. Bunun üçün müvafiq addımlar atıldı. Onun bu evdə yaşayan qohumları daha münasib şəraitli mənzillərə köçürüldü. Həmin evdə təmir-bərpa işlərinə başlandı. Bu, 1980-1981-ci illər idi. 1982-ci ildə mən Moskvaya işləməyə getdim. Səkkiz ildən sonra geriyə – Azərbaycana qayıdanda öyrəndim ki, həmin işlər yarımçıq qalıb, başa çatdırılmayıb, ev-muzey də açılmayıb. Bu mənim böyük təəssüf və heyrətimə səbəb oldu. İşə belə laqeyd münasibəti mən heç cür başa düşmürəm.





Heydər Əliyev böyük yazıçının vəfalı ömür-gün yoldaşı Həmidə xanımı da yada saldı. Dedi ki, onun Mirzə Cəlil haqqında xatirələrini də oxuyub və vaxtilə Həmidə xanımın 1912-ci ildə Qafqaz pambıqçılarının ikinci qurultayındakı məruzəsilə də tanış olubmuş.

– Belə ki, gördüyünüz kimi, mənə Həmidə xanım Məmmədquluzadənin bu fəaliyyət dairəsi də tanışdır. Ümumiyyətlə, Mirzə Cəlilin xatirəsi ilə bağlı hər bir şey mənim üçün əziz və müqəddəsdir, – deyə Heydər Əliyev fikrini yekunlaşdırdı.

Gənc Heydər Mirzə Cəlildən başqa, ölməz şair və dramaturqumuz Hüseyn Cavidin yaradıcılığı ilə də çox maraqlanırdı. Onun cahanşümul əsərlərində o, gəncləri düşündürən xeyir və şərin mahiyyəti, varlığın mənası kimi məsələlərə cavab tapmağa çalışırdı. Lətif Hüseynzadə danışır ki, onun sevimli şagirdi Cavidin «İblis» və «Şeyx Sənan» pyeslərindən istənilən parçanı çaşmadan əzbərdən söyləyə bilirdi.

1937-ci ilin sentyabrında kütləvi repressiyalar maşını Hüseyn Cavidi də öz məngənəsinə saldı. O vaxtdan onun əsərləri üzərinə uzun illər qadağalar qoyuldu. Ancaq elə o dövrün özündə də bir çox naxçıvanlılar, öz taleləri, bəzən hətta həyatları ilə risq edərək Azərbaycan ədəbiyyatının son romantik şairinin əsərlərini gizlədib saxladılar.

*50-ci illərin ortalarında Azərbaycan DTK-sının Heydər Əliyevin çalışdığı 2-ci şöbəsi, Stalin repressiyasının qurbanlarının işi üzrə minlərlə rəy hazırlayıb prokurorluğa göndərdi. O vaxtlar respublika prokurorunun xüsusi işlər üzrə müavini işləmiş İbrahim İsmayılovun dediyinə görə, Heydər Əliyev repressiyaya uğramış bu və ya digər milli mədəniyyət xadimlərimizin günahının sübut olunmaması haqqında qərarı imzalayarkən xüsusi məmnunluq hissi keçirirdi. Onların arasında Hüseyn Cavid də vardı. Lakin Heydər Əliyev onun ölümündən sonrakı taleyində son nöqtəni*

*1982-ci ildə Cavidin Sibirdə basdırıldığı yerin müəyyən olunması ilə bağlı, demək olar ki, detektiv əhvalat başa çatandan, cənazəsi Naxçıvana gətiriləndən sonra qoydu. Bu barədə biz kitabın sonrakı bölmələrində bəhs edəcəyik...*

* * *

Kimsə deyib ki, əgər insan istedadlıdırsa, o hər sahədə istedadlıdır. Bizim qəhrəmanımız da belə idi: əla oxumaqla yanaşı, o həm də texnikumda böyük ümidlər verən rəssam və aktyor idi.

Onun bu iki məşğuliyyəti üzərində daha təfsilatı ilə dayanmağa dəyər.

«Heydərin çox gözəl səsi vardı, o uşaqlıqdan oxumağı xoşlayırdı, xüsusilə də «Dəli ceyran» və «Uca dağlar başında» mahnılarını. Bundan başqa, həm də əla rəsmlər çəkirdi. O, şübhəsiz, istedada malik idi. O, rəngli qələmlə çəkirdi, mən onun rəsmlərini görmüşdüm. Hayıf ki, onlar itib-batdı».

*(İbrahim İsmayılovun xatirələrindən.)*

«Heydər Əliyevin ədəbiyyata, yaradıcılığa xüsusi meyli vardı. O, bir dəfə mənə dedi: «Bilirsən, həyatımın ən xoş günü ilk dəfə nə vaxt olub? Karandaşla Tolstoyun portretini çəkdiyim gün. Bu sevinc hissi indi də mənim qəlbimdədir».

*(Yazıçı Elçinlə söhbətindən.)*

«O gözəl rəssam idi. Məsələn, mən və ya tarix müəllimi tez-tez dərslərimizi təbiətin qoynunda, Naxçıvanda addımbaşı rast gəldiyimiz hansısa tarixi memarlıq abidəsinin qarşısında keçirdik. Biz abidələri şagirdlərə göstərib, onların yaranma tarixindən söhbət açırdıq. Məktəbə qayıdandan sonra isə gördükləri barədə inşa yazı yazmağı tapşırırdıq. Hər kəs bu inşanı bir formada – kimisi hekayə, kimisi şeir, kimisi də elmi oçerk şəklində yazırdı. Heydər isə həm inşanı yazır, həm də həmin abidənin şəklini çəkirdi.





Tələbə yoldaşları və müəllimləri onun çəkdiyi Möminə Xatun türbəsi, Əlincə qalası, İlandağ silsilələri, günəşli kənd mənzərələri kimi rəsmləri bugünədək xatırlayırlar. Hamımız fikirləşirdik ki, o, gələcəkdə rəssam olacaq».

*(Lətif Hüseynzadənin xatirələrindən.)*

«Bir gün biz Muxtarın evinin yaxınlığındakı qoz ağacının altında oturmuşduq. Heydər Əliyev də bizimlə idi. Bu vaxt qara ata minmiş Behbud kişi evə yaxınlaşdı, atdan enərək üstündəki yükü düşürməyə başladı. Heydər iki dəqiqənin içində karandaşla Behbud kişinin şəklini çəkdi. O qədər oxşatmışdı ki, sanki fotoaparatla çəkilmişdi».

*(Urud kəndinin ağsaqqalı Məmməd Quliyevin söhbətindən.)*

«Bizi Heydərlə bağlayan rəsm çəkməyə məhəbbətimiz idi. Rus dili müəllimimiz Həsən bəy Qazıyevin oğlu Şamil Qazıyev rəssam idi. Əliyevin böyük qardaşı Hüseyn də rəssam oldu. Onların albomları, akvarelləri ilə tanış ola-ola rəsm çəkməyi öyrənirdik. Biz Möminə Xatun türbəsinə gedib oradan vağzalı, stansiyanı, Edlağa gölünü, İlandağını seyr edir, ətraf mənzərələri çəkirdik. Nədənsə stansiyaya yaxınlaşan, vaqonlarının damından tüstü qalxan qatarı təsvir etməyi daha çox xoşlayırdıq. Yusif Küseyir abidəsinin, digər abidələrin şəklini çəkirdik. Heydərlə mən təsviri sənət dərnəyində məşğul olurduq, müəllimlərimiz bizə tapşırıqlar verirdilər. Yadımdadır ki, Heydər Puşkinin Danteslə duelini, Natalya Qonçarovanın portretini çəkmişdi. Bu şəkilləri yığıb, pedaqoji texnikumda sərgi təşkil etmişdilər. Heydər həmişə birinci, mən isə ikinci, ya da üçüncü yeri tuturduq. Bizi ya kostyumla, ya da ayaqqabı ilə mükafatlandırırdılar. Bir dəfə mənə təzə kostyum bağışladılar, mən də onu geyinib sevincək evə gəldim. Gördüm, atam mənə nədənsə qaşqabaqla baxır. O, çox qənaətcil adam idi, bir qəpiyi belə boş yerə xərcləməzdi. Səhərisi biz Naxçıvana qayıtdıq. O vaxtlar nəqliyyat yox idi, biz şəhərə qədər 40 kilometrlik yolu pay-piyada getdik. Riyaziyyat müəllimimiz Tofiq Bəktaşi məni

müəllimlər otağına çağırdı. Gördüm, atam orada oturub, gülümsəyir. Deyib ki, mən təəccübləndim, onda təzə kostyum haradandır, axı mən ona bunun üçün pul verməmişəm. Müəllimlər ona başa salıblar ki, oğlun kostyumu rəsm müsabiqəsindəki uğuruna görə mükafat alıb.

Çox vaxt bizə akvarel rəng dəsti bağışlayırdılar.

Heydərlə mən həm də Telman adına klubda teatrın dekorasiyalarını hazırlamağa, afişaların, dəvətnamələrin yazılmasına köməklik edirdik.

Yadımdadır ki, mən Sabirin «Hophopnamə»si haqqında məruzə, şeirlərinə illüstrasiyalar hazırlamışdım. Biz çox çalışırdıq, işimiz başımızdan aşırdı. İstəyirdik hər yerə çataq. Heydərlə mən müəllimlik arzusunda deyildik, rəssam olmaq istəyirdik».

*(Dövlət Məmmədovun xatirələrindən.)*

Çox təəssüf ki, uşaqların rəsmlə məşğul olmasına böyüklər o qədər də əhəmiyyət vermirdilər, xüsusilə də Heydərgilin ailəsində, artıq qeyd etdiyimiz kimi, demək olar ki, hamı yaxşı çəkirdi. Sonralar Heydər Əliyev dəfələrlə öz təəssüfünü bildirmişdi ki, onun gənclik illərində çəkdiyi rəsmlər və çertyojlar itib-batmışdır.

1999-cu ildə Naxçıvan Muxtar Respublikasının 75 illiyi ilə bağlı şənliklərdə iştirak edərkən Heydər Əliyev Möminə Xatun türbəsinə gəldi. Heydər Əliyev Naxçıvan Xalça Muzeyinin direktoru Arif Qədimovun şəxsi təşəbbüsü ilə toplayıb muzeydə yerləşdirdiyi ekspozisiyaya tamaşa etmək istəyirdi. Ekspozisiya onun elə xoşuna gəldi ki, elə oradaca onun müəllifinə Azərbaycanın Əməkdar mədəniyyət işçisi adının verilməsini bəyan etdi.

Muzeyi gəzərkən prezident onu müşayiət edən şəxslərə danışırdı ki, hələ gənc yaşlarından Azərbaycan memarlığının bu möhtəşəm abidəsinə böyük maraq göstərib:





«Yadımdadır, cavan vaxtlarımda, hələ məktəbdə oxuyanda bu ətraflarda tez-tez gəzərdim. Məktəbli ikən mən çoxlu rəsmlər çəkirdim, rəssam olmağı arzulayırdım... Möminə Xatun türbəsini bir neçə variantda çəkmişdim. Çox təəssüflənirəm ki, Bakıya, oradan Leninqrada, sonra isə Moskvaya gedəndə bütün kitablarım və rəsmlərim itib-batdı. Çox təəssüf. Mənim akvarellə çəkilmiş gözəl rəsmlərim vardı»[3].

Heydər Əliyevə böyük məhəbbət bəsləyən insanların – Naxçıvan ziyalılarının nümayəndəsi Arif Qədimov və onun həyat yoldaşı Lətifə İsmayılovanın səyi nəticəsində Heydər Əliyevin gənclik çağlarında çəkdiyi şəkillərdən birini tapmaq mümkün oldu. Yeniyetmə qızın karandaşla çəkilmiş portreti yarım əsrdən də artıq bir müddətdə Ordubaddan olan rus dili müəlliməsinin ailəsində qayğı ilə mühafizə olunub, nəhayət, tarixi sərvətə çevrilib. Arif və Lətifə həmin müəlliməni axtarıb tapdılar. Məlum oldu ki, portretdə təsvir olunan qız elə müəllimənin özüdür. Ondan xahiş etdilər ki, ölkənin gələcək prezidentinin onun şəklini necə və hansı şəraitdə çəkdiyi barədə danışsın.

Öz qəhrəmanımın uşaqlıq və gənclik illəri barədə material toplayarkən mən Arif Qədimovun qonağı oldum, o da Zərifə xanım Seyidova ilə söhbətinin videoyazısını mənə təqdim etdi.

Zərifə xanımın atası Mirzə Əbdülvahab Həsənzadə Naxçıvanın məşhur pedaqoqu, Naxçıvan Muxtar Respublikasının ilk xalq maarif komissarı, keçən əsrin 30-cu illərinin sonu, 40-cı illərinin əvvəllərində Azərbaycan Elmlər Akademiyası kitabxanasının direktoru vəzifələrində işləyib. Heydər Əliyevin qardaşı Həsən Əliyev kommunal mənzildə onunla qonşu olub. Onlar İçərişəhərdə, Əli Bayramov küçəsi, 25 nömrəli evdə yaşayır, axşamlar isə bir-birinə qonaq gedərmişlər. Kitabın qəhrəmanı da bura tez-tez baş çəkərmiş.

Zərifə xanım o günləri belə xatırlayır: «Atamı yazıçılardan Məmməd Səid Ordubadi, İslam Səfərli, Səməd Vurğun yaxşı tanıyırdılar. Mənzilimizdə bə-

[3] Heydər Əliyev mədəni irsimizin keşiyində, k.2. S. 422.

dii qiraət gecələri keçirərdilər. Bəzən Bakıya, qardaşıgilə qonaq gələn Heydər Əliyev də bu tədbirlərdə iştirak edərdi.

Heydər Həsən müəllimgilə qonaq gələndə qardaşlarım onunla nərd oynayırdılar. Onu da deyim ki, Heydər uduzmağı xoşlamırdı. Nə olursa, olsun, udmalı idi. Yadımdadır, hətta atam qardaşım Rahibə deyirdi: «Yaxşısı budur, sən ona güzəştə get, görmürsən o uduzanda nə günə düşür?» O hər şeydə, hətta oyunda da birinci olmalı idi.

Bir gün onlar yenə də oynayırdılar. Oyunu bitirəndən sonra Heydər mənə dedi: «Zərifə, belə otur, şəklini çəkim». Çəkdi. Portret mənim çox xoşuma gəldi. Mən onu aparıb çarpayımın üstündən asdım. Sonra biz Ordubada köçdük, portreti rayona gətirdim. Sonralar onu özümlə albomda gəzdirirdim. Biz Bakıdan Ordubada köçəndə mənə məxsus əşyalarımdan yalnız bu portreti götürdüm. Onu çantamda gizlətdim. O mənim üçün həyatda hər şeydən qiymətli idi. Sonralar hara köçürdümsə, bu şəkli özümlə götürürdüm. Onu cehiz kimi ərimin Ordubaddakı evinə də gətirdim.

Mənim alnımda nəzəri cəlb edən bir xal var. Heydər həmişə mənə zarafatla deyərdi: «Sənin nişanə xalın var. Sən əgər itsən də, bu xalla mən səni mütləq taparam». O, çəkdiyi portretdə də xalı əks elətdirmişdi».

Arif Qədimovdan, ordubadlı müəllimdən tapılmış şəkil barədə əhvalatı eşidən kimi jurnalist Svetlana Mirzəyeva təyyarə ilə Naxçıvana uçdu, şəklin surətini çıxarıb elm və mədəniyyət xadimlərinə dövlət mükafatlarının təqdimatı mərasimində müəllifin özünə bağışladı.

Bu əhvalatı Svetlana Mirzəyeva belə xatırlayır:

«Prezident mənə içərisində günəş şüaları kimi şəfəq saçan «Şöhrət» ordeni olan kiçik qutunu təqdim etdi. Mən isə rəsmi Prezidentə uzatdım. O, vərəqdəki təsvirə baxıb, öz işini, əlilə yazdığı «Zərifənin şəkli» sözlərini tanıyıb prezident iqamətgahında toplaşmış çoxsaylı auditoriyaya müraciətlə, həyəcanlı səslə: «Baxın, mənim gənc yaşlarımda çəkdiyim rəsmdir», – dedi.





Mükafatlanma mərasimi başa çatandan sonra S.Mirzəyeva rəsmin ikinci surətini incəsənət xadimlərinə göstərdi. Prezidentin köhnə dostu, Azərbaycanın xalq rəssamı Kamil Əliyev heyrətini gizlətmədi: «Professional məktəb keçməmiş bir gənc yeniyetmə qızın surətini dəqiqliklə, işıq və kölgə qanunlarını gözləməklə təsvir edə bilib. Qızın parıltılı gözləri, heyrətedici tərzdə canlı baxışı, üzünün fərəhli, eyni zamanda da utancaq ifadəsi – bütün bunlar müəllifin həssas müşahidə qabiliyyətindən, iti rəssam gözünə malik olmasından, istedadından – bir sözlə, bizim işdə ən vacib keyfiyyətlərdən xəbər verir. Düzünü deyim ki, bu rəsm – mənim üçün tapıntı, kəşf idi. Ancaq mən Heydər Əliyevlə, demək olar ki, yarım əsrə yaxın bir müddətdə tanış olan, xalça üzərində onun bir neçə portretini yaradan bir adam kimi həmişə hiss edirdim ki, o, yaradıcılığa çox yaxın adamdır, rəssamlıq onu dərindən həyəcanlandırır. Heydər Əliyevin iş prosesində mənə verdiyi məsləhətlər, onun sualları, koloritlə, kompozisiya ilə bağlı iradları rəssamlıq nöqteyi-nəzərindən çox dəqiq idi. Bu, həvəskar qeydləri deyildi, rəssam və tədqiqatçı işindən yaxşı baş çıxaran bir insanın fikirləri idi»[4].

* * *

Heydər Əliyevin daha bir marağı onu bütün həyatı boyu izləyib. Onun gənclik illərində Azərbaycan teatrı çiçəklənmə dövrünü yaşayırdı. Teatr yerli ziyalı nümayəndələrinin çoxunun həyatının ayrılmaz hissəsinə, həyat tərzinə çevrilmişdi. Müəllimlər və tələbələr, texniklər və idarə işçiləri axşamlar səhnə quruluşçusuna, rəssamlara, kostyum ustalarına, aktyora çevrilir, təkcə professional səhnədə yox, bütün məktəblərdə, texnikumlarda, mədəniyyət evlərində və saraylarında göstərilən teatr tamaşalarının səhnəyə qoyulmasında bu və ya digər dərəcədə iştirak edirdilər.

[4] Мирзоева С. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. С. 21.

Ümumiyyətlə, Naxçıvan teatrının yaranma tarixi 1883-cü il hesab olunur. Məhz bu ildə başda Eynəlibəy Sultanov olmaqla Naxçıvan ziyalılarının nümayəndələri «Müsəlman incəsənət və dram cəmiyyəti»ni yaratdılar və müvafiq razılıq əldə edəndən sonra Naxçıvanda Mirzə Fətəli Axundovun «Hekayəti-Müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah-cadukünü-məşhur» pyesini səhnəyə qoydular. Tamaşanın uğurundan ilhamlanan Eynəlibəy Sultanov 1884-cü ildə ikipərdəli «Tatarka» komediyasını yazır. Bu pyes Naxçıvanın tamaşa meydançalarında uzun illər uğurla oynanılıb.

1890-cı ildən Cəlil Məmmədquluzadə Naxçıvanın teatr sənətinin inkişafında fəal iştirak edir. Burada, məktəb səhnəsində onun ilk dram əsəri olan «Çay dəstgahı» pyesi işıq üzü görüb[5].

Keçən əsrin 20-ci illərinin ortalarında Naxçıvan «Fəhlə-kəndli teatrı»nın tərkibində parlaq yaradıcı şəxsiyyətlər olan kifayət qədər qüvvətli kollektivi vardı. Naxçıvan ağsaqqalları Səməd Mövləvi, İsa Musayev, Rza İsfəndiyarlı, Mirhəsən Mirişli, Rza Təhmasib, Məşədi Bağırov, Bayram Mərdanlı, Sadıx Həsənzadə, Ruxsara Ağayeva və digər qüdrətli aktyorların oyununu indiyədək böyük heyranlıqla xatırlayırlar. Naxçıvan truppası elə mühüm təzahür idi ki, çox vaxt Bakıdan gələn aktyorlar – Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Sidqi Ruhulla, Mərziyə Davudova da onlarla birgə çıxış edirdilər.

Heydər Əliyevin qardaşı danışırdı ki, Naxçıvan teatrının tamaşalarına bilet tapmaq mümkün deyildi. Heydər teatr aləmindəki əlaqələri hesabına bilet və ya kontramarka əldə edir və kiçik qardaşlarını, demək olar ki, hər axşam teatra aparırdı. 30-cu illərdə Naxçıvanda klassik əsərlər səhnələşdirilirdi – Şekspirin «Otello» və «Hamlet», Şillerin «Qaçaqlar», Qoqolun «Müfəttiş» və s. əsərlər. Azərbaycan dramaturgiyasına gəlincə, Cəlil Məmmədquluzadənin əsərləri ilə yanaşı, gənclərin beyinlərinə və əhvali-ruhiyyələrinə istedadlı sovet dramaturqu Cəfər Cabbarlının pyeslərinin qəhrəmanları da güclü təsir göstərirdi. Onun Sevil və Almaz, Aydın və Oqtay surətləri yeni dünyanın adamları, yeni həyatın yaradıcıları idi. Gənclər onlara oxşamağa çalışır, cəmiyyətin yeniləşməsi və dəyişməsi prosesində onlar kimi inamla, fədakarlıqla iştirak etmək istəyirdilər. Gənc Heydər üçün Sevil obrazı – özünün şəxsiyyət azadlığı hüququnu axıradək müdafiə edən, ailədəki ətalətə, geriliyə qarşı qiyam qaldıran, açıqcasına qəti etiraz bildirərək yüksələn qadın surəti olduqca cazibədar idi. Heç də təsadüfi deyil ki, C.Cabbarlının pyesindəki sevimli qəhrəmanı ilə tanışlıqdan 20 il keçəndən sonra cavan, xoşbəxt ata öz ilkinin adını Sevil qoymuşdu.

[5] Hüseynzadə L. Naxçıvan teatr tarixindən. Bakı, 2003. S.12-22.





...Dərsdən kənar vaxtlarda Zəviyə məhəlləsinin uşaqları şəhərdə Humay xanımın evi kimi məşhur olan ikimərtəbəli imarətin zirzəmisinə yığışardılar. Bu evdə Naxçıvanın ədliyyə naziri Əbdülmanaf Hacıyev yaşayırdı. Onun övladları Əlirza kişinin uşaqları ilə dostluq edirdilər. Heydərlə nazirin oğlu Qasımın sayəsində zirzəmi teatr klubuna çevrilmişdi. Aqil Əliyev xatırlayır ki, onlar həmin zirzəmidə səhnə düzəltmiş, ona pərdələr asmışdılar. Yeniyetmələr tamaşalardan səhnələr oynayır, şeirlər söyləyirdilər. Onların «əldəqayırma» nəfəs alətləri orkestri də vardı.

Tətillərdə dağlıq Urud kəndində istirahət zamanı Heydərlə Qasım kənd uşaqlarını ətraflarına toplayıb tamaşa göstərirdilər. Qasımın bacısı Roza Hacıyeva sonradan belə söyləyirdi: «Biz dördillik Urud məktəbində səhnə düzəldib orada teatr göstərirdik. Bu tamaşalarda mən də iştirak edirdim. Bir neçə dəfə Heydərlə tərəf-müqabil də olmuşam. Heydər özü tez-tez bu və ya digər tamaşanın quruluşçu rejissoru olurdu. Çox ciddi repertuarımız vardı: Şillerin «Qaçaqlar»ını, M.F.Axundovun «Lənkəran xanının vəziri»ni, S.Vurğunun «Vaqif»ini, M.İbrahimovun «Həyat»ını tamaşaya qoyurduq. Yadımdadır ki, Heydər Qacarı oynayırdı. Özü də yüksək hiss-həyəcanla, böyük emosionallıqla»[6].

[6] Urud M. Urud. Bakı, 2000. S. 129.

Telman adına klubun direktoru uşaqlara və incəsənətə vurğun olan yerli ziyalı İdris Səlimov idi. O, klubda professional aktyorların və rejissorların rəhbərlik etdiyi çox gözəl dram dərnəyi təşkil etmişdi. Bir gün dərnəyin rəhbəri İbrahim Həmzəyevin diqqətini zərif üz cizgiləri olan boy-buxunlu yeniyetmə cəlb etdi. O, klubun daimi tamaşaçısı olan bu cavan oğlandan hər hansı bədii əsərdən bir parça ifa etməyi xahiş etdi. Oğlanın gur səsi və aydın tələffüzü rejissoru elə heyran etdi ki, o, məşq etdikləri tamaşada əsas rolu ona tapşırdı. Beləliklə, Heydər Əliyev Həmzəyevin həvəskar truppasında əsas aktyorlardan biri, İbrahim Həmzəyev isə gənc Heydərin sevimlisi və qürur mənbəyi oldu.

«İbrahim Həmzəyev əslən gəncəli idi. Təyinatını Naxçıvana alıb, yerli teatrda işləyirdi. Ancaq Pionerlər evində uşaqlarla da məşğul olur, tamaşalar hazırlayırdı. Heydər Əliyev özü də ora gedirdi, texnikumdakı digər uşaqlar da. İbrahim çox tələbkar müəllim olsa da, bəzən təəccüblənib deyirdi: «Bu oğlan elə oynayır ki, sanki təcrübəli, professional aktyordur». Heydər professional aktyorların da səhvlərini tuturdu. Görürdün ki, teatra gəlib məşqə və ya tamaşaya baxandan sonra İbrahim Həmzəyevə deyir: «Aktyor burada səhv etdi. Bu sözləri elə yox, belə ifadə etmək lazım idi». İbrahim müəllim onun qabiliyyətinə heyrət edirdi».

*(Lətif Hüseynzadənin xatirələrindən.)*

Aradan uzun illər keçəndən sonra, jurnalist Svetlana Mirzəyeva ilə söhbəti zamanı Heydər Əliyev həyatında xüsusi rol oynamış bu qeyri-adi şəxsiyyət haqqında təəssüratlarını bölüşmüşdü:

«1937-ci ildə hamının bir-birini tanıdığı Naxçıvanda təzə bir adam peyda oldu. Dərhal da diqqəti cəlb etdi: böyüklər də, kiçiklər də gözəl biçimli kostyum, qar kimi ağ köynək geymiş, səliqə ilə bağlanmış qalstuk taxmış, üstündə bir dənə toz zərrəsi olmayan qara lak çəkməli gözəl qamətli kişini diqqətlə süzürdülər. O, naxçıvanlıların əsas istirahət yerinə – şəhər bağında yerləşən teatra gedirdi. Naməlum adam yüngül yerişlə irəliləyirdi. Ona baxmağın özü





elə bir tamaşa idi: yoldan keçənlər ayaq saxlayıb, bu adamın arxasınca baxırdılar. Artıq biz hamımız – Naxçıvan əhli onun artist olduğunu, bizim teatrda işləməyə gəldiyini bilirdik.

Təbii ki, İbrahim Həmzəyev mənimlə söhbət edəndə çox şad oldum. Mənə rəhbərlik etdiyi dərnəkdə məşğul olmağı təklif edəndə isə çox fikirləşmədən razılığımı verdim»[7].

Dram dərnəyində məşğələlər çox maraqlı keçirdi. İbrahim müəllim gələcək tamaşanın bu və ya digər səhnəsini yeniyetmələrlə sadəcə məşq etmirdi, onlara teatr haqqında, görkəmli aktyorlar barədə danışır, Stanislavski sistemi ilə bağlı mühazirələr oxuyur, onlara təkcə texnikanı qavramaqda yox, aktyorluq sənətinin mənəvi, əxlaqi-psixoloji əsaslarını mənimsəməkdə köməklik göstərirdi.

«Bir sözlə, bu, səhnə davranışı və danışığı elminin sürətlə qavranıldığı teatr sənəti məktəbi, bəlkə də, universiteti idi. Məhz «Həmzəyev universiteti»ndə ixtisas təhsili olmayan, ancaq bu cür mahir ustadın rəhbərliyi altında milli səhnənin görkəmli ustaları, Xalq artisti kimi şərəfli adlara yüksələn Zəroş Həmzəyeva, eləcə də Sofya Hüseynova, Roza Cəfərxanova professional səhnə xadimləri kimi yetişdilər. İbrahim Həmzəyevin uğurlu aktyor gələcəyinə inanaraq, açıq-aydın başqalarından fərqləndirdiyi Heydər Əliyev də, yəqin ki, Xalq artisti ola bilərdi. Tale onun həyatını tamam başqa axara yönəltsə də, istər-istəməz səhnə ab-havası, pərdəarxası həyat, ilk tamaşaların sevinci, aktyorların gündəlik ağır zəhməti – bütün bunlar Heydər Əliyevin hərtərəfli şəxsiyyət kimi yetişməsində öz rolunu oynamışdır.

İbrahim Həmzəyevin oğlu, Naxçıvan Muxtar Respublikasının keçmiş mədəniyyət naziri Nizami Həmzəyev atasının öz tələbələrinə tövsiyələrini belə xatırlayır:

«İnsan, xüsusilə də artist evdən küçəyə çıxanda səhnəyə çıxdığı kimi səliqəli olmalıdır. O, yalnız üzü tərtəmiz təraş edilmiş, şux geyinmiş, ayaqqabıları

[7] Мирзоева С. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. С. 77-78.

parıldayan vəziyyətdə, tanış olan və olmayan adamlara xoş təbəssüm bəxş edərək insanların qarşısına çıxa bilər. Onun evdə hər hansı səbəbdən pozulmuş əhvalını nümayiş etdirməyə haqqı yoxdur. O, işdə hamı ilə sakit, rəvan ahənglə danışmalıdır. Daxili və xarici mədəniyyəti, gözəl, sirayətedici ədaları olmayandan nə artist, nə də kollektivə rəhbər çıxmaz».

Zəroş xanımın oğlunu dinləyə-dinləyə düşünürdüm ki, İbrahim Həmzəyevin tələbəsi olan Heydər hələ lap kiçik yaşlarından müəlliminin dərslərindən, o cümlədən geyim mədəniyyəti barədə tövsiyələrindən bütün ömrü boyu ibrət götürmüşdür»[8].

*Teatr Əliyevin bir siyasətçi kimi formalaşmasında çox böyük rol oynamışdır. Onun bir çox cəhətdən improvizasiyaya əsaslanan parlaq çıxışlarını, gözəl nitq qabiliyyətini, özünü aparmağı bacarmasını, «Hollivud» təbəssümünü, qüsursuz, «Həmzəyevsayağı» xarici görünüşünü sonralar hamı – hərə bir cür qeyd edəcək: dostları və xeyirxahları qürur və iftixarla, xarici mətbuat – təəccüblə, heyrətlə, islaholunmaz əyalət davranışlı baş katib Qorbaçov başda olmaqla Sovet Siyasi Bürosunun kobud, qaraqabaq üzvləri – qısqanclıqla, paxıllıqla.*

*Respublikanın partiya rəhbəri olandan sonra Əliyev incəsənət adamlarına, xüsusilə də teatr xadimlərinə himayədarlıq etməyə, onların maddi, mənzil-məişət problemlərinin həllində kömək etməyə başladı. Keçən əsrin 90-cı illərində, yenidən respublikaya rəhbərlik etməyə başlayanda onlarla görkəmli teatr və kino xadiminə Prezident təqaüdü və fəxri adları verməklə o, bir çox səhnə korifeyini yoxsulluğun məngindən xilas etdi. Ömrünün sonunadək o, Azərbaycan teatrlarının bütün premyeralarına, eləcə də Bakıya*

[8] Мирзоева С. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. С. 79-82.





*gələn xarici kollektivlərin tamaşalarına baxırdı. Bir sözlə, teatra olan gənclik məhəbbətinə o heç vaxt xəyanət etmədi.*

Yeniyetmə Heydər Əliyevin çoxlu gözəl saatlar və günlər keçirdiyi Telman adına kluba gəlincə, respublikanın rəhbəri olandan sonra öz borcunu yerinə yetirərək, təzə, o dövr üçün çox möhtəşəm bir Pioner və Məktəblilər Sarayı tikdirdi...

“Şəxsən mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur”.

Heydər Əliyev

## II FƏSİL

# DTK SƏDRİ VƏ YARADICI ZİYALILAR

Heydər Əliyevin özünün etiraf etdiyinə görə, o, ədəbiyyatı, kitabı oxuyub-yazmağı öyrəndiyi gündən sevmişdir.

«Deyə bilərəm ki, şəxsən mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum, onları bu gün də unutmamışam. Bəlkə də, bu əsərlərin bəzilərini ondan sonra oxumamışam, ancaq o illərdə – o uşaqlıq, gənclik illərində onlar mənə o qədər təsir edib ki, mən onları unutmamışım. Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam, ədəbiyyatla, mədəniyyətlə daim bağlı olmuşam»[9].

Kitabın ilk fəslində biz gənc Heydər Əliyevin necə gözəl bədii qiraət ustası olduğundan danışmışıq. Ən çox sevdiyi şairlərdən biri Səməd Vurğun idi, onun vətənpərvərlik lirikasından tez-tez sitatlar gətirərdi. İş yoldaşlarının dediyinə

---

[9] Azərbaycan yazıçılarının X qurultayı. 28-30 oktyabr 1997-ci il. S. 260.

görə o, DTK arxivində pərəstiş etdiyi şairə açılmış işlə bağlı qovluğu tapanda şok vəziyyətinə düşmüşdü. DTK veteranı Əkrəm Səlimzadə bununla bağlı maraqlı hadisəni yada salır:

«Bir dəfə Bantserev mənim otağıma gəlib iki cilddən ibarət iş göstərdi.

– Bilirsən bu nədir?

– Yox.

– Səməd Vurğuna açılmış «əməliyyat» işidir. Heydər Əliyeviçin göstərişi ilə mən işə xitam verilməsi haqqında qərar çıxarmışam. Bu materiallar yandırılacaq.

Səməd Vurğun barədə nə qədər «donos» yazmışdılar! Onun bütün əhatəsi bizim agenturamız idi. Şairi əsasən millətçilikdə ittiham edirdilər».

Yeri gəlmişkən, xarakter və temperamentləri nə qədər fərqli də olsa, incəsənətə, ədəbiyyata olan məhəbbətləri Yuri Andropov və Heydər Əliyevi doğmalaşdırırdı. Hər ikisi mütaliəni, musiqini çox sevirdi. Y.Andropov şeir yazırdı, yaxınlarının dediyinə görə, yaxşı da yazırdı, caz musiqisi ilə maraqlanırdı. H.Əliyev gənc yaşlarında rəsm çəkirdi və hətta memar olmağa hazırlaşırdı. Hər ikisinin yaxşı bariton səsi var idi və yaxın dostlarının əhatəsində həvəslə oxuyurdular. H.Əliyevin bioqrafiyasının tədqiqatı ilə məşğul olan Nikolay Zenkoviç haqlı olaraq yazır: «Heç vaxt – nə əvvəl, nə onlardan sonra – Moskvada Lubyankanın və Bakıda «dəniz qırağındakı evin» sahibləri sovet vaxtı bu qədər yüksək erudisiyalı və hərtərəfli hazırlıqlı rəhbərlər olmayıbdır. Andropovun vaxtında SSRİ DTK-sı və Əliyevin vaxtında Azərbaycan SSR DTK-sı nəzərəçarpan dərəcədə mədəniləşdi, bunu hətta bir çox dissidentlər də qeyd edirdi»[10].

Tamamilə mümkündür ki, əvvəl-axır hər ikisini dövlət hakimiyyətinin ən yüksək zirvəsinə gətirib çıxarmış xidməti karyeranın uğurlu inkişafına baxmayaraq, H.Əliyev, eyni dərəcədə Y.Andropov, hərdənbir gənclik dövrünün reallaşmayan ambisiyalarının xiffətini çəkirdilər. Mənə elə gəlir ki, Heydər Əliyev əks-kəşfiyyatçı peşəsini də bəzi məqamlarda yaradıcılıqla oxşar olması səbəbindən seçmişdir. Hər halda bu ya digər xarici agentin cəlbolunma prosesində (belə işlərdə, şahidlərin dediyinə görə, onun tayı-bərabəri yox idi) çekist gözəl aktyorluq qabiliyyəti, xarici görkəmdən məharətlə istifadə etmək bacarığı nümayiş etdirməlidir. Bu elə həmin o aktyorluq deməkdir, çünki burada da əsas şərt odur ki, sənə inansınlar.

[10] Зенькович Н. Гейдар Алиев. Зигзаги судьбы. М., 2007. С. 324.





Lubyankanın qüdrətli şefinin həmkarlarının söylədiklərinə görə Yuri Vladimiroviç qaradinməz adam idi, qapalı həyat sürürdü, işdən kənar, demək olar, heç vaxt Siyasi Büro üzvləri və DTK-dakı iş yoldaşları ilə görüşməzdi. Buna baxmayaraq, yaradıcı ziyalılarla təmaslardan çəkinmirdi: Andropovun bioqrafları Yevtuşenko, Voznesenski ilə olan söhbətlərdən, yazıçı Yulian Semyonovla dostluqdan («Baharın on yeddi anı» filminin süjetini yazıçıya məhz o «bağışlamışdı»), müğənni Müslüm Maqomayevə himayədarlıqdan və s. yazırlar.

Heydər Əliyev isə artıq Azərbaycan DTK-sının rəhbəri olan müddətdə yazıçı, bəstəkar, rəssamlar arasından xeyli dost qazanmışdı. Onlardan bəziləri ilə münasibətlər uzun illik dostluğa çevrilmişdi. Bu insanlarla təmasda olmaq ona könül xoşluğu gətirirdi, eyni zamanda elm və sənət aləmində hökm sürən ab-hava haqqında məlumatları «birinci əldən» almaq və bunu nəzərə alaraq öz idarəsinin siyasətini tənzimləmək imkanı verirdi.

Böyük Rəşid Behbudov da Heydər Əliyevlə ilk tanış olanlar sırasında idi. Müğənni Heydər Əliyevin həyat yoldaşı Zərifə xanımın ailəsini yaxşı tanıyırdı, çünki onun atası Əziz Əliyev Dağıstanın rəhbəri olan dövrdə bu respublikada konsertlərdə çox olmuşdu.

Jurnalist Svetlana Mirzəyeva H.Əliyevin müğənnidə oyatdığı ilkin təəssüratı belə xatırlayır:

«Zərifə Heydər Əliyevlə tanış olandan sonra (Zərifəgilin ailəsi artıq Bakıda yaşayırdı) hündür boyu, atletik bədən quruluşu, qədd-qamətinə görə Rəşid ürəyində onu «Qladiator», «Spartak» çağırırdı. Sən demə «Spartak» incəsənəti dərindən duyan insan imiş...

Onun musiqi duyumu Rəşid Behbudovu valeh edirdi.

– Bilirsən, o necə oxuyur? Əsl professional məktəb görmüş müğənnidir,- Rəşid Behbudov mənə danışırdı. – Özü isə, – bu yerdə o səsini alçaldırdı, – orqanlarda işləyir. Dünən axşam onlarda idim. Bir yerdə konsertdən çıxmışdıq, Dzerjinski adına klubdan, onlar da məni evlərinə dəvət etdilər. Bilirsən, Heydər bütün repertuarımı oxudu, Zərifə də onu pianoda müşayiət edirdi – xalis filarmoniyadır»[11].

Elə həmin gün küsən dostları barışdırmaq sahəsində fitri istedada malik olan H.Əliyev böyük müğənnini və böyük bəstəkar Rauf Hacıyevi barışdırdı.

O Rəşiddən soruşur ki, niyə daha «Azərbaycan» mahnısını oxumur.

«Başa düşürdüm ki, düzünü deməyə məcbur olacağam, – Rəşid Behbudov xatırlayır, – ona görə boynuma aldım ki, mahnının müəllifi ilə aramız dəyib, küsülüyük.

– Bu dəqiqə barışmalısan! Sizin ambisiyalarınıza görə camaat o cür gözəl, vətənpərvər əsərə qulaq asa bilmir. Vaxtı itirmə, elə bu saniyə Rauf Hacıyevə zəng vur!

Gecədən xeyli keçməsinə baxmayaraq, «dostluq əlaqələrini» bərpa etməli oldum:

– Rauf, gəl görüşək, «Azərbaycan»ı yada salaq...

Bəstəkar sanki elə bunu gözləyirmiş:

– Böyük məmnuniyyətlə, Rəşid!

– Üstəlik, mən də bunu səbirsizliklə gözləyirəm, – Heydər Əliyev dəstəyi götürən kimi Rauf Hacıyev onu tanıdı.

[11] Мирзоева С. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. С. 177.





Bir neçə həftədən sonra Vətənin şərəfinə yazılmış bu möhtəşəm himn Rəşid Behbudovun ifasında konsert salonlarında, sonra isə radioda böyük uğurla səslənirdi»[12].

Heydər Əliyevin tanınmış rəssam Tahir Salahovla tanışlığı 1962-ci ilə təsadüf edir. Onlar «Kuba sovet rəssamlarının gözü ilə» sərgisinin açılışına həsr olunmuş ziyafətdə tanış olmuşdular. Gənc DTK zabiti ilk baxışdan Tahir Salahovun rəğbətini qazanmışdı: «Mənim gözüm onu o saat tutdu, qanışirin adam idi, rus dilində təmiz danışırdı, əla tostlar deyirdi».

Çox keçmədən rəssam təzə tanışında bundan daha dəyərli keyfiyyətlər aşkar etdi: sadiqlik, etibarlılıq, köməyə tələsmək bacarığı. «Heydər Əliyeviç olmasaydı, qalan ömrümü bir ayağım üstə keçirəcəkdim». Məsələ belə olmuşdu:

«1964-cü ildə, dekabrın 18-dən 19-na keçən gecə mən dostumu qarşılamaq üçün maşınla aeroporta gedəndə qəzaya düşdüm. Yol buz bağlamışdı, qarşıdan gələn yük maşını ilə toqquşmamaq üçün maşını sağa qaçırtdım, o səkinin üstünə çıxıb ağaca çırpıldı. Sükan sifətimin yanından keçib damı deşdi. Ayaqlarım isə tormozun əyləcinin üstündə sındı.

Gecə saat ikidə mənim üzərimdə Sabunçu xəstəxanasında cərrahiyyə əməliyyatı apardılar, ayağımı kəsmək istəyirdilər. Mənə yerli narkoz etdiklərindən, bir neçə saniyəlik özümə gəldim. Hiss elədim ki, ayağımı kəsməyə hazırlaşırlar.

Həkimi çağırdım. Onlar təəccübləndilər, çünki artıq pərdə asılmışdı, amputasiyaya hazırlaşırdılar. Həkim yaxınlaşanda, soruşdum:

– Doktor, nə etmək istəyirsiniz?

– İndi mən yalnız həyatınızı xilas etmək barədə düşünürəm.

Mən Heydər Əliyevin telefon nömrəsini ona söyləyib dedim:

– Siz zəng edin. Mən huşumu itirirəm, siz zəng edin və öyrənin görək daha nə etmək olar.

[12] Мирзоева С. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. С. 155-156.

Həkim zəng etməyə getdi. Məlum oldu ki, o, Heydər Əliyevlə tanışdır və bu nömrəni bilir.

Heydər Əliyeviç həmən saat xəstəxanaya gəldi. Mənimlə bərabər respublikanın baş cərrahı, Qara Qarayevin qardaşı Mürsəl Qarayev və rəssam Kamil Əliyev də həmin maşında idilər. Onlar da xəsarət almışdılar, amma bir qədər yüngül.

Heydər Əliyeviç olmasaydı birayaqlı qalacaqdım. Faktiki olaraq o mənim həyatımı xilas etmişdi. Səhərə yaxın çoxlu qan itirdiyimdən halım kritik həddə çatdı. O bütün gecəni xəstəxanada qaldı, konsilium keçirilməsinə nail oldu. Sonra məni müalicə edən həkim Heydər Əliyevin ona «Elə et ki, Tahir sağ qalsın» söylədiyini danışdı. Sən demə, həkim naxçıvanlı imiş və Heydər Əliyevi yaxşı tanıyırmış.

Mən bu hadisədən sonra altı ay özümə gələ bilmədim. Ayağım isə indiyədək ağrıyır.

Heydər Əliyeviç sonradan bu hadisəni zarafatla yada salırdı:

– Girirəm içəri, görürəm ki, bunların hamısı uzanıblar...

Bu, doğrudan da, həm ağlamalı idi, həm də gülməli. Üçümüz də bir palatada yatırdıq, o da bizə dəyməyə gəlirdi».

Tahir Salahov mənə məşhur Azərbaycan impressionist rəssamı Səttar Bəhlulzadənin başına gələn, gülməli olduğu qədər də kədərli hadisədən söhbət açdı:

«Heydər Əliyeviçin yaradıcı ziyalılarla tanışlıq dairəsi geniş idi, o hamı ilə yaxşı münasibətdə idi. Ona ən incə məsələlər barədə müraciət etmək olardı, kömək əlini əsirgəməzdi.

Məsələn, Səttarın başına gələn iş. Bir dəfə o, restoranda olanda üstündə qədim Azərbaycan ornamenti olan çaydan xoşuna gəlir. O pulunu ödəyib çaydanı almaq istəyəndə başlayırlar sual verməyə ki, bəs, bu qədər pul onda haradandır, çünki xarici görkəmi o qədər də gözoxşayan deyilmiş. Səttar axı üst-başına o qədər fikir verməzdi. Onlar da anlamayıblar qabaqlarındakı kimdir,





milis çağırıblar. Mənə onunla bir yerdə olan adam zəng vurub dedi ki, Səttarı ayıltma məntəqəsinə apardılar, halbuki, sərxoş deyildi.

Mən Heydər Əliyeviçə müraciət etdim, o, doğrudan da, kömək etdi: hara lazımdırsa zəng vurdu, Səttarı buraxmağı və bu işdə günahkar olanları cəzalandırmağı əmr etdi. Elə o vaxtı da rəssamın özü ilə tanış oldu. Səttar ondan çox razı idi. Səttarın sözləri yadımdadır: «Niyə Azərbaycanın Xalq rəssamının başına belə oyun açırlar? Nə pis iş görmüşəm axı?»

Heydər Əliyeviç Səttar Bəhlulzadənin 90 illik yubileyində çıxış edəndə mən bu hadisəni onun yadına saldım.

O dedi:

– Bilirsən, bu hadisəni mən tamam unutmuşdum».

Heydər Əliyev incəsənət adamları ilə dostluğu ilə fəxr edirdi, onlara yaxın olmağa çalışırdı, rəsmi işində çatışmayan hiss və emosiyaları belə təmaslar sayəsində zənginləşdirməyə çalışırdı. H.Əliyev heç vəchlə istəmirdi ki, incəsənət adamları onu yalnız çəkinməli olduqları «DTK generalı» qismində qəbul etsinlər.

Maraqlıdır: o casusların ifşa olunmasında, tutulmasında, agentlərin istintaqında və cəlb olunmasında şəxsən iştirak etməyi çox sevirdi, yəni sıravi əks-kəşfiyyat əməkdaşının görməli olduğu işi böyük həvəslə yerinə yetirirdi. Bu DTK rəhbərinə aid olan iş deyildi (ən yaxşı halda o aparılmış xüsusi tədbir barəsində yuxarı instansiyalar qarşısında yazılı, ya şifahi hesabat verməli idi). Ancaq ölkənin ən görkəmli mədəniyyət nümayəndələri ilə profilaktik söhbətləri o, bir qayda olaraq, həmkarlarına tapşırırdı, çünki onların qarşısına yüksək rütbəli də olsa, orqan əməkdaşı qismində çıxmaq istəmirdi.

Mənə elə gəlir ki, ziyalılarla onların hərəkətlərini saf-çürük etmək onun üçün cansıxıcı, bəzən hətta xəcalətli idi, o bizim sənət adamlarının daxili aləmini çox gözəl anlayırdı, duyurdu. İşçiləri ona X və ya Z üçün açılmış növbəti işi gətirəndə, o səhifələri güclə vərəqləyirdi, çünki hamıdan yaxşı bilirdi: onların

heç biri dissident deyil, təfriqəçi deyil. Bundan əlavə, onların işlətdiyi bir çox «millətçi» ifadələr onun öz fikirləri ilə üst-üstə düşürdü. Lakin o bunu heç kimə etiraf edə bilmirdi – zəmanə başqa idi. Vəzifə də münasib deyildi.

Ona görə də köks ötürüb növbəti «başqa cür» düşünənin qovluğunu kənara çəkib müavinlərindən və ya 5-ci şöbənin rəisindən xahiş edirdi ki, yoldaşla söhbət aparsınlar, təsir göstərsinlər. Özü də yumşaq tərzdə, hürkütməmək, incik salmamaq şərtilə. Ziya Yusifzadə xatırlayır ki, o həmişə təkrar edərdi: «Ziyalılar millətin sərvətidir, onlara qarşı xüsusi münasibət olmalıdır».

* * *

5-ci şöbənin keçmiş əməkdaşları ilə ünsiyyətdə olarkən, mən Azərbaycanda 1967-1969-cu illərdə Cinayət Məcəlləsinin 188.1-ci maddəsi ilə («bilə-bilə Sovet dövlət və ictimai quruluşunu ləkələyən uydurmalar yayma») neçə cinayət işi açıldığını aydınlaşdırmağa çalışdım. Məlum oldu ki, bu maddə ilə cinayət işi qaldırılmayıb. 1969-cu ildən sonra da bu maddə praktik olaraq tətbiq olunmurdu*.

Eyni zamanda onu da qeyd etmək lazımdır ki, ədəbiyyat və ictimai elmlərə qarşı nəzarət daha sərt idi. «Xoşbəxtlikdən» yaradıcı ziyalılar arasında agentura bütün dövrlərdə istənilən qədər idi.

Azərbaycanın yaradıcı ziyalı təbəqəsi, xüsusilə sıx nəzarətdə idi, düzdür, Rusiyadan fərqli olaraq bu nəzarət daha nəzakətli çərçivədə aparılırdı. Həm də bir şeyi nəzərə almaq lazımdır: yazıçı mühitində 37-ci il ənənələri üzərində tərbiyə almış adamların sayı olduqca çox idi. Bu qəbildən olanlar öz həmkarları barədə «donosları» tamamilə könüllü, necə deyərlər, vicdanın hökmü ilə yazırdılar. Və çox vaxt «Papanın özündən də müqəddəs» görünməyə çalışır, ziyanlı fikirləri əsər-əlaməti görünməyən yerlərdə də axtarıb taparaq ifşa edirdilər.

* Həmin maddə 1989-cu il aprelin 12-də ləğv olunub.





Paradoksal olsa da, faktdır: Heydər Əliyev və onun təhlükəsizlik orqanlarında çalışan gənc əməkdaşları bəzən bu və ya digər yazıçıya münasibətdə, «dönük» çıxmış adamın ciddi cəzalanmasını tələb edən həmkarlarından daha liberal və mərhəmətli idilər. Çox sonralar, Azərbaycan yazıçılarının X qurultayında çıxış edən Heydər Əliyev açıq deyirdi ki, həm DTK-da, həm MK-da onun iş masası yaradıcı ziyalıların bir-birindən yazdıqları «donoslarla» dolu olurdu:

«Mənim yanıma şikayətə nə qədər adam gəlirdi, o cümlədən sizin içinizdən. Biri gəlib deyirdi, filankəs pantürkistdir, o biri deyirdi flankəs irançıdır, üçüncüsü deyirdi ki, filankəs türk casusudur, filankəs isə İran, dördüncü sübüt edirdi ki, filankəs sovet hakimiyyətinin əleyhinədir, o birisinin isə babası da sovet hökumətinin əleyhinə olub, özü də antisovetçidir. Beləları nə qədər gəlirdi, «siqnal» verirdi, bu və digər əsərin qabağını kəsməyə can atırdı».

Aslan Kənanın tanınmış Azərbaycan musiqi tədqiqatçısı Firudin Şuşinskiyə həsr etdiyi oçerkində «Şuşa» kitabının işıq üzü görməsi ilə bağlı maraqlı epizod vardır. Bu kitab ermənilərin qəzəbinə səbəb olmuşdu, çünki F.Şuşinski guya orada Andronikin şəxsiyyətini və ləyaqətini alçaltmış, bununla da xalqlar dostluğuna zərbə vurmuşdu. Ermənilər musiqişünası olmazın təqiblərə məruz qoymuşdular, erməni qəzetlərinin səhifələrində ona qarşı böhtan və söyüş yağdırır, bəzi simasını itirmişlər isə hətta kitab müəllifinə qarşı sui-qəsd hazırlamağa cəhd göstərmişdilər.

Aslan Kənan yazır ki, «Moskvanın təkidi ilə bu məsələ Azərbaycan KP MK-nın bürosuna çıxarıldı. Büronun altı saatdan çox davam edən iclasında çıxış edənlər ifadələrinə hədd qoymadan gənc tədqiqatçıya «burjua millətçisi», «xalqlar dostluğunun düşməni» və s. damğalar vurmağa cəhd edirdilər. Ancaq əsəri yüksək dəyərləndirərək gənc tədqiqatçıya dəstək verənlər də tapıldı. Bəzi dövlət xadimləri də onların tərəfini saxladı...»[13]. Onlardan biri Azərbaycan

[13] Кенан А. Неповторимый исследователь азербайджанской народной музыки. Зеркало. 2005. 29 октября.

DTK-sının sədri Heydər Əliyev oldu. 1967-ci il aprelin 17-də keçirilən MK Bürosunun iclasından sonra kitaba olan hücumlar səngiməmdi. Ancaq məhz H.Əliyevin təmsil olunduğu idarə kitab müəllifinə divan tutulmasının qarşısını aldı. Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra F.Şuşinskinin təqib olunmasına son qoyuldu. Ancaq bir an belə «sayıqlığı» itirməyən çekist nəzərləri söz yox ki, ipə-sapa yatmayan musiqiçini izlədi, 5-ci şöbənin rəhbərləri onu bir neçə dəfə profilaktik «səmimi» söhbətlər aparmaq üçün idarəyə çağırdılar.

Hələ 2-ci şöbədə işləyərkən Heydər Əliyev çalışırdı ki, məsələ gəlib aktiv işləməyə çatmasın. Sonradan bu təcrübədən «ideoloji» şöbənin əməkdaşları da istifadə edirdilər: «obyektlər» DTK-ya dəvət olunur, onlarla profilaktik söhbətlər aparılır və SSRİ Ali Sovetinin qərarına əsasən, dövlətin adından rəsmi xəbərdarlıq elan edilirdi. DTK qorxusu sovet adamının iliyinə elə dərin işləmiş, qanına elə möhkəm hopmuşdu ki, bəzən «üsyankarı» qanuna itaət edən vətəndaşa çevirmək üçün bu müdhiş idarəyə bir dəfə çağırmaq kifayət edirdi.

5-ci şöbənin ilk rəisi Ramiz Məmmədzadə Azərbaycan yazıçıları ilə aparılan işi belə xatırlayır:

«Əslinə qalsa, biz onları cəzalandırmaqdan daha çox xilas edirdik.

Bir neçə səciyyəvi hadisə yadımda qalıb.

Birinci hadisə Bəxtiyar Vahabzadə ilə bağlıdır. Onun poeziyasında, o vaxtın dili ilə desək, millətçilik motivləri açıq-aydın səslənirdi.

Heydər Əliyeviç mənim yazıçılarla, rəssamlarla yaxın tanışlığım olduğunu bilirdi.

– Bəxtiyarla məsələni araşdır.

Mən onun məlumatlarda göstərilən şeirlərini oxudum, təhlil etdim və Heydər Əliyevicə dedim:

– Heydər Əliyeviç, gəlin sizinlə bir yerdə bu şeirləri oxuyaq. Hanı burada millətçilik? Məgər biz də belə düşünmürükmü?





Biz şairi dəvət edib onunla iki saat söhbət etdik. Söhbətin yekunları əsasında mən Heydər Əliyeviçin adına hesabat yazdım, göstərdim ki, söhbət müsbət nəticələr verib, bundan əlavə, biz xaricdə keçirilən tədbirlər zamanı Bəxtiyar Vahabzadənin imkanlarından istifadə edə bilərik. Bu vaxta qədər o, bir müddət xaricə buraxılmırdı. Bəxtiyar Almaniyada yaşayan tanınmış türk alim və şair Əhməd Şimideni Bakıya dəvət etmək istəyirdi. Buna uzun müddət icazə vermirdilər. Bizim söhbətimiz zamanı o Şimidenin dəvət olunmasından söz salanda mən soruşdum:

– Bəs Azərbaycana bundan xeyir olacaq?

– Şübhəsiz, – deyə şair cavab verdi.

Razılıq verdik. Sonralar Şimide Bəxtiyarın dəvəti ilə dəfələrlə Azərbaycana gəldi, bizim tariximizlə tanış oldu, Almaniyada Azərbaycanı təbliğ etdi. Biz həmişə hesab edirdik ki, şəxsi ünsiyyət respublikanın nüfuzudur.

Ya da Xəlil Rzanı götürək. Bəxtiyar Vahabzadədən fərqli olaraq Xəlil Rzaya gizli iş açılmışdı, yenə də millətçilikdə şübhəli bilindiyinə görə.

Şairi DTK-ya çağırdım. Onunla söhbətimiz uzun oldu. Nəticədə qarşılıqlı razılığa gəldik ki, o ifadələrində bir qədər ehtiyatlı olacaqdır. Mən ona açıq dedim:

– Siz nahaq düşünürsünüz ki, sovet hökuməti, Azərbaycan hökuməti, kommunist partiyası Azərbaycanın birləşməsinin əleyhinədir, Türkiyənin əleyhinədir. Məsələ bunda deyil. Sadəcə olaraq hələ vaxtı gəlməyib, bu proses tarixi baxımdan yetişməlidir.

Bir sözlə, onunla dost kimi ayrıldıq. Həmişə olduğu kimi mən Heydər Əliyeviçin adına təqdimat yazdım, göstərdim ki, burada cinayət əməli görmürəm. O üstündən dərkənar qoydu – «V delo». Yəni, işə əlavə olunsun, belə dərkənardan sonra iş bağlanmış hesab olunurdu.

Heydər Əliyeviç deyirdi ki, köhnə çekistər minbir bəhanə ilə həbs etməyə, tutmağa hazır idilər, indi isə başqa zamandır, işə başqa yanaşma tələb olunur. DTK-nın başında Stalin «məktəbi» keçmiş adam dursaydı, ziyalılarla vəziyyət

tam başqa cür olacaqdı. Yeni nəsl partiya-sovet işçiləri problemin köklərini düzgün başa düşürdü. Bəli, nəzəri cəhətdən, ideoloji baxımdan onlar əsl sovet adamları idilər. Onlar sovet hakimiyyətini möhkəmlətmək, onun nüfuzunu qaldırmaq üçün əllərindən gələni əsirgəmirdilər. Ona görə də profilaktik tədbirlər görməyə üstünlük verirdilər, başa düşürdülər ki, cəza metodları əhalinin müəyyən hissəsini hakimiyyətdən uzaqlaşdıracaqdır».

Nadir hallarda məsələni yoluna qoymaq olmurdu, xüsusilə siqnallar gedib Mərkəzə çatanda. Moskva dərs olmaq üçün «araqarışdıranların» cəzalanmasını tələb edirdi. 1997-ci ildə Milli Təhlükəsizlik Nazirliyinin şəxsi heyəti qarşısında çıxış edərkən, Heydər Əliyev Sovet İttifaqı Qəhrəmanı, gələcək akademik Ziya Bünyadovun da daxil olduğu bir qrup Azərbaycan tarixçisi ilə bağlı səs-küyə səbəb olmuş bir hadisəni yada salır. 1964-cü ilin yazında Azərbaycanın «könüllü» olaraq Rusiya ilə birləşməsi ilə əlaqədar səsli-küylü şənliklər keçirildi. Bu hadisə ilə bağlı Azərbaycanı Lenin ordeni ilə təltif etdilər. Yaradıcı ziyalıların bir çox nümayəndələri doğma tariximizin bu cür «sərbəst» şərh olunması ilə razı deyildilər, amma bu fikri sətiraltı, Ezop dili ilə ifadə etməyə üstünlük verirdilər. Z.Bünyadov, M.İsmayılov və S.Əliyarov açıq demarşa ürək etdilər. Bu alimlərin 1969-cu ilin martında Azərbaycan Dövlət Universiteti Tarix fakültəsinin elmi şurasındakı çıxışlarında elmi əsaslara söykənən tarixi faktlarla sübut edilirdi ki, Azərbaycanın Rusiyaya könüllü birləşməsindən heç bir söhbət gedə bilməz, çar generalları bu əraziləri silah gücünə, qan bahasına ələ keçiriblər[14]. Heydər Əliyev yada salır ki, «bunların, xüsusilə Ziya Bünyadovun başına nə işlər gətirmək istəyirdilər! Mən bunların hamısının qarşısını almışam... Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, dövlət təhlükəsizliyi orqanlarında rəhbər vəzifələrdə işlədiyim zaman, bu orqanın başçısı olduğum zaman və ondan sonra Azərbaycan Respublikasının

[14] Azərbaycan tarixi 7 cilddə. Cild 7. Bakı, 2003. S. 160.





başçısı olduğum zaman Azərbaycan xalqının milli mənafeyinə əks olan heç bir tədbir görülməmişdir. Biz heç bir dissident həbs etməmişdik, heç bir zaman heç bir adamı antisovet təbliğat, yaxud millətçi təbliğat üstündə həbs etməmişdik. Amma nə qədər belə təkliflər, belə təzyiqlər var idi»[15].

Rüstəm İbrahimbəyov və Eldar Quliyevin «Bir cənub şəhərində» filmi ilə bağlı başqa bir əhvalatı da Heydər Əliyev dəfələrlə xatırlayırdı. Film senzuranı keçməmişdi, «rəfdə» qalıb tozlanmaq qorxusu var idi. Gənc Azərbaycan kinematoqrafçılarının cəmiyyətdə olan neqativ halları damğalayan cəsarətli film çəkdiklərindən xəbər tutan DTK sədri filmə baxmaq arzusunda olduğunu bildirir. H.Əliyev deyirdi ki, baxışdan sonra «Mərkəzi Komitəyə də, Moskvaya da nəinki xəbər verdim, təklif verdim, hətta tələb etdim ki, bu filmin nümayiş etdirilməsinə icazə verilsin. Bu film o vaxtdan həyat vəsiqəsi aldı və çox böyük də hörmət qazandı»[16].

* * *

Əlbəttə, təkcə ideoloji təxribatlara qarşı mübarizə ilə məsələ bitmirdi. Heydər Əliyev respublikanın milli maraqlarının xeyrinə olan hər hansı təşəbbüsü qəbul edir və dəstəkləyirdi. Məsələn, 5-ci şöbənin əməkdaşlarında xaricdəki Azərbaycan diasporu ilə bağlı maraqlı işlər var idi. Onlardan bəziləri haqqında mənə 5-ci şöbənin keçmiş rəisi Ramiz Məmmədzadə danışmışdır.

«Xaricdən bizə kəşfiyyat məlumatı daxil oldu ki, Fransada yaşayan qoca bir azərbaycanlıda tariximizi öyrənmək üçün böyük dəyəri olan qədim Azərbaycan əlyazmaları vardır. Tapşırıq aldıq ki, əlyazmaları almaq lazımdır. Amma bu işin çətin tərəfi ondan ibarət idi ki, həmin adamın Sovet İttifaqını, kommunistləri görməyə gözü yox idi, ona görə də rəsmi kanallarla müraciət etməyin xeyri olmayacaqdı.

[15] Xalqa, vətənə, dövlətə sədaqət. Bakı, 1997. S. 23.
[16] Yenə orada. S. 26.

Heydər Əliyeviç bizim şöbəyə müvafiq tədbirlər hazırlamağı tapşırdı. 5-ci şöbənin 2-ci bölməsinin rəisi Maqsud Məmmədov idi – cavan, lakin Moskvada kəşfiyyat məktəbi bitirmiş ikinci nəsildən təcrübəli çekist idi. Biz onunla birlikdə lazımi tədbirləri hazırladıq və mən Heydər Əliyevə təqdim etdim.

O soruşdu:

– Bəs bu işi kimin vasitəsilə yerinə yetirək?

– Bu işə universitetdə mənim müəllimim olmuş professor Abbas Zamanovu cəlb etmək istəyirəm.

– Abbas Zamanov axı partiyadan xaric edilib. Razı olarmı?

– İcazə versəniz onunla danışardım.

Tanınmış müəllim, alim Abbas Zamanov 60-cı illərin əvvəlində millətçilik üstündə partiyadan xaric edilmiş və etibardan düşmüşdü. Ona görə əhvalı bir o qədər «sovetsevər» deyildi, DTK-ya münasibəti də o cümlədən. Elə bu səbəbdən Heydər Əliyeviç professorun təklifimizi qəbul edəcəyinə şübhə ilə yanaşdı.

Heydər Əliyev dedi:

– Onu mənim yanıma dəvət elə, – mən kabinetdən çıxmağa hazırlaşanda isə əlavə etdi. – Ancaq o vaxta qədər mənim üçün «Azərbaycan ədəbiyyatı tarixi»ni tap gətir.

Abbas Zamanovla görüşü ertəsi gün saat ikiyə yaxın təyin etdik. Bundan bir gün əvvəl isə mən Heydər Əliyeviç üçün evdən köhnə, hələ latın əlifbası ilə çap edilmiş Azərbaycan ədəbiyyatı tarixinə dair kitabı gətirdim.

Ertəsi gün biz Abbas Zamanovla sədrin otağına gəldik. Söhbət zamanı mən əsasən susurdum. Heydər Əliyevlə Abbas Zamanov danışırdılar. Söhbət iki saata yaxın çəkdi.

Kabinetdən çıxandan sonra Abbas müəllim məndən soruşdu:

– Ramiz, – mənə dərs demiş müəllim kimi adımla müraciət edirdi. – Heydər Əliyevin ixtisası nədir?

– Bilirəm ki, tarixçidir, ancaq ixtisası üzrə işləməyib.

– Bəs o, filoloq deyil?





– Xeyr, Abbas müəllim, dəqiq filoloq deyil.

Bu epizod əyani olaraq Heydər Əliyevin hər bir işə necə ciddi hazırlaşdığını, hər hansı bir məsələnin həllinə necə diqqətlə yanaşdığını, müvəffəqiyyət qazanmaq üçün əldə olan bütün vasitələrdən istifadə etdiyini göstərir.

Bu söhbətdən sonra biz Zamanovu və əməkdaşımız Məmmədovu Fransaya ezam etdik. Abbas müəllim qoca mühaciri inandıra bildi ki, qədim əlyazmaları öz tarixi vətəninə bağışlasın. Hazırda Nizami dövrünə aid məxəzlərdən ibarət əlyazmalar Respublika Əlyazmalar İnstitutunda saxlanılır. Bu işdə Zamanovun namizədliyinin seçilməsi özünü doğrultdu, çünki həmin adam kommunistlə danışmaq istəməzdi, Abbas Zamanov isə bitərəf idi, millətçilik baxışları olan tanınmış alim idi. Əlbəttə ki, belə adamla söhbət baş tuta bilərdi. Bu hadisə 1968-ci ildə baş vermişdir».

60-cı illərin ortasından turizm kanalları və fərdi vizalarla Bakıya ayaq açmış xarici icma nümayəndələrinin məxfi əməkdaşlığa cəlb edilmələri aktiv surətdə aparılırdı. Azərbaycan xarici kəşfiyyatının keçmiş rəhbəri İlhüseyn Hüseynovun öz kitabında yazdığı kimi, «Xaricdəki azərbaycanlı soydaşlarımız öz əqidələrinə görə Sovet İttifaqına qarşı loyal münasibətdə olanlara, neytral mövqedə duranlara, nəhayət, düşmənçilik hissləri saxlayanlara bölünürdülər. Ona görə də biz öz agentlərimiz qarşısında loyal olan adamları tapıb hər vasitə ilə dəstəkləmək, neytral olanları öz tərəfimizə çəkmək və imkan daxilində düşmən mövqeyində olanları məhdudlaşdırmaq vəzifəsi qoyurduq. Soydaşlarımızın öz tarixi vətənlərinə olan vətənpərvərlik hisslərinin gücləndirilməsinə xüsusi diqqət yetirirdik»[17].

Ramiz Məmmədzadə mənə ABŞ-də fəaliyyət göstərən Azərbaycan mədəniyyət mərkəzlərinin rəhbərlərindən birini əməkdaşlığa necə sövq edə bildiyi barədə danışmışdır. Vətənpərvərlik hisslərinə «güc verərək» onu Azərbaycan mənşəli Amerika vətəndaşları arasında ilk növbədə tarixi vətənlə yaxınlaşma-

[17] Гусейнбейли А. Интервью с генералом разведки. Баку, 1997. С. 42.

ğa yönəlmiş söhbətlər aparmaq üçün yola gətirdilər. Müvafiq dərnəklər üçün Xarici Ölkələrlə Mədəni Əlaqələr və Dostluq cəmiyyəti adından ona Azərbaycan musiqi alətləri – tar, kamança bağışladılar, lazımi ədəbiyyatla təmin etdilər. Ramiz Məmmədzadənin xatırladığına görə, sonra «Amerika jurnalı» ABŞ-də fəaliyyət göstərən Azərbaycan cəmiyyətinin işindən və bu işə Sovet Azərbaycanının göstərdiyi köməkdən bəhs edən məqalə dərc etdi».

Məhz Azərbaycan kəşfiyyatçıları Azərbaycan və SSRİ-nin dövlət və partiya strukturları qarşısında respublikada xarici ölkələrdə yaşayan soydaşlarımızla iş aparan ictimai təşkilat yaradılması barədə təşəbbüslə çıxış etdilər. İlhüseyn Hüseynov xatırlayır ki, Heydər Əliyev bu ideyanı hər zaman dəstəkləyib – DTK sədri olanda da, MK-nın birinci katibi işləyəndə də. Bu cür cəmiyyətlər bütün respublikalarda var idi. Ermənistandan bu barədə danışmaq artıqdır, çünki onlarda xarici ermənilərlə iş üzrə bütöv bir komitə fəaliyyət göstərirdi. Lakin Moskva qəti surətdə etiraz edirdi, «xüsusilə də xarici işlər naziri Andrey Qromıko. SSRİ XİN ona görə etiraz edirdi ki, çünki qorxurdu – «Vətən» cəmiyyəti yaranarsa o İranda yaşayan azərbaycanlılarla da iş aparmağa başlayacaq, bu isə İran hökumətinin xoşuna gəlməyə bilər və dövlətlər arasındakı münasibətlərə mənfi təsir göstərər»[18].

Yalnız 80-ci illərin ortalarında, Heydər Əliyev Siyasi Büronun üzvü, sovet dövlətinin rəhbərlərindən biri olandan sonra, nəhayət ki, bu ideyanı həyata keçirmək mümkün oldu. Altmışıncıları təmsil edən tanınmış Azərbaycan yazıçısı Elçin «Vətən» cəmiyyətinin sədri oldu. Onun rəhbərlik etdiyi cəmiyyət xaricdəki soydaşlarımızın öz tarixi vətəni ilə əlaqələrinin möhkəmlənməsi işində mühüm rol oynadı.

* * *

70-ci illərdə Rusiyadan Qərbə xeyli sayda dissident adlandırılan adamlar getdi. Özü də bəzilərini, xüsusilə qızğın və barışmaz mövqedə olanları istək-

[18] Гусейнбейли А. Интервью с генералом разведки. С. 45.





lərinin əksinə ölkədən çıxartdılar. Bir sıra tarixçi və politoloqların fikrincə bu, siyasi cəhətdən səhv addım idi.

«... Andropov tərəfindən sosializm quruluşunu müdafiə etmək üçün qəbul edilən bəzi mühüm qərarlar, professional cəhətdən tutarsız oldu, çünki təcrübədə düşünülənə əks olan nəticələrə gətirib çıxarırdı. Məsələn, Andropovun vaxtında dissident adlandırılan şəxslərin ölkədən çıxarılması dəbə düşmüşdü... Lakin xaricə çatan kimi, onlar bir anın içində antisovet mərkəzləri tərəfindən səfərbər edilir və can-dildən SSRİ-yə qarşı – artıq yeni işəgötürənlərin bütün texniki qüdrətindən istifadə etməklə – işə başlayırdılar. Məgər bu professional yanaşmadır?»[19].

Həmin o dövrdə Azərbaycan yaradıcı ziyalılarından bir nəfər də olsun siyasi motivlərə görə respublikanı tərk etmədi. Heç şübhəsiz, burada H.Əliyevin böyük xidməti vardır, o sadəcə olaraq Azərbaycanda dissidentlərin əmələ gəlməsinə imkan vermirdi. 5-ci şöbənin keçmiş əməkdaşlarından bəziləri mənə sübut etməyə çalışırdılar ki, Azərbaycanda Rusiyadakılara bənzər dissidentlər yox idi. DTK-nın diqqət dairəsinə düşənləri isə «başqa cür düşünən» adlandırmaq olmaz, çünki onlar quruluşun qüsurlarına və quruluşun özünə qarşı etirazlarını bildirmirdilər, ayrı-ayrı çatışmayan cəhətlərə, məsələn, Azərbaycan dilinin hüquqlarının boğulmasına, vahid xalqın bölünməsinə və s. qarşı çıxış edirdilər. Mən bu fikirlərlə razılaşmıram. O vaxt üçün dövlət qurumlarında rus dilinin «ağalıq» etməsi və ya bölünmüş xalqın faciəsindən yazmaq, əslində, başqa cür düşünmək idi, çünki sovet dövlətinin rəsmi siyasətinə zidd idi. Respublikanın DTK əməkdaşları tərəfindən bütün bunların «yuxarı» necə təqdim olunması isə başqa məsələdir. Heydər Əliyev qəlbən inanırdı ki, hər hansı yazıçı və ya alimə qarşı güc tətbiq etmək, yaxud inzibati təzyiq göstərmək xeyir gətirə bilməz, yalnız onu qeyzləndirər, düşmənə çevirər.

[19] Легостаев В. Загадки Лигачева. Завтра. 2000. № 52. С. 6.

90-cı illərin əvvəlində Rusiya mətbuatında A.Saxarovun inzibati sürgündən azad edilməsi barədə DTK rəhbərinə müraciət etmiş böyük sovet fiziki Pyotr Leonidoviç Kapitsa ilə Y.Andropovun özünəməxsus «yazışması» çap edilmişdi. Həmin məktubda alimin başqa cür düşünməyə ixtiyarı olması barədə maraqlı fikirlər vardır, o cümlədən ölkənin ictimai-siyasi həyatında da. Kapitsanın məktubundan bir parçanı misal gətirmək istəyirəm, məncə o, Heydər Əliyevin həmkarları ilə söhbətlərdə dəfələrlə açıqladığı fikirlərlə səsləşir:

«Həyat göstərir ki, böyük istedadlar çox deyil, ona görə də onları qorumaq, qədrlərini bilmək lazımdır. Böyük yaradıcılıq, böyük temperament tələb edir, bu da kəskin şəkildə ifadə olunmuş narazılıqlara gətirib çıxarır, ona görə də istedadlı adamlar çox vaxt «ağır xasiyyət» olurlar... Həyatda yaradıcı fəaliyyət adətən pis qarşılanır, çünki insanların əksəriyyəti mühafizəkardır, sakit yaşamağa çalışırlar. Nəticədə bəşər mədəniyyətinin inkişaf dialektikası mühafizəkarlıqla başqa cür düşünmənin ziddiyyəti məngənəsində yerləşir, bu hal bütün dövrlərdə və bəşər mədəniyyətinin bütün sahələrində baş verir.

...Cıdırda qalib gəlmək üçün yortma qaçan at lazımdır. Qalib gəlməyi bacaran atlar isə çox deyil, özü də tərs olurlar, hələ, üstəlik, onlara yaxşı qulluq, mahir at sürənlər lazımdır. Adi atları minmək asandır, rahatdır, ancaq cıdırda qalib gəlmək olmaz»[20].

Kitabın sonrakı fəsillərində Heydər Əliyevin artıq respublikanın partiya təşkilatına rəhbərlik edərkən mədəniyyətimizin qalib gəlməyi bacaran «atlarını» hiddətlənmiş «çoxluğun» divanından dəfələrlə necə xilas etdiyi barədə təfsilatı ilə danışacağıq. Azərbaycan yazıçıları ilə görüşlərin birində o, zarafatla söyləmişdi: «Ancaq sizin içinizdə ən böyük dissident elə mən idim». Məlumdur ki, hər zarafatda həqiqət gizlənir.

[20] Коммунист. 1991. № 7. С. 51-57. Цитируется по кн. Р.Медведева «Неизвестный Андропов». Ростов-на-Дону, 1999. С. 203.





Heydər Əliyev İbrahim Həmzəyevin həvəskar truppasında əsas aktyorlardan biri idi.










■ Azərbaycanda RSFSR ədəbiyyatı və incəsənəti günləri. 2-11 oktyabr 1972-ci il.





■ VII Ümumittifaq kinofestivalı iştirakçılarının qəbulu. 15 aprel 1974-cü il.



■ Azərbaycan SSR Dövlət mükafatlarının təqdim edilməsi. 5 noyabr 1974-cü il.



■ "Böyük Vətən müharibəsinin salnaməsi" adında sərgidə. 30 aprel 1975-ci il.



■ Heydər Əliyev Sovet ədəbiyyatının görkəmli nümayəndələrini şəxsən aeroportda qarşılayır. Azərbaycanda Sovet ədəbiyyatı günləri. 1-9 oktyabr 1975-ci il.



■ Tamaşadan sonra görkəmli sovet satirik aktyoru Arkadi Raykinlə. 1 oktyabr 1975-ci il.



■ Azərbaycanda Sovet ədəbiyyatı günləri. 1-9 oktyabr 1975-ci il.



Azərbaycanda Sovet ədəbiyyatı günləri. 1-9 oktyabr 1975-ci il.



Yazıçı Marietta Şaginyaynla görüş. 17 oktyabr 1975-ci il.



Heydər Əliyev Ü.Hacıbəyovun ev-muzeyinin açılışında. 20 noyabr 1975-ci il.





Ü.Hacıbəyovun 90 illiyinə həsr olunmuş təntənəli gecə.
Bakı. 21 noyabr 1975-ci il.



SSRİ Rəssamlıq İttifaqının Bakıda keçirilən Plenum iştirakçıları ilə görüş.
23 aprel 1976-cı il.



Səməd Vurğunun 70 illiyinə həsr olunmuş təntənəli gecə.
Moskva. 29 noyabr 1976-cı il.



Heydər Əliyev və məşhur sovet aktyoru Aleksey Batalov V.İ.Lenin sarayında kinonun 60 illiyinə həsr edilmiş təntənəli iclasda. 24 dekabr 1976-cı il.



■ Azərbaycan bəstəkarlarının 5-ci qurultayı. 21 sentyabr 1979-cu il.



■ Ukrayna SSR-in rəsm sərgisində. 10 oktyabr 1979-cu il.



■ Azərbaycanda Ukrayna ədəbiyyat və incəsənət günlərinin təntənəli bağlanışı. 10 oktyabr 1979-cu il.



■ Dahi Azərbaycan şairi Nəsiminin heykəlinin təntənəli açılışı. 20 fevral 1980-ci il.



■ Azərbaycanın Xalq yazıçısı Süleyman Rəhimovun 80 illik yubileyindən sonra. 25 mart 1980-ci il.



■ SSRİ Xalq artisti Dmitri Kabalevskinin qəbulu. 31 may 1980-ci il.

III FƏSİL

# BİRİNCİ KATİB: «GÜRZLƏ ZİNDAN ARASINDA»

*Tarazlaşdırma siyasəti*

N. Xruşşovun iqtidardan kənarlaşdırılması ilə onun adı ilə bağlı «mülayimləşmə» də yavaş-yavaş sovuşub tarixdə qaldı. 60-cı illərin sonlarında ideoloji «cəbhə»də nəzərəçarpacaq dərəcədə «sağa» doğru dönüş baş verdi. Əlbəttə, stalinpərəstlər Stalinin reabilitasiyasına, yaxud Sov.İKP XX qurultayını gözdən salmağa nail ola bilmədilər. Lakin ideologiya, mədəniyyət və ictimai elmlər sahəsində boşaldılmış «qayka»lar yenidən az qala son həddədək burulmuş, senzura sərtləşmiş, redaksiya-nəşriyyat planları hər hansı azadsevər «zındıqlıq» çıxarılmaqla ələk-vələk edilmişdir.

1968-ci ildən sonrakı dövrü Moskvanın dissidentlik edən ziyalıları «sürünən restalinizasiya» (polzuçaya restalinizasiya) adlandırmışlar. Bu dövrdə adamları öz əqidələrinə görə tutmaq, mühakimə etmək halları az olsa da, işdən qova, şiddətli partiya töhməti verə bilərdilər, ya «günahkara» «şərəf divanı» tutub sovet adamının «uca adına layiq olmayan baxışlarını» xalqın qarşısında pisləyib «tövbə» etməsini tələb edirdilər. Rəsmi ideologiyaya qarşı inadla müqavimət

göstərənləri dəlixanaya yollaya, ya vətəndaşlıq hüququndan məhrum edib ölkədən xaricə «sürgün» edə bilərdilər.

## ■ Akademik G.Arbatov xatırlayır:

«Hətta təqibin bilavasitə hədəfi olmayan bəziləri üçün də dissidentlərlə mübarizə ağır şəxsi sarsıntılara səbəb olurdu. Gözümçıxdıya salınmış elm xadimləri, yazıçı və rəssamlara qarşı kəskin tənqidi məktublara tanınmış alimləri və mədəniyyət xadimlərini imzalamağa məcbur etmək adi hal idi. İmza qoymaqdan imtina edənləri pisliklər gözləyirdi – bəzən bu, onlar üçün «kitabın bağlanılmasına» doğru ilk addım demək idi. Razılaşanları isə həmkarlarının, dostlarının nifrəti gözləyirdi. Bir çoxu sınırdı, mənliyini itirirdi... Antidissident siyasətinin bilavasitə hədəfi yüzlərlə, bəlkə də, minlərlə adam olsa da, onların aşkarlanması və təqib edilməsi «məxfi polis» adlanan orqanların bütövlükdə fəallaşmasını: cəmiyyətin bir çox özəklərinə əlavə agenturanın qondurulmasını, «donos»ların toplanması və təqdir edilməsini, məktubların perlüstrasiyasını*, telefon söhbətlərinin izlənib dinlənilməsini tələb edirdi. Bu da diqqətdən yayına bilməzdi: dinləmələr, izləmələr... «donos»lardan hamı, çox yüksək vəzifə sahibləri daxil olmaqla, xoflanmağa başlamışdılar»[21].

Mənə kitab üçün çox dəyərli ekskluziv material təqdim edən Heydər Əliyevin qızı Sevil xanım bununla bağlı xatırlayırdı:

«Mən çoxdan, hələ 70-ci illərdə bilirdim ki, bizə nəzarət edirlər. Yadımdadır, ata-anamla Moskvaya gəlib mehmanxanada qalanda, atam anama nəsə söyləmək istəyərkən onu vanna otağına aparıb su kranını açandan sonra danışardı. Həm də atamın DTK-dan bir həmkarı, köhnə dostunun ona «siz daima nəzarət altındasınız» dediyi yadımdadır. Bu, atamın respublika Kompartiyası Mərkəzi Komitəsinin birinci katibi işlədiyi və Moskvaya tədbirlərə gəldiyi xoş dövrə

* Perlüstrasiya – məktubların məxfi yoxlanması və oxunması.

[21] Г.Арбатов. Человек системы. М., 2002. С.333.





təsadüf edir. Həmin sözləri deyən adam isə gizli telefon dinləmələri ilə məşğul olan idarədən idi». Bu, doğrudan da, sovet əyyamının faciəvi paradoksu idi: DTK içində yetkinləşmiş, bir zaman özü bu idarəyə başçılıq etmiş adam sonralar uzun illər boyu xüsusi xidmətlərin gözü altında olmuşdur...

70-ci illərdə Sov.İKP MK-nın elm, mədəniyyət və təbliğat-təşviqat şöbələrinə nəzarət edən katibi, müasirlərinin xatirələrinə görə, istedadsız və əslində, kəmsavad adam olan P.Demiçev idi. Deməyə ehtiyac varmı ki, müttəfiq respublikalarda da ideoloji kadrları o öz «arşınına» uyğun seçirdi?

«Mərkəzi Komitənin ideoloji qurumu Suslov dövründə ölkənin intellektual və mənəvi həyatının geniş sahəsini: kütləvi informasiya vasitələrini, elmi, təhsili, mədəniyyəti, xarici siyasəti və hətta idmanı «mühafizə» edirdi. Bu sahələrin hər birində MK-nın nəzarət-buraxılış məntəqəsi vardı – daha çox hallarda nəzarət aparan şöbə şəklində. Mərkəzi və hətta yerli qəzetlərdən heç biri MK təbliğat şöbəsinin, ya yerli partiya komitəsinin hər şeyi görən gözündən yayına bilməzdi. SSRİ-də sanballı elmi konfranslardan, ya ictimai təşkilat görüşlərindən, beynəlxalq konqreslərdən heç biri Moskvada MK katiblərinin məruzəsi və razılığı, ya ən azı müttəfiq respublika partiya Mərkəzi Komitəsinin razılığı olmadan keçirilmirdi. Eyni qayda nomenklatur, yəni az-çox rəhbərlik səviyyəli kadr təyinatlarına, mükafatlar, fəxri adlar verilməsinə, yaradıcılıq müsabiqələri və idman yarışları keçirilməsinə və əlbəttə ki, sovet nümayəndələrinin xarici səfərlərinə aid idi»[22].

*70-ci illərin sonları – 80-ci illərin əvvəllərində mən respublika Yazıçılar İttifaqında birinci katibin köməkçisi vəzifəsində çalışırdım və bununla bağlı Azərbaycan KP MK mədəniyyət şöbəsi ilə sıx təmasda olurdum. Məhz oraya biz vəzifəsi yüksəldiləcək, ya hansısa mükafata layiq görüləcək yazıçılara aid məktub və ara-*

[22] А.Грачев. Кремлевская хроника. М., 1994. С.28.

*yışları göndərirdik. Hər şey məhz orada, yuxarıda həll olunurdu. O ki qaldı xarici səfərlərə hazırlaşan yazıçıların rayon və şəhər partiya komitələrinə çatdırılan xasiyyətnamələrinə, şəxsən hazırladığım belə sənədlərin sayı-hesabı yox idi.*

«Əlbəttə, Axmatovanı, Zoşşenkonu, Şostakoviçi çarmıxa çəkən Jdanov «basqın»ları və Pasternakın, Neizvestnı və Voznesenskinin abırını tökən Xruşşov danlaqlarının vaxtı ötüb keçmişdi. Brejnev dövrünü «şəxsiyyətə pərəstiş» və «subyektivizm» çağlarından fərqləndirə bilən «respektabelliyi» nümayiş etdirmək üçün partiya iqtidarı tərəfindən səs-küylü proseslər quraşdırılmırdı. O, yalnız göstərilən kursdan yayınmaları düzəldir, hərdən atalıq ərki ilə qınayır, hərdən də başqalarında xof oyatmaq üçün günah işlədənləri cəzalandırırdı... Hətta ideoloji repressiyaların xüsusi «yumşaq» metodu hazırlanmışdı. Rejim (bəzi istisnalar olmaqla) cəsarətli, ya qeyri-məqbul saydığı əsər müəlliflərini həbs etməsə də, edam etməsə də, onların əsərləri həbs edilir, yasaqlanır, xaricə buraxılmır, ya da əksinə xaricə «sürgün edilirdi». Məsələn, MK bu ya digər qeyri-konformist müəllifin «maddi vəziyyəti çətin olduğu ilə bağlı» əsərini «məhdud tirajla», yaxud «yalnız elmi kitabxanalar üçün» dərc etdirmək qərarı da çıxara bilərdi.

...Rəsmi Həqiqətə (o zamanlar düşünülən şəkildə aşılanan Həqiqətə) qarşı günahlar siyahısına hər nə desən qatıla bilərdi: istər kənd həyatı haqqında «pessimistik» oçerk, rus mistik filosofların unudulmuş əsərlərini çap etmək cəhdi olsun, istərsə televiziyada cızıqdan çıxan veriliş, yaxud Vladimir İliçin anasının qeyri-rus mənşəli olduğuna eyham vuran məqalə»[23].

* * *

[23] А.Грачев. Кремлевская хроника. С.28





Respublikaların rəhbərlərini yerli «millətçilik» təzahürlərilə daha fəal və prinsipial mübarizəyə təhrik etmək üçün Kremldə və SSRİ Dövlət Təhlükəsizlik Komitəsində iki cəbhəyə qarşı – qərbpərəst təmayüllü dissidentlərə və digər tərəfdən, «rusist» adlananlara qarşı vaxtaşırı hücumlara keçməyi zəruri sayırdılar. Daha əvvəl, 50-ci illərdə M.Suslov Sov.İKP MK ideoloji komissiyasında «Slavyane» adlı ura-patriotik jurnal haqqında məsələ qaldırmış, nəticədə jurnalın nəşrinə son qoyulmuşdur. Və bu ağlabatan hökm idi, çünki təsəvvür etmək olmazdı ki, məsələn, Azərbaycanda «Türklər» adı altında eynilə etnik, ya irqi ayrı-seçkiliyi körükləyən bir jurnal çıxsın. Bir qədər sonra «Qobustan» dərgisinin baş redaktoru və əməkdaşlarının tamamilə suçsuz-qərəzsiz mətbu yazılara görə yetərincə sərt təzyiqlərə məruz qaldıqları haqqında danışacağıq.

70-ci illərdə bu «tarazlaşdırma» siyasəti uğurla davam etdirildi. 1974-cü ilin 30 aprelində dövlət təhlükəsizliyinin başçısı Andropov «antisovet» «Veçe» jurnalının nəşri üzrə istintaq aparılmasına sərəncam verdi. Andropov haqqında kitab müəllifi yazıçı S.Semanov xatırlayır ki, «Veçe»nin rəhbəri Vladimir Osipov Helsinki zirvə görüşündən sonra ilk siyasi məhbus oldu. Ardınca «Cari hadisələrin xronikası»nı nəşr edən P.Yakir və V.Krasin işdən çıxarıldılar, Ryazan və Tver şəhərlərinə sürgün edildilər[24].

Eyni siyasət Brejnev və onun baş ideoloqu Suslov tərəfindən yaradıcı ziyalılar arasındakı «sağçı» və «solçu» müxalifətlə mübarizədə tətbiq olunurdu. Bir tərəfdən partiya funksionerləri liberal-burjua yönümlü dissidentlərin «ipini çəkirdi», onların arasında da, məlum olduğu kimi, böyük əksəriyyəti yəhudilər təşkil edirdilər. Beləliklə, liberal «Novıy mir» jurnalına qarşı, onun baş redaktoru Aleksandr Tvardovskini kənarlaşdırmaq həddinə çatan sərt ölçülər götürülmüş, çılğın «Yunost»un «köpü yatızdırılmışdır». Digər tərəfdən, rus-patriotik xəttinin ideoloqu, «Molodaya qvardiya»nın baş redaktoru Anatoli

[24] См. об этом: Сергей Семанов. Юрий Андропов. М., 2003.

Nikonovu işdən çıxardılar. «Rusist»lərin təmsilçisi Sergey Semanovun fikrincə, bu hamıya bəlli Brejnev «yelləncəyi» idi – bir səmtə atılan addım (təqdir, ya təkfir) əks tərəfə yönəldilmiş addımla tam müvafiq olurdu. «Stalinçilərin qalıqları xətrinə «Novıy mir» liberallarını aradan götürdülər, indisə şuluqluq salan «Molodaya qvardiya» patriotlarını yerində oturtduraraq. Amma hər halda sakitcə, dinc yolla və camaat qarşısında qalmaqal salmadan... Çətin ki, Brejnev öz aləmində belə düşünürdü, az bələd olduğu bu sahədə, çox güman ki, fəhmlə, lakin siyasət anlamı müqabilində məntiqi hərəkət edirdi»[25].

Zənnimcə, Kreml ideoloqları ali dövlət mənafeyi baxımından tamamilə məqsədəuyğun davranırdılar. Rusiyanın titul millətі arasında başqa düşüncə, fərqli təfəkkürlə mübarizədə onlar prinsipiallıq göstərməsəydilər, eyni yanaşmanı yerli millətçilər üzərində nəzarətə cavabdeh olan müttəfiq respublika rəhbərlərindən tələb edə bilməzdilər.

60-cı illərin sonluğunda və 70-ci illərdə SSRİ-də millətlərarası zəmində baş verən çaxnaşmalar və təlatümlər az olmamışdı. Bütün bu təlatümlər qətiyyətlə yatızdırılır, təhrikçiləri həbs olunub cinayət məsuliyyətinə cəlb edilirdi.

Roy Medvedyevin «Naməlum Andropov» kitabında, eləcə də V.Ponomaryovun «SSRİ-də ictimai çaxnaşmalar» broşüründə bir qayda olaraq etnik səciyyə daşıyan kütləvi pozuntu və iğtişaşlar haqqında məlumat verilir. Belə ki, məsələn, 1966-cı ilin sonlarında 1945-cı ildə Orta Asiyaya sürgün edilmiş Krım tatarları, Krım Muxtar Respublikasının 45 illiyini qeyd edərək Özbəkistanda kütləvi mitinqlər keçirmişdilər.

1967-ci ilin sonlarında Andropovun idarəsi, xalq toplantısına yığışmış və Abxaziya Muxtar Respublikasının «gürcüləşdirilməsi»nə qarşı etiraz edən milli icma nümayəndələrinin tələblərini araşdırmalı oldu. 1967-ci ilin 17 may günündə Frunze (indiki Bişkek) şəhərində (Qırğızıstan SSR) böyük çaxnaşmalar baş vermiş, onların qarşısını almaq üçün silah işlətmək lazım gəlmişdi. 1969-cu

[25] С.Семанов. Брежнев. М., 2002. С. 179.





ilin may ayında Daşkənddə özbək gənclərinin antirus nümayişləri keçirilmiş, 1971-1972-ci illərdə Tiflis və Kaunasda milli zəmində kütləvi hərəkatlar asayişi pozmuşdu. 1973-cü il, 16-19 yanvarda Qroznı şəhərində minlərlə inquşun qatıldığı möhtəşəm manifestasiyalar vəlvələ salmışdı. Baltikyanı respublikalarda zaman-zaman etiraz dalğaları kükrəyib coşurdu.

«Təbii ki, bu ciddi simptom idi, lakin sovet və partiya rəhbərliyinin lazımi diqqətini cəlb etməmişdi. Həm də mətbuat yuxarıda sadalanan bütün çaxnaşmalardan, demək olar ki, heç nə yazmırdı»[26], – Roy Medvedyev kitabında xatırlayır.

Bunun əksinə olaraq, həmin iğtişaşlar Qərb mətbuatında Qərb radiostansiyalarının xəbər proqramlarında ətraflı işıqlandırılırdı.

«Azadlıq» radiosunun 1970-ci il 5 fevral tarixli verilişində Azərbaycanda daxili işlər naziri və onun müavinlərinin, Dövlət Plan Komitəsi sədrinin, Televiziya və Radio Verilişləri Dövlət Komitəsi sədrinin işdən çıxarılması şərh edilirdi. DİN rəhbərliyinin dəyişdirilməsindən söz açan «Azadlıq»ın icmalçısı qeyd edir ki, məsələnin rəsmi cəhətləri ilə yanaşı, «xalq kütlələrindən gizlədilməsinə cəhd edilən qeyri-rəsmi səbəblər də var. Əsas qeyri-rəsmi səbəblərdən biri millətçilik meyllərinin yayılması təhlükəsidir (vurğulama bizimdir – ***E.A.***). Bu, sirr deyil ki, son illərdə dost olan və olmayan dairələr respublika rəhbərliyi arasında milli maraqların və sərbəstliyin üstün tutulmasına yönələn meyllərin yayılmasından söz açırlar. Bəzi dairələr gizlətmirlər ki, Azərbaycan rəhbərliyi BMT-də Ukrayna və Belarusiya kimi öz təmsilçisinə malik olmaq məqsədilə daha çox müstəqillik almağa çalışır. Bununla bağlı eyni niyyətlərin respublika ziyalıları arasında da yayılması müşahidə olunur. Görünür, Türkiyə baş naziri Süleyman Dəmirəlin və bu ölkənin prezidenti Cövdət Sunayın böyük nümayəndə heyətləri ilə səfərləri həmin hisslərin qızışdırılmasına yardım etmişdir...»

[26] Р. Медведев. Неизвестный Андропов. С. 243.

Ardınca şərhçi vurğulayır ki, millətçilik meyilləri digər respublikalarda da yayılmışdır və bunun da öz səbəbləri vardır.

«Birincisi, qeyd etmək lazımdır ki, bu hisslərin qızışdırılmasına dünya kommunist hərəkatında izlənən təmayüllər təsir göstərir. Çexoslovakiya hadisələri önəmli rol oynamışdır.

Digər tərəfdən, – şərhdə deyilir, – məgər Kremlin indiki ağaları bir çox hallarda millətçilik və hətta fövqəldövlət şovinizmi mövqeyindən çıxış etmirlərmi? Düz deyilib ki, balıq başından iylənər»*.

* * *

İlk aksiyalar və bəyanatlarına görə, MK-nın yeni birinci katibi «günün tələblərinə uyğun olmağa» və Kreml ideoloqlarının onunla bağlı gözləntilərini doğrultmağa çalışırdı. Heydər Əliyev ehtiyatlı və uzaqgörən rəhbər idi, bundan başqa, İmam Mustafayevin karyerasının necə sona yetdiyi və bunun respublika üçün necə acı nəticələrə səbəb olduğunu çox yaxşı xatırlayırdı. Ona görə də ilk illərdə Heydər Əliyev tez-tez Brejnevsayağı «yelləncək üsulu»na əl ataraq bir tərəfdən Moskvanın gözündə «millətçilik sapıntıları»nın, keçmişin qalıqlarının qənimi kimi görünməyə çalışır, digər tərəfdən isə, onun çağırışlarını bəsit, hərfi mənada başa düşüb canfəşanlıq edən komanda üzvlərinin «cızıqdan çıxmaması»na göz qoyurdu. 29 oktyabr 1971-ci il tarixli XXIV partiya qurultayının qərarları işığında ideoloji işin daha da gücləndirilməsi üzrə respublika partiya təşkilatlarının vəzifələrinə həsr olunmuş Azərbaycan KP MK plenumu bu baxımdan səciyyəvidir.

Əslində, Heydər Əliyev partiya forumunda yaradıcı ziyalıların nümayəndələrini, həm də «günah işlətmiş» yazıçıların konkret adlarını çəkərək ilk dəfə (və şükür ki, son dəfə) kəskin tənqid etmişdi. Bu çıxış onun bəzi komanda üzvləri

* Burada və irəlidə sitatlar H.Əliyevin şəxsi arxivində tapılmış mətnlərdən gətirilir.





tərəfindən «rəhbər göstəriş» kimi, ziyalılar tərəfindən isə «sıxma-boğma» siyasətinə keçmək kimi qarşılanmışdı.

Azərbaycanın ali rəhbərinin fəaliyyətini diqqətlə izləyən bir çox xarici informasiya vasitələri, o cümlədən Fransanın «Mond», Qərbi Almaniyanın «Frankfurter algemayne», «Züddoyçe tsaytunq» kimi mötəbər qəzetlər Heydər Əliyevin məruzəsinin şərhinə xüsusi məqalələr həsr etmişdilər.

Bu mövzuda bir sıra reportajlar «Azadlıq» radiosunun efirində səsləndi. Düzdür, xarici radiosəslər daha çox Heydər Əliyev məruzəsinin orta və ali məktəblər sistemində ciddi nöqsanlardan, «qəribə» medalçılardan, bir çox məzunların təyinatdan yayınaraq tanışlıqla müxtəlif nazirliklərdə, idarələrdə işə düzəldiklərindən bəhs edilən hissəsinə diqqət yönəldirdilər. Əliyev konkret misallar da gətirirdi: ötən beşillikdə ümumtəhsil məktəblərinə təyinatla göndərilən 2 min 534 nəfər ali təhsilli məzun təyinat yerinə getməmişdir. Azərbaycan Dövlət Konservatoriyasının məzunlarından son üç ildə rayonlara 46 nəfər göndərilsə də, iş yerlərinə vur-tut on nəfər (!) gəlib çıxmışdır.

Heydər Əliyev öz məruzəsində ali məktəblərə qəbul zamanı neqativ halları, rüşvətxorluğu, müəllimlərin sırasında təsadüfi, kəmsavad, bəzən də əliəyri adamların yer tutmasını vurğulamış, gənclərin fiziki tərbiyəsində ciddi geriləməni nəzərə çatdırmış, bir çox elmi-tədqiqat işlərinin və hətta bütövlükdə institutların səmərəsizliyindən söz açmışdı. Məsələn, Azərbaycan elmi-tədqiqat Elektrotexnika İnstitutu on bir il ərzində öz tematikası üzrə bircə elmi işi də tətbiq etməmişdi, halbuki institutda 400 nəfər çalışır və onların elmi araşdırmalarına 3 milyon manat vəsait sərf olunmuşdu. O, namizədlik və doktorluq dissertasiyaları yazılışında konkret plagiat hallarını bildirmiş, kadr seçimində yerlibazlıq və əyalətbazlığın yolverilməzliyini qeyd etmiş, bəzi adlı-sanlı adamların övladlarının qanunsuz yollarla ali məktəblərdə, aspiranturalarda özlərinə yer tapmasını, növbədənkənar mənzil almasını və s. halları pisləmişdi.

Azərbaycanda ictimai həyatın neqativ cəhətlərinin belə qeyri-adi kəskinliklə tənqid edilməsi hətta Qərb şərhçilərinin təəccübünə səbəb olmuşdu. Belə

ki, «Azadlıq» radiosunun 11 noyabr 1971-ci il tarixli verilişində məruzənin icmalını sona yetirən jurnalist sözünü sualla tamamlayırdı:

«Əziz dinləyicilər, Azərbaycanda təhsil və mədəniyyət sahəsində vəziyyətin başqa respublikalardakından pis olduğuna inanmaq çətindir. Bu istər başqa respublikalara, istərsə də bütövlükdə sovet rejiminə xasdır. Bəs niyə yalnız Azərbaycan tənqid olunur?»

Geniş məruzənin əsas hissəsi partiyanın ideoloji, ideya-tərbiyəvi işinin yaxşılaşdırılması məsələlərinə, respublika yaradıcı ziyalıları qarşısında duran vəzifələrə həsr olunmuşdu.

Belə ki, mətbuat haqqında söz açarkən Heydər Əliyev «Azərbaycan qadını» jurnalının səviyyəsinə irad tutmuş, həmçinin «Qobustan» almanaxının (redaktoru Anar Rzayevdir) səhifələrinə «qeyri-sağlam, obıvatel meyillərinin sirayət etdiyini» bildirmişdi. «Literaturnıy Azerbaycan» jurnalında dərc olunmuş Maqsud İbrahimbəyovun «В один прекрасный день» («Günlərin bir günündə») hekayəsi haqqında da tənqidi rəy söyləyən birinci katib nəzərə çatdırmışdır ki, həmin hekayədə «müəllif namuslu rəhbər işçilərin üzərinə kölgə salmağa cəhd etmiş, ictimaiyyətimizi bişüur, prinsipsiz kimi göstərmişdir». Yazıçılardan «Dünyanın arşını» romanının müəllifi Sabir Əhmədov (romanda «sovet varlığı təhrif edilir, kolxoz həyatının kölgəli cəhətləri və nöqsanları qabardılır»), şair Xəlil Rza («ayrı-ayrı əsərlərində bizim varlığımız təhrif olunmuş şəkildə təqdim olunur, o, sanki xalqımızın həyatında baş vermiş dəyişiklikləri görmür»), eləcə də Yazıçılar İttifaqının bütövlükdə ədəbi orqanları «ideya və bədii baxımdan zəif əsərləri» dərc etdiklərinə görə tənqid olunmuşdu.

Ardınca Heydər Əliyev 1971-ci ilin iyununda Kommunist Partiyası Mərkəzi Komitəsinin Dövlət Mətbuat Komitəsinin qeyri-kafi işi haqqında bəhs edilən qərarını xatırlamış və respublikada kitab nəşri və satışının vəziyyətinin kökündən dəyişməli olduğunu qeyd etmişdi.





Həmin plenumda Azərbaycan Sovet Ensiklopediyasının fəaliyyəti də tənqidə məruz qalmışdı:

«...ASE-nin redaksiyası mövcud olduğu beş ildə bütün ensiklopediyanın nəşrinə ayrılmış məbləğin yarısından artığını xərcləmiş, hazırlanmış və 20 minlik tirajla çap olunmuş yeganə birinci cildi isə ciddi səhvlərə və kəm-kəsirlərə görə hazırda yenidən işləmək lazım gəlmişdir.

Yüksək ixtisaslı kadrları seçə, ən yaxşı mütəxəssisləri redaksiya ətrafında birləşdirə bilməmiş, material seçimində prinsipsizliyə yol vermiş ensiklopediyanın baş redaktoru yol. Rəsul Rzaya ciddi iradlar bildirilməlidir».

Azərbaycan kinematoqrafçıları da diqqətdən yayınmamış, onların işi, məruzədə deyildiyi kimi, «günün tələblərinə cavab vermir», R.İbrahimbəyovun ssenarisi üzrə çəkilmiş «Bir cənub şəhərində» filmində isə «bizim həyatımızın mənzərəsi təhrif edilmişdir».

Belə ideoloji tənbehlər müsəlman respublikalarının yaradıcı ziyalılarına daima açıq-saçıq bədgümanlıqla yanaşan Kreml «sakinlərinin» ürəyincə ola bilməzdi. Lakin yaradıcı ziyalıların ayrı-ayrı belə nümayəndələrinin başı üzərində, partiya məmurlarının canfəşanlığı nəticəsində qara buludlar sıxlaşanda, «divana çəkilmək» təhlükəsi yarananda Heydər Əliyev özü işə müdaxilə etməyi lazım bildi. KP Mərkəzi Komitəsinin ideologiya üzrə katibi Danil Piriyeviç Quliyevin Maqsud İbrahimbəyovu az qala dissidentə «çevirəcəyi» barədə mənə yazıçı özü söylədi:

### ■ *Maqsud İbrahimbəyovla söhbətdən:*

«Axundov dövründə senzura tüğyan eləyirdi. Bir pyesdə əlli düzəliş etməyincə səhnəyə yol tapmaq mümkün deyildi. Bir dəfə teatra zərərsiz-ziyansız «Gecə yarısı kim gələcək» pyesimi gətirmişdim, mənə dedilər: «Bilirsiniz, pyesinizi nəzərdən keçirtdik, burada filan şey əlavə edilməli, filan şey də çıxarılmalıdır». Mən əvvəl üzüyolalıqla hər şeyi cızıb qaralayırdım, axır-axırda:

ordeninə layiq görülmüş ilk yazıçı oldu. Böyük dramaturqun vəfatından sonra Azərbaycan Dram Teatrında İ.Əfəndiyevin «Hökmdar və qızı» pyesinə baxan Heydər Əliyev tamaşadan sonra pərdə arxasına keçib aktyor və quruluşçularla görüşdü. Bu görüşdə o, dramaturqun yaradıcılığını çox gözəl təhlil edərək vurğuladı ki, İ.Əfəndiyevin əsərlərini Azərbaycan xalqının tarixinin mühüm səhifələrini əks etdirdiyinə görə dəyərləndirir. Prezidentin qeyd etdiyi kimi, İlyas Əfəndiyevin xidməti ondan ibarətdir ki, o «xalqımızı həm tarixə hörmət bəsləməyə sövq etmişdir və bu barədə xidmətlər göstərmişdir, tarixi bilmək üçün xalqımıza yardım etmişdir, eyni zamanda yaşadığımız zamanda mənəviyyat, əxlaq, insanlıq Vətənə və millətə sədaqət ruhunu aşılamışdır… hesab edirəm ki, o, xalqımız qarşısında öz borcunu, daha doğrusu, öz missiyasını şərəflə yerinə yetirmişdir, xalqımıza, mədəniyyətimizə, teatrımıza, ədəbiyyatımıza çox böyük irs, böyük sərvətlər qoyub getmişdir…»[94]

Bir müddət sonra Heydər Əliyev İlyas Əfəndiyevin xatirəsinin əbədiləşdirilməsi haqqında fərman imzaladı. Ümumiyyətlə, onun Azərbaycan mədəniyyəti xadimlərinə son dərəcə diqqətli münasibətinə heyran olmamaq mümkün deyil! Özü də ki, prezident onlar tərəfindən hər hansı cavab jesti barədə fikirləşmirdi, öz ünvanına mədhiyyələrin əleyhinə idi. O yalnız bir şey xahiş edirdi: Azərbaycan mədəniyyətinin şöhrəti naminə layiqli əsərlər yaratmaqda davam edin…

*Bununla bağlı Heydər Əliyevin Azərbaycan «kənd nəsri»nin görkəmli nümayəndəsi – yazıçı Əkrəm Əylisli ilə münasibətlərinin tarixinə toxunmaya bilmərəm. 1997-ci ildə nasirin anadan olmasının 60 illiyi münasibətilə prezident onu «Şöhrət» ordeninə, 1998-ci ildə isə «Azərbaycanın Xalq yazıçısı» adına layiq gördü, 2002-ci ildə isə ali dövlət mükafatı – «İstiqlal» ordeni ilə təltif etdi. Mən Heydər Əliyevin 70-ci illərdə gənc yazıçıları, o cümlədən Əkrəm*

[94] Heydər Əliyev: Müstəqilliyimiz əbədidir. Bakı, 2004, 12-ci cild. S. 156.





*Əylislini ədəbi «generalların» hücumlarından, konservatorların tənqidlərindən daim müdafiə etməsindən söhbət açmışam. Lakin Əylislinin öz münasibəti belə səmimiyyətlə seçilmirdi. Belə ki, Ayaz Mütəllibovun hakimiyyəti dövründə Əylisli tanınmış Azərbaycan yazıçıları arasında H.Əliyevi və onun sovet Azərbaycanına rəhbərlik metodlarını açıq tənqid edən yeganə adam idi. Sonralar, H.Əliyevin «ulduzu» siyasi səmada yenidən parlayanda, Əylisli «valı dəyişdi», yəni mən həmişə deyirdim: belə təcrübəli siyasətçi ölkənin rəhbərliyinə qayıtmalıdır. Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələndən sonra Əkrəm müəllim onu «hər gün bizim qaranlıq nöqtələrimizi işıqlandırmağa çalışan əziz, sevimli prezidentimiz» adlandırırdı. Əylisli hər dəfə Heydər Əliyevin əlindən növbəti mükafatı alanda təmtəraqlı nitq söyləyir və prezidentə öz sadiqlik hisslərini pafosla ifadə edirdi[95].*

*Təəssüf ki, Əkrəm Əylisli ikiüzlü adam imiş – həm həyatda, həm də ədəbiyyatda. Ümummilli Lider həyatdan köçəndən sonra Əylisli son dərəcə qərəzli, Azərbaycan xalqının milli heysiyyətini təhqir edən, onu oxuyan hər bir kəsdə hiddət doğuran «Daş yuxular» romanını yazdı. Onun son romanlarındakı Heydər Əliyev obrazının özü də oxuculara neqativ işıqda təqdim edilir. Əkrəm Əylislinin yaradıcılıq bioqrafiyasındakı bu qara ləkə ömürlük onun üstündə qalacaqdır.*

Heydər Əliyevlə Tahir Salahovun çoxillik dostluğu haqqında biz artıq danışmışıq. 90-cı illərdə Heydər Əliyev yenidən respublikanın rəhbərliyinə qayıtdıqdan sonra dünya şöhrətli rəssamın vətənə get-gəli daha da sıxlaşdı, uzunmüddətli oldu. O, Heydər Əliyevi xarici səfərlərdə müşayiət edir, Bakıda

[95] Bax: Heydər Əliyev mədəni irsimizin keşiyində. I cild. S. 164-165, 383, 410 və s.

**Anar müəllim xatırlayır:** «Bir təcrübəli çekist və aparatçı kimi Heydər Əliyev anlayırdı ki, Mərkəzin umacaqları «ödənməlidir». Odur ki, guya millətçiliklə mübarizəyə başladı». Bu kitabın 2-ci cildində Anar müəllim «Qobustan» jurnalının mürəkkəb vəziyyəti haqda təfərrüatı ilə danışır...

Anarın bəzi üzdəniraq həmkarları müxtəlif idarələrə «donos»lar göndərməyə girişdilər. İş o yerə gəldi ki, «müxalif» Azərbaycan jurnalı haqqında şayiələr Moskvaya çatdı və Sov.İKP MK katibi Kapitonov hansısa müşavirədə dilə gətirdi ki, Azərbaycanda «Qobustan» adlı millətçi jurnal buraxırlar». Və Azərbaycandakı ideoloji katib bütün bu sıxma-boğmalarda öz neqativ rolunu oynamışdı.

Anar xatırlayır:

«O, Aktyorlar evində, jurnalistlərin qurultayında çıxış edirdi. Mən gecikmişdim, foyedə dayanmışam. Mənə deyirlər: «Danil Quliyev yenə də adını «hallandırdı». Moskvadan qurultaya gələn «Komsomolskaya pravda»nın müxbiri V.Peskova üz tutub deyirmiş: «Yoldaş Peskov, Moskvada cavan nasir Anarı çox tez-tez çap edirlər. Və tamamilə nahaq. Siz orada yoldaşlarınıza çatdırın ki, bu adam millətçidir». Daha bir məqam. Moskvadan hansısa böyük ideoloji müşavirədən qayıtmış Danil Quliyev ziyalıları Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsində toplayır. Çeşidli mətləblərin sırasında bu dayaz adam arsızcasına belə bir etirafını dilə gətirir: «Orada Gürcüstanı və Estoniyanı millətçiliyə görə tənqid etdilər. Bizi tərifləyib qeyd etdilər ki, Azərbaycanda yaxşı beynəlmiləl atmosfer mövcuddur. Lakin mən çıxış edib dedim: «Yoldaşlar, bu heç də elə deyil. Bizdə də millətçilik tendensiyaları var, məsələn, «Qobustan» jurnalı». Və onda məndən soruşdular: «Bəs niyə indiyədək siz jurnalın redaktorunu cilovlaya bilmirsiniz?»

Amma hökumət mətbuatında cürbəcür hücumlara, tənqid və hətta «Kirpi» jurnalında karikaturalara baxmayaraq, «Qobustan»ı qapamadılar. Hərçənd toplu, əslində, qeyri-qanuni nəşr idi, çünki Sov.İKP Mərkəzi Komitəsinin reyestrinə daxil deyildi. O zaman bütün jurnallar yalnız Sov.İKP MK reyestrinə





daxil ediləndən sonra abunə üçün «Soyuzpeçat»ın kataloqlarına qatıla bilərdi. «Qobustan»a abunə yazılmaq mümkün deyildi. O, almanax kimi, (yəni kitab statusunda) «Azərnəşr»in məhsulu kimi buraxılır, sonralar Mədəniyyət Nazirliyinin nəzdində sayılırdı. Yuxarıda sadalanan və sadalanmayan ittihamlara görə Heydər Əliyev onu hər hansı məqamda qapaya, yaxud ən azı başqa daha üzüyola redaktor təyin edə bilərdi».

Anar şükranlıqla davam edir:

«... «Qobustan»ı da, onun redaktorunu da çox bəlalardan, o cümlədən öz əli altında işləyən partiya məmurlarından qoruyan MK-nın birinci katibi Heydər Əliyev idi».

O, bir çərək əsr ötəndən sonra artıq müstəqil Azərbaycanın prezidenti olaraq, «Qobustan» dərgisinin tarixi rolunu belə dəyərləndirirdi: «Bizim milli mədəniyyətimizi, milli keçmişimizi, milli ruhumuzu o vaxtlar təbliğ edirdi. Bizim rəsmi jurnallardan fərqli olaraq bu jurnal bunları təbliğ edirdi və insanlarda milli ruhu oyadırdı, öz tarixinə, öz keçmişinə, öz mədəniyyətinə hörmət və ehtiram yaradırdı. Çünki dövr belə idi – hesab edilirdi ki, Oktyabr inqilabına qədər heç bir şey olmayıbdır, hamısı Oktyabr inqilabından sonra olubdur. Bax, o illər bu cür oyanış bizim yazıçılarımızın çox əsərlərində olmuşdur. O cümlədən «Qobustan» jurnalında. Beləliklə, Azərbaycanda bu gənc insanlar həqiqəti deyirdi, düzü deyirdi və insanları həqiqətə çağırırdı»[27].

MK birinci katibi Heydər Əliyev tabeliyində olan həmkarlarının partiya işi ilə yanaşı, elmi, ya yaradıcı fəaliyyətlə məşğul olmaq meylinə çox «sərin» yanaşırdı. Bu bir sirr deyil ki, 70-ci illərdə qondarma namizədlik, doktorluq dissertasiyalarının müdafiə edilməsi çox geniş «vüsət» tapmışdı. SSRİ-də elm üçün zərərli olan bu «alimbazlıq»la mübarizəyə ilkin olaraq Azərbaycan KP MK birinci katibi təşəbbüs göstərdi. Partiya toplantısında o dəfələrlə yüksək

[27] Heydər Əliyev mədəni irsimizin keşiyində, k. 1. S. 271.

vəzifəli məmurların öz inzibati mövqeyindən sui-istifadə edərək sifarişlə dissertasiyalar yazdırıb heç bir mənəvi haqqı olmadan, arsızcasına aldıqları elmi dərəcələr haqqında konkret misallar gətirirdi. Belə tənqidi iradlar ilk dəfə Azərbaycan KP MK-nın məşhur avqust (1969) plenumundakı çıxışında səsləndi:

«...Artıq ifrat səciyyə daşıyan bəzi rəhbər partiya, sovet, təsərrüfat işçiləri tərəfindən dissertasiyalar müdafiə etməyə meyillərin qarşısı alınmalıdır...

Bəlkə, burada iştirak edən bəzi rəhbər işçilər, rəhbər vəzifə tutan kimi, daha çox dissertasiya haqqında düşünürlər. Elə adamlar var ki, bu vəzifədə namizədlik dissertasiyasını müdafiə etməyə macal tapır və nəfəsini dərmədən, necə deyərlər, doktorluq dissertasiyasına doğru addımlayırlar.

Əgər rəhbər işçilər özləri dissertasiya hazırlayarsa, bu ya dissertasiyaya, ya da onların əsas işinə ziyan vura bilər... Daha çox əsas işlərinə ziyan dəyir, çünki dissertasiya yazmaqda onlar zirək tərpənirlər.

Açığını deyək, bu yoldaşlardan bir çoxu özləri dissertasiya yazmır, bu işə institutlardan bir sıra alimləri qoşurlar. Bu alimlər də dissertasiya hazırlayarkən hansısa şəxsi təmənna güdür ki, onlar da təmin edilir... Və bütün bunlar son nəticədə kadrlarımızın pozulmasına gətirib çıxarır».

Təəssüf ki, H.Əliyev komandasından bəziləri onun göstərişini doqmatik mənada qavrayıb, həqiqətən, elm adamı olan, Mərkəzi Komitəyə yaradıcı sahədən, elm aləmindən gəlib partiya işində çalışan əməkdaşlara «badalaq vurmağa» cəhd göstərdilər. Belə əhvalatlardan birini mənimlə söhbət əsnasında MK-nın sabiq mədəniyyət şöbəsinin müdiri Azad Şərifov xatırlayır:

«Mərkəzi Komitənin ikinci katibi Sergey Kozlov təhsilinə görə zootexnik olsa da, mədəniyyət məsələlərinə müdaxilə etməyi xoşlayırdı. Bir dəfə MK katibi Cəfər Cəfərov onu camaatın qarşısında yerinə otuzdurdu.

– Sergey Vasilyeviç, – dedi, – siz bir mütəxəssis kimi süni mayalandırmadan danışanda mən sizə maraqla qulaq asıram. Amma siz hətta rus ədəbiyyatını da bilməyərək Azərbaycan ədəbiyyatı haqqında hökm verə bilərsinizmi? Mən





bilirəm bu ideyaları qulağınıza kim pıçıldayır, siz də sonra onları Büronun rəyi kimi qələmə verirsiniz.

Təbii ki, Kozlov öz opponentindən «heyfini çıxmağa» fürsət tapdı. Bir müddət ötəndən sonra Bakıda Cəfər Cəfərovun teatr haqqında ikicildliyi çıxdı. Və Kozlov Büroda məsələ qaldırdı ki, MK katibi Cəfərov guya öz vəzifəsindən sui-istifadə edərək elmi əsərlərini nəşr etdirir.

Cəfər Cəfərov:

– Bu kitablar üç il nəşriyyatda qalmışdılar, – deyə etiraz edir, – öz növbəsini gözləyirdilər. Ola bilsin MK-ya katibliyə keçməyim onları irəliləşdirib, amma inanın ki, bu ikicildliyə otuz il sərf olunub...

Bu əsər, doğrudan da, onun bütün ömrünün əməyi idi.

Ədalət naminə qeyd edilməlidir ki, bu mübahisədə Heydər Əliyev Cəfərovu dəstəklədi:

– Sergey Vasilyeviç, siz haqlı deyilsiniz. Mən soraqlaşıb əmin oldum ki, bu kitablar nəşriyyata bir neçə il öncə təhvil verilib».

MK birinci katibi həqiqi elm adamlarının qədrini bilir, onlara hörmət bəsləyirdi, insanda hər şeydən əvvəl professionallığı qiymətləndirirdi.

MK təbliğat şöbəsinin sabiq müdiri Əfrand Daşdəmirovun fikrincə, ümumiyyətlə, Heydər Əliyevin bəhs edilən məsələdə sərtliyinin əsası vardı: partiya, idarəçilik vəzifəsində çalışarkən eyni zamanda dissertasiya yazmaq nə fiziki, nə də psixoloji baxımdan mümkün deyildi. «Əvvəllər, Mərkəzi Komitəyə gəlməmişdən qabaq zənn edirdim ki, bu, mümkündür, – Daşdəmirov deyir, – insan təpərli, güclüdürsə, öhdəsindən gələ bilər.

Amma az qala gecəbəgündüz işləyirsənsə, məsul işlə məşğul olursansa, bunu tədqiqat fəaliyyətilə bir arada aparmaq mümkün deyil».

* * *

Heydər Əliyevin «tarazlaşdırma» siyasətinin daha bir əyani nümunəsi – Azərbaycan Sovet Ensiklopediyasının baş redaktoru Rəsul Rza ilə bağlı əhvalatdır.

Ötən əsrin 60-cı illərinin ortalarında Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qərarına uyğun olaraq bütün müttəfiq respublikalarda milli ensiklopediyaların hazırlanması üzrə Baş redaksiyalar yaradılmışdı. 1965-ci ilin dekabr ayında Azərbaycan Sovet Ensiklopediyası baş redaktoru vəzifəsinə məşhur şair və ictimai xadim Rəsul Rza təyin edilmişdi. Müasirlərinin fikrincə, belə bir vəzifəyə hansısa nomenklatur işçinin, ya partiya ideoloqunun və hətta çoxsaylı elmlər doktorları, ya akademiklərdən kimisə deyil, Xalq şairi, ünlü sənət adamı Rəsul Rzanın təyin edilməsi o vaxt və indiyədək müəmma olaraq qalır. İş onda deyil ki, Rəsul müəllim, öz etirafına görə, müntəzəm təhsil almamış və tam dəyərli ali məktəb diplomuna sahib deyildi. Savada, biliyə gəldikdə isə, zəngin və geniş erudisiya, yüksək elmi təfəkkürə, redaktorluq, məsul inzibati iş təcrübəsinə (məsələn, 1944-1949-cu illərdə respublika kinematoqrafiya naziri vəzifəsində çalışmış) malik idi. ASE-nin sabiq əməkdaşı İmran Xəlilov xatırlayır: «...o dövrdə belə vəzifələrə, adətən nomenklatura qazanında qaynayıb-qarışanları, ...sovet ideologiyasını əlində dəstəvüz tutanları, hökumət dairələrinə ləbbeyk deyənləri... irəli çəkirdilər. İlahi, bəs görəsən, niyə bütün yuxarıda deyilənlərə daban-dabana zidd olan, bütün həyatı, varlığı ilə xalqa, milli tariximizə, mədəniyyətimizə, adət-ənənələrimizə bağlanan, heç nədən qorxub-çəkinmədən öz sözünü cəsarətlə, şax üzə deməyi bacaran milli qeyrətli, vətənpərvər, bir növ dissident dünyalı, xalq şairi Rəsul Rza məhz belə məsul vəzifəyə təyin olunmuşdu: bax, bu mənim üçün sirri-xudadır»[28]. Ola bilsin ki, Rəsul Rzanın təyinatında digər müttəfiq respublikalarda da milli ensiklopediyalarda baş redaktor vəzifəsinə görkəmli şairlər, Ukraynada – Mikola Bajan, Belarusiyada – Petrus Brovka, Gürcüstanda – İrakli Abaşidzenin irəli sürülməsi öz rolunu oynamışdır.

Hər necə olsa da, bizim ustad şairimiz çox ağır yükü öz öhdəsinə götürməli olmuşdu, çünki Azərbaycan tarixində «indiyədək nə ensiklopediya yaratma

[28] Yaşıl rəngin işığı. Bakı, 2000. S. 127.





təcrübəsi, nə bu işin ənənələri, nə vərdişləri, nə də kadrları vardı: Nə dəqiq terminologiya, nə bu və ya digər sahədə konkret istilahlar, nə təsdiqlənmiş coğrafi adlar. Hələ bu harasıdır, hətta Azərbaycan dilinin böyük izahlı lüğəti də yox idi. Əvəzinə həm coğrafi xəritələrlə, həm tarixi problemlərlə bağlı mübahisəli məsələlər vardı»[29].

Çox qısa müddət ərzində Rəsul Rza nəhəng bir vəzifənin həlli üçün əsl milli ensiklopediyanın yaradılmasına qatlaşan kollektiv formalaşdırmağa nail oldu. Sovet dövrünün partiya-ideoloji buyuruqlarına rəğmən, Rəsul Rza Azərbaycan xalqının Oktyabr inqilabınadək nə öz mədəniyyəti, nə öz keçmişinə malik olmayan, geridə qalmış bir millət kimi göstərilməsinə yönəlmiş naqis tendensiyanın əleyhinə idi. O, əsəbi halda öz həmkarlarına üz tutub deyirdi: «Bəs Nizami, Xaqani, Nəsimi, bəs Şah İsmayıl, Mirzə Fətəli Axundov, Sabir? Yəni onları da Oktyabr inqilabı yetişdirmişdir?»

Odur ki, R.Rza kollektivi tərəfindən hazırlanmış ASE-nin ilk cildlərinə Azərbaycan xalqının, daha geniş ölçüdə – bütün türkdilli dünyanın, bolşeviklər tərəfindən «müsavatçı», «xalq düşməni», bir sözlə, «yad ünsürlər» kimi damğalanmış bir çox görkəmli xadimlərinin adları daxil edilmişdir. Yeri gəlmişkən, müxtəlif partiya xadimlərinə, xüsusən milliyyətcə erməni olanlara, birinci cilddə yetərincə «darısqal» yer verilmişdir. Sabiq əməkdaşlardan kimsə diqqətcilliklə hesablamışdı ki, birinci cilddə azərbaycanlılar haqqında 180, ermənilər haqqında isə cəmi 15 məqalə dərc olunmuşdu. Amma sonralar bu rəqəmlər müvafiq olaraq 150-dək və 51-dək dəyişdirilmişdi.

Bundan başqa, Rəsul Rza hesab edirdi ki, ensiklopediyada azərbaycanlıların sıx yaşadıqları Ermənistan və Gürcüstan yaşayış məntəqələri və kəndlərinin həqiqi, azərbaycanca olan adları geniş əks edilməlidir. Bu yanaşma ələlxüsus ona görə aktual idi ki, Ermənistanda və qismən Gürcüstanda qədimdən bəri türkcə adlanan kəndlərin, çayların, dağların, dağ aşırımlarının adlarını

[29] Anar. Sizsiz. Əsərlər. Bakı, 2006, c. 3. S. 66.

tələsik dəyişdirməyə başlamışdılar. ASE Baş redaksiyanın məsul katibi Arif Hüseynovun xatirələrinə görə, «Baş redaktor Ermənistanın və Gürcüstanın müvafiq təşkilatlarına həmin respublikaların Azərbaycan yaşayış məntəqələri haqqında inzibati-ərazi bölgüsünə uyğun olaraq ASE kollektivinə məlumat çatdırılması barədə xahişlə məktublar yollamağı tapşırmışdı. Əlavə material toplamaq üçün isə müttəfiq respublikalara yerli dilləri bilən əməkdaşlarımız ezam edilmişdilər»[30].

Eyni patriotik mövqedən ensiklopediya əməkdaşları Azərbaycan dili və respublikada yaşayan millətlərin, xalqların etnik tərkibi, milli adət və ənənələri, milli xörəklər və s. haqqında məqalələrin yazılmasına yanaşırdılar. «Sağ»dan və «sol»dan təzyiqlərə baxmayaraq, Rəsul Rza ensiklopediyada «azəri» anlamını – «azəri xalqı», «azəri dili» və s. daxil etməyi zəruri hesab edirdi. O, haqlı olaraq belə dəlil gətirirdi ki, «azərbaycanlı» deyəndə Azərbaycanda yaşayan rus da, gürcü də, başqa millətin nümayəndəsi də nəzərdə tutula bilər. «Azəri» anlamında isə məhz «azəri» xalqının adı təsdiqlənir. Bu problemlərlə bağlı tanınmış tarixçilərin, dilçilərin iştirakı ilə ASE Baş redaksiyasının ikigünlük müşavirə çağırmasına və qızğın mübahisələr nəticəsində «azəri» termininin elmi anlayış kimi qəbul edilməsinə baxmayaraq, bu termin ensiklopediyanın sonrakı nəşrlərindən istisna edildi.

1970-ci ildə, yəni işə başlanmasından dörd il ötəndən sonra ASE əməkdaşları I cildi və Azərbaycana həsr olunmuş xüsusi cildi hazırladılar. Azərbaycan SSR-in 50 illiyi ərəfəsində birinci (sonralar «Yaşıl cild» adı ilə şöhrətlənmiş) cild 20 minlik tirajla buraxıldı. Lakin Azərbaycan Elmlər Akademiyasının prezidenti H.Abdullayev başda olmaqla, akademiyanın müxbir üzvləri, akademiklər qatıldığı səlahiyyətli komissiyanın tamamilə müsbət rəyinə baxmayaraq, I cild satışa buraxılmadı. Sonralar yüksək rütbəli partiya məmurları, həmin alimlərin mövqeyini «prinsipsiz» kimi pisləyəcəklər.

[30] Yaşıl rəngin işığı. S.151.





«Yaşıl cild»də bir çox texniki səhvlər və kəm-kəsirlərdən əlavə, prinsipial mahiyyətli nöqsanlar da yer almış, onları düzəltmək təklif edilmişdi. Eyni zamanda Azərbaycan KP Mərkəzi Komitəsinə, Sov.İKP MK-ya və Böyük Sovet Ensiklopediyası baş redaksiyasına çoxsaylı rəylər, məktublar, bəzən isə açıq-aşkar «donos»lar axışdı, onların müəllifləri ASE kollektivinin işinə qara yaxmağı, «ipə-sapa yatmayan» baş redaktorun bostanına daş atmağı özlərinə «müqəddəs» borc bildilər... Moskvada BSE-nin Baş redaktor müavininin Azərbaycanın üzdəniraq «dostu» Levon Stepanoviç Şaumyan olduğunu yada salsaq, bütün qarayaxmaların və «donos»ların münbit zəminə düşdüyünü təsəvvür etmək olar...

Rəsul Rza iradların əksəriyyətilə razılaşmayaraq, öz mövqeyini müdafiə edərək və haqlı olduğunu anlatmağa çalışaraq müxtəlif idarələrə cavablar yazırdı. Xalq şairinin «tərsliyi» «səlahiyyətli yoldaşları» daha da çox cırnadırdı. Axırda məsələ Sov.İKP MK nəzdində Partiya Nəzarəti Komitəsinə çatdı. Oradan xüsusi komissiya göndərildi və 1975-ci ilin 10 sentyabrında Azərbaycan KP MK-ya Sov.İKP MK nəzdində PNK-nın məsul nəzarətçisi A.V.Sokolovun imzası ilə «ASE Baş redaksiyasında işlərin qeyri-qənaətbəxş vəziyyəti haqqında məktubun yoxlanılmasının nəticələri» daxil oldu.

Azərbaycan KP MK-nın müvafiq şöbəsi, öz növbəsində, «ASE Baş redaksiyasının işində ciddi nöqsanlar haqqında» arayış hazırlayıb Heydər Əliyevin masası üzərinə qoydu; bu yazıda, o cümlədən, aşağıdakılar deyilirdi:

«ASE-nin birinci cildində... zəhmətkeşlərin beynəlmiləl və vətənpərvərlik tərbiyəsinə yardım edən materialların, ölkəmizdə inkişaf etmiş sosializmin tarixi nailiyyətlərinin təbliğinin lazımınca qiymətləndirilməməsi özünü büruzə verir. ASE-nin birinci cildindəki məqalələrdə inqilabi hərəkat tarixi, Azərbaycan zəhmətkeşlərinin sovet hakimiyyəti uğrunda mübarizəsi və xüsusən, respublikada sosializm və kommunizm quruculuğu tarixi üzrə məsələlər səthi işıqlandırılmışdır.

Cilddə Sovet İttifaqının bir sıra görkəmli partiya, ictimai, elm və mədəniyyət xadimləri, Böyük və Kiçik sovet ensiklopediyalarında həyat və fəaliyyətləri əksini tapmış başqa ölkələrin mütərəqqi xadimləri haqqında məqalələr yoxdur.

Elmi və siyasi baxımdan birinci cilddə Azərbaycan haqqında iki məqalənin – «Azərbaycan» və «Azərbaycan SSR» dərc edilməsi qeyri-düzgün görünür. Azərbaycan tarixinin bəzi təməl məsələləri üzrə müddəalara məhəl qoymayaraq, tarixi həqiqətə rəğmən, ASE rəhbərliyi, «azəri» terminini Azərbaycan xalqının təsdiqlənmiş soyadı kimi qələmə verərək, onu BSE redaksiyasına sırımağa cəhd göstərmişdir»[31].

Arayışda Azərbaycan SSR Elmlər Akademiyasının Rəyasət Heyəti, həmçinin şöbələri tənqid edilmişdi.

«Respublika Elmlər Akademiyasının bəzi rəhbər işçiləri ASE hazırlanması və nəşri üzrə işdə ciddi nöqsanlara qarşı prinsipsiz, barışdırıcı mövqe tutmuşlar. Buna, o cümlədən komissiyanın və Azərbaycan SSR EA ASE-nin birinci cildini bəyənmiş və çap olunmasına zəmanət vermiş 8 fevral 1971-ci il tarixli rəyi dəlalət edir...»[32].

Rəsul Rza sonadək mübarizə apardı. O, Sov.İKP MK nəzdində Partiya Nəzarəti Komitəsi sədri A.Pelşeyə ətraflı cavab göndərib Sokolovun ASE kollektivinin işinin «özbaşına» buraxması» haqqında iddiaları ilə razılaşmadığını bildirdi:

«Məlumdur ki, ASE kollektivi nəhəng iş görmüş, ensiklopediyanın 1, 2, 3, qismən 4-cü və 5-ci cildlərini, həmçinin Azərbaycan və rus dillərində xüsusi cild hazırlanmışdır. 60 min söz və terminlərdən ibarət sözlük nəşr edilmişdir. Onu da nəzərə almaq lazımdır ki, respublikada ensiklopediya nəşri təcrübəsi yox idi və terminologiya və toponimika bərbad vəziyyətdə idi. Baş redaksiya

[31] Государственный архив политических партий и общественных движений АР (ГАППОД). Фонд 1, опись 62, дело 96, л.78-79.

[32] Там же, л. 82.





respublikanın şəhər və kəndlərinə onlarla əməkdaşlarını ezam etmiş və onların topladığı material məhz bizim tərəfimizdən yazıya alınmışdır. ASE onlarla tarixi və coğrafi xəritə hazırlayıb buraxmışdır. Əgər bütün bunlar yol.Sokolovun təbirincə, «özbaşına iş» adlanır, bəs onda gərgin, faydalı və mütəşəkkil iş nə deməkdir?»

ASE Baş redaktorunun bütün rəylərinə baxmayaraq, onun aqibəti həll olunmuşdu. Oktyabrın 22-də Rəsul Rza Qafqazyanı ensiklopediyaçıların elmi konfransının keçirildiyi Yerevandan təcili olaraq Bakıya çağırıldı.

Bakıda MK-nın ideologiya üzrə katibi D.Quliyev tərəfindən qəbul olundu və ona bildirildi ki, ASE Baş redaksiyasının fəaliyyəti haqqında məsələ MK Bürosunda müzakirə ediləcək. MK birinci katibi Heydər Əliyevlə söhbət zamanı Rəsul müəllim Büro iclasına qatılmaması üçün icazə istəyir. Əliyev təəccüblənsə də, öz razılığını verir.

**Azərbaycan Kommunist Partiyası**
**MK Bürosunun 24 oktyabr 1975-ci il tarixli,**
**139 saylı iclasının protokolundan:**

*«ASE Baş redaksiyasının işində ciddi nöqsanlar haqqında.*

...Yol verilən intizamsızlıq nəticəsində ayrı-ayrı cildlərin hazırlanma və buraxılış müddətləri pozulmuş və indiyədək ensiklopediyanın heç bir cildi çapdan çıxmamışdır. Eyni zamanda ASE-yə bu illər ərzində xərclər 3.230 min manat təşkil etmiş, yaxud ensiklopediyanın bütövlükdə nəşrinə nəzərdə tutulmuş məbləğdən 550 min manat artıq olmuşdur.

ASE Baş redaksiyasının işində ciddi nöqsanların olması bütün əyaniliyi ilə ensiklopediyanın çap olunmuş birinci cildində üzə çıxmışdır. Onun bəzi məqalələrində ideya yanlışlıqları və səhvlərə, subyektivizmə, ictimai və tarixi hadisələrə qeyri-sinfi yanaşmaya yol verilmişdir. Xarici ensiklopediyalardan alınmış terminlərə və adlara əsassız aludəçilik özünü büruzə vermişdir. Azərbaycanda inqilabi hərəkatın tarixi səthi işıqlandırılmış, bir çox görkəmli

inqilabçılar, Azərbaycan partiya təşkilatının xadimləri haqqında məqalələr yoxdur. Azərbaycan Kommunist Partiyasının müasir mərhələdə fəaliyyəti ensiklopediyada lazımi əksini tapmamışdır.

Bu səbəbdən ASE birinci cildinin buraxılışı dayandırılmışdır».

Azərbaycan KP MK-nın qərarında deyilirdi:

«1. Azərbaycan Sovet Ensiklopediyasının buraxılışa hazırlanması işində ciddi nöqsanlara, bu işlə rəhbərliyin lazımi səviyyəsini təmin etmədiyinə görə yol. R.İ.Rzayev ASE baş redaktoru vəzifəsindən, yol. R.K.Hüseynov – ASE baş redaktorunun müavini vəzifəsindən azad edilsinlər.

2. ASE baş redaktoru vəzifəsinə Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü yol. C.B.Quliyev təsdiq edilsin».

Daha sonra qərarda Mərkəzi Komitəyə təsdiqlənmə üçün ASE Baş redaksiyasının Redaksiya Şurasının yeni tərkibi (Rəsul Rza siyahıya daxil edilməmişdi) və redaksiya tərkibinin «səriştəli kadrlarla möhkəmləndirilməsi, ASE hazırlanması və nəşri işinə görkəmli alim və mütəxəssislərin cəlb edilməsi» təklif olunurdu.

Dövlət Nəşriyyat Komitəsi və Baş redaksiya qarşısında ASE-nin tam nəşrini 1976-1982-ci illər ərzində başa çatdırmaq vəzifəsi qoyulurdu[33].

Ədalət naminə deməliyik ki, əvvəllər Azərbaycan EA Tarix İnstitutunun direktoru vəzifəsində işləmiş Cəmil Quliyev ASE-nin Baş redaktoru təyin olunandan sonra ensiklopediyanın cildləri birbəbir çıxmağa başladı. Bu cildlərdə bir çox məqamlar marksizm-leninizm ideologiyası hökmlərinə və «proletar beynəlmiləlçiliyi prinsiplərinə» uyğun «hamarlaşdırılsa» da, hər halda beş cildin əsasını Rəsul Rzanın ensiklopediyaya başçılıq etdiyi dövrdə əməkdaşların hazırladığı materiallar təşkil edirdi.

[33] Государственный архив политических партий и общественных движений АР (ГАППОД). Фонд 1, опись 62, дело 94, л. 13-17.





Azərbaycan mədəniyyəti tarixində bu dramatik epizoddan belə ətraflı bəhs edərək, mən kimlərisə ittiham etmək, yaxud damğalamaq niyyətində deyiləm. Bütün bunlar çox mürəkkəb olan o dövrün reallıqları idi. Heydər Əliyev, doğrudan da, çox çətin seçim qarşısında qalmışdı, bir tərəfdən xalq şairinin, həqiqətən, ümummilli ensiklopediya yaratmaq əzmi birinci katibin ürəyincə idi. Digər tərəfdən, o dərk edirdi ki, rəsmi meyarlar baxımından çap olunmuş cildin «siyasi yetkinsizliyi» Azərbaycan üçün davamlı neqativ nəticələrə səbəb ola bilər. Onun nəzərləri qarşısında Xruşşov iqtidarının «Azərbaycan millətçiliyi» haqqında bədnam qərarının kabusu boylanırdı...

Sov.İKP MK nəzdində Partiya Nəzarəti Komitəsinin mənfi arayışından sonra Heydər Əliyev özü ölçü götürmək məcburiyyətində qalmışdı, əks təqdirdə ölçü götürəsi (həm də daha sərt ölçü) Moskva olacaqdı. Həm də Azərbaycan ensiklopediyası ətrafında qalmaqal şişirdilib elə həddə çatmışdı ki, «birinci» bunu sadəcə cavabsız qoya bilməzdi.

Heydər Əliyevə Sov.İKP Mərkəzi Komitəsindən, Böyük Sovet Ensiklopediyasının Baş redaksiyasından «təzyiq» göstərirdilər. Zənnimcə, o, tərəddüd, götür-qoy etmiş və qəti qərarın qəbul edilməsini uzatmışdır. Qərara gəldikdə isə, ilk növbədə Rəsul Rzanın Baş redaktorluqdan kənarlaşdırılmasının onun yaradıcı fəaliyyətinə xələl gətirməməsi üçün qayğısını əsirgəməmişdir. Bu baxımdan ensiklopediyanın sabiq işçisi Nəriman Həsənəlinin xatırladığı epizod daha diqqətəlayiqdir:

«Rəsul müəllim işdən çıxarıldığı gün mən Azərbaycan Yazıçılar İttifaqının birinci katibi, xalq yazıçısı İmran Qasımovun yanında oldum. O mənə dedi ki, indicə respublika rəhbərliyi ilə danışmış və ona bu axşam Rəsul Rzaya baş çəkməyi tapşırmışlar. Ardınca İmran Qasımov əlavə etdi: «O (yəni Heydər Əliyev) ...dedi ki, Rəsul Rza xalqımızdan, milli mədəniyyətimizdən ayrılmazdır. Bu bütün nəşriyyatların və redaksiyaların nəzərinə çatdırılmalıdır. Heç kim onun yaradıcı inkişafına mane olmamalıdır!»[34]

[34] Yaşıl rəngin işığı. S. 89.

Bu sözlər görkəmli şairi gözümçıxdıya salmaqda davam etməyə hazır olan bir çox bədxahların köpünü yatızdırdı... Bir müddət sonra, ASE ətrafında hay-küy səngiyəndən sonra Rəsul Rza yenə də Azərbaycan SSR Ali Sovetinə deputat seçilmiş, özünün 70 illiyi münasibətilə də SSRİ-də ən yüksək ada – Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdü.

1980-ci il dekabrın 4-də bu mükafatı Ali Sovetin binasında şairə təqdim edən Heydər Əliyev onu «sovet ədəbiyyatının görkəmli nümayəndəsi» və «Azərbaycan sovet poeziyasının banilərindən biri» adlandırmışdı.

Cavab nitqində Rəsul Rza məmnunluqla özünü «Azərbaycanın ən xoşbəxt övladlarından biri» saydığını bildirmişdi.

2001-ci ilin 25 dekabrında Respublika Sarayında Rəsul Rzanın 90 illiyi təntənəli şəkildə qeyd olunurdu. Gecədə ölkə prezidenti Heydər Əliyev, hökumət nümayəndələri, ictimaiyyət iştirak edirdilər. Görkəmli şairin oğlu Anar öz çıxışında atasına qarşı Moskvaya yazılan donosları, «pantürkizm, millətçilik, antisovet təzahürlər» haqqında ittihamları xatırladıb qeyd etdi ki, belə bir şəraitdə Heydər Əliyev şairə Sosialist Əməyi Qəhrəmanı adı verilməsinə nail olmuş və bu da Əliyev tərəfindən göstərilən «siyasi cəsarət» demək idi. Bəziləri indi belə adlar xatırlananda ağızlarını büzürlər, – Anar rişxəndlə bildirdi. – Amma bu sadəcə sinəüstü nişan deyildi, «belə adlarla mükafatlandırma Azərbaycanın nüfuzunun qaldırılması demək idi. Azərbaycan mədəniyyətinin ümumittifaq miqyasda təsdiqlənməsi demək idi»[35].

Bu məqamları «Deyirdim ki, bu quruluş dağılacaq» kitabında Azərbaycanın sabiq prezidenti Əbülfəz Elçibəy də xatırlayırdı. Onun fikrincə, Azərbaycan xalqının vətənpərvərlik, azadsevərlik hissiyyatının inkişafında 60-70-ci illərin milli ədəbiyyatı önəmli rol oynamışdır. Və Heydər Əliyev, Əbülfəz Elçibəy etiraf etdiyi kimi, yazıçılara «liberallıq»la yanaşırdı. Bundan əlavə, «əvvəllər tənqid elədiyi adamların hamısına sonradan həm vəzifə verdi, həm müdafiə

[35] Anar. Mübarizə bu gün də davam edir. Bakı, 2002. S. 501





etdi, həm də Sosialist Əməyi Qəhrəmanı adı verdi və sair. Beləliklə də, «Azərbaycanda yeni bir millətçilik, bir düşmənçilik var» sözünü götürtdü (ab-havanı yumşaltmaq məqsədilə)»[36].

*Yeri gəlmişkən, 70-ci illərdə Heydər Əliyev Sosialist Əməyi Qəhrəmanı adının Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov, Tahir Salahov, Rəsul Rza, Süleyman Rəhimov, Süleyman Rüstəm, Mirzə İbrahimov, Mikayıl Hüseynov kimi sənətkarlara və mədəniyyət xadimlərinə verilməsinə nail olmuşdu. Bir dəfə kimsə qeyd etmişdi ki, Azərbaycanda mədəniyyət sahəsində Sosialist Əməyi Qəhrəmanlarının sayı Ukraynada – Baş katibin vətənində – olanlardan da çoxdur. Hələ onlarla istehsalat qabaqcılları, alimləri, dövlət xadimlərinin qəhrəman adına layiq görüldüyünü demirik. Sonralar bu yüksək adlara necə «yol açdığını» xatırlayaraq Heydər Əliyev demişdir:*

*«Belə qısa müddət ərzində Azərbaycan ziyalılarının böyük bir dəstəsinə ən yüksək mükafatların verilməsi bütün xalqın hörmətini artırmışdır... Deyə bilərəm ki, 70-ci illərdə Azərbaycanın ümumittifaq və dünya miqyasında nüfuzu xeyli yüksəlmişdir»*[37].

Rəsul Rzanın başına gələn əhvalat o dövr üçün tamamilə adi olan iş idi. O illərdə vəzifənin aşağı salınması, ideoloji «sapıntılara» görə müxtəlif partiya cəzaları SSRİ-də yetərincə çox təsadüf edilən hal idi. A.Qraçov xatırlayır ki, bir dəfə Böyük Sovet Ensiklopediyasının növbəti cildinin redaktorunu sərt cəzalandırmışdılar, nə var-nə var ki, trotskizm haqqında mütləq tənqidi məqalə ilə yanaşı, o, Trotskinin qısaca tərcümeyi-halını da dərc etməyə cəhd göstəribmiş,

[36] Elçibəy Ə. Deyirdim ki, bu quruluş dağılacaq. Bakı, 1992. S. 43.
[37] Ulduz. 1990. № 6. S. 70.

– bunu da ideoloji təxribat saymışlar. «Komsomolskaya pravda»nın ABŞ-də xüsusi müxbiri vəzifəsində çalışan tanınmış jurnalist Aleksandr Pumpyanski bircə mülahizəsinə, yəni Birləşmiş Ştatlarda «milyonçular daha nadir hal deyillər» fikrini dilə gətirdiyinə görə təcili olaraq Amerikadan geriyə çağırılmışdı.

Ümumiyyətlə, 70-ci illərdə mətbuat səhifələrinə, partiya liderlərinin dilinə bir qədər unudulmuş, çeynənmiş «kommunist» ritorikası yenidən qayıtmışdır. Milli respublikaların partiya liderləri, sərt ideoloji çərçivələrdə işləməli olaraq, bəzən bizim bu gün «ikili əxlaq» adlandırdığımız davranışa yol verməк məcburiyyətində qalırlar. Bizim qəhrəmanımız da, xüsusən respublikanın partiya rəhbəri olduğu ilk dövrdə bu ikiləşmədən yayına bilməmişdi. Çox sonralar, müstəqil Azərbaycanın prezidenti olarkən, o, etiraf edirdi ki, Kremli qıcıqlandırmamaq üçün dolama getməyə, ustufca hərəkət etməyə məcbur olurdu:

«DTK-da işləyərkən mən çox şeylər görmüşdüm. İlk günlərdən Moskvanın türkdilli millətlərə qarşı apardığı birtərəfli siyasətin şahidi oldum. Və buna qarşı daxilən üsyan etsəm də, mən həyatda öz hisslərimi büruzə verə bilməzdim. Azərbaycan KP MK-nın birinci katibi olaraq, mən Moskva siyasətinə qarşı çıxış edə, Mərkəzlə münaqişəyə girişə bilməzdim. Moskva bir bütöv imperiya siyasətini yeridirdi. Mən onların əleyhinə getsəydim, birincisi, bundan bir şey çıxmayacaqdı, ikincisi isə, Əliyevi, ölkənin başqa katibləri kimi, məhv edəcəkdilər. **Mən xalqın, doğma millətin milli duyğularını tədricən oyatmağa başladım. Arzulayırdım ki, Azərbaycan türklərinin milli hissiyyatı, milli oyanışı reallığa çevrilsin.** Lakin bunu mən asta-asta edirdim ki, Moskvanı narahat etməyim, cırnatmayım».

Həqiqətən də, birinci katib Heydər Əliyevin yazıçılarla rəsmi forumlarda və qeyri-formal şəraitdə ünsiyyətinə diqqət yetirəndə tamamilə fərqli məna vurğuları nəzərə çarpır. Yaradıcı ziyalılar qarşısında rəsmi çıxışlarında o, söz ustalarını burjua saxtakarçılara və imperializm agentlərinə qarşı fəal mübarizəyə, beynəlmiləlçilik, sarsılmaz xalqlar dostluğu ideyalarının təbliğinə çağırmağı unutmurdu. Demək olar, onun bütün partiya plenumları və müşavirələrindəki





çıxışlarında rus dilinin əhəmiyyətindən bəhs edilir, rus dilinin şəninə sözlər səslənir, bu dilin orta və ali məktəbdə tədrisini yaxşılaşdırmaq tələbi irəli sürülür. Belə ki, 1973-cü il aprelin 19-da zəhmətkeşlərin məfkurəvi və beynəlmiləl tərbiyəsinə həsr olunmuş partiya fəalları yığıncağında o bildirirdi:

«Bu yaxınlarda Azərbaycan KP Mərkəzi Komitəsi ümumtəhsil məktəblərində rus dili tədrisinin daha da yaxşılaşdırılması üzrə tədbirlər haqqında qərar qəbul etmişdir. Rus dili və ədəbiyyatı üzrə Azərbaycan Pedaqoji İnstitutu yaradılmışdır». Heydər Əliyevin fikrincə, respublikada ixtisaslaşmış rus dili müəllimləri, xüsusən kənd yerlərində hələ az olduğundan yeni yaradılmış institut qısa müddətdə bu boşluqları doldurmalıdır. Sözügedən partiya aktivində o, kütlələrə rus dilini mənimsəməkdə kömək məqsədilə televiziya və radio imkanlarından daha geniş faydalanmağı təklif edir.

Bununla yanaşı, respublika yazıçıları ilə üz-üzə, ayrı-ayrılıqda söhbət edərək, birinci katib Azərbaycan dilinin milli şüurun təşəkkülündə rolu və əhəmiyyəti haqqında onu düşündürən mövzuya dönə-dönə qayıdır. Tanınmış Azərbaycan nasiri və dramaturqu Elçin Əfəndiyev bununla bağlı maraqlı xatirələrini mənimlə bölüşdü:

«1975-ci ildə, mənim Azərbaycan Yazıçılar İttifaqı katibi seçilməyim ərəfəsində Heydər Əliyevlə ilk şəxsi görüşüm oldu. O, mənimlə çox açıq danışdı. Onun «millilik» adlandırdığımız cəhəti məni heyrətləndirdi. Məsələn, o deyirdi: «1937-ci ildə Azərbaycan ziyalılarını kökündən qırırdılar, amansızcasına məhv edirdilər, – bunu deyərkən dönə-dönə Hüseyn Cavidin adını təkrarlayırdı, – indiki Azərbaycan ziyalıları Stalin dövründə formalaşmış ziyalılardır. Və onlarda həmişəlik qorxu qalıb. Yaşlı nəsil nümayəndələrinin əsərlərində beynəlmiləlçilik hissi... həddindən artıq hipertrofikdir. Mən istəyirəm ki, sizin nəsliniz milli zəminlə, Azərbaycan nağılları, Azərbaycan folkloru ilə daha sıx bağlı olsun». Və daha bir şey yadımda qalmışdır ki, o, bizim yazıçılarımız haqqında necə də hörmətlə danışırdı, yəni xalq üçün Azərbaycan dilini qoruyub saxlayan onlardır. Məndən soruşdu ki, Azərbaycan məktəbini bitirmisənmi? Əlbəttə, – cavab ver-

dim. «Bax, görürsən. Azərbaycan yazıçılarından savayı, ziyalıların qalan hissəsinin uşaqları, bir qayda olaraq, rus məktəbində oxumuşlar. Sən isə – Azərbaycan məktəbində, Anar – Azərbaycan məktəbində, Süleyman Rəhimovun övladları da və ilaxır. Mən istəyirəm ki, siz cavanlar cəsarətlə, kəskinliklə, heç nədən və heç kimdən qorxmadan yazasınız. Bir şey olarsa, birbaşa mənə müraciət edin».

Lakin Heydər Əliyev yazıçılara doğma dili qorumaq və inkişaf etdirməyə aid çağırışlarla kifayətlənmirdi. O özü də bu istiqamətdə hərəkət edirdi, həm də çox vaxt o dövr üçün başa bəla gətirəcək addımlar atırdı. Əbülfəz Elçibəy yuxarıda xatırladığımız kitabında yazırdı ki, 70-ci illərdə onun Heydər Əliyevə münasibəti, MK birinci katibi iki mühüm işi əmələ yetirəndən sonra dəyişməyə başlamışdır. Birincisi, ilk dəfə olaraq bir qrup dilçi alimə dövlət mükafatı verdirdi. Söhbət «Müasir Azərbaycan dili» dördcildliyindən gedir.

«...Mükafatın verilməsi o demək idi ki, Azərbaycan dilçilərinin nüfuzu qalxır... Axı millətin təfəkkürünü inkişaf etdirməyə dilçilər başlayır. Bu baxımdan mükafatın çox xeyri oldu. Mükafat verilən kimi dilimizin işlədilməsi genişlənməyə başladı. Bu, çox təbiidir, o zaman eləydi – nəyə mükafat verilsəydi, həmin sahə inkişaf etdirilməliydi.

...Bu, Heydər Əliyevin xidməti idi. Və bir də akademik Ziya Bünyadovun «Azərbaycan Atabəylər dövləti» əsərinə dövlət mükafatı verdirməsi. Vaxtilə Ziya Bünyadova «millətçi», «şovinist» deyə hər cür damğalar vururdular və indi o, alimi bütün hücumlardan qorudu, yəni siz, ermənilər ki, həmişə Ziyaya «millətçi» deyirdiniz, indi alın – o, dövlət mükafatı laureatıdır. Vaxtilə Heydər Əliyev Ziya Bünyadovu tənqid etmişdi. Ermənilər bundan istifadə edib yazırdılar ki, hətta Azərbaycan KP MK-nın birinci katibi belə onu tənqid edib (və Ziyanı beləcə vururdular). Bu mükafatdan sonra isə ermənilər təzədən yazdılar ki, Heydər Əliyev millətçidir – o, millətçi Ziya Bünyadova dövlət mükafatı verdirib»[38].

[38] Elçibəy Ə. Deyirdim ki, bu quruluş dağılacaq. S. 42.





Birinci katibin belə hərəkətləri, «yuxarıda», əlbəttə, birmənalı qarşılanmasa da, onun yaradıcı ziyalılar qarşısında nüfuzunu, hörmətini artırırdı. Yazıçı Mövlud Süleymanlı 70-ci illərin ikinci yarısında respublika Yazıçılar İttifaqının dəvətilə Bakıya gələn gürcü şair-tərcüməçi Zezva Medulaşvili ilə görüşünü, ünsiyyətini xatırlayır. Mövluda tapşırmışdılar ki, qonağı Azərbaycan paytaxtının görməli – görklü yerləri ilə tanış etsin. Zezva Azərbaycan xalq nağıllarını, «Koroğlu» dastanını gürcü dilinə tərcümə etməklə məşğul olmuş, Azərbaycan dilini də, erməni dilini də yaxşı bilirmiş.

«İçərişəhəri dolaşdıq, Dağüstü parkdan Bakını seyr etdik...

Bakı, doğrudan da, bir neçə ilin içərisində dəyişmişdi...

Qonaq baxdı-baxdı, gözləmədiyim halda dedi:

– Bilirsiniz, siz niyə belə sürətlə inkişaf edirsiniz?!

– İnkişaf edirik ki bəyəm?! – təəccübümü gizlədə bilmədim.

– Siz görməsəniz də böyük inkişaf mərhələsi keçirirsiniz, – dedi. – Uzaqdan hər şey yaxşı görünür.

– Bəs inkişafımızın səbəbi nədir? – soruşdum.

– Sizin birinci katibiniz millətçidir, budur səbəb.

Dedim:

– Hörmətli Zezo, hamı sizə millətçi deyir, sizsə...

Dedi:

– Hamının millətçi olmağı başqa şeydir. Bir də ki, bizimkilər ancaq danışarlar, iş görməzlər. Sizinki isə danışır, amma dilindəki işi yox, ürəyindəki işi görür.

Bu söz gözlənilməz olsa da, mən fəxr etdim və qürur duydum...

Biz çox vaxt uzaqların – qonşuların belə yaxşı gördüyü həqiqəti görmək istəmirik. Ancaq görməmək mümkün deyil, sadəcə görüb göz yumuruq...

...Əbülfəz Elçibəyin bir söhbətini xatırlayıram: «Türkiyə radiosunu dinləyirdim, veriliş Heydər Əliyevə həsr olunmuşdu, jurnalist belə bir cümlə işlətdi: «Azərbaycanda doğulmuş türk çocuğu Haydar Əliyev Kremli fəth ediyor...»

Sonra əlavə elədi: «XX əsrdə türk dünyası iki böyük şəxsiyyət yetirib: Mustafa Kamal Atatürk və Heydər Əliyev...»

Mənə elə gəlir ki, Heydər Əliyevin yaradıcı ziyalılarla, xüsusən Azərbaycan yazıçıları ilə (bəstəkarlar, rəssamlar – nisbətən daha «kosmopolitik» ifadə vasitələri ilə üzləşən və işləyən sənətkarlardır) ünsiyyəti onun özünün dünyagörüşünə, dünyaduyumuna müsbət təsir göstərmişdir. A.Karaulova verdiyi müsahibəsində o etiraf edirdi ki, yaradıcı insanlarla münasibətləri «daima məhrəm olmuş», çünki «buna daxili ehtiyac duyurdu». O, MK-nın birinci katibi olduğu dövrdə isə bu münasibətlər «genişlənmiş və möhkəmlənmişdir».

Cəsarətlə deyə bilərəm ki, yazıçılarla ülfəti, dostluğu Heydər Əliyevin özünü, öz daxili aləmini bir çox cəhətdən dəyişdirmiş, bilgi üfüqlərini genişləndirmiş, ən başlıcası isə – onda sovet partiya rəhbərlərinin dargöz mühafizəkarlığına qarşı davamlı əleyhdarlıq hissi yetişdirmişdir.

O dövrdə Azərbaycan ədəbiyyatında, hətta ümumittifaq ölçülər müqabilində də güclü-təpərli «altmışıncılar nəsli», XX qurultayın doğurduğu ab-havanın övladları meydana çıxmışlar. Əli Kərim, Anar, Elçin, Əkrəm Əylisli, Sabir Əhmədov, Yusif Səmədoğlu, Fikrət Qoca, İsa İsmayılzadə, Mövlud Süleymanlı və bir sıra başqa qələm sahibləri öz milli təəssübkeşliyi, haqsevərliyi və yenilikçi ruhu ilə fərqlənirdilər. Onlarla ünsiyyətdə olmuş, yaradıcılıqları ilə tanış olmuş, 70-ci illərdə «Azərbaycan», «Ulduz» jurnallarında dərc edilən əsərlərdən ən bariz və yaxşı nümunələri oxuyan Heydər Əliyev marksizm-leninizm təliminin danılmaz sayılan ehkamlarından tədricən uzaqlaşmış, öz xalqının keçmişini, qaynaqlarını, köklərini daha dərindən dərk etmiş, yazıçıları düşündürən suallara özü də cavab axtarmışdır. Bu qarşılıqlı mənəvi bağlılığın, mübadilənin, zənginləşmənin parlaq təzahürü Heydər Əliyevin 1981-ci ilin 12 iyununda respublika yazıçılarının VII qurultayında söylədiyi tarixi nitqi oldu.

16 ildən sonra bu dahi insan yazıçıların növbəti qurultayında çıxış edərkən zarafatla demişdi:





## «SİZİN ARANIZDA ƏSAS DİSSİDENT MƏN ÖZÜM İDİM!»

SSRİ-də dissident hərəkatının baş alması səbəbləri haqqında düşünərək Roy Medvedyev «Naməlum Andropov» kitabında yazır:

«Bu hərəkat, həmçinin ölkədəki vəziyyətdən geniş xalq kütlələrinin ümumi narazılığı, əhalinin təminatında, istehsalatın təşkilindəki nöqsanlar, hələ də sovet partiya-dövlət iyerarxiyasının bir çox özəkləri və bütün mərtəblərində qalan özbaşınalıq və korrupsiya ucbatından törədilirdi...»[39]

Hələ DTK-da işlədiyi dövrdə Heydər Əliyev bu qənaətlərin gerçəkliyinə şahid olmuşdu. Ona görə də ölkə rəhbəri vəzifəsində korrupsiya və quruluşun digər sistem «azarlarına» qarşı mübarizənin başında duraraq, o, ictimai narazılığı ustalıqla leqallaşdıra bildi. Bu sosial narazılığın ədəbi-bədii inikası yolunda da (kitablar, pyeslər, tamaşalar) «yaşıl işıq» yandırıldı.

«O məhz neqativ halları qamçılayan əsərləri dəstəkləyirdi, – Anar söyləyir. – Məsələn, mənim «Şəhərin yay günləri» pyesim onun xoşuna gəlmişdi. Əsər, ali məktəblərdəki proteksionizmə, tanışbazlığa, təbabət və ədliyyə sahəsində rüşvətxorluğa qarşı yazıçı barışmazlığını ifadə edirdi. Mən Mədəniyyət Nazirliyi ilə müqavilə bağlamışdım, bizim məşhur rejissor Tofiq Kazımov artıq aktyorlarla məşqlər aparırdı. Premyera ərəfəsində «Qlavlit»* dirəndi ki, bu antisovet pyesdir, çox şeylər çıxarılmalı, dəyişdirilməlidir və s. Onda MK Mədəniyyət şöbəsinin müdiri Azad Şərifov bizə kömək etdi, «Qlavlit»ə «təpindi». Pyesə icazə verdilər. Premyeradan sonra Mirzə İbrahimov «Kommunist» qəzetində, Gülrux Əlibəyli «Bakinski raboçi»də alqışlayıcı məqalələr yazdılar.

Bir neçə gün sonra mənə Heydər Əliyevin tamaşaya gəlmək istədiyini dedilər. Onunla birgə bütün nazirlər, yaradıcılıq ittifaqlarının rəhbərləri təşrif buyurdular. Mən bədii rəhbərin yanında oturub oradan salona baxırdım, görürdüm ki, reaksiya, deyəsən, normaldır. Tamaşa sona yetdi və bax onda Heydər Əliyev

[39] Медведев Р. Неизвестный Андропов. С. 163.

* Qlavlit – Mətbuatda dövlət sirlərinin qorunması üzrə Baş idarə.

ilk dəfə səhnə arxasına yaradıcı kollektivlə söhbətləşmək üçün keçdi. Sonralar o belə ünsiyyət yoluna tez-tez qayıdacaqdı. O bizim işimizi bəyəndi. Dedi ki, Mirzə İbrahimovun və Gülrux xanımın məqalələrini oxuyub maraqlanmış və özü tamaşaya baxmağı qət etmişdir, çünki «müxtəlif rəylər» varmış. İndi mən, – söylədi, – özüm əmin oldum ki, pyes vaxtında yazılıb, onu müvafiq rus teatrında da tamaşaya qoymaq lazımdır, bundan başqa film çəkilişi haqqında da düşünmək olar. Yeri gəlmişkən, elə həmin axşam o, üç cavan aktyoru ruhlandırdı və onların mənzil məsələsini həll etdi».

R.İbrahimbəyov və E.Quliyevin «Bir cənub şəhərində» filminin qadağan edilməsi ilə bağlı əhvalat məlum olsa da, onu müxtəlif şəkildə xatırlayırlar. Həqiqəti aydınlaşdırmaq üçün mən filmin quruluşçu rejissoru Eldar Quliyevdən otuz il əvvəl baş vermiş hadisələri «xırdalamasını» xahiş etdim. Onun mənə söylədikləri:

«Film 1968-ci ildə çəkilmişdi. Onu Azərbaycan «Qoskino»sunda qəbul edib Moskvaya təsdiqlənməyə göndərdilər. SSRİ «Qoskino» redaksiya kollegiyası filmi çox «isti» qarşıladı. Lakin elə bu vaxt Kinematoqrafiya komitəsi rəhbərliyi Bakıdan, adlarını indi çəkmək istəmədiyim çox tanınmış adamların imzası ilə teleqram aldı. Onlar qəzəblə filmin üstünə düşmüşdülər ki, bu guya antisovet filmdir, bizim gerçəkliyimizi təhrif edir və onu ekrana buraxmaq olmaz. Təbii ki, belə teleqramdan sonra Moskvanın kino rəhbərliyi təşvişə düşdü və filmin qəbul edilməsi dayandırıldı. Yadımdadır, mən iki həftə Moskvada qalıb filmi ən müxtəlif adamlara, o cümlədən Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda müəllimim olmuş Sergey Apollinaryeviç Gerasimova göstərdim, o da filmi bəyəndi. Axırda filmi qəbul etdilər və hətta bizə quruluş üzrə qonorarı da ödədilər, amma geniş ekran yayımından çəkinməyi rəva bildilər...

Bütün bu hay-küy respublika rəhbərliyinə də çatdı və Mərkəzi Komitədə Büro üzvləri üçün baxış keçirməyi qət etdilər. Baxışa «Qoskino»nun sədri Məmməd Qurbanovu, «Azərbaycanfilm» kinostudiyasının direktoru Adil





İskəndərovu, kinolentin yaradıcılarını, yəni məni və Rüstəm İbrahimbəyovu dəvət etdilər.

Baxış qurtarandan sonra Vəli Yusif oğlu Axundov Qurbanova və İskəndərova üz tutdu:

– Yaxşı, onlar cavandırlar. Bəs siz hara baxırdınız? – Və ciddi tərzdə. – Hamı Büro iclasına! – dedi.

Onun tonundan, eləcə də Büro üzvlərinin bəzi replikalarından biz anladıq ki, qərar bizim xeyrimizə olmayacaq. Elə də oldu: filmi ekranlara buraxmamaq qərara alındı. Üstəlik, SSRİ daxili işlər naziri Nikolay Şolokov da özünü qəribə apardı, nədənsə filmdə göstərilən milis obrazını təhqiramiz saymışdı. Bundan sonra o «Qoskino»dan bütün ssenarilərin, milis formasında bir kimsə təsvir olunursa, DİN-ə bəri başdan göstərilməsini tələb etmişdi...

O zaman MK ideologiya üzrə katibi Cəfər Cəfərov bizim filmimizin qızğın tərəfdarı oldu. Deyirlər ki, məhz o, Azərbaycan DTK sədri Heydər Əliyevdən, onun MK Büro üzvləri arasında çəkisini və nüfuzunu nəzərə alaraq (özü Büro üzvü olmasa da), gözümçıxdıya salınan filmə baxmasını xahiş edibmiş.

1969-cu ilin yaz çağları idi, mənə xəbər verdilər ki, hansısa general filmimizə baxmağa gələcək. İş günü sona yetirdi. Əvvəl binanın qapısı qənşərinə iki qara «Volqa» yaxınlaşıb dayandı, maşınlardan mülki geyimli şəxslər sıçrayıb tökülüşdülər, ardınca həmin generalı gətirən üçüncü «Volqa» gəldi. Maşından düşən ucaboy, idmançılar kimi tökməbədən şəxs salamlaşıb məni iti, sınayıcı nəzərlə süzdü. Biz kinozala getdik. Baxış qurtarandan sonra Heydər Əliyev mülayimliklə gülümsəyib dedi:

– Hə, nədir ki, normaldır, təbrik edirəm! Hər şey yaxşı olacaq, – və zarafatyana əlavə etdi. – Ancaq filmi daxili işlər nazirinə göstərməyin...

Bir müddət sonra MK-nın iyul plenumunda Heydər Əliyev respublikanın partiya rəhbəri seçildi və mədəniyyət sahəsində ilk addımlarından biri SSRİ Dövlət Kinematoqrafiya Komitəsinə filmin ümumittifaq ekrana buraxılması barədə verilən zəmanət oldu».

On ildən sonra MK birinci katibi yenə Eldar Quliyevə kömək əli uzadacaq və bəzi Büro üzvlərinin hücumlarından qoruyacaq. Eldar Quliyev IX əsrin əvvəllərində xalqı ərəb istilasına qarşı mübarizəyə qaldırmış milli-azadlıq hərəkatı qəhrəmanı haqqında «Babək» tarixi kinolentini çəkirdi. Artıq aktyor tərkibi, Naxçıvanda naturada çəkiliş yerləri müəyyənləşdirilmiş, cavan bəstəkar və populyar müğənni Polad Bülbüloğlu filmə yazılacaq musiqi müəllifi kimi təsdiqlənmişdi. Lakin çəkiliş prosesinin ən qızğın çağında Mərkəzi Komitə Bürosunun iki üzvünün birinci katibə yazdıqları rəsmi məktubun ucbatından filmin çəkilişi dayandırıldı. Az sonra rejissor Heydər Əliyevin yanına çağırıldı. «Birinci»nin kabinetində həmin məktubu yazan Büro üzvləri (Eldar Quliyev, münaqişənin münasibətlərinə təsir etmədiyinə görə yüksək opponentlərin adlarını çəkməyi rəva bilmədi), filmin məsləhətçisi – məşhur şərqşünas alim Ziya Bünyadov, ssenari müəllifi, yazıçı Ənvər Məmmədxanlı, həmçinin «Dövlətkino»nun və «Azərbaycanfilm»in rəhbərləri oturmuşdular.

«Opponentlərin iradları sırasında Poladın filmin bəstəkarı olması, bir sıra aktyorların baş rollara çəkilməsi və natura çəkilişləri yerlərinin seçilməsi daxil idi, – Eldar Quliyev söyləyir. – Büro üzvlərindən biri dedi ki, Naxçıvan dağları Bəzz qalası yerləşdiyi Savalan dağlarına oxşamır.

Bu məqamda Heydər Əliyev:

– Bəs sən özün o dağları İranda görmüsən? – deyə maraqlı replika atdı.

– Yox, – həmin adam çiyinlərini qısdı.

– Mən isə görmüşəm, – birinci katib bildirdi.

Xülasə, müzakirə başa çatandan, mən iradlara aid öz mülahizələrimi söyləyəndən sonra Heydər Əliyev qısaca yekun vurdu:

– Bilirsiniz nə var, onun işinə mane olmayın, qoyun çəksin.

Sonra mənə baxdı:

– Amma səndən də «tam proqram»la tələb edəcəyik.

Əsər «Mosfilm»lə birgə çəkilirdi, montajını və cilalanmasını da Moskvada başa çatdırdım. Kinolenti SSRİ «Qoskino»suna təhvil vermək üçün respublika





kino rəhbərləri təyyarə ilə uçub gəldi. Bu ərəfədə filmə «Mosfilm»in baş direktoru Nikolay Trofimoviç Sizov da baxdı. Baxışdan sonra məni lap mat-məəttəl qoydu:

– Sabah yox, o birisi gün filmi Heydər Əliyeviçə gösdəririk, – dedi. Və özü də bizimlə Bakıya uçdu.

O baxış günü dəqiq yadımdadır – 1979-cu il 29 dekabr. Əlbəttə, yaman həyəcan keçirirdim. Heydər Əliyev və Büro üzvləri ilə birgə filmə baxmağa Zərifə xanım da gəlmişdi. Film sona yetəndən sonra bədahətən müzakirə başlanan zaman Zərifə Əzizovna ara-sıra dönüb xeyirxah baxışları ilə ürək-dirək verirmiş kimi mənə nəzər yetirirdi.

Müzakirə uzun çəkməsə də, çox gur keçdi. Bir maraqlı məqamı xatırlayıram: opponentlərdən biri ilişməyə nöqsan axtararaq bezikmiş halda:

– Filmdə atlılar çapanda tozanaq həddindən çoxdur! – dedi.

– Axı o zamanlar asfalt yox idi, – deyə Heydər Əliyev «tozanağı» yatızdırdı.

Axırda Heydər Əliyev «Mosfilm»in direktoruna köməyə görə təşəkkür etdi, filmin yaradıcılarını təbrik etdi və bununla faktiki olaraq filmin ekrana çıxmasına xeyir-dua verdi.

Ümumiyyətlə, bu iki filmə Heydər Əliyevin fəal dəstəyi olmasaydı, bəlkə də, onları tamaşaçılar görməyəcəkdilər».

Azərbaycan kino sənətçilərinin «İstintaq» (rusca «Допрос» adlanan) filmi ölkədə böyük səs-küy doğurmuşdu. Filmə münasibət birmənalı olmasa da, Heydər Əliyev bu ekran əsərinə SSRİ Dövlət mükafatı verilməsinə nail olmuşdu. «İstintaq»la bağlı, hərçənd Bakıda deyil, Moskvada çətin problemlər yarandı. Heydər Əliyev filmə baxıb heyrətlə: «Axı bu ki, Mərkəzi Komitə Bürosunun bədii formaya salınmış siyasətidir!» – demişdi. Lakin Moskvada, «Qoskino»ya xüsusi gəlib filmə baxmış daxili işlər naziri Nikolay Şolokov kəsinliklə əleyhinə çıxmış, hiddətini bildirmişdi: guya bu bütövlükdə DİN-ə, sovet varlığına qara yaxmaqdır. Filmdə hüquq-mühafizə orqanları – prokurorluq, milis xoşagəlməz şəkildə göstərilmişdi. Bununla belə, Heydər Əliyev

filmə həyan çıxıb qorumuşdu. Həm də bu əhvalat 70-ci illərin əvvəllərində, Heydər Əliyevin Baş katibə çox da yaxınlığı olmadığı vaxta təsadüf edir. Halbuki, Şolokov Brejnevin «can-ciyərləri»ndən sayılırdı.

Sonralar Andrey Karaulovla müsahibəsində Heydər Əliyev iftixarla xatırlayırdı:

«Sovet kinematoqrafının təcrübəsində bu, sosial eybəcərlikləri açıq ifşa edən və onlara qarşı mübarizəni göstərən ilk film idi».

Rusiya jurnalisti maraqlanır:

– Bəs Azərbaycanda tamaşaların, filmlərin qapadılması, kitab əlyazmalarının yasaqlanması nə dərəcədə tez-tez baş verirdi?

– Bağışlayın, Andrey Viktoroviç, – Heydər Əliyev cavab verir, – mənim işlədiyim dövrdə bizim praktikamızda hər hansısa sənət əsərinə bircə dəfə də qadağa qoyulma halı olmamışdır... Biz ədəbiyyat və incəsənət xadimlərinə tam bədii yaradıcılıq sərbəstliyi verirdik, heç kim heç nədə məhdudlaşdırılmırdı.

– Bəs yaradıcı ziyalılar arasında dissidentlər vardımı? – usanmaq bilməyən Karaulov müsahibindən əl çəkmir.

– Əslən dissident olanlar bizdə yox idi. Amma bəlkə də, dissidentlər ona görə yox idi ki, biz, ümumiyyətlə, onları axtarmırdıq?»[40]

Eynilə «narahatedici» sualları mən bütün müsahiblərimə israrla verirdim. Doğrudan da, necə olur ki, Rusiyada, Ukraynada, hətta Baltikyanı respublikalarda adamları əqidələrinə görə «dama» basır, dəlixanalara yerləşdirir, antisovet təbliğata görə xaricə sürgün edirdilər, bizlərdə isə tam sakitlik hökm sürürmüş? Məgər Azərbaycan yazıçılarının hamısı bu dərəcədə üzüyola, qanuna baş əyən imiş? Yoxsa burada nəsə başqa bir əmma var?

Mənim suallarıma məşhur «altmışıncılar», bir qayda olaraq, öz praktikalarından inandırıcı misallar gətirib cavab verirdilər; belə çıxırdı ki, Heydər Əliyev yazıçıların üsyan həddinə, sistemlə açıq qarşıdurmaya gətirib çıxarılmasına yol vermədən, potensial konfliktlərin közərdiyi zaman söndürülməsini üstün tuturdu.

[40] Караулов А. Вокруг Кремля. М., 1993, т.1. С. 226-227.





## Vaqif Səmədoğlu ilə söhbətdən:

«Azərbaycan» jurnalında dərc olunmuş şeirlərimlə Latviyaya səfərə çıxmışdım. Riqada məni Azərbaycan dilini gözəl bilən tanınmış şair-tərcüməçi Uldis Berzinş müşayiət edirdi. Müxtəlif ədəbi məclislərdə o şeirlərimi sinxron tərcümə edəndə, latışlar təəccüblə: «Ola bilməz! Belə şeirlər sovet jurnallarında çap oluna bilərmi?» – deyirdilər. İnanmırdılar. Uldis bu şeirlərdən bəzilərini çevirsə də, onları «Atmoda» jurnalında çap etdirə bilmədi. Hərçənd məni, əlbəttə, «pessimizm»ə, «abstrakt humanizm»ə, «formalizm»ə görə tənqid edirdilər. Eyni zamanda anlayırdım ki, əgər şeirlərim çap olunursa, bu yalnız Əylislinin «Azərbaycan»da, yaxud Anarın «Qobustan»da xidməti deyil. Deməli, yuxarıda, bütün bunlara dəstək verən hansısa bir qüvvə var.

Yadımdadır, Soljenitsın ölkədən qovulan günü mən möhkəm içdim; Bakıya Moskva kinoçuları gəlmişdi və mən onların məclisində gözümçıxdıya salınmış yazıçının sağlığına badə qaldırdım. Banketdə təxminən otuz nəfər vardı. Əlbəttə, bu barədə «birinci»yə xəbərçilik elədilər. Amma elə bir təsirli nəticə olmadan keçindi. Hərçənd sonralar o mənə bir dəfə zarafatla «yaman xuliqanlıq eləyirsən!» dedi. Vəssalam. Mən istəyirəm ki, nəhayət, DTK arxivləri açılsın. Çünki əminəm ki, orada yazıçılara aid yüzlərlə iş olmayacaq, onları Heydər Əliyev sadəcə açmamışdır. Açılmasına yol verməmişdir. Ona görə, o deyəndə ki, «bir nömrəli dissident mən özüm idim», buna tam haqqı var idi».

1994-cü ildə Moskvada yazıçı Aleksandr Soljenitsınla bağlı Siyasi Büronun məxfi sənədlərinin «Kremlyovski samosud»* adlı toplusu çıxdı. Bir çox başqa sənədlərlə yanaşı kitabda SSRİ daxili işlər naziri Nikolay Şolokovun Sov.İKP MK baş katibi L.Brejnevə ünvanlanmış məktubu da dərc edilmişdi. Nazir yazırdı:

* «Samosud»-«özbaşına, qanunsuz məhkəmə»; kitabın adı «Kremlin divanı» kimi də tərcümə edilə bilər.

«Soljenitsınla bağlı əhvalatda biz, Boris Pasternaka qarşı yol verdiyimiz lap kobud səhvləri təkrarlayırıq. Soljenitsın ideoloji mübarizədə böyük fiqura çevrilmişdir. Bu elə bir reallıqdır ki, onunla hesablaşmamaq olmaz. Bu faktın nə üstündən sükutla keçmək, nə də yan keçmək olmaz... Obyektiv olaraq Soljenitsın istedadlıdır. Bu, ədəbiyyatda bir hadisədir. Bu baxımdan sovet hakimiyyəti üçün o, şərtsiz maraq kəsb edir. Son dərəcə sərfəli olardı ki, onun qələmi xalqın mənafelərinə xidmət etsin... Soljenitsına təcili olaraq mənzil verilməlidir. Yaşayış qeydiyyatına alınmalı, ona diqqət göstərilməlidir. Onunla görkəmli rəhbər işçilərdən kimsə danışmalıdır ki, ona qarşı aparılan sıxma-boğmaları, bütün bu ağrı-acıları içindən sovuşdursun. **Soljenitsını kənara tullamaq yox, onun naminə mübarizə etmək lazımdır** (vurğulama bizimdir. – *E.A.*) Bizim nəşriyyatlar artıq başa düşməlidir ki, hazırda ədəbi əsərləri rədd etmək yox, transformasiya etmək gərəkdir. İndiki halda düşmənləri aləmin qarşısında dara çəkmək deyil, ağuşlarda boğmaq lazımdır...»[41] Leonid İliçin bu xəbərdarlığa böyük maraq göstərməsinə baxmayaraq Kreml strateqləri görkəmli yazıçıya qarşı ən uğursuz variantı seçdilər. Nə Moskvada yaşayış qeydiyyatını təmin etdilər, nə də öz puluna kooperativ mənzil almasına imkan verdilər. 1974-cü ildə A.Soljenitsın Sovet İttifaqından xaric edildi, bu da Qərbdə şiddətli antisovet mərəkəsi qopardı.

Heydər Əliyevin Soljenitsının yaradıcılığına necə münasibət bəslədiyini deyə bilmərəm, amma onun yazıçılara yanaşmada Nikolay Şolokovun məsləhət gördüyü siyasətlə səsləşən cəhətlər aydındır. O, istedadlı yazıçıları respublikadan sıxışdırıb perik salmağa deyil, «ağuşunda boğmaq» olmasa da, «sığal çəkməyə» üstünlük verirdi. O cümlədən yüksək mükafatlar, adlarla təltif etməklə, mənzil, bağ verməklə və s.

[41] Кремлевский самосуд. Сб. документов. М., 1994. С. 169-172.





## ■ Elçinlə müsahibədən:

«Azərbaycan «altmışıncıları»nın ən birinci və çox vaxt gözəgörünməz qoruyucusu, demək olar ki, himayədarı Heydər Əliyev idi. O zaman hamının haqqında danışdığı və 60-70-ci illərdə çox populyar olan «üçlüyün» - Anar, Elçin və Əkrəm Əylisli – arxasında Heydər Əliyev durmuşdu. Əylisli indi iftixarla bəyan edir ki, mən öz nəsr əsərlərimdə sərbəstliklərə yol verirdim, «Azərbaycan» jurnalında əvvəllər yasaqlanmış əsərləri çap etməyə icazə verirdim və s. Sual olunur: məgər sən özbaşına buraxılmışdın?

İmran Qasımov, onun da arxasında Heydər Əliyev olmasaydı, sən bunlara rəvac verə bilərdinmi? Rusiyanın məşhur ədəbi tənqidçisi Lev Anninski mənə deyirdi: «Siz respublikada nə oyunlar çıxarırsınız? Siz jurnallarınızda «kramolnı» (qanunazidd) əsərləri çap etməyə yol verirsiniz!»

**– Bəs niyə Azərbaycanda dissident ədəbiyyatı yox idi? Belə fikir var ki, Azərbaycan və bütövlükdə sovet yaradıcı ziyalıları «Stalin şineli»ndən çıxmış və anadangəlmə qorxu batsillaları ilə yoluxmuşdur. Onlar əslində nəyə icazə verilirdisə, yalnız ondan yazırdılar...**

– Bizdə dissident ədəbiyyatı əsasən ona görə yox idi ki, biz bütün əsərlərimizi çap edə bilirdik. «Azərbaycan» jurnalında, Heydər Əliyevin kəraməti sayəsində çap etdiyimiz əsərlərin çoxusu Moskva dərgilərində işıq üzü görə bilməzdi, çünki onları dissident ədəbiyyatı sayardılar».

*1999-cu il fevralın 5-də Rüstəm İbrahimbəyovun yubileyində Azərbaycan prezidenti respublikada istisna edilə bilən, ümumiyyətlə isə sovet dönəmlərində dəbdə olan «dissident ovu»nu yada salacaq: «...60-70-ci illərdə Azərbaycanda dissident axtarsaydıq onlar çox idi. Ən böyük dissident Bəxtiyar Vahabzadə idi... Maqsud İbrahimbəyov, Rüstəm İbrahimbəyov əsl dissident idilər. Ancaq biz qoymadıq ki, onlar dissident olsunlar. Bəlkə də, onlar indi heyfsilənirlər ki, o vaxt Əliyev qoysaydı və biz dissident olsaydıq,*

*indi, bəlkə, hörmətimiz daha da artıq olardı. Yaxud götürək Anarı. O da dissident idi. Məsələn, «Qobustan» jurnalının yaranması və ...səhifələrində dərc olunan əsərlər, şübhəsiz ki, dissident xarakteri daşıyırdı...»*[42]

## ■ Azad Şəriflə söhbətdən:

**« – Nədəndir, Azərbaycanda dissidentlər olmamışdır? Heç kəs baş götürüb getmədi, heç kəsi sürgün etmədilər.**

– Olmamışdır demək düz deyil. Olmuşlar. Rəsul Rzada da, Süleyman Rüstəmdə də, Nəbi Xəzridə də «qulp qoyulası» şeirlərə rast gəlinirdi. Hələ cavan şairləri demirəm, – başdan-başa dekadans və o vaxtın təbirincə desək, formalizm. Rüstəm və Maqsud İbrahimbəyovlar yeni səpkidə, yeni baxımla yazırdılar, buna görə də yaşlı nəslin nümayəndələri onları bəyənmirdilər. Amma mənə elə gəlir ki, Heydər Əliyev burada hansısa sağlam, saf, gələcəyi olan pöhrələri sezirdi. Hərçənd özü haqqında hərdən deyirdi ki, «mən konservatoram». Düzdür, bu daha çox əşyalara aid idi. Onun kabinetində Vəli Axundov dövründən qalmış bir «kontorka» qalırdı, ayaqüstə yazmaq üçün. Ona toxunmağa qoymadı: «Qoyun dursun».

**– Bəs yazıçıların çəkişmələrinə qarışmaqdan vaz keçilməsi - sizdənmi, ya Əliyevdən irəli gəlirdi?**

– Ondan da, məndən də. Heydər Əliyeviç mənə deyirdi: «Sənin nəyinə gərəkdir? Qoy özləri baş açsınlar. Bizə müraciət edərlərsə, onda da düşünüb-daşınarıq».

**– Müraciət edirdilər də. 1996-cı ildə yazıçıların qurultayında Heydər Əliyev xatırladırdı: «Siz öz həmkarlarınıza qarşı şikayətləri üstümə yağdırırdınız, bir-birinizdən «donos»lar yazırdınız».**

[42] Heydər Əliyev mədəni irsimizin keşiyində. K. 1. S. 271.





– İş ondadır ki, o şikayətlərin içində imzasız yazılar bolluca idi. Biz yaradıcı adamlara qarşı «anonimka»lara məhəl qoymamaq haqqında şərtləşmişdik. Belə bir üstüörtülü razılaşmamız vardı».

Yeri gəlmişkən, şikayətlər haqqında. Doğrudan da bu, yaradıcı ziyalılar arasında yayılmış «azar» idi. Bir çox qələm sahibləri, əsasən yaşlı nəslə mənsub olanlar, poeziya və nəsrdə yeni nəfəs, yeni yönüm və axtarışlarla razılaşmayaraq, cavanların onları ədəbi prosesin arxa planına «sıxışdırmalarından» ehtiyatlanaraq, sənət zəminində baş verən olaylardan Mərkəzi Komitə aparatını «agah etməyi» özlərinə borc bilirdilər. İllah ki, cavanlardan kimsə, onların fikrincə, «təməllərə» qarşı qəsd edəydi.

Bununla bağlı bir çox müsahiblərim Movlud Süleymanlının «Dəyirman» povesti çap olunduqdan sonra baş vermiş qalmaqallı əhvalatı xatırladılar.

Bu əsər 1979-cu ildə «Azərbaycan» jurnalında dərc edilmiş və dərhal hücumlar hədəfinə çevrilmişdi. Bəziləri hətta onu antisovet əsər adlandırırdı. «Yuxarı»ya məktublar, siqnallar axırdı. Həmin ilin payızında Azərbaycan Yazıçılar İttifaqında «Dəyirman»ın daha çox divanxananı xatırladan müzakirəsi keçirildi. Bu əsərin müəyyən yozumu və ətrafında baş vermiş qalmaqal əsasında Mərkəzi Komitə xüsusi qərar da çıxarda, hətta müəllifi sevdiyi sənətindən bezdirib, uzun müddətə ayıra da bilərdi.

O günləri **Mövlud Süleymanlı** belə xatırlayır:

«Ədəbi mühafizəkarlar və irticaçılar mənə qarşı çox aqressiv idilər. Amma diqqəti buna tuşlamaq istəmirəm. O adamlardan söhbət gedəcək ki, həmin çətin aylarda mənə arxa durdular, tab gətirməyimə, sınmamağıma yardımçı oldular.

...«Dəyirman» ətrafında qalmaqal qızışırdı. Moskvaya teleqramlar axışdı, nəticədə bütün kitablarım, həm Azərbaycan, həm Rusiya nəşriyyatlarında planlardan çıxarıldı. Mən hiss eləyirdim ki, halqa daralır... Belə ağır günlərin birində mütərəqqi düşüncəli və gəncləri sevən insan olan İmran Qasımov məni və «Azərbaycan» jurnalının baş redaktoru Əkrəm Əylislini öz kabinetinə çağırdı:

– Yoldaş Əliyev mənimlə telefon bağlantısında oldu, – dedi. – Soruşdu bu nə «Dəyirman»dır ki, hamı elə onun söhbətini eləyir. Mən qısaca əsər haqqında ona öz rəyimi söylədim. Jurnalı ona göndərməyi xahiş etdi. Mən də «Azərbaycan»ı Mərkəzi Komitəyə göndərdim. Bu gün yoldaş Əliyev yenidən zəng vurub öz münasibətini bildirdi. Yeri gəlmişkən, povesti akademik Həsən Əliyev də (Heydər Əliyevin böyük qardaşı. – *E.A.*) oxumuşdur, Heydər Əliyev onun da fikrini mənə çatdırdı.

Birinci katib dedi ki, «povest istedadla yazılıb, müəllifi lüzumsuz hücumlardan qorumaq gərəkdir. Yeganə istənilən odur ki, cavan yazıçının həyata baxışlarını, dünyagörüşünü bir qədər səhihləşdirmək lazımdır. O, başa düşməlidir ki, bizim varlığımızda yalnız qaranlıq deyil, işıqlı cəhətlər də var...»

Bu söhbətdən sonra mən dərhal hiss elədim ki, nəsə dəyişib. Hər halda irticaçıların hücumları xeyli səngimişdi. Mən yenə də nəfəs ala, yaza bilirdim. Sonralar öyrəndim ki, mənim opponentlərim Heydər Əliyevin özünün qəbulunda olmuşlar. Onlardan biri özü mənə söyləmişdi: «Əlimizdə «Dəyirman» povesti Heydər Əliyevin kabinetinə daxil olduq.

– Nə baş verib? – soruşdu.

– Yoldaş Əliyev, bu povestdə bizim quruluşa böhtan, qarayaxma var, tünd və yolverilməz söyüşlər var!

– Nə söyüşlər? – MK-nın birinci katibi maraqlanır.

Onlar isə «ədəbsiz» yerlərin altından qırmızı xətt çəkmişlər. Və eləmə tənbəllik, müəllifin neçə dəfə söyüş ifadələri işlətdiyini hesablamışlar: 73 dəfə!

Heydər Əliyev jurnalı vərəqləyir, cizgilənmiş yerlərdən bəzilərini oxuyub birdən qəhqəhə çəkir:

– Ay yoldaşlar, belə halda rus xalqı çoxdan Şoloxovu məhkəməyə verməliydi...

Bax belə... Heydər Əliyev məni sözün əsil mənasında qaragüruhçuların əlindən xilas etdi».





1973-cü ildən 1976-cı ilədək Dövlət Mətbuat Komitəsi sədri vəzifəsində işləmiş, ardınca beş il Mərkəzi Komitədə təbliğat və təşviqat şöbəsinə başçılıq etmiş **Cahangir İldırımzadə** bildirir ki, Heydər Əliyev respublikaya rəhbərlik etdiyi dövrdə, əvvəllər çətinliklə nəşrə «yol tapan» əsərlərə «yaşıl işıq» yandırılmışdı.

«Məsələn, mənə Maqsud İbrahimbəyov zəng vurub gileylənir ki, kitabını senzura buraxmadığına görə yarım ildir ki, nəşriyyatda qalıb. Mən onu və «Qlavlit» rəisini Mərkəzi Komitəyə dəvət etdim. Konkret şəkildə qeydləri araşdırdıq, bir irad da qalmadı, bütün suallar aradan qaldırıldı.

**– Demək olarmı ki, Heydər Əliyevin vaxtında senzura, xüsusən hansısa qeyri-standart əsərlərə yanaşmada nisbətən az sərtlik göstərmişdir?**

– Bəli, belə də olmuşdur. Əvvəllər keçirilə bilməyəcək bir çox əsərlər dərc edilirdi. Mənim yanıma tez-tez şairlər, nasirlər gəlirdilər və elə bir hal baş verməmişdi ki, hansısa kitab plandan çıxarılsın, ya satışdan götürülsün. Bir dəfə Süleyman Rüstəm «İki sahil» poeması ilə bağlı zəng vurmuşdu. Senzorun iradları vardı. Mən məsələni həll etməyə söz verdim və biz bu poemanı dərhal buraxdıq.

Yazıçılarla, şairlərlə bağlı belə faktlar çox olurdu. Manaf Süleymanov hər dəfə mənimlə görüşərkən inqilabdan əvvəlki köhnə Bakı və bakılılar haqqında maraqlı xatirələri ilə bölüşürdü. Bir dəfə ondan soruşdum ki, niyə bunları yazmır, kitab şəklində cəmləşdirmir.

– Belə kitabı buraxarlarmı? – soruşdu.

– Niyə də buraxmasınlar, – dedim.

Üstündən on il keçəndən sonra (mən yenə də «Qlavlit»ə başçılıq edirdim) o gəlib xəbər verdi ki, kitabı yazmış və nəşriyyata təqdim etmiş, nəşriyyat əlyazmanı Partiya Tarixi İnstitutuna rəyə göndərmiş və mənfi rəy almışdır... Lakin biz ötən günlər haqqında bu bədii-publisistik oçerkləri nəşr etdirməyə

kömək etdik, sonralar «Eşitdiklərim, oxuduqlarım, gördüklərim»* adı ilə bu kitab dəfələrlə böyük tirajlarla buraxıldı. Bütün bunlar haqqında M.Süleymanov mətbuat səhifələrində və televiziya, radio verilişlərindəki çıxışlarında tez-tez söz açardı.

Siyasi-ideoloji baxımdan bizdə, demək olar ki, heç bir yubandırma, süründürmə olmazdı. Tutaq ki, senzorlar «ilişdikləri» mətnləri gətirirdilər: bir baxın, müəllif ət, çörək almaq üçün növbələrdən yazır. Mən belə iradları dərhal aradan götürürdüm».

«Azərbaycan» jurnalının sabiq baş redaktoru Əkrəm Əylislinin qənaətinə görə, istedadlı əsərlərin əksəriyyəti yalnız «yuxarı»da əngəllər törədildiyinə görə deyil, daha çox sənətdaşların bir-birinə badalaq vurduqlarına görə «tilsimə» düşürdü.

– Mən həmişə yazmışam ki, hər şey «aşağı»dan körüklənir. Mərkəzi Komitə məmurları nə etməliydi ki, onların yanına diri klassiklər təşrif buyurub həmkarlarından şikayətlənir, guya ədəbiyyatın ideya saflığını qoruyurdular. Mərkəzi Komitənin birinci katibi bu donosbazlara necə cavab verəydi? Deyəydi ki, mən sizinlə razı deyiləm?

**– Yenə də, bəs niyə belə şəraitdə Azərbaycan yaradıcı ziyalıları arasında həqiqi dissidentlik yer almadı, nə əcəb bizim yazıçı – «altmışıncılar» xaricdə heç nə dərc etmədilər, xarici radiosəslərə öz əsərlərini ötürmədilər, demək olar ki, «sandıq» ədəbiyyatına da bel bağlamadılar?**

– Bu qeyri-təvazökar səslənsə də, çoxları bu suala belə cavab verirdilər: çünki «Azərbaycan» jurnalı və onun baş redaktoru Əkrəm Əylisli vardı. «Sandığa» yazılanlar da vardı, əvvəllər çap olunmayan əsərlər də. Bunların hamısını

* Rusca bu kitab «Dni minuvşie» adı ilə o çağlara görə misilsiz sayılacaq 100 minlik tirajla buraxıldı. Sonralar bir neçə dəfə yenidən nəşr edildi. Bu gözəl əsərin bədii tərcüməsini gerçəkləşdirmək mənə müyəssər oldu.– *E.A.*





mən 70-ci illərin sonu – 80-ci illərin əvvəllərində jurnalda dərc etdim. Sabir Əhmədovun da, Mövlud Süleymanlının da belə əsərləri var idi. Ramiz Rövşən, Afaq Məsud, Vaqif Cəbrayılzadə... – onlar o vaxt çap oluna bilmirdilər, «ədəbiyyat generalları» onları qabağa buraxmırdılar. Dissidentlər nəsli elə onlardan başlaya bilərdi.

– Bəs hakimiyyət başında Heydər Əliyev kimi sözün yaxşı mənasında millətpərəst deyil, bir başqa adam olduğu təqdirdə siz jurnalınızda bunca sərbəst qol-qanad aça bilməyəcəyinizlə söylədiklərinizi uzlaşdırmırsınızmı?

– Tamamilə səmimi cavab verirəm. Heydər Əliyev olmasaydı, mən, ümumiyyətlə, jurnalda yer tuta bilməzdim. Məni bu vəzifəyə heç kim təyin etməzdi.

– Siz əsərlərin seçimində sərbəstdiniz. Ən orijinal, qeyri-standart, istedadlı nə varsa çap edirdiniz. Bu baxımdan Heydər Əliyevin xidmətini görürsünüzmü?

– Əlbəttə. Mən baş redaktor olaraq buraxdığım ilk sayda cavan şairlərdən 700 misra dərc etdim. Buna qədər onlara cüzi yer – 30-40 misralıq yer verilirdi. Jurnalın sayı çıxandan az sonra məni İmran Qasımov çağırıb dedi: «Heydər Əliyeviç zəng vurmuşdu. Maraqlanır ki, nədən bu cavan şairlər şeirlərində belə ağlaşırlar? Bəlkə, mənzilləri yoxdur, bəlkə, hansı yollasa onlara kömək etmək lazımdır?»

Düzü, mən İmran müəllimə inanmadım. Öz-özümə düşündüm ki, Əliyevin işi-gücü yoxdurmu, Yazıçılar İttifaqı katibinə jurnala görə zəng vura. Amma axşam mənə evə Həsən müəllim, Heydər Əliyevin böyük qardaşı zəng vurdu. Dedi ki, sizin jurnalınıza baxdım, gənc şairlərdən bəziləri taleyindən gileylənir, bədbinliyə qapılıblar. Bəlkə, sizin redaksiyaya gəlib uşaqlarla söhbətləşim. O anda bildim ki, İmran müəllim düz deyirmiş. Heydər Əliyev həmişə ədəbiyyatla maraqlanmış, «Azərbaycan» jurnalını da, başqa dərgilərimizi də, «Ədəbiyyat qəzeti»ni də oxumuşdur. Mərkəzi Komitədə başqaları, ümumiyyətlə, heç nə oxumurdular. Ya da rus dilində çıxan ədəbiyyatı izləyirdilər.

Heydər Əliyev hər sahəyə dərin marağı olan, olduqca istedadlı şəxsiyyət idi. Həmçinin Azərbaycanda istedadlı ədəbiyyatın inkişaf etməsində maraqlı

idi. Başqa məsələdir ki, hansı ədəbiyyatı istedadlı, hansını isə istedadsız hesab edirdi. Bu həm doğma torpağa, xalqa bağlılıqdan, həm də hər bir sahədə, o cümlədən ədəbiyyat və incəsənət sahəsində hamıdan öndə olmaq təəssübündən irəli gəlirdi.

Mən hesab edirəm ki, o, qeyri-adi, heç kim tərəfindən tam araşdırılmamış şəxsiyyət, unikal psixologiyaya malik bir insan idi. Onu dərk etmək bizim ağlımızın işi deyil».

Xalq Cəbhəsinin lideri, sabiq prezident Əbülfəz Elçibəyin* Heydər Əliyevə münasibətinin təkamülü maraqlıdır, 1992-ci ildə işıq üzü görən və o zaman Azərbaycana başçılıq edən prezidentlə müsahibə kimi qurulmuş «Deyirdim ki, bu quruluş dağılacaq» kitabında o, respublikanın sabiq partiya rəhbərinə münasibətini çox ətraflı və səmimiyyətlə açıqlayacaq.

«...Heydər Əliyevin Azərbaycanda dövlət başçısı ola bilməyəcəyini belə əsaslandırırdım ki, o güclü savad almamış (onda belə düşünürdüm), Dövlət Təhlükəsizliyi Komitəsinin məktəbini qurtarıb... Ancaq etiraf etməliyəm ki, onun savadının nə səviyyədə olduğunu o zaman düzgün bilməmişəm. Mən fikirləşmişdim ki, o, tarix fakültəsini qiyabi qurtarıb. Deyirdim ki, tarix fakültəsində ona dərs deyən müəllimlərin səksən faizi savadsızdır, onun özü də qiyabi qurtarıb – onun nə savadı ola bilər? Amma mən bilmirdim ki, Heydər Əliyev xüsusi məktəb keçib. Sonradan gördüm ki, onun çox möhkəm yaddaşı və yüksək qabiliyyəti var. Mən həbsxanaya getdim, həbsxanada da onun əleyhinə oldum, çıxandan sonra da bir-iki il... Sonralar onun bəzi çıxışlarını, bəzi manevrlərini gördüm, inandım ki, o çox idraklı adamdır, çox güclü şəxsiyyətdir... Doğrudan da, etiraf edirəm ki, Heydər Əliyevin təqribən 6-7 il əleyhinə

* Bir sıra müəlliflər «Elçibəy» adını «Elçi bəy» kimi yazılışını israrla söyləsə də, biz mətbu ənənəyə istinad etməyi üstün tuturuq – *E.A.*





danışdığım halda, sonradan elə olub ki, 6-7 il də onu tərifləmişəm, öz-özümə boynuma almışam ki, səhv etmişəm»[43].

Düşünürəm ki, o zaman öz populyarlığının zirvəsində olan sabiq prezidentin etirafı, çox önəmli şəhadətdir. Şəxsən məndə həmin etiraf Azərbaycanda milli-demokratik hərəkatın lideri, bəlkə də, respublikada yeganə həqiqi dissident olmuş Elçibəyin birmənalı görünməyən fiquruna dərin hörmət doğurur.

O ki qaldı Rusiya dissidentliyinə, Azərbaycan yazıçılarının bu hərəkatın ünlü təmsilçilərinə münasibəti bu gün birmənalı deyil.

**Vaqif Səmədoğlu deyir:**

«Rusiya dissidentliyi ilə biz fəxr edirdik, onun halına yanırdıq, amma çox təəssüf ki, onun nümayəndələrinin əksəriyyəti, əslində elə də saleh adam olmadılar.

Andrey Dmitriyeviç Saxarovu götürün, mən ona böyük hörmət bəsləyirdim, pərəstiş edirdim. Amma Qarabağ münaqişəsində o özünü necə xoşagəlməz, açıq-aydın öz arvadına və madam Starovoytovaya züy tuta-tuta apardı! Yaxud Sergey Kovalyov: bu adam ömrünün 11 ilini həbsxanalarda və «psixuşka»larda keçirib. Bir dəfə Strasburqda mən onunla restorana nahar etməyə getdim. Söhbət əsnasında mənə açıq etiraf etdi: «Ermənilər bizimkilərdir, xristianlardır. İş belə gətirib də, Vaqifçik...» Odur ki, dissidentlik hələ saflıq meyarı deyil».

«Literaturnaya qazeta»da dərc olunan məqalələrinin birində Anar yazırdı: «Bizim nəslin faciəsi onda deyildi ki, biz Brejnev və digər sovet rəhbərlərindən əlimizi üzmüşdük, onda idi ki, biz Soljenitsın və Saxarovdan ümidimizi kəsmişdik. Onlar demokratiyanı yalnız Rusiya üçün istəyirdilər, amma sən həqiqi demokratsansa, hər xalqın öz inkişaf yolunu seçməyə haqqı olduğunu etiraf etməlisən».

[43] Elçibəy Ə. Deyirdim ki, bu quruluş dağılacaq. S. 37.

Və öz fəaliyyətinin sonrakı dövründə Azərbaycanın partiya rəhbəri də bu barədə düşünüb-daşınır, nəinki öz fikirlərini söyləyir, həm də sovet ideoloji sistemi çərçivəsində əvvəllər mümkün olmayacaq aksiyaları keçirirdi.

## «BİZ YARADICI ZİYALILARIN FƏALİYYƏTİNİ MƏHDUDLAŞDIRMIRDIQ»

Bu sözlər kitabımızın qəhrəmanına məxsusdur. Yuxarıda istinad etdiyimiz A.Karaulovla müsahibəsində Heydər Əliyev xatırlayırdı: «Yazıçılar, rəssamlar, bəstəkarlar bir-birindən kəskin fərqlənir, forma və janrları sərbəst seçirdilər. Biz heç vaxt bu işlərə qarışmırdıq».

Sənətkarlarla orta səviyyəli partiya məmurları arasında ayrı-ayrı münaqişəli hallar istisna edilsə, Heydər Əliyevin sözləri onun şəxsi yanaşmasının ruhunu əks edir və tam etimad doğurur. Əlbəttə, o, zövqünün yönümünə görə, özü etiraf etdiyi kimi sənətə baxışında ənənəçilər tərəfində idi, məsələn, realistik rəngkarlığı bəyənirdi, cavan fırça sahiblərinin avanqard səpgidə axtarışlarına isə, görünür, skeptik yanaşırdı. «Görünür» kəlməsini ona görə işlədirəm ki, o, heç vaxt hansısa rəssamlıq əsəri haqqında, hətta əsla xoşu gəlməsə də, tənqidi fikrini bəyan etməyi rəva bilmirdi.

Tahir Salahov söyləyir ki, sərgilərə gələrkən MK birinci katibi ən pis halda bəyənmədiyi əsərin yanından ötərdi, ayaq saxlamazdı. Ancaq hamının qarşısında bu və ya digər rəssamın fərdi üslubunu, manerasını qəbul etmədiyini bildirməsi... belə hal heç vaxt olmamışdı. Bunu mənimlə söhbətində heykəltaraş, **akademik Ömər Eldarov** da təsdiqləyirdi:

«70-80-ci illərdə çox şeylər layihələşdirilir, tikilirdi. Heydər Əliyeviç ona təqdim edilən hər bir layihəni diqqətlə nəzərdən keçirər, fərdi və respublika sərgilərinə gələrdi. Fərdilərin hamısına yox, amma respublika əhatəli sərgilərə – mütləq. SSRİ üzrə hər il respublikalarda keçirilən sərgilərdə əsərlər seçilir,





alınır, Ümumittifaq sərgiyə göndərilirdi. Və Moskvaya göndərilməzdən Heydər Əliyeviç mütləq onlara baxırdı. Elə şəkillər, heykəllər olurdu ki, xoşuna gəlməzdi, amma bu barədə heç vaxt danışmazdı. Hərdən məzmunla bağlı öz qeydini deyə bilərdi. Sərgilər, hər halda partiya siyasətilə bağlı tədbirlər idi. Səmtkarlıq məsələlərinə Heydər Əliyeviç yalnız əsəri bəyəndiyi hallarda toxunardı.

O, partiya təşkilatının rəhbəri olaraq ideoloji, məzmun səciyyəli məsələlər üzrə qeydlərini bildirsə də, onlar hökm kimi deyilmirdi. Mən rəssamlara qarşı heç bir «sıxma-boğma» xatırlamıram. Bundan əlavə deyim: bütün cavanlarımız orta və yaşlı nəsildən olan yazıçılar, rəssamlar, bəstəkarlarla yanaşı «əməkdar» adlarını, nüfuzlu ədəbi mükafatlar alır, onlara növbədənkənar mənzil, maşın ayrılıb verilirdi...»

Azad Şərif söyləyir ki, onunla ilk söhbətində Heydər Əliyev MK mədəniyyət şöbəsi qarşısında başlıca vəzifə kimi sənət meydanında görünməyə başlayan və sanballı sənətkarların «dabanlarını basan» istedadlı gənclərin boy atmasını dəstəkləməyini tapşırmışdı.

Bu barədə **Mövlud Süleymanlı** da xatirələrini bölüşdürür:

«1976-cı ildə Azərbaycan yazıçılarının VI qurultayı keçirilirdi; Mərkəzi Komitənin birinci katibi Heydər Əliyev şəxsən təşrif buyurmuşdu. Bu mənim və gənc qələm yoldaşlarımın iştirak etdiyi ilk qurultay idi.

Öz çıxışı zamanı Heydər Əliyev, Süleyman Rüstəm və Azərbaycan ədəbiyyatının digər ağsaqqalları əyləşdiyi rəyasət heyətinə üz tutub soruşdu:

– Süleyman müəllim, mən hələ orta məktəbdə təhsil alarkən dərsliklərdə şeirlərinizi oxuyurdum. O vaxtdan yarım əsr keçib, dərsliklərdə isə yenə sizin şeirlərinizdi. Bu çox yaxşıdır. Bəs bu yarım əsr ərzində məgər bircə nəfər də cavan şair çıxmayıb? Bəs cavanlar hanı?!

İndiyədək «birinci»nin bu sözlərini qarşılayan gurultulu alqışlar qulağımda səslənir».

Qurultaydan iki il öncə Azərbaycan Yazıçılar İttifaqının rəhbərliyi təzələndi, Mirzə İbrahimovun əvəzinə birinci katib İmran Qasımov oldu. Azərbaycanın görkəmli söz ustası, xalq yazıçısı Mirzə İbrahimov respublika yazıçılar təşkilatına 1965-ci ildən başçılıq etmişdi. Bütün danılmaz müsbət cəhətləri ilə yanaşı, Mirzə müəllim Stalin dövründə yetkinləşmiş və formalaşmış şəxsiyyət idi. O daha çox yazıçıların konservativ hissəsinə rəğbət bəsləyir, loyal və ənənəvi baxımdan uzaqlaşan yeniliklərə ehtiyatla yanaşır, o zamanlar cavanların püxtələşməsi, yeni ədəbi nəslin «ayaq tutması»nda da, əsərlərinin dəyərləndirilməsində də əsasən rəsmi ideoloji tələblərlə «ayaqlaşmağı» rəva bilirdi. Nəticədə 70-ci illərin əvvəllərində Yazıçılar İttifaqında qeyri-sağlam ab-hava duyulur, «yuxarı»lara şikayətlər baş alıb gedirdi. Paradoksal olsa da, həqiqətdir: bu «atalar və oğullar» qarşıdurmasında MK birinci katibi «ədəbiyyat generalları»nın tərəfini tutmayıb yeniləşmə arzulayanların mövqeyini dəstəklədi.

Elçin 1975-ci ildə Yazıçılar Birliyinin katibi seçilməyini xatırlayır. Yəqin ki, o, respublika Yazıçılar Birliyinin tarixində ən cavan katib olmuşdur. O vaxt 31 yaşı var idi.

«İmran müəllim Yazıçılar İttifaqının katibi olanda mənə katib vəzifəsini təklif etdi, – Elçin söyləyir. – O vaxt məni çox çap edirdilər, o cümlədən Moskvada da. 1972-ci ildə mən «Drujba narodov» jurnalının «Ən yaxşı ədəbi-tənqidi məqaləyə görə» mükafatını almışdım. İmran müəllimdə yeniliyə meyillilik var idi, o, konservativ əyalətçilikdən yaxa qurtarmaq, rəhbərlik üslubunu dəyişmək, Yazıçılar İttifaqına yeni ab-hava gətirmək istəyirdi».

Əlbəttə, bu, Heydər Əliyevin təyinatı idi; sovet dövründə yaradıcı təşkilatların birinci katibləri məhz təyin olunurdular, – indi niyə gizlədək. Və mən düşünürəm ki, Heydər Əliyev onu təyin edərkən cavanların irəli sürülməsini, o cümlədən Yazıçılar Birliyi rəhbərliyinə cəlb edilməsini məsləhət görüb.

Mirzə İbrahimova gəldikdə, Yazıçılar Birliyinin rəhbərliyinin dəyişdirilməsi zahirən «hamar» keçsə də, ağsaqqal yazıçının bütün istəklərinə əməl edilsə də, Heydər Əliyev bu əhvalatın istər-istəməz doğurduğu ağrı-acını, bəlkə də,





Mirzə müəllimin özündən az duymamışdır... Az sonra o, sovet nümayəndə heyətinin başçısı olaraq Rumıniyaya rəsmi səfərə yollanarkən Mirzə İbrahimovu da dəvət etmiş, yazıçı razılıq vermiş və qayıdandan sonra səfər haqqında təəssüratını qələmə almışdır. «Beləliklə, onunla Mərkəzi Komitənin birinci katibi arasında «status-kvo», Heydər Əliyevin ona diqqətcil münasibəti və Mirzə İbrahimovun tolerantlığı sayəsində bərpa olundu», – bu əhvalatı xatırlayan Azad Şərif söyləyir.

Lakin qayğıkeş birinci katib Mirzə İbrahimov əvvəlki vəzifəsindən daha miqyaslı, nüfuzlu vəzifəyə sahib olmayınca rahatlıq tapmadı. Azad Şərifi dinləyək:

«O illərdə ölkədə çox nüfuzlu bir təşkilat – Asiya və Afrika Ölkələri ilə Sovet Həmrəylik Komitəsi mövcud idi və bu quruma nədənsə dalbadal Tacikistan təmsilçiləri – əvvəl Babacan Qafurov, onun vəfatından sonra Mirzo Tursunzadə – başçılıq etmişdilər. Günlərin bir günündə, 1977-ci il idi, Heydər Əliyeviç beynəlxalq əlaqələr şöbəsinin müdiri Ənvər Cəbrayılovu və məni yanına çağırıb dedi:

– Kim bu ənənəni qoymuşdur ki, Asiya və Afrika Ölkələrilə Həmrəylik Komitəsinə həmişə Tacikistan nümayəndələri başçılıq etməlidir? İndi orada yer boşdur. Biz çalışmalıyıq ki, bu vəzifədə Azərbaycan yazıçısı çalışsın – məsələn, Mirzə İbrahimov, nüfuzlu ədib, ictimai xadimdir. Odur ki, ikiniz də Moskvaya uçun. Ənvər, sən Sov.İKP Mərkəzi Komitəsinin beynəlxalq şöbəsilə iş gör, Azad isə Aleksandr Dzasoxovun məsul katib işlədiyi komitəni öhdəsinə götürsün, komsomolda onunla çox əməkdaşlıq etmisən (mənə üz tutdu). Sonra SSRİ Yazıçılar İttifaqında Georgi Markova və Yuri Verçenkoya baş çək; Azərbaycanda sovet ədəbiyyatı günləri keçiriləndən bəri onlarla dostlaşmışıq. Onların dəstəyi ilə zamin olunmalıyıq. Və nəhayət, Sov.İKP MK mədəniyyət şöbəsilə söhbət aparılmalıdır, düşünürəm ki, orada da təklifimizə müsbət yanaşacaqlar. Mirzəni onlar yaxşı tanıyırlar».

Xülasə, bizim «elçilər» Moskvada uğurla çalışdılar, çətin vəziyyətlərdə «ağır artilleriya»nın köməyindən, yəni Heydər Əliyevin «Staraya ploşşad»dakı par-

tiya məmurlarına zənglərindən də faydalandılar. Heydər Əliyev bununla bağlı hətta ideoloji cəbhənin «boz kardinal»ı Suslovla da danışmalı oldu. Bir həftə sonra Asiya və Afrika ölkələrilə Sovet Həmrəylik Komitəsinin növbədənkənar konfransı keçirildi və Mirzə İbrahimov yekdilliklə Komitənin sədri seçildi.

*Bütün bunları qulaqucu eşitdiklərimdən deyil, şəxsi təəssüratlarımdan bilirəm. 1979-cu ildən etibarən mən Yazıçılar İttifaqında məsləhətçi, 80-ci illərin əvvəllərindən isə Mirzə İbrahimovun bu təşkilatın rəhbərliyinə qayıdışından sonra (1981-ci ildə ağır xəstəliyin ucbatından, əfsuslar olsun, İmran Qasımov dünyasını dəyişdi) Mirzə müəllimin köməkçisi vəzifəsində çalışmaq mənə müyəssər olmuş və on il işbirliyimiz davam edib.*

*Bu görkəmli yazıçının və qeyri-adi, dünyagörmüş insanın dəyərli məziyyətləri ayrıca söhbətin mövzusudur.*

Azərbaycan Yazıçılar İttifaqının 1971-ci ildə keçirilən V qurultayından etibarən Heydər Əliyev yazıçıların bütün belə forumlarında iştirak etmiş, apaydın, dupduru Azərbaycan dilində geniş çıxışlar etmiş, nitqlər söyləmişdi. Ertəsi günü köşklərdə qəzet tapmaq o qədər də asan deyildi, Mərkəzi Komitənin birinci katibinin çıxışları, məruzələri əldən-ələ gəzirdi. VI qurultayda ətraflı məruzə ilə çıxış edən Heydər Əliyevlə söz ustalarının səmimi ünsiyyəti, böyük Füzulinin nəşini uzaq Kərbəladan Azərbaycana gətirilib tarixi vətən torpağına tapşırılması təklifi ilə bağlı hərarətli fikir mübadiləsi bir çox yazıçıların yaxşı yadındadır. MK-nın birinci katibi qurultay iştirakçılarına üz tutub dedi:

– Siz istəyirsiniz bu məsələni mən qaldırım. Ancaq bilin ki, elə şeylər var ki, mənə qədər həll olunmalıdır. Siz öz tərəfinizdən bu istəyinizi, arzunuzu bildirsəniz daha yaxşı olar. Çünki mən bunu etsəm, hallandıracaqlar, mənalandıracaqlar, ona başqa rəng verənlər olacaq...





Sonralar jurnalist Elmira Əhmədova ilə müsahibəsində Əliyev bu cəhdləri belə xatırlayırdı:

«...Məlumat aldım ki, İraq hökumətinin nümayəndələri Kərbəlada Füzulinin dəfn olunduğu qəbiristanlığı söküb rekonstruksiya etmək məqsədilə qəbri söküb şairin sümüklərini yığıb başqa yerdə saxlayırlar.* Bu məni dəhşətə gətirdi. SSRİ Xarici İşlər Nazirliyi vasitəsilə bu məsələni qaldırdıq. Məktublar göndərdik. Bir nəticə hasil olmadı. S.Rüstəmi, R.Rzanı, M.İbrahimovu, N.Xəzrini və başqalarını çağırıb bu işə cəlb etdim. Heyif ki, lazımi dərəcədə hərəkətə gəlmədilər. O vaxt bizdə təzəcə İraq konsulluğu açılmışdı. Həmin dövrlərdə İran – İraq müharibəsi başlandı, münasibətlərimiz kəskinləşdi. Bizə dedilər ki, bu məsələni dövlət səviyyəsində qoymağımız çox çətindir. İraq prezidenti Həsən Əl Bəkrə məktublar yazdıq. Çox cəhd elədik, ancaq Füzulini Azərbaycana gətirməyə nail ola bilmədik. Belə güman edirəm ki, əgər bizim ziyalılarımız, onların görkəmli nümayəndələri daha fəal iştirak etsəydilər, istədiyimizə nail ola bilərdik»[44].

Bu təəssüf doğuran əhvalatla yanaşı, Heydər Əliyev haqlı olaraq iftixar hissi ilə demək olar ki, ağlasığmaz bir niyyəti uğurla həyata keçirdiyini xatırlayırdı – uzaq Sibirdə, sürgündə ömrü çürüdülmüş, repressiya qurbanı olmuş görkəmli Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin adı da bilinməyən məzarının tapılması, nəşinin ana vətənə qaytarılması, doğma yurdu Naxçıvanda torpağa tapşırılması məhz Heydər Əliyevin səyləri, təəssübkeşliyi, əzmkarlığı nəticəsində mümkün olmuşdur. Bu kitabın ilk fəslində biz Əliyevin hələ uşaqlıqdan yaradıcılığına bələd olduğu böyük yurddaşına xüsusi, həssas münasibətindən

---

* 1994-cü ilin 1 avqustunda Füzulinin 500 illiyinin keçirilməsi üzrə Dövlət Komissiyasının iclasında Heydər Əliyev böyük şairin nəşinin köçürülməsinin səbəblərini bir qədər fərqli açıqlamışdı: «Kərbəla şəhəri inkişafının baş planına uyğun olaraq Füzuli dəfn olunmuş qəbiristandan keçən yeni yol salınırdı. Ona görə şairin sümüklərini yığıb hansısa məsciddə yerləşdirmişdilər».

[44] Ulduz. 1990. № 6. C 76.

bəhs etmişdik. Repressiyaya məruz qalmış sənətkara 70-ci illərdə münasibət dəyişməyə başlasa da, pyesləri teatr səhnəsində yenidən canlansa da, hələ də rəsmi ab-havada onun pak adını «millətçi», «pantürkist» kimi damğalayıb qaralayanlar vardı.

«...Odur ki, belə qərara gəlmək mənim üçün o qədər də asan deyildi. Cavidin qəbrini tapdıq. Şairin qızı Turan xanım çox istəyirdi ki, o, Bakıda, Fəxri Xiyabanda dəfn olunsun. Mən təklif etdim ki, H.Cavid Naxçıvanda, anadan olduğu yerdə dəfn edilsin. Qoy tarix aydın etsin, hansı təklif düz olub! Fəxri Xiyabanda yan-yana yatan dahilər çoxdur. Lakin Naxçıvan torpağında onun qəbri ziyarətgaha çevriləcək. Mən belə fikirləşdim ki, Cavidin qəbri üzərində Nizaminin, Vaqifin məqbərəsi kimi məqbərə tikilsin. Bundan qabaq isə biz Naxçıvanda onun ev-muzeyini açmışdıq»[45].

Yeri gəlmişkən, böyük Azərbaycan ədibinin xatirəsinin əbədiləşdirilməsinə xidmət edən bu nəcib əməlindən Heydər Əliyevin opponentləri onunla siyasi «haqq-hesablarını çürütmək» üçün istifadə etmişdilər. Elçin söyləyirdi ki, 1982-ci ildə Moskvaya yeni vəzifə ilə bağlı yola düşməzdən əvvəl yazıçılarla görüşündə Heydər Əliyev Hüseyn Cavidin nəşinin vətənə gətirilməsini xatırlayaraq deyirmiş: «Siz bilsəydiniz ki, bu ideyanın nə qədər əleyhdarları vardı, mənə qarşı o vaxt nə qədər «anonimka»lar yazılmışdı! Hətta Brejnev də məni bir dəfə qınamışdı: «Bax, sən öz xalqın üçün çalışırsan, məşhur yazıçının nəşini vətənə gətizdirmək istəyirsən, sənin öz azərbaycanlıların isə bizə «anonimka»lar yağdırır, sənin hərəkətlərini «antisovet» adlandırırlar».

*Sevimli və nakam taleli şairin məzarı üzərində möhtəşəm məqbərə ucaltmaq niyyətini Heydər Əliyev ikinci dəfə iqtidara gəldiyi dövrdə – 90-cı illərin ortalarında həyata keçirə biləcək. Böyük sənətkarın qızı Turan Cavidlə və yaradıcı ziyalıların çoxsaylı «dəsant»ı ilə o doğma şəhərinə gələcək, Şərq memarlığının ən yaxşı ənənələri üslubunda yaradılmış əzəmətli abidənin təntənəli açılışında iştirak edəcək. Və Cavidin son mənzili, mübarək türbəsi həmişəlik qədim şəhərin müqəddəs yadigarına, qədirbilən xalqın ziyarətgahına çevriləcək. Tarix öz ədalətli hökmünü vermişdir.*

[45] Ulduz. № 6. C 76.





Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində olduğu dövrdə Heydər Əliyev digər görkəmli ədəbiyyat və mədəniyyət xadimlərimizin də xatirəsinin əbədiləşdirilməsinə çox diqqət yetirirdi. O, tam haqlı olaraq hesab edirdi ki, belə binagüzarlıq milli şüurun inkişafına, öz tariximizə, mədəniyyətimizə qarşı marağın canlanmasına, xalqın mənəvi özünütəsdiqinə təkan verir. O, Elmira Əhmədova ilə müsahibəsində xatırlayırdı ki, bir sıra ev-muzeylərin yaradılması məişət səciyyəli problemlərlə əngəllənirdi:

«...S.Vurğun 1956-cı ildə vəfat etmişdir, ancaq ev-muzeyini 1975-ci ildə açdıq. Bəs bu uzun dövr ərzində belə bir dühanın ev-muzeyini açmaq mümkün deyildimi? Əlbəttə, Azərbaycan, Bakı üçün bu adi bir şey idi. Sadəcə olaraq, düşünən yox idi. Ancaq biz bunu etdik. Şairin ailəsi ilə, həyat yoldaşı Xavər xanımla danışdıq, ailə üzvlərini yaxşı yaşayış evləri ilə təmin etdik. Azərbaycanda SSRİ ədəbiyyatı günlərində biz həmin muzeyi açdıq. Lenti Nikolay Tixonov və Süleyman Rüstəm kəsdi...»

Bir qədər sonra Cəfər Cabbarlının, Üzeyir Hacıbəyovun, Bülbülün ev muzeyləri açılmış, Cəlil Məmmədquluzadənin, Məmməd Səid Ordubadinin, Müslüm Maqomayevin ev muzeylərinin yaradılması haqqında qərarlar qəbul edilmişdir. Yeri gəlmişkən, Heydər Əliyev Moskvaya gedəndən sonra bu qərarları «qəribliyə salmışlar» və Azərbaycan mədəniyyətinin görkəmli xadimlərinin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı işlər yalnız onun doğma respublikaya qayıdışından sonra davam etdirilmişdir.

## Fəttah Heydərovun xatirələrindən:

«Heydər Əliyevin təşəbbüsü ilə Məmməd Səid Ordubadinin yüzillik yubileyinin keçirilməsi haqqında qərar qəbul edilmişdi. Və bu yubiley keçirildi. 1972-ci ildə, mən rayon partiya komitəsinin ikinci katibi olduğum zaman biz Ordubadda yazıçının ev muzeyini açdıq. Hərçənd buna heç də dərhal nail ola bilmədik. İş onda idi ki, həmin evdə Ordubadinin qohumları yaşayırdılar. Onları küçəyə atmayacaqsan ki? Heydər Əliyev muzey üçün yer olsun deyə, torpaq sahəsi ayrılması, yazıçının qohum-əqrabası üçün təzə ev inşa edilməsi ilə bağlı göstəriş verdi. Amma bəzi adamlar sahə ayrılmasını süründürürdülər. Buna baxmayaraq, torpaq verilməsinə və yeni evin tikilməsinə nail oldum. Nəhayət, Ordubadinin ev-muzeyi açıldı. Yeri gəlmişkən, əla muzey yaradıldı.

Ruhlanaraq, 1975-ci ildə mən görkəmli kimyaçı-alim Yusif Məmmədəliyevin ev muzeyi məsələsilə məşğul oldum. Ordubadda onun anadan olduğu ev vaxtilə uşaq bağçasına verilmiş, sonra həmin bağça yeni binaya köçmüş, yerində kənar adamlar məskunlaşmışlar. Mən kommunal təsərrüfatı idarəsinə binanı təmir etməyi tapşırdım. Alimin qızı Sevda Məmmədəliyeva ilə görüşüb eksponatlarla bağlı yardım göstərməsini xahiş etdim. O vaxt mən Bakı Ali Partiya Məktəbində qiyabi təhsil alırdım, məşğələlərdən sonra isə elmi-tədqiqat institutları və neft-kimya müəssisələrinə yollanıb Yusif Məmmədəliyevin tələbələrini və yetirmələrini axtarırdım. Bu soraqlaşmalar və təmaslar sayəsində bir çox eksponatlar – sənədlər, alimin şəxsi əşyaları və s. toplaya bildim. Bir sözlə, ictimai əsaslarla muzey praktiki olaraq yaranmışdı. Qalırdı rəsmi açılışını qərarlaşdırmaq.

Elə bu vaxt Mərkəzi Komitənin elm və təhsil müəssisələri şöbəsinin müdiri, çox ziyalı insan, dostum olan Fikrət Əhmədov mənə zəng vurdu. Vaxtilə Naxçıvanda belə bir muzey açmaq niyyətimizi ona söyləsəm də, o elə bir ruh yüksəkliyi göstərməmişdi.

– Fəttah, sən mənə demişdin ki, Məmmədəliyevin ev-muzeyini açmaq istəyirsən. Bəs necə oldu, bir şey edə bildinmi? İndicə məni Heydər Əliyeviç





çağırıb danladı: «Yusif Məmmədəliyevin yubileyi yaxınlaşır. Bunun üçün nə edirsiniz? Nələri nəzərdə tutmusunuz?» Əzizim, dadıma çat. Bu yubileyi ilə bağlı hansı təkliflərin var?

– Muzey hazırdı, – dedim. – Odur ki, tədbirlər siyahısına Məmmədəliyevin ev-muzeyinin açılışını yaza bilərsiniz.

Bakıda olarkən mən Məmmədəliyevin büstünü sifariş etmişdim. Heykəl üzərində Azərbaycan xalq rəssamı Cəlal Qaryağdı işləyirdi, amma iş uzanırdı.

Fikrətə dedim:

– Büst üzərində iş gedir, xahiş edirəm, onu sürətləndirin. Və daha bir təklif: Naxçıvanda Pedaqoji İnstitutun filialı açılmışdır, mümkündürsə ona Yusif Məmmədəliyevin adını verin. Bundan başqa, biz burada, şəhəryanı torpaqlar hesabına sovxoz təşkil etmişik, ona da Məmmədəliyevin adını vermək olar.

O, təkliflərimin hamısını qeydə aldı, iki gündən sonra isə telefonla zəng çalıb, təşəkkürünü bildirdi. Dedi ki, hər şeyi Heydər Əliyevə çatdırıb, o da bütün tədbirləri bəyənib.

Sözüm ondadır ki, Heydər Əliyev bizi, yuxarıdan göstəriş gözləmədən təşəbbüs göstərməyə öyrətmişdi.

Sonra onun təkidi ilə bütün rayonlarda tarix-diyarşünaslıq muzeyləri yaradılması haqqında Mərkəzi Komitə qərar qəbul etmişdi. Bu çox vacib addım idi. Axı bizlərdə, yeni rayon və şəhərlərlə yanaşı, Şəki, Beyləqan, Gəncə, Qəbələ, Naxçıvan, Ordubad kimi çox qədim şəhərlərimiz var. Onların tarixi minilliklərlə ölçülür! Bu şəhərlərdə tarix-diyarşünaslıq muzeylərinin yaradılması həm də yeni iş yerlərinin açılmasına, tarixi önəm daşıyan çoxsaylı eksponatların muzeylərdə cəmləşməsinə xidmət edirdi. Diyarşünaslıq muzeyləri haqqında qərar bu sahədə məqsədyönlü iş aparılmasına güclü təkan verdi. Və bu gün onlarda arxeoloqların qiyməti ölçülməz tapıntıları da, əhalidən satın alınmış qədim əşyalar da saxlanılır. Beləliklə, həmin qərar keçmişin yadigarlarının kütləvi şəkildə xaricə daşınmasının qarşısını aldı».

«Azərbaycan tarixi»nin akademik nəşrində, 7-ci cildində deyilir ki, 70-80-ci illərdə respublikada 87 yeni muzey açılmış, 1990-cı ilədək artıq 124 muzey fəaliyyət göstərirdi. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Tarixi muzeyi öz eksponatlarını Tokio və Budapeştdə, Paris və Madriddə, Nyu-York və Londonda sərgiləmiş, muzeyin özü isə YUNESKO nəzdində Beynəlxalq Muzeylər Komitəsinə üzv seçilmişdir.[46]

Bizim mədəniyyətimizdə, milli özgürlüyümüzün atributu olaraq, tarixən xalçaçılıq olduqca mühüm yer tutmuşdur. Lakin o dövrdə xalq sənətinin bu növünə göstərilən sərin münasibətin nəticəsində Azərbaycanda xalça muzeyi də yox idi. Bu vəziyyət Heydər Əliyevin vəzifə səlahiyyətlərindən kənarda olsa da, onu çox narahat edirdi. Tezliklə, 1972-ci il aprelin 25-də Bakıda Azərbaycan xalçası və xalq tətbiqi sənəti muzeyinin təntənəli açılışı oldu[47].

* * *

Ümumiyyətlə, Heydər Əliyev mədəni irsin təbliğinə, xalqın incəsənətə marağının dirçəlişinə xidmət edən sahələrə xüsusi diqqətlə yanaşırdı. 70-ci illərdə Bakıda Opera və Balet Teatrı, Azərbaycan Dram Teatrı bərpa edilmiş, Musiqili Komediya Teatrı və Gənc Tamaşaçılar Teatrı yenidən tikilmiş, Şəkidə, Sumqayıtda, Ağdamda teatrlar bərpa edilmiş, Lənkəranda yenidən teatr açılmışdı, – bu, Azərbaycanda səhnə sənətinin, teatr həyatının çiçəklənən dövrü idi.

1974-cü ilin 31 may günündə Lenin adına Sarayda Azərbaycan Dram Teatrının 100 illiyi təntənə ilə qeyd olundu. Heydər Əliyev bütün ölkədən teatr ictimaiyyətinin aparıcı nümayəndələrini teatr bayramına dəvət etmiş və həmin təntənəli iclasda Şərqdə ilk professional teatrın inkişaf yolu, ictimai fikrin formalaşmasına təsiri haqqında parlaq nitq söyləmişdir. Sonda isə M.Əzizbəyov

---

[46] Azərbaycan tarixi, 7 clddə. 7-ci cild. Bakı, 2003. S. 232-233.
[47] Бакинский рабочий. 2003. 23 мая.





adına Azərbaycan Dövlət Akademik Dram Teatrının bayrağına SSRİ-nin ən yüksək mükafatı – Lenin ordenini taxmışdır.

Məşhur səhnə ustaları Mehdi Məmmədov, İsmayıl Dağıstanlı və İsmayıl Osmanlı «SSRİ xalq artisti» fəxri adına layiq görülür. Həmin ildəcə – mayın 26-dan iyunun 10-dək Moskvada Azərbaycan Akademik Dram Teatrının qastrolları uğurla keçirilir.

Bundan iki il əvvəl – 1972-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının yarıməsrlik yubileyi, Səməd Vurğun adına Rus Dövlət Dram Teatrının 50 illiyi təntənəli qeyd olunmuşdu. Heydər Əliyev belə yubileylər keçirməyi xoşlayır, onların vüsətli, qonaqlı-qaralı olmasına çalışır və hər dəfə belə tədbirlər Azərbaycan mədəniyyətinin əyani təbliğinə çevrilirdi. Çoxsaylı ədəbiyyat və incəsənət xadimlərinə isə bu bayramlar əlavə imtiyazlar gətirir, kimi mənzil alır, kimi «əməkdar», ya «xalq» artisti fəxri adına, ya yüksək dövlət mükafatına layiq görülürdü. Bütün bunlar sənətçilərin sosial statusunu yüksəldir, sadəcə olaraq maddi vəziyyətini yaxşılaşdırır, bu da, razılaşaq ki, heç də az önəmli amil deyil.

Görkəmli Azərbaycan söz ustalarının şərəfinə abidələrin ucaldılması, yazıçılar, rəssamlar, bəstəkarlar üçün yaradıcılıq evlərinin tikilməsi, memarlıq komplekslərinin bərpa edilməsi – bütün bunlar MK birinci katibinin daim diqqət mərkəzində olan, qayğı göstərdiyi hədəflər idi.

Biz Heydər Əliyevin teatr sənətinə rəğbəti, bir premyeraya baxmaq fürsətini belə əldən verməməsi haqqında bəhs etmişdik. Şəmsi Bədəlbəylinin təşəbbüsü ilə (o, 70-ci illərdə Musiqili Komediya Teatrının direktoru olmuşdur) Bakıda «Dostluq» teatrı yaradılmış və həmin teatr respublika paytaxtına bir-iki günlüyə Moskva, Leninqrad teatrlarının ən yaxşı tamaşalarının gətirilib göstərilməsinə nail olanda MK birinci katibi bu təşəbbüsü «ikiəlli» dəstəklədi və həmin qısamüddətli qastrolların daimi tamaşaçısı oldu.

Bəs onun Filarmoniyaya bütün Büro üzvlərini də özü ilə bir çəkib gətirdiyi «cümə ziyarətləri»! Həmin musiqi «likbez»ləri haqqında daha ətraflı danışmağa dəyər.

Görkəmli dirijor Niyazinin təşəbbüsü və Heydər Əliyevin fəal dəstəyi ilə bir qayda olaraq ayın son cümə günündə respublikanın partiya-dövlət aktivi üçün klassik və Azərbaycan simfonik musiqisindən konsertlər verilirdi. Əvvəl dinləyicilər qarşısında Moskvadan xüsusən dəvət edilən musiqişünas Janna Dozortseva populyar tərzdə bu və ya digər bəstəkarın yaradıcılığı, proqramda göstərilən əsərlər haqqında məlumat verərdi. Sonralar məşhur sovet bəstəkarı Dmitri Kabalevski bu musiqi gecələrini «ciddi musiqi dinləmə institutu» adlandırırdı.

Mərkəzi Komitənin mədəniyyət şöbəsinin sabiq müdiri **Azad Şərif sonralar xatırlayırdı:** «Etiraf etməliyəm ki, ilk vaxtlarda bəzi vəzifəli dinləyicilərimiz narazılıqla məni qınayırdılar, axı həftənin axırıdır, plan «yanır», sən də bizi sıravi tamaşaçılar sayağı heç kimin getmədiyi konsertlərə təpindirirsən... Tədricən adamlar alışmağa başladılar, musiqiyə maraq oyandı, bəziləri hətta şöbəyə zəng vurub bu gün axşam onları nəyə «qonaq edəcəyimizi» soruşurdular. Bu konsertlərin hamısında, eləcə də şöbəmizin bütün tədbirlərində mən həmişə Heydər Əliyevin arxasında əyləşərdim, o da gedişat ərzində çox-çox suallar, müxtəlif tapşırıqlar verərdi. Heç vaxt yadımdan çıxmayacaq: Qara Qarayevin «Leyli və Məcnun» simfonik poeması ifa ediləndə Heydər Əliyeviç bizə tərəf dönüb heyrətlə: «Necə də ecazkar musiqidir!» – dedi»[48].

Düzdür, partiya-təsərrüfat aparatının bəzi rəhbərləri «birinci»nin klassik musiqiyə bəslədiyi məhəbbəti heç də bölüşdürmürdülər və onlar üçün cümə günləri «qara bayrama» çevrilmişdi... Bununla bağlı Müslüm Maqomayev öz təəssüratını belə xatırlayır:

[48] Зеркало. 2003. 20 декабря.





«Niyazi və onun orkestri onlar üçün simfoniyalar, fortepiano və skripka konsertlərini ifa edirdilər, heç bir operetta, mahnı yox, ancaq klassikanı. Onların sifətlərinə baxaydınız! Simfonik konsertlərə belə gəlişlərini «ziyan çəkənlərdən» biri «işgəncə» adlandırmışdı, sanki bundan betər cəzanı onlar üçün icad etmək də olmazdı. Heydər Əliyeviç Moskvaya gedənə qədər beləcə də davam etdi – deyinsələr də, klassik musiqini candərdi dinləyirdilər. Əliyev: «Bəlkə, kimlərinsə qəlbi gözəllikdən silkələndi», – deyirdi...»[49].

Sonralar Heydər Əliyev özü bu cümə konsertlərini yada salırdı:

«Sovet Azərbaycanının rəhbəri olduğum zaman tez-tez Filarmoniyaya gedərdim: simfonik musiqini sevirəm... Görürdüm ki, konsertlərdə bizim rəhbər işçilərimiz yoxdur... Onda mən elan etdim ki, hər cümə günü axşam saat 7-də Filarmoniyada simfonik musiqi konsertlərinə getmək lazımdır. Birinci dəfə gələndə gördüm oturublar, düzü, güclə dözürlər, fikirləşdim, bəlkə də, ürəklərində məni hətta söyürlər... Bir dəfə, yadımdadır, mən beletajda əyləşmişdim və birdən rəhmətlik həyat yoldaşım mənə dedi: «Gör simfonik musiqiyə onlar necə qulaq asırlar...» Baxıb gördüm ki, bizdən bir sıra aralı Nazirlər Sovetinin sədr müavinlərindən biri möhkəm yatıb, hələ xoruldayır da. Yoldaşım deyir: «Yazığım gəlir, niyə onları məcbur edirsən?» Mən: «Məcbur edirəm, edəcəm də», – dedim... Sonra nəsə buna oxşar tədbirləri Lənkəranda, Gəncədə, Ağdamda, Cəlilabadda keçirməyə başladılar.

Filarmoniya «cümə»ləri haqqında soraqları Moskvanın musiqi dairələrində xeyirxahlıqla qarşıladılar, bu barədə mərkəzi qəzet və jurnallar yazdılar, bu barədə Siyasi Büroda söhbət gedirdi»[50].

[49] Магомаев М. Любовь моя – мелодия. М., 1999. С. 239.
[50] Светлана Мирзоева. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. С.134-135.

Rusiyanın ən qocaman bəstəkarlarından biri, SSRİ Xalq artisti Tixon Xrennikov artıq Heydər Əliyev vəfat edəndən sonra onun haqqında xatirələrini AzərTAC-ın müxbiri ilə bölüşmüşdü:

«Mən Heydər Əliyeviçi yaxşı tanıyırdım, onun dəvətilə dəfələrlə evində olmuşdum... Deyə bilərəm ki, o olduqca cazibədar və maraqlı insan idi. O, musiqini çox sevir, dəyərləndirir və musiqi sənətinə yaxşı bələd idi. Və yadımda qalan ən başlıcası odur ki, Heydər Əliyeviç öz ətrafındakıları, partiya fəallarını daim elə tərbiyə etməyə çalışırdı ki, onlar ciddi musiqini bilsinlər və sevsinlər. Heydər Əliyeviçin bütün partaktivi simfonik musiqini dinləməyə cidd-cəhdlə necə şövq etdiyi mənim yaxşı yadımdadır. O, müntəzəm olaraq simfonik konsertlər silsiləsini təşkil edir, bu məqsədlə Moskvadan məxsusi tanınmış musiqiçiləri, tanınmış orkestrləri dəvət edirdi. O, musiqini çox sevir və istəyirdi ki, hamıya sevdirsin. Axı partiya işçilərində klassika ilə, simfonik musiqi ilə maraqlanan az tapılardı...

Üstəlik, Azərbaycanın musiqiçi-kompozitor dəstəsi Sovet İttifaqı bəstəkarlarının ən parlaq dəstələrindən biri idi və Heydər Əliyeviç həmişə Azərbaycanın istedadlı musiqiçilərinə himayədarlıq edirdi. Yadımdadır, bir dəfə Heydər Əliyeviç məni və mənim azərbaycanlı bəstəkar sənətdaşlarımı öz evinə qonaq çağırmışdı. Məmnunluqla musiqi çalmağımızı, nəğmə oxumağımızı xatırlayıram, – ən başlıcası odur ki, o da bizə qoşulub oxuyurdu – Azərbaycan xalq mahnılarını da, o zaman ümumittifaq məkanda populyar olan sovet mahnılarını da.

Xüsusən vurğulamaq istəyirəm ki, Heydər Əliyeviç böyük dövlət xadimi və elə bir insan idi ki, sözün əsl mənasında, musiqi mədəniyyətini Azərbaycanda çox aktiv tətbiq edirdi və onun inkişafı üçün, onun dünya musiqi sənətində öz yerini tutması üçün çox-çox işlər görmüşdür».

Heydər Əliyev Üzeyir Hacıbəyovun musiqi dühasına pərəstiş edirdi və onun 90 illiyinin SSRİ-nin paytaxtında, «Bolşoy teatr»da keçirilməsinə nail olmuşdu. O, digər görkəmli musiqi ustalarına da – Qara Qarayevə, Fikrət Əmirova,





Niyaziyə, Rəşid Behbudova ehtiram bəsləyirdi. Fikrət Əmirovun «Min bir gecə» baletinə bir neçə dəfə tamaşaçı kimi baxmış, daha sonra Sovet İttifaqı mədəniyyət naziri P.Demiçevlə danışıqlar aparıb baletin Kremlin Qurultaylar Sarayında göstərilməsinə təhrik etmişdir. Moskvada işləyərkən o, Azərbaycan balet truppasının paytaxtda daha bir qastrolunun gerçəkləşməsinə nail olmuş və Fikrət Əmirovun baleti «Bolşoy teatr»ın səhnəsində də göstərilmişdir.

Heydər Əliyev Qara Qarayev musiqisinin vurğunu idi, bəstəkarla onu haçandan bəri ülfət telləri bağlayırdı. Sonralar o, etiraf edirdi: «O vaxtlar biz hər şeyi Sovetlər İttifaqı miqyasında ölçürdük. Mənim aləmimdə o zamanlar Sovet İttifaqında Dmitri Şostakoviçdən sonra ikinci yerdə Qara Qarayev idi»[51]. Qara Qarayevin 60 illiyini vətəndə təntənə ilə qeyd edəndən sonra Heydər Əliyev həyat yoldaşı ilə Moskvaya yollanıb 1978-ci ilin 15 fevralında Moskva Konservatoriyasının Böyük salonunda, ölkənin musiqi elitası qarşısında dahi bəstəkarın şərəfinə qurulmuş büsatın sevincinə yenidən qoşulmuşdu. Əfsuslar olsun ki, xəstəliyi ucbatından Qara Əbülfəz oğlu özü bu bayramda iştirak edə bilməmişdi.

Heydər Əliyevin birinci katib vəzifəsində işlədiyi ilk illərdən başlayaraq, onun iştirakı ilə böyük Azərbaycan şairi və mütəfəkkiri Nəsiminin 600 illiyi,* Azərbaycan Dram Teatrının 100 illiyi, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Mixail Şoloxov, Məmməd Səid Ordubadi, Sergey Yesenin, Səməd Vurğun, Aşıq Ələsgər kimi sənətkarların yubileyləri keçirilmişdir. Yubiley tədbirləri ümu-

[51] Heydər Əliyev mədəni irsimizin keşiyində. K. 2. S. 207.

* Heç də hamıya bəlli deyil ki, 70-ci illərdə hökumət nümayəndə heyətinə Suriya səfərində başçılıq edən Heydər Əliyev Nəsimi dəfn olunduğu Hələb şəhərini ziyarət etmək istədiyini bildirir; Suriya prezidenti Hafiz Əsəd şəxsən qonaqların marşrutunun dəyişilməsinə sərəncam verir. Uzun axtarışlardan sonra, şəhər qəbiristanlığında böyük şairin məzarını göstərirlər. Türbə sadə olsa da, səliqə-sahmanlı saxlanılırdı. Heydər Əliyev türbənin baxıcısı ilə tanış olur. Məlum olur ki, o, ulu şairin nəslindəndir.

mittifaq, beynəlxalq miqyasda əks-səda doğurur, Bakıdan baş alıb Moskvanın mötəbər salonlarında tamamlanırdı.

Mədəni ölçülərdən başqa bu əlamətdar yubileylər həm də böyük siyasi önəm daşıyırdı. Bu toplantılara Moskvanın elitası, başqa respublikaların görkəmli nümayəndələri cəlb olunurdu. Heydər Əliyevin iştirak edəcəyini bilərək tədbirlərə partiya rəhbərləri də təşrif buyururdular.

■ Azad Şərif söyləyir:

«Yadımdadır, İttifaqlar evinin sütunlu salonunda Aşıq Ələsgərin yubileyini keçirirdik. Buna qədər moskvalılar Aşıq Ələsgərin kimliyini də bilmirdilər. Sonra biz Moskvada Azərbaycan ədəbiyyatı günlərini keçirdik. Belə tədbirlərə həmişə böyük sənətçilər dəstəsi də aparılırdı. Bizim incəsənət ustalarımız bütün iri müəssisələrdə çıxış edirdilər.

Heydər Əliyev bizi hər zaman təhrik edirdi ki, respublika hüdudlarından çıxmaq lazımdır. Ukraynada, Özbəkistanda Azərbaycan mədəniyyəti günlərinin necə də yüksək səviyyədə keçdiyini heç vaxt unutmayacağam. Daşkənddə Özbəkistan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Şərəf Rəşidov bizim nümayəndə heyətimizi şəxsən trapın yanında qarşıladı. Ayrılanda da özü yola saldı. Azərbaycan nümayəndə heyətinin şərəfinə verilən ziyafətdə isə dedi:

– Sizin necə də böyük, qüdrətli mədəniyyətiniz var! Bizim Mirzə İbrahimovumuz yoxdur, mən bir ədib kimi öz içimizdə belə azmanı görmürəm. Bizdə Rəsul Rza, Süleyman Rəhimov yoxdur, bizim Tahir Salahovumuz yoxdur, Rəşid Behbudov kimi müğənnimiz yoxdur və yəqin ki, heç vaxt olmayacaq...

SSRİ məkanında belə çıxışlar millətin mədəni, mənəvi özünütəsdiqi üçün çox vacib idi».

70-ci illərdə Azərbaycan yazıçılar təşkilatını SSRİ Yazıçılar İttifaqında təmsil etmiş yazıçı-tərcüməçi Azər Mustafazadə bu mövzu ilə bağlı mənə bir maraqlı əhvalat söylədi:





«Böyük şairimiz Nəsiminin 600 illik yubileyinə hazırlıq Moskvada müzakirə edilirdi. Müşavirə Azərbaycanın daimi nümayəndəsinin kabinetində, Heydər Əliyevin iştirakı ilə keçirildi. Yubileyin məhz harada keçiriləcəyi məsələsi ortaya çıxdı.

Tədbirin səviyyəsi yüksəldilsin deyə yubileyin «Bolşoy teatr»da keçirilməsi qət edildi. Lakin SSRİ mədəniyyət naziri yubiley günündə həmin teatrda tamaşa gedəcəyini və bütün biletlərin satıldığını (özü də valyutaya) bəhanə edərək Azərbaycan tərəfinin xahişinə «yox» cavabı verdi. Heydər Əliyev telefon dəstəyini götürüb özü Demiçevə zəng vurdu. Nazir yenə də dirəndi: axı bütün biletlər satılıb! Onda Əliyev təşkilat komitəsi üzvlərinə üz tutub: «Kabineti tərk edin!» deyə xahiş etdi. Beş dəqiqədən sonra hamını yenə çağırıb mədəniyyət nazirimizə tapşırdı: «Zakir (Zakir Bağırov – ***E.A.***), «Bolşoy»a yollan, bütün detalları yerbəyer eləyin».

Azər Mustafazadə sözünə davam edir: «Biz anladıq ki, o, SSRİ mədəniyyət nazirinin buyruğu və istəyinə qarşı getmiş və daha yuxarıda kiməsə, ola bilsin Suslova, bəlkə də, baş katibin özünə zəng vurmuşdur. Yəni respublikanın maraqları naminə o hətta ən nüfuzlu Moskva məmurları ilə qarşıdurmaya gedə bilərdi».

70-ci illərdə Heydər Əliyev Azərbaycanın mədəni əlaqələr məkanını SSRİ hüdudları ilə kifayətlənməyərək qeyri-adi dərəcədə genişləndirməklə dünyanın ən müxtəlif məmləkətlərinə öz doğma respublikasını tanıtmağa çalışırdı. Belə ki, 1977-ci ilin oktyabr ayında Yaponiyada Azərbaycanın tarixi, elmi, milli-mədəni ənənələrinə həsr olunmuş sərgi açılır, İtaliyanın Neapol şəhərində isə Azərbaycan mədəniyyəti günləri keçirilir; 1978-ci ilin oktyabrında Böyük Britaniyada Azərbaycan mədəniyyəti günləri keçirilir; bir il sonra İsveçdə təkrarsız Rəşid Behbudov başda olmaqla Azərbaycan incəsənət ustalarının konsertləri alqışlanır; respublikanın mədəniyyəti günləri Fransada, Danimarkada, Portuqaliyada uğur qazanır...

Heydər Əliyev milli təəssübkeşlik baxımından olduqca iddialı vətən oğlu idi. O çalışırdı ki, onun «millətinin xətti» «imzalar içində» layiqli yer tutsun. O cümlədən incəsənət aləmində. «Любовь моя – мелодия» («Mənim məhəbbətim melodiyadır») kitabında Müslüm Maqomayev MK birinci katibinin «xeyir-dua»sı ilə Bakıda yeni estrada-simfonik orkestrinin necə meydana çıxmasını açıqlayır:

«Çoxdan arzum vardı ki, əməlli-başlı estrada orkestri yaradım. İş belə gətirdi ki, bir müddət sonra arzumu gerçəkləşdirməyə başlaya bildim... İlk çağlarda Lyova Merabovun rəhbərlik etdiyi gözəl «biq-bend»lə işləyirdim, sonralar mənim üçün aranjemanlar hazırlayan gözəl musiqiçi dostum Vladimir Terletski yeni orkestrin yaradılmasında mənə yardım göstərməyə qatlaşdı. Və tezliklə, yalançı təvazökarlığa uymadan deyə bilərəm ki, ən yaxşı caz musiqiçiləri qatılan orkestrin özəyini yaratmağa nail olduq»[52].

Heydər Əliyev növbəti məzuniyyəti zamanı ailəsi ilə Krımda dincələrkən orkestr də oralarda qastrol səfərində imiş. Konsertlərinə gedib Müslümlə görüşür, Bolqarıstan lideri Todor Jivkovun tezliklə gəlişini gözləyən Bakıya orkestrlə birlikdə təşrif buyurmasını xahiş edir.

Maqomayev xatırlayır:

«Konsertdən sonra Heydər Əliyeviçdən soruşdum:

– Xoşunuza gəldimi?

– Çox xoşuma gəldi. Gözəl musiqiçilərdir. Hər şey əladır. Təbrik edirəm.

Fürsətdən istifadə edib deyirəm:

– Olarmı ki, orkestrimizi belə adlandıraq: Azərbaycan dövlət estrada-simfonik orkestri?

– Sanballı təsir bağışlayır, – Əliyev razılaşır.

– Amma bir «əmma»sı var. Azərbaycanlılar orkestrdə bir-iki nəfərdir. Qalanları tam «internasional»dır. Elə bizim Bakımız kimi.

[52] Магомаев М. Любовь моя – мелодия. С. 196-197.





– Eybi yox, Müslüm. Vaxt keçdikcə bizimkilər də yeyin tərpənər. Musiqiçilərə isə ən yüksək ölçüdə maaş verərik.

Çalğıçıların çiçəyi çırtladı: bundan yaxşı maaşlar ola bilməzdi. O vaxta görə iki yüz altmış – iki yüz yetmiş rubl – bir yarım, ikiqat «stavka» demək idi. Üstəlik, «premiyalar», ezamiyyət pulu, studiya yazılışlarının qonorarları...»[53].

Azad Şərif Bakı xoreoqrafiya məktəbi üçün yeni bina tikilişi fikrinin Heydər Əliyevi necə şövqləndirdiyini yada salır. O, layihə üzərində işlərin başlanmasına sərəncam verib Büroda bu məsələni qaldırır; nəticədə şəhərin mərkəzində geniş sahə ayrılır, lazımi maliyyə vəsaiti verilir. Düzdür, binanın inşası uzun çəkmiş və məktəbin açılışı Heydər Əliyevin iştirakı olmadan keçirilmişdir. Lakin Siyasi Büro üzvü olaraq Bakıya ilk səfərində o öz «yadigar»ına baş çəkmək istəyini bildirmişdi.

Yeri gəlmişkən, Mərkəzi Komitənin birinci katibinin məsləhəti sayəsində bir çox mədəniyyət sarayları, mehmanxana kompleksləri, metropoliten stansiyalarının tikintilərində hələ ulu Əcəmi Naxçıvanidən başlanan milli memarlıq ənənələrinin ünsürləri istifadə edilməyə başlamışdır.

### ■ Milli Məclisin deputatı Fəttah Heydərov xatırlayır:

«Heydər Əliyevin göstərişi ilə Naxçıvanın inkişafı üzrə baş plan işlənib hazırlanmışdı. Raykomların birinci katibləri, Naxçıvan hökumətinin sədri, nazirliklərin və Bakı idarələrinin bu işə cavabdeh olan başçıları, o cümlədən Respublika Nazirlər Sovetinin sədri Əli İbrahimov və onun müavini Əliş Ləmbəranski bir araya yığışmışdılar. Divardan baş plan xəritəsi də asılmışdı. «Azqosproyekt»in rəhbəri Tahir Abdullayev Heydər Əliyevə memarların işi haqqında məruzə edir.

[53] Магомаев М. Любовь моя – мелодия. S. 202.

– Mən Naxçıvanda Mədəniyyət sarayının tikilməsi haqqında göstəriş vermişdim, – Əliyev məruzəçiyə üz tutur, – onu harada yerləşdirməyi planlaşdırırsınız?

– Şəhərdə bir məscid var, yanından köhnə, birmərtəbəli, artıq uçmaqda olan evlər sıralandığı küçə keçir. Sarayı orada tikmək istəyirik.

– Hə, bir göstər görək haradadır?

Məsciddə vaxtilə Telman adına klub yerləşirmiş, Heydər Əliyev də gənclik çağlarında yerli dram dərnəyində iştirak edər, baş rollarda oynayarmış, sonralar klubu Poeziya teatrı əvəz etdi. Heydər Əliyev diqqətlə baxıb:

– Burada pir olmalıydı, – dedi. – O, qalıbmı?

– Bəli, – Abdullayev təsdiqlədi. – Eşitdiyimə görə, qalıb. Bibimgilin yaxınlığındadır.

– Bibinmi? Bəs kimdir sənin bibin?

– Məsmə xanımdı.

– Məgər o sənin bibin çıxır? Axı sənin atan... – Heydər Əliyev hansısa soyun adını çəkdi. Məlum oldu ki, Məsmə xanım Abdullayevin atasının ögey bacısıdır.

Bax, belə bir dialoq gedir, özü də o vaxt Ləmbəranski Tahir Abdullayevi işdən azad etmək niyyətində idi. Heydər Əliyev qəsdən bu söhbəti ortalığa atmışdı, Ləmbəranskiyə dolayısı yolla bildirmək istəyirdi ki, Abdullayevə dəyməsin.

– Mədəniyyət sarayı elə yerdə tikilməlidir ki, şəhərin mərkəzinə yaxın olsun, camaat oraya həvəslə gəlsin, həm də şəhərə daxil olanda görünsün. Siz bilirsiniz ki, indi mədəniyyətə böyük vəsait vermirlər. Mən «Qosplan»dan bir neçə mədəni-maarif müəssisələrinin, o cümlədən Naxçıvanda Mədəniyyət sarayının inşasına çətinliklə pul ala bildim. Bizim orada gözəl müasir binalarımız azdır, odur ki, onu elə yerdə tikməlisiniz ki, şəhərə yaraşıq versin. – Heydər Əliyev özü xəritədə sarayın tikilməli olduğu yeri göstərdi. Birdən: – Bəs onu hansı memarlıq üslubunda inşa etmək istəyirsiniz? – soruşdu. Məmurlar baxışıb cavab verməyə söz tapmadılar.

– Sizin hansısa milli memarlıq konsepsiyanız varmı?





– Biz onun üzərində işləyirik, Heydər Əliyeviç, – Nazirlər Sovetinin sədri dilləndi.

– Yaxşı, işləyin. Möminə Xatun məqbərəsi timsalında dahi Memar Əcəminin üslubunu öyrənsəniz, bu sizə iyirmi il bəs edər. Bu iyirmi il ərzində də ümidvaram ki, konsepsiyanı hazırlayıb həyata keçirərsiniz...

Onun sözləri memarları həm şaşırtdı, həm də eyni zamanda milli konsepsiya ünsürlərini hansı istiqamətdə axtarmalı olduqlarını nişan verdi. Bundan sonra Naxçıvanda Mədəniyyət sarayı (belə birisi də Bərdədə tikildi), Bakıda bir sıra binalar Əcəmi Naxçıvani üslubundan bəhrələnməklə inşa olundu».

* * *

Heydər Əliyev sənət adamlarını, yaradıcı insanları daim duymuş, anlamış, onlara xüsusi həssaslıqla yanaşmış, problemlərinin, fikir ixtilaflarının, münaqişələrinin məğzinə varmağa çalışmışdı. Yaradıcı insanlar bir çox hallarda çətin, mürəkkəb təbiətli, incik, necə deyərlər, ürəyinazik, «dəymədüşər», uşaq kimi dəyişkən ovqatlı olurlar. Respublikada bir çoxları indiyədək birinci katibin Azərbaycan musiqisinin korifeyləri, münasibətləri heç də «hamar» olmayan dirijor Niyazini, bəstəkarlar Qara Qarayevi, Fikrət Əmirovu barışdırmaq üçün nə qədər səy göstərdiyini xatırlayırlar:

«Heydər Əliyeviç nələr etmədi! – Müslüm Maqomayev söyləyir. – Hər birinə zəng edir, hər üçünü ya ayrı-ayrı çağırıb səmimi söhbət edir, dilə tutur, barışdırır: «Mən sizdən xahiş edirəm, bizim Azərbaycan incəsənətinə kölgə salmayın». Onlar gedirdilər, başlarını tərpədə-tərpədə razılaşır, gülümsəyir, dostluq etməyə söz verir, Əliyevin yanından bir yerdə çıxır... və ayrı-ayrı səmtlərə dağılışırdılar. Bu böyük istedadlar bir-birilə yola getmirdilər, o isə acıyırdı»[54].

Tbilisidə «Zakavkazskaya vesna» musiqi festivalı keçirilməli idi və «ev sahibləri» Azərbaycanın hər üç sənət korifeyini bu bayramda görmək istəyirdilər.

---

[54] Магомаев М. Любовь моя – мелодия. С. 238.

Lakin elə həmin vaxt onların şəxsi münasibətləri son dərəcə gərginləşmiş və onlar bir-birilə, demək olar ki, ünsiyyətdə olmurdular.

**Azad Şərif öz xatirələrində yazır:**

«Heydər Əliyevin onların hər birinə hörmətcil və qayğıkeş münasibətini, onlara «ərki çatacağını» bilərək, respublikanın rəhbərinə kömək üçün müraciət etməli olduq. O bizim (mədəniyyət naziri Zakir Bağırovla – *E.A.*) xahişimizə – onlarla dostcasına, qeyri-rəsmi «çay süfrəsi» başında görüşməyə – dərhal razılıq verdi... Açığını deyim ki, kabinet sahibinin yaratdığı xoş şəraitə və ünsiyyəti dərhal sərbəst ton üstə kökləməsinə baxmayaraq, əvvəl söhbət heç cürə alınmırdı».

Üç məşhur sənətkar H.Əliyevi özlərinin «qəliz münasibətlərinin dolanbac» məqamlarına qatmaq istəmirdi. Və birinci katib bütün diplomatik istedadını səfərbər etməli oldu ki, qonaqları açıq məhrəm söhbətə həvəsləndirə bilsin. Nəticədə, Azad Şərif xatırlayır, bu görüş beş saat (!) sürmüş, çay süfrəsinə kolbasa, pendir-çörək də əlavə olunmuşdur.

Əlbəttə, məsələ ancaq ya bütövlükdə şəxsi rəğbət, ya antipatiyalarda deyildi: «Hər birinin musiqi sənətinin çağdaş dönəmindəki inkişafı haqqında öz anlayışı, zəngin Azərbaycan milli musiqi folklorundan bəhrələnmə haqqında öz yozumu var idi. Məsələn, Qara Qarayev folklordan, onun təbirincə desək, «sitatçılığın» əleyhinə idi. Niyazi hesab edirdi ki, Qara Qarayev «Üçüncü simfoniya»sında və skripka ilə orkestr üçün konsertində işlətdiyi eksperimentlər və yeni fəndlər bir ustad kimi Qarayev üçün məqbuldursa, cavan bəstəkarlara rəva deyil...

Söhbət artıq sona yetirdi ki, Moskvadan «VÇ» xətti ilə telefon zəngi çalındı. Bu pauzadan istifadə edən üçlük sıxlaşıb «pəs»dən öz aralarında söhbətləşirdi. Bu, əlbəttə ki, Heydər Əliyevin diqqətindən yayınmadı. O, zarafatla dedi: «Allaha şükür, görürəm ki, siz daha barışmısınız, indi də kiminsə əleyhinə birləşirsiniz!»





– Olan şeydimi, Heydər Əliyeviç! – Qara Qarayev vəcdlə etiraz etdi. – Belə şey mümkündürmü? Biz burada xeyli vaxtınızı aldıq, amma yaxşı ki, bu görüş baş verdi. Bizim ona çox ehtiyacımız vardı. Biz bu gün üçümüz də respublikanın musiqi imicini dəstəkləmək üçün Tbilisiyə getməyə hazırıq, – Qarayev yüngülləşmiş kimi nəfəs dərdi, gərgin söhbətləşmədən sonra ilk dəfə eynəyinin arxasında tanış, həlim Qarayev təbəssümü sezildi...

Birlikdə çıxıb evlərinə yollanarkən Filarmoniyanın tinində ayaq saxlayıb dostcasına, vəcdlə əl-qol ata-ata, arabir şaqqanaq çəkərək üçlükdə xeyli söhbətləşdilər...»[55]

Üstündən uzun illər keçəndən sonra, bəstəkar Arif Məlikovun yaradıcılıq gecəsində Azərbaycanın prezidenti Heydər Əliyev görkəmli sənətkarları barışdırmaq üçün göstərdiyi səylərini xatırlayacaq:

«Xatirimdədir, mən onlarla vaxtaşırı görüşüb danışarkən bir-birilə münasibətlərinin gərgin olduğunu hiss edirdim. Biri yanıma gələndə deyirdim ki, filankəs səni çox tərifləyirdi. Bu birisi yanıma gələndə deyirdim ki, o da mənim yanıma gəlmişdi, səni çox tərifləyirdi. Bilirsiniz ki, istedadlı adamlar həmişə qəribə olurlar. İstedadlı olanların hər birinin özünəməxsus xüsusiyyəti var. Mənim kimi siyasət adamı, respublikaya rəhbərlik edən adam gərək hərənin öz dilini bilsin, hərəni öz dili ilə dindirsin. Çalışsın ki, münasibətlər yaxşı olsun, mehriban olsun. Mən buna çalışırdım»[56].

1973-cü ildə Heydər Əliyev bəstəkarlar arasında çəkişmələrə son qoymaq niyyəti ilə musiqi mədəniyyətinin korifeylərini özünün şəhəryanı iqamətgahına, Zuğulbaya dəvət etmişdi. Sonralar prezident xatırlayırdı: «Biz bütün günü söhbət etdik, musiqidən danışdıq... Hesab edirəm ki, bu, çox böyük bir görüş oldu. Bundan sonra münasibətlər xeyli düzəldi»[57].

---

[55] Зеркало. 2003. 9 мая.

[56] Heydər Əliyev mədəni irsimizin keşiyində. K. 2. S.212.

[57] Yenə orada.

Birinci katib yaradıcılıq təşkilatlarının daxili «nizamnaməlik» işlərinə qarışmağı xoşlamırdı. Amma bəzən «açıq mətnlə» bildirirdi ki, Azərbaycan mədəniyyətinin şan-şöhrətini təmsil edən insanları darda qoymayacaq.

1979-cu ildə Niyazi ilə bağlı belə bir əhvalat oldu. Görkəmli, bənzərsiz dirijorumuz tündxasiyyətliyi, ötkəmliyi ucbatından yaradıcılıq təşkilatının az qala yarısı ilə aranı pozmuş və onun əleyhdarları respublika bəstəkarlarının V qurultayının son iş günündə, İttifaqın Rəyasət Heyəti üzvləri seçiləndə «hayıflarını çıxmışdılar» – onu Rəyasət Heyətindən kənarda qoymuşdular. Niyazi ilə dostluq münasibətlərində olan jurnalist Svetlana Mirzəyeva xatırlayır ki, İttifaqın Rəyasət Heyətinə az qala təşkilatın yarandığı gündən daxil edilən, ötkəm, eyni zamanda kövrək heysiyyatlı bəstəkar üçün bu hadisə çox sarsıdıcı zərbə olmuşdu.

«Bəstəkarlar İttifaqında baş vermiş fövqəladə hadisələr Azərbaycanın rəhbəri Heydər Əliyevi dərindən həyəcanlandırmışdı. O, telefonla Niyaziyə zəng vurur və dəstəkdən gələn səsindən sənətkarın necə də ümidsiz halda olduğunu duyur. O özünü tox tutmağa çalışsa da, hətta zarafat etməyə özündə güc tapsa da, həssas müsahibi anlayır ki, bu insanı xilas etmək lazımdır.

Bəstəkarlar İttifaqının yeni idarə heyəti qatılmaqla təcili müşavirə çağrılır. Respublika başçısı bütün musiqi həyatının panoramı əks edilən parlaq məruzə ilə çıxış edir (təsadüfi deyil ki, tezliklə həmin məruzə nüfuzlu professional «Sovetskaya muzıka» jurnalında dərc olunmuşdu). Və yığışanları heyrətə gətirən onun kağızsız-filansız danışmağı, musiqi erudisiyası, yaddaşı, yaradıcı prosesin psixologiyasını, sənətkar fərdiyyətini anlamağı idi»[58].

Ardınca Heydər Əliyev Bəstəkarlar İttifaqında «qeyri-sağlam ab-havadan, paxıllıqdan, adamların xırda umu-küsülərindən, qərəzli çəkişmələrin yolverilməz olduğundan danışdı. Heydər Əliyev bildirdi ki, heç kimi – nə Qarayevi, nə Əmirovu, nə Niyazini incik salmağa qoymayacaq...

[58] Светлана Мирзоева. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. С. 124.





Niyazidən söz düşəndə dirijor nəzərə çarpmadan salona daxil oldu. O, respublika rəhbərinin baş verənlər haqqında – niyə bütün sovet ölkəsində tayı az tapılacaq («üçü varsa, biri Niyazidir»), bütün dünyada tanınan, səsverənlərin yarısı hələ dünyaya gəlməmiş İttifaqda olan istedadlı dirijor təhqirə məruz qalmışdır? – deyə necə ağrı ilə danışdığını eşitdi.

Bir neçə saatdan sonra mən Niyazinin artıq sevincək üzünü gördüm.

– Təsəvvür eləyirsən, Heydər Əliyeviç «mən Niyazini incitməyə qoymaram!» dedi.

O həmin axşam bu sözləri dönə-dönə dilə gətirdi...»[59].

1979-cu ilin 1 oktyabrında Mərkəzi Komitədə respublikanın aparıcı bəstəkarları ilə görüşdə Heydər Əliyev, həqiqətən də, çox professional nitqlə çıxış etdi və bu çıxış onun nəinki milli musiqi sənətinin bütün müasir problemlərindən xəbərdar olduğunu, həm də bu problemlərin çözüm yollarına öz baxışı, öz görümü olduğunu nümayiş etdirdi. Həmin çıxışdan bir neçə sitat gətirmək istəyirəm:

«...Bəzən bəstəkarlar arasında daban-dabana zidd nöqteyi-nəzərləri ifadə edən fikirlər eşitmək olar. Bəziləri hesab edir ki, əsərlər yalnız klassik professional musiqi əsaslarında yaradılmalı, o biriləri əksinə, hər şey xalq havacatı zəminində qurulmalıdır – deyirlər. Həm bu, həm digər əyintilər yanlış və ziyanlıdır... Biz ondan çıxış edirik ki, professional musiqi Avropa sivilizasiyasından... bizim üçün isə həmçinin klassik rus musiqisindən qaynaqlanır... Bəstəkarın ustalığı, yüksək professionallığı ondan ibarət olmalıdır ki, toplanmış zənginliklərdən faydalanaraq, Azərbaycan xalq musiqisi, folkloru əsasında bütün janrlarda fundamental əsərlər yaratsın. Bunu Qara Qarayev özünün «Yeddi gözəl» baletində gözəl ifadə etmişdir. Fikrət Əmirov «Kürd-ovşarı» simfonik muğamında, Niyazi – «Rast» simfonik muğamında buna nail olmuşdur. Bu əsərlərin kökündə

[59] Светлана Мирзоева. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. С. 124.

bizim qədim muğamlar dursa da, görün onlar necə professionallıqla yazılmış, xalq melodiyalarından necə yaradıcı istifadə olunmuş, folklor və müasirlik necə bacarıqla, üzvi şəkildə sintez halına salınmışdır».

Öz nitqində Heydər Əliyev Azərbaycanda xor sənətinin zəif inkişaf etdiyini, «Dövlətteleradio»su estrada orkestrinin keyfiyyətcə professional müasir tələbatdan çox geridə qaldığını nəzərə çatdırmış, hətta «Qaya» ansamblının, yeni səsləndirmə formaları axtarışları, eksperimentçiliyi nəticəsində ifaçılıq üslubuna xələl gətirdiyini və özünəməxsusluğunu nəzərə çarpacaq dərəcədə itirdiyini qeyd etmişdi. Bəstəkarlar mühitində əsəbi ab-hava olduğunu da ağrı-acı ilə dilə gətirmişdi: «Bir sirr deyil, faktlar var ki, bir bəstəkar o birisi ilə danışmır, biri o birisinə məhəl qoymur».

Özü qəlbiaçıq, qarşılıqlı münasibətlərdə saxtalığa dözməyən bir insan olaraq, bəstəkarları bir-birinə qarşı qeyri-səmimi olduqlarına, şəxsi-qərəzliyə yol verdiklərinə görə qınayırdı: «Hər bir əsər dəyərinə görə obyektiv, prinsipial qiymətləndirilməlidir. Əsər tam işlənməyibsə, sönükdürsə, elə də demək lazımdır. Nöqsanın, kəm-kəsirin nədə olduğunu birbaşa üzə demək lazımdır. Siz isə çox vaxt üzə heç nə demirsiniz, arxada pisləyirsiniz»[60].

## ■ Vaqif Mustafayevin «Birinci» filmindən:

**Vidadi Nərimanbəyov:** «Heç bir mühüm sərgi, heç bir mühüm tədbir, hətta «qeyri-mühüm» də, mədəniyyətlə bağlı tədbirlər onun iştirakı, dərin marağı və lazım gələndə, təbii ki, köməyi olmadan keçirilmirdi.

Respublika Rəssamlar İttifaqı katiblərindən biri kimi mən tez-tez belə tədbirlərə qatlaşmalı olurdum və çox vaxt mənə xəbərdarlıq edirdilər ki, Heydər Əliyevin qarşısında bir dəfə çıxış edilməli, təkrarçılıq olmaz, odur ki, hazırlaşın və demək istədiyinizi biryolluq deyin. Amma hər bəfə bu deyilmələr söhbətə çevrilirdi. O hansı minvallasa adamı açıq danışmağa, içində baş qaldıran hansısa

[60] Бакинский рабочий. 1979. 2 октября.





yeni düşüncələrə təhrik etməyi bacarırdı. Sən ürəyindəkini deməkdən qorxmurdun, əksinə, buna ehtiyac duyurduq. Bu da həmişə məmnunluq doğururdu».

**Ömər Eldarov:** «Bizim birinci katiblə tez-tez görüşməyimizə həm də ona görə sevinirdik ki, o, sərgiyə baş çəkmək, qonaqlarımızı – Moskva, ya Leninqraddan, yaxud Kiyevdən gələn məşhur rəssamlarla görüşmək fürsətini əldən vermirdi. O belə ünsiyyəti çox xoşlayırdı və bu onda elə təbii alınırdı ki, heç kəsdə, heç cürə, belə deyək, gərginlik yaranmazdı. Hər şey təbii, natural olardı».

Heydər Əliyev yalnız Azərbaycan mədəniyyət ustalarına qayğı göstərməklə məhdudlaşmırdı. Çoxları, bəlkə, bilmir ki, böyük musiqiçi, violonçel sehrkarı Mstislav Rostropoviçin Heydər Əliyevlə dostluğu 70-ci illərdən başlamışdır. Rostropoviç-Vişnevskaya cütlüyü gözümçıxdıya salınmış Soljenitsına öz mülkündə sığınacaq verəndən, üstəlik, maestro mərkəzi qəzetlərə açıq məktub göndərib başıbəlalı yazıçının müdafiəsinə qalxandan sonra Rostropoviçin də başı üzərində qara buludlar sıxlaşdı.

Moskvada, Leninqradda çıxışları yasaqlandı, xaricə səfərləri pozuldu, onu hətta Ukraynaya da buraxmadılar.

«Məhz o çətin zamanda Rostropoviç Bakıya, sevdiyi şəhərə, sevimli adamların yanına gəldi, – Azərbaycanın tanınmış jurnalisti Svetlana Mirzəyeva yazır: «Onu sevinclə qarşıladılar. O da səxavətlə bakılılara fantastik musiqi, müxtəlif dövrlərə mənsub olan müəlliflərin çoxsaylı bəstələrini bəxş etdi. Bakıda beş gün çıxış edən Mstislav Leopoldoviç on konsert verdi...»

Slavanı ilahiləşdirən dostları, o, cismən də, ruhən də dincələ bilsin deyə, Moskvada ətrafında dolaşdırılan intriqa torlarını heç olmasa bir qədər unutsun deyə gözəl şərait yaradırdılar.

Həmin intriqalardan Azərbaycanın ovaxtkı rəhbəri Heydər Əliyev yaxşı xəbərdar idi, bu barədə, necə deyərlər, «ilkin mənbələr»dən məlumatlanmışdı. Buna baxmayaraq, ədalət hissini və musiqiçinin sənətinə heyranlığını rəhbər

tutaraq, o nəinki konsertlərə, məsələn, Ukraynada olduğu kimi qadağa qoymadı, üstəlik, öz dostuna, etibar etdiyi adama – dirijor Niyaziyə təqiblərə məruz qalan sənətkara maksimal diqqət göstərməyi tapşırdı. Rostropoviçin əleyhinə barışmazcasına köklənmiş müəzzəm Moskvaya rəğmən bunu etmək üçün gərək necə mərdlik sahibi olasan!»[61]

On altı il ötəndən sonra hər iki şan-şöhrətli sənətkar Rusiyaya qayıdan zaman, bir çox dost-tanışları xəcalət çəkdiklərini bildirir, üzrxahlıq edirdi, «Bolşoy teatr» isə Qalina Vişnevskayanın yaradıcılıq fəaliyyətinin qırx beş illiyi şərəfinə təntənəli gecə qurdu...

Azərbaycanın xəcalət çəkməsinə heç bir səbəb yox idi və Rostropoviçin 70 illiyi bayram edilən Parisə şəxsən yubilyar və Fransa prezidenti Jak Şirak tərəfindən dəvət olunmuş Heydər Əliyev Mstislav Leopoldoviçə tarixi vətənini ziyarət edəcəyi barədə vədini xatırlatdı.

Tezliklə Rostropoviç Bakıya gəldi, mehriban qarşılanmasından məmnun olub hər il buraya gəlməyə və ustad dərsləri keçirməyə söz verdi. Vədinə də əməl etdi; musiqi təlimindən əlavə, ölkənin ən möhtəşəm salonu Respublika Sarayında konsertlər verdi, humanitar yardım gətizdirdi, Azərbaycan təbabətinə köməklik göstərdi; bir neçə il sonra onun nüfuzu sayəsində Yaponiya hökuməti bir neçə yüz min dollar məbləğində ayırdığı qrant hesabına Üzeyir Hacıbəyov adına Dövlət simfonik orkestri üçün təzə musiqi alətləri alındı. Bakı da borclu qalmadı: ata və oğul Rostropoviçlərin adları musiqi məktəbinə, böyük violonçel ustadı doğulduğu evin yerləşdiyi, Bakının mərkəzində olan küçəyə verildi. Leopold Vitoldoviç Rostropoviçin ailəsi yaşadığı binada ev-muzeyi açıldı. Mstislav Rostropoviç Heydər Əliyevin şəxsən təqdim etdiyi iki yüksək dövlət mükafatını – «Şöhrət» və «İstiqlal» ordenlərini aldı...

[61] Светлана Мирзоева. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. С. 144.





Heydər Əliyevi böyük Azərbaycan müğənnisi Rəşid Behbudovla həqiqi dostluq münasibətləri bağlayırdı. Birinci katib olaraq, o, gözəl sənətkarın bütün təşəbbüslərinə «yaşıl işıq» yandırırdı. Estrada, xalq səhnə sənətinin, xoreoqrafiya mədəniyyətinin ən müxtəlif janrlarını əxz edən «Azərbaycan» dövlət konsert ansamblı yaradılması ilə R.Behbudovun niyyətini dəstəkləmişdi. Daha sonra müğənni SSRİ tarixində ilk dəfə Mahnı Teatrı yaratmaq fikrini bildirəndə də Heydər Əliyev köməyini əsirgəmədi.

«...Heydər Əliyev sonralar da müğənnini izləyir, çalışırdı ki, ağrı-acılara məruz qalmasın, cürbəcür qan qaraldan şeylərdən qoruyur, hər məsələdə səsinə səs verirdi.

Təzə, müasir musiqi alətləri gərəkdi, – və Heydər Əliyev o vaxt astronomik məbləğ sayılacaq 60 min dollar tapıb ayırır, əvəzində isə Azərbaycanı ən yaxşı tərzdə təqdim edən orkestr ölkədə və xaricdə bütün rəng və səs çalarları ilə parlayır.

– Bina lazımdır? Min maşına, şəhəri dolan, bax, seç.

Rəşid Behbudov Hidromeliorasiya İnstitutu yerləşən binanı gözaltı eləyir.

– Bu sanki balaca «Bolşoy teatr»dı, eyni sütunlar, təntənəli frontonlar, – Behbudov sevinirdi. Təmirə başlasa da, iş uzandı. O zaman artıq Heydər Əliyev Moskvada işləyirdi...

«Qalınqabırğalı» məmurlarla, çətinliklərlə və çoxsaylı əngəllərlə üzləşən Rəşid Behbudov yavaşdan, özü ilə danışırmış kimi:

– Haradasan, ay Heydər? – deyir, bu insanın necə tezliklə dadına çatdığını, ən müşgül problemlərini necə həll etdiyini xatırlayırdı»[62].

Tahir Salahov mənə söyləyirdi ki, Heydər Əliyev bəstəkar Rauf Hacıyevi Səməd Vurğunun sözlərinə bəstələdiyi «Azərbaycanım» mahnısına görə çox istəyirdi. Yaxınlarının arasında özü bu mahnını oxumağı xoşlayar, ömür yoldaşı Zərifə xanım isə pianoda onu müşayiət edərdi.

[62] Светлана Мирзоева. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. С. 169.

Bütün dəyərli sənətçilərə, musiqiçilərə isti münasibət bəsləyən Heydər Əliyev, bu sırada Müslüm Maqomayevi atalıq qayğısı, mehri ilə əziz tutardı.

Kitab üzərində işləyərkən mən görkəmli müğənni ilə Moskvada görüşdüm və biz az qala iki saat söhbətləşdik.

«Heydər Əliyeviç mənə ata əvəzi oldu, – Müslüm Məhəmməd oğlu söyləyir. – Xüsusən, əmim rəhmətə gedəndən sonra o, nəzakətlə, qabartmadan mənə doğma adamımı, ümumiyyətlə, itirdiklərimin hamısını əvəz etdi. Mənə dönə-dönə deyərdi: «Müslüm, sən mənə oğul kimisən».

2002-ci ilin sentyabr ayında Bakıda Müslüm Maqomayevin 60 illiyi qeyd olunurdu. Yubilyarın ən əziz qonağı, əlbəttə ki, ölkə prezidenti Heydər Əliyev idi. O, səhnəyə çıxıb Maqomayevə çox səmimi nitqlə müraciət etdi. Müslüm Moskvaya, ən yüksək səviyyəli, Sov.İKP MK katibləri, Siyasi Büro üzvləri gəldiyi konsertlərə dəvət ediləndə necə sevindiyini xatırladı. Həmin rəhbərlər hökmən bu konsertlərdə Azərbaycan müğənnisinin, – sovet estradasının seçmə ulduzunun iştirak etməsini ismarlayırdılar.

«Yadımdadır, mən bütün bu tədbirlərdə iştirak edirdim. O vaxt Sovet İttifaqının rəhbərləri bir arada əyləşib konsertləri dinləyər, mən də həyəcanla Müslümün haçan çıxacağını gözləyərdim. Hər bir detala fikir verərdim – onu necə gur alqışlarla qarşıladılar, o necə oxudu. Yanımda əyləşən Siyasi Büro üzvləri mənə üz tutub təbrik edərdilər. Mən necə də qürur hissi keçirərdim!..»[63]

1971-ci ildə Heydər Əliyev M.Maqomayevi Azərbaycan Xalq artisti adı ilə fərqləndirdi. Bu, respublika tarixində ilk belə hadisə idi, – xalq artistinin cəmi 29 yaşı vardı. Həmin ildə o, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olundu. İki il sonra, 1973-cü ildə Müslüm Maqomayev SSRİ Xalq artisti adını aldı. Sovet İttifaqında onun yaşında heç kim belə yüksək ada layiq görülməmişdi.

* * *

[63] Бакинский рабочий. 2002. 10 сентября.





"Xalqlar dostluğu – ədəbiyyatların dostluğu" adında Ümumittifaq konfrans. 27 oktyabr – 2 noyabr 1980-ci il.





■ Heydər Əliyev Azərbaycanın mədəniyyət və incəsənət xadimlərinə dövlət mükafatları təqdim edib. 4 dekabr 1980-ci il.



■ "Azərbaycan kommunisti" və "Literaturnı Azerbaycan" jurnallarına ordenlərin təqdim edilməsi. 4 may 1981-ci il.



■ Heydər Əliyev Şüvəlandakı Yaradıcılıq evində yazıçılarla görüş zamanı. 7 iyun 1981-ci il.



■ Azərbaycan yazıçılarının VII qurultayı. 12 iyun 1981-ci il.



■ Dahi Azərbaycan şairi Nizaminin 840 illiyi. Nizami adına muzey və rəsm qalereyası. 6 oktyabr 1981-ci il.



■ Heydər Əliyev şairlər Süleyman Rüstəm və Balaş Azəroğluna hökumət mükafatları təqdim edib. 10 dekabr 1981-ci il.



■ Azərbaycan Xalq yazıçısı Mirzə İbrahimovun 70 illiyi. 23 oktyabr 1981-ci il.



Heydər Əliyev Şuşada Vaqifin məqbərəsinin açılışında. 15 yanvar 1982-ci il. Soldan – Azərbaycan Xalq şairi Süleyman Rüstəm, sağdan – Azərbaycanın Xalq yazıçısı Mirzə İbrahimov.



SSRİ Xalq artisti Tixon Xrennikovun qəbulu. 19 yanvar 1982-ci il.



Heydər Əliyev yazıçılar ilə Xankəndidə. 29 iyul 1982-ci il.



Şuşada Vaqif poeziya günləri. 29 iyul 1982-ci il.



■ Şuşada Vaqifin barelyefi önündə. 29 iyul 1982-ci il.



■ Böyük Azərbaycan dirijoru Niyazinin 70 illiyi. Moskva, Sütunlu zal. 14 aprel 1983-cü il.



■ Heydər Əliyev və maestro Niyazi. Bakı, sentyabr 1983-cü il.



■ Heydər Əliyev Rusiya aktyorları Vladimir Zeldin və Larisa Qolubkina ilə söhbət edir.



Heydər Əliyev Qara Qarayevi Sosialist Əməyi Qəhrəmanı adı alması ilə təbrik edir. Fevral, 1978-ci il.



Nizaminin 840 illiyi. Moskva. 17 noyabr 1981-ci il.



Heydər Əliyev mədəniyyət xadimləri ilə.



Heydər Əliyev bir qrup sovet mədəniyyət xadimi ilə söhbət edir.



Heydər Əliyev "Azadlıq" radiosunun müxbiri Elmira Əhmədovanı salamlayır. Heydər Əliyevdən solda – şair Bəxtiyar Vahabzadə, sağda – şair Nəriman Həsənzadə.



Heydər Əliyev və Azərbaycanın Xalq şairi Bəxtiyar Vahabzadə. Naxçıvan, 1992-ci il.



Heydər Əliyev və Azərbaycanın Xalq şairi Xəlil Rza Ulutürk Naxçıvanda matəm mitinqində. 20 yanvar 1992-ci il.



Heydər Əliyev böyük Azərbaycan şairi Hüseyn Cavidin anadan olmasının 110 illiyində məzarı önündə çıxış edir. 23 oktyabr 1992-ci il.





■ Nadir istirahət dəqiqələrini Heydər Əliyev ailəsi ilə keçirirdi.





Yaradıcı ziyalılarla, xüsusən yazıçılarla danışmağı sevməyən və bacarmayan bir çox partiya məmurlarından fərqli olaraq Heydər Əliyev üçün bu ünsiyyət bir udum təmiz hava kimi idi. O, Moskvada Vorovski adına (indi Povarskaya adlanan) küçədə yerləşən SSRİ Yazıçılar İttifaqında iki dəfə olmuş, – sadəcə baş çəkməmiş, respublikada gedən proseslər haqqında parlaq nitqlərlə çıxış etmiş, ölkənin yazıçılar elitasının ən kəskin suallarını cavablandırmışdı.

Görüş 1971-ci ilin sentyabr, ya oktyabr ayında, SSRİ Yazıçılar İttifaqının böyük salonunda keçirildi. Zal ağzınacan dolu idi, hətta illər boyu buraya ayaq basmayan yazıçılar da gəlmişdilər. Sovet ədəbiyyatının patriarxı, iyirmi il Moskvaya baş çəkməyən Leonid Leonov da məxsusi gəlmişdi ki, ona qulaq assın.

Həmin görüşü yazıçı-tərcüməçi Azər Mustafazadə belə xatırlayır:

«Heydər Əliyev çox parlaq çıxış etdi, neqativ hallarla, yerlibazlıqla mübarizədən danışdı. Hamı heyrət içində idi, Valentin Katayev isə Heydər Əliyevin SSRİ Yazıçılar İttifaqı üzvlüyünə qəbul olunmasını təklif etdi. O da zarafatla imtina edərək dedi ki, sizin sıralarınızda birinci MK katiblərindən artıq biri – Şərəf Rəşidov var... Yazıçı katiblərdən kimsə qayıtdı ki, Heydər Əliyeviç, sizdən fərqli olaraq, o, SSRİ Yazıçılar İttifaqında bir dəfə də olmayıb. «Eləmi? – Əliyev təəccübləndi. – Mən ona zəng vurub qınayaram ki, bu səhvini düzəltsin...»

Bir həftə keçər-keçməz Azər Mustafazadə SSRİ Yazıçılar İttifaqına təşrif buyurmuş Şərəf Rəşidovu binanın dəhlizində gördü...

70-ci illərin ortalarında, H.Əliyevin Moskva yazıçılarının adlı-sanlı nümayəndələri qarşısında ikinci dəfə çıxış etdiyi zaman «Drujba narodov» jurnalının baş redaktoru Sergey Baruzdin də «saqqal tərpətdi» ki, Azərbaycan KP MK-nın birinci katibi Ümumittifaq Yazıçılar Birliyinə fəxri üzv kimi qəbul edilsin. Yenə də bu təklifi H.Əliyev zarafat kimi qarşıladı. Sonralar Heydər Əliyev acı təəssüflə xatırlayırdı ki, vaxtilə ona şərtsiz sədaqətindən dəm vuran həmin Baruzdin onun bədxahları sırasında görünmüşdü...

1981-ci ilin 22 noyabrında Moskvada, Mərkəzi Memarlar Evində Azərbaycana həsr olunmuş gecə keçirilirdi. Bu tədbirdə Heydər Əliyevlə Azərbaycan KP MK Büro üzvləri, Rusiyanın tanınmış memarları, rəssamları, elm və mədəniyyət xadimləri iştirak edirdilər. Heydər Əliyev həmişəki kimi kağızsız, necə deyərlər, sinədən danışır, Sovet Azərbaycanının son illərdəki uğurlarından canlı, mənalı söhbət aparırdı.

MK birinci katibinin respublikanın yaradıcı ziyalıları qarşısında daha bir çıxışını xatırlatmaq istərdim. 1981-ci ilin 12 iyunu Heydər Əliyev respublika yazıçılarının VII qurultayında fundamental vəzifələrin çözümünə istiqamətləndirən parlaq və dərin nitq söylədi. Bu çıxışın bir çox müddəaları indiyədək öz aktuallığını itirməmişdir.

O, Azərbaycan sovet ədəbiyyatının uğurları ilə yanaşı, respublikanın söz ustalarının yaradıcılığında «ağ ləkələr» və zəif məqamlara diqqəti cəlb etdi.

«Nizami və Füzuli, Xaqani və Nəsimi, Axundov və Məmmədquluzadə, Üzeyir Hacıbəyov və Məmməd Səid Ordubadinin vətəni müasir yazıçı və şairlərdən parlaq tarixi əsərlər, Azərbaycan tarixi, mədəniyyəti və elminin görkəmli xadimlərinin bədii qalereyasının yaradılmasını gözləyir. Yazıçı peşəsi salnaməçi missiyası ilə qohumdur. Və qoy bu çətin yolda sizi ölməz «Vaqif» dramında böyük Azərbaycan şairinin tarixi surətini yaratmış, o dövrün sosial-siyasi həyatının mənzərəsini heyrətamiz gerçəkliklə göstərmiş Səməd Vurğun yaradıcılığının parlaq nümunəsi ruhlandırsın».

Heydər Əliyev xatırlayır ki, Mərkəzi Komitə daima milli ədəbiyyatın klassik irsinin öyrənilməsi və təbliğinə böyük diqqət yetirmişdir. Bunu son illərdə Mərkəzi Komitənin qəbul etdiyi «Bədii ədəbiyyat klassiklərinin əsərlərinin tədqiqatı, nəşri və təbliğinin yaxşılaşdırılması üzrə tədbirlər haqqında», «Böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsi, nəşri və populyarlaşdırılmasının yaxşılaşdırılması üzrə tədbirlər haqqında», «Azərbaycan şair-maarifçisi Mirzə Şəfi Vazehin yaradıcılıq irsinin öyrənilməsinin gücləndirilməsi haqqında» qərarları sübut edir.





O, böyük rus mədəniyyəti və ədəbiyyatının milli respublikalarda bədii prosesə müsbət təsiri haqqında söz açır.

Heydər Əliyevin VII yazıçılar qurultayındakı çıxışından sonra bir çərək əsrdən artıq vaxt keçsə də, onun yüksək ixtisaslı tərcüməçi kadrlarının yaradılması zəruriliyi, dünya və rus klassikasının seçimi və Azərbaycan dilində nəşri üzrə düşünülmüş, uzunmüddətli planın hazırlanması haqqında fikirləri də çox aktual idi.

O vaxt Heydər Əliyev yazıçılara üz tutub bildirmişdi ki, Mərkəzi Komitə respublikada tərcüməçilik işinin vəziyyətini nəzərdən keçirmək və kökündən yaxşılaşdırmaq üçün tədbirlər görmək niyyətindədir. Yeri gəlmişkən, bundan az sonra Azərbaycan Yazıçılar İttifaqından Gürcüstana ezam olunan bu sətirlərin müəllifi Gürcüstan Tərcümə Mərkəzinin iş təcrübəsi ilə ətraflı tanış olmuş və Yazıçılar İttifaqının rəhbərliyinə müvafiq arayış təqdim etmişdi. Sənəd Mərkəzi Komitəyə göndərildi və müəyyən müddətdən sonra Azərbaycanda xüsusi Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi yaradıldı.

Heydər Əliyevin yazıçılar qurultayındakı çıxışında ən əlamətdar məqam Cənubi Azərbaycanla bağlı idi:

«Respublika Yazıçılar İttifaqının tərkibində Cənubi Azərbaycandan olan ədiblər məhsuldar çalışırlar. Yaradıcı təşkilatın rəhbərləri onlara daima diqqət yetirməli, əsərlərini respublikada və onun hüdudlarından kənarda təbliğ etməlidir. Ümumiyyətlə, Cənubi Azərbaycanla ədəbi əlaqələrin möhkəmləndirilməsi, bütün mədəni, mənəvi yaradıcılıq məkanında geniş təmasların inkişaf etdirilməsi haqqında düşünmək, qələm yoldaşları ilə bizdə toplanmış zəngin bədii-estetik təcrübə ilə bölüşmək lazımdır...»

Sonralar bu nitqindən söz düşəndə Heydər Əliyev qeyd etdi ki, «...o vaxt ilk dəfə «Cənubi Azərbaycan» sözlərindən qadağa götürüldü... Ona qədər mətbuatda «Cənubi Azərbaycan» ifadəsi qadağan idi. Elə fikir vardı ki, bu SSRİ

– İran münasibətlərinə ziyan vura bilər. Mən isə Cənubi Azərbaycan şairləri ilə sıx əlaqə saxlayırdım. Həmin qurultayda – Balaş Azəroğlunu Respublika Yazıçılar İttifaqının katibi seçdik, ona Xalq şairi adını verdik...»[64]

Yeri gəlmişkən, çoxlarına məlum deyil ki, hələ 50-ci illərin sonlarında, Azərbaycan DTK 2-ci şöbəsinin rəisi Heydər Əliyev şəxsən uzaq, qarlı Saransk şəhərinə yollanmış və oradan Məhəmməd Biriyanı – şah rejiminin təqiblərindən SSRİ-yə qaçmış və «yağışdan yağmura düşmüş», Stalin repressiyalarına məruz qalmış və 1949-cu ildə uzunmüddətli həbsə məhkum edilmiş zavallı Cənub şairini Bakıya gətirmişdir. Nə qədər qəribə olsa da, totalitar rejimi hər hansı donunda rədd edən böyük şair və həmin rejimi təmsil edən dövlət təhlükəsizlik orqanlarının zabiti bir-birinə rəğbətlə yanaşmışlar. Tez-tez, uzun sürən söhbətlər aparmışlar. Heydər Əliyev daima bir qədər tuhaf təbiətli şairə himayədarlıq etmiş, axır-axırda vətənə – İrana qayıtmasına yardım göstərmişdir.

1982-ci ildə, Moskvada işləməyə yollanmaq ərəfəsində yazıçılarla görüşüb halallaşarkən Heydər Əliyev yenə də Cənubi Azərbaycandan söz açacaq, bu dəfə daha açıq şəkildə danışacaq.

Həmin görüşdə iştirak edən Elçin sonralar xatırlayırdı:

«Yadımdadır, o, parçalanmış Azərbaycanın gələcək birliyi haqqında danışır, özü də söhbət müstəqil bir dövlət haqqında gedirmiş kimi danışırdı. O vaxt o, heyrətə gətirən şeylər dedi: «Mən Amerika müxbirini qəbul edirdim, o məndən Cənubi Azərbaycan barədə soruşdu. Düşündüm ki, partiya xadimi kimi cavab versəm, bu, Siyasi Büroya çatacaq və istənilməz reaksiya doğuracaq. Sonra isə qərara gəldim: nə olur, olsun! Və düşündüyümü dedim: biz ikiyə bölünmüş bir xalqıq və haçansa ədalət bərpa olunacaq». Zənnimcə, o dövrün ab-havası və Heydər Əliyevin tutduğu vəzifə kontekstində bu cür etirafların nə demək olduğunu açıqlamağa ehtiyac yoxdur...»[65]

[64] Ulduz. 1990. № 6. S. 70.
[65] Эльчин. Лицом к лицу с историей. Зеркало. 2005. 10 декабря.





Nəriman Nərimanovun 100 illik yubileyinin keçirilməsinə Moskvanın «hərisi»ni almaq üçün Azərbaycan partiya rəhbəri çox səy göstərməli oldu. SSRİ Mərkəzi İcraiyyə Komitəsinin ilkin sədrlərindən olmuş görkəmli partiya və dövlət xadiminin yubileyi 1970-ci ilə təsadüf etsə də, yubiley tədbirləri iki il sonra keçirildi.

«Soruşa bilərsiniz: niyə? – Heydər Əliyev jurnalist E.Əhmədova ilə müsahibəsində bu məqama toxunurdu. – Çünki bu yubileyi keçirmək üçün iki il mübarizə aparmaq lazım gəldi. Çünki Nərimanova «millətçi» damğası vurulmuşdu... Millətçi ruhlu ermənilər açıq yox, gizli maneələr törədirdilər, cürbəcür kanallarla MK-da belə rəy yaradırdılar ki, guya N.Nərimanov böyük səhvlər buraxıb və bu səhvlər millətçilik nəzəriyyəsindən irəli gəlib, guya o, yubileyi keçirilməyə layiq şəxsiyyət deyil. Nərimanovun abidəsini qoymaq bizim üçün nə qədər çətin olub!.. İki dəfə Suslovun, Brejnevin yanına getdim, ancaq onlara Nərimanov barədə başqa informasiyalar vermişdilər. Əjdər İbrahimov İsa Hüseynovla birlikdə Mosfilmdə N.Nərimanova həsr olunmuş dəyərli film çəkmişdi. Bizdən qabaq həmin filmə Moskvada baxmışdılar və ermənilərin təsiri altında olan MK-nın bəzi məsul işçiləri həmin filmi qadağan etmişdilər. Bir sözlə, filmi buraxmırdılar, nə yubileyi keçirməyə, nə də abidəni qoymağa imkan vermirdilər. Çalışdım, mübarizə apardım, neçə adamı inandırdım və axır ki, istəyimə nail oldum»[66].

1972-ci ilin 6 iyun günündə Heydər Əliyev Nəriman Nərimanov heykəlinin açılış mərasimində nitq söylədi. Respublika paytaxtının cazibədar mənzərəsi açılan Cənubi Sovet meydanı məkanına tunc heykəl uğurla uyuşurdu. Hərçənd, postament Nərimanovun massiv fiquru müqabilində alçaqsayağı görünür və ümumi təəssürata xələl gətirirdi.

[66] Ulduz. 1990. № 6. S. 78.

*(Qocaman sakinlər indiyədək əmindirlər ki, bu natarazlıq siyasi səbəblərdən irəli gəlirdi. Söz-söhbət gəzirdi ki, yerli iqtidara göstəriş verilmişdi ki, Nərimanovun abidəsi Dağüstü parkdakı Kirovun heykəlini «üstələməməlidir».)*

Abidəni Azərbaycan xalq rəssamı, heykəltaraş Cəlal Qaryağdı yaratmış, memarlıq işləri Tahir Abdullayev və Yusif Qədimova məxsusdur.

Həsən Seyidov Bakının dağüstü məhəlləsində heykəlin quraşdırılması ilə bağlı xatırlayırdı:

«Abidənin montajı və tərtibatı ilə Əliş Ləmbəranski məşğul idi. Ona dedilər ki, postament kiçikdir, o da böyütdü. Amma yenə də Nərimanovun fiquru həddindən iri, doğrudan da, postamentə namütənasib göründü. Bunun ətrafında sonralar söz-söhbət oldu. Biz abidəni ucaldanda, Moskva hələ rəsmi icazəsini verməmişdi. Yəni Əliyev quraşdırma işlərinin başlanmasına Moskvanın razılığı olmadan sərəncam vermişdi».

1972-ci ilin 29 iyununda Opera və Balet Teatrında N.Nərimanovun 100 illiyinə həsr olunmuş təntənəli yığıncaq keçirildi. Heydər Əliyevin məruzəsi eyni zamanda Azərbaycanda bolşevik təşkilatlarının və respublikada sovet hakimiyyəti qurulması uğrunda mübarizə tarixinə qısa ekskurs oldu.

Heykəl ucaldılması ilə, yubiley keçirməklə iş bitmədi. SSRİ-nin ən sanballı qəzeti «Pravda»da Heydər Əliyevin Nərimanov haqqında məqaləsi çıxdı; müəyyən ixtisarlarla da olsa, Nərimanov haqqında film axır ki, ölkə ekranlarında göstərildi. Əvvəl «Doktor Nərimanov» adlanan kinolent, bu soyadın xalq arasında populyarlaşmasını istəməyən səlahiyyətli məmurların təkidi ilə başqa adla çıxdı: «Ulduzlar sönmür»...

Bakıda Nərimanovun ev muzeyi açıldı.

1979-cu ildə Nərimanovun yaxın və məhrəm münasibətdə olduğu Leninin yurdu – Ulyanovsk şəhərində, Azərbaycanın görkəmli dövlət xadiminə heykəl ucaldıldı. Heydər Əliyev şəxsən təntənəli açılışda iştirak etdi.





Beləliklə, olmazın səylər, bəzən də Kremlin ideoloji təzyiqinə açıq müqavimət bahasına (haqlı olduğunu təsdiqləmək üçün Heydər Əliyev Sov.İKP Mərkəzi Komitəsinə hətta Nərimanovun Leninə məşhur məktublarını da aparıb göstərmişdi) Azərbaycan rəhbəri tarixi ədalətin bərpa edilməsinə və «doktor Nərimanovun» vətənində adının və xatirəsinin əbədiləşdirilməsinə nail olmuşdu.

## «KÜLL BAYRAQLAR BİZƏ QONAQ OLACAQ»...*

**1975-ci ilin iyul ayında** SSRİ Yazıçılar İttifaqının katibliyində oktyabrda keçiriləcək Sovet ədəbiyyatı günlərinə hazırlığın gedişatı müzakirə olundu. İclasda Azərbaycan KP MK birinci katibi Heydər Əliyev, respublika Ali Soveti Rəyasət Heyətinin sədri Qurban Xəlilov, Nazirlər Sovetinin sədri Əli İbrahimov və Sov.İKP MK mədəniyyət şöbəsinin müdiri Vasili Şauro iştirak edirdilər. Həqiqətən də, möhtəşəm bir hadisə gözlənilirdi, hər halda SSRİ-də buna bənzər, belə vüsətli, miqyaslı tədbir keçirilməmişdi.

Heydər Əliyev yazıçılar qarşısında böyük nitqlə çıxış etdi. Azərbaycan iqtisadiyyatı, elmi, mədəniyyətinin inkişafından, «sosializm qanunçuluğundan hər hansı sapıntıların qarşısının alınması» yolunda aparılan mübarizədən danışdı, sovet ədəbiyyatı günləri çərçivəsində keçirilməsi nəzərdə tutulan tədbirləri sadaladı. Yazıçılar briqadalarının respublika bölgələrinə, eləcə də məşhur Neft Daşlarına səfərləri, elmi müəssisələrin işçilərilə, məktəbli və tələbələrlə görüşlər... Sergey Yeseninin yubileyinin bayram edilməsi və Mərdəkanda böyük rus şairinin muzeyinin açılışı... Bayram törənləri sırasında həmçinin Sabir heykəlinin qarşısında poeziya axşamı, sovet ədəbiyyatına həsr olunmuş sərginin açılışı, kitab bayramı və bir çox başqa aksiyalar var idi.

Bu genişmiqyaslı tədbirin təşəbbüskarı, həmişə olduğu kimi, respublikanın rəhbəri idi; günlərin təşkili ilə bağlı ağır yükün böyük qismi onun mədəniyyət

* A.S.Puşkindən çevirmədir (Red.).

məsələləri üzrə səlahiyyətli elçisi Azad Şərifin öhdəsinə düşmüşdü. Öz dostu, SSRİ Yazıçılar İttifaqının təşkilat məsələləri üzrə katibi Yuri Verçenko ilə Azad Kərim oğlu üç ay bu misilsiz tədbirin hazırlanması ilə məşğul olmuşdur. O zaman nə faks, nə kompüterlər, nə də ki internet vardı. Azad Şərif saatlarla MK makinaçılarına işlə bağlı sənədləri diktə edir, saysız-hesabsız ideya və təklifləri ümumiləşdirir, bunlar da dərhal birinci katibin masası üzərinə «qonurdu...»

«Heydər Əliyev mənimlə Mirzə İbrahimovun qarşısında bir vəzifə qoymuşdu: Günlərin açılışında Rəyasət Heyətinin ön sırasında yazıçı və şairlərdən ən azı səkkiz nəfər Sosialist Əməyi Qəhrəmanı əyləşməlidir. Mən və Nazirlər Sovetinin bir əməkdaşı Moskvaya, Verçenkonun yanına yollandıq, onunla siyahı tərtib etdik. Biz həmin adamlara zəng vurub deyirdik ki, qarşıdakı Sovet ədəbiyyatı günləri münasibətilə dəvətnaməni sizə gətirib çatdırmaq istəyirik. Mən mənzilə daxil olub həmin dəvətnamələri təqdim edirdim, söhbət «tumurcuqlanırdı». Və baş çəkdiyim yazıçının evində birdən telefon səslənirdi. Mən dəstəyi götürüb:

– Bəli, Heydər Əliyeviç, buradayam, – deyib dəstəyi ev yiyəsinə verirdim. Heydər Əliyev də hər biri ilə şəxsən danışır, şəxsən də Bakıya, ədəbiyyat bayramına dəvət edirdi. Belə bir zəngdən sonra onlar dəvətdən imtina edə bilərdimi? (Həqiqətən, mənim qəhrəmanımın timsalında böyük bir rejissor qeyb olmuşdur!) Nəticədə Rəyasət Heyətində doqquz «ədəbiyyat generalı» yer tutmuşdu».

*(Azad Şərifin söylədiklərindən.)*

**1975-ci il, 2 oktyabr.** Lenin adına Sarayda bütün müttəfiq respublikaların adlı-sanlı söz ustalarının – 1100 nəfər! – qatıldığı çoxmillətli Sovet ədəbiyyatı günlərinin təntənəli açılışı oldu. Bu ədəbiyyat bayramına maraq o qədər böyük idi ki, Bakıya həmçinin Bolqarıstan, Macarıstan, Almaniya Demokratik Respublikası, Polşa, Rumıniya, Çexoslovakiya, Fransa, Portuqaliya, Yaponiyadan yazıçı və şairlər qonaq gəlmişdilər. Ən çoxsaylı dəstə, təbii ki, Rusiya nümayəndələri idi.





Heydər Əliyev açılış mərasimində hərarətli, təsirli nitqlə çıxış etdi. Əlbəttə, bu çıxış o zaman üçün ənənəvi müddəalar və mətləblərdən – ədəbiyyatda partiyalılıq, sosialist realizmi, Lenin milli siyasətinin təntənəsi və i.a. yan keçməmişdi. Lakin H.Əliyev nitqinin ana xəttini, özəyini Azərbaycan, onun tarixi, keçmişi, bu günü təşkil edirdi. O, böyük Azərbaycan şairlərinin adlarını çəkir, Nizaminin, Səməd Vurğunun misralarını səsləndirir, respublikanın sənaye, kənd təsərrüfatı, elm və mədəniyyət sahəsində uğurlarından söz açır, bununla da ümumittifaq, beynəlxalq miqyaslı auditoriyanın diqqətini doğma yurduna cəlb edir, Azərbaycanı bir daha tanıdır və nüfuzunu qaldırırdı.

Yeri gəlmişkən, belə patriotik «piar» üsulundan o başqa genişmiqyaslı tədbirlərdə də istifadə edirdi. Məsələn, Azərbaycanda RSFSR ədəbiyyatı və incəsənəti günlərində **(2-11 oktyabr 1972-ci il)** söylədiyi nitqində o, Azərbaycan ədibi və alimi A.Bakıxanovun rus şairi A.Qriboyedovla dostluğunu, Qriboyedovun «Azərbaycanın özünəməxsus maddi mədəniyyət abidələrini böyük maraqla» öyrənməsini və «Nizami nəşinə baş əymək üçün Gəncəyə səfər etməsini» xatırladırdı. O, Rusiya mədəniyyət xadimlərinə onların başqa böyük sələfi – Mixail Lermontovun Azərbaycan tarixi ilə maraqlanmasını, Azərbaycan dilini yüksək dəyərləndirməsindən söz açıb rus şairinin dostu Rayevskiyə yazdığı məktubdan «Azərbaycancanı öyrənməyə başlamışam – o dili ki, burada və ümumiyyətlə, Asiyada fransız dili Avropada olduğu kimi lazımdır», – sözlərini səsləndirmiş, «Moskovski nablyudatel» jurnalında ruscaya tərcümədə dərc olunan «Puşkinin məzarı üstə şair əli ilə qondurulan gözəl gül» adlandırılan Mirzə Fətəli Axundovun «Şərq poeması»nı yada salmışdı.

Yəqin ki, bu faktlar bizlərə, azərbaycanlılara yaxşı məlumdur, lakin ilk dəfə respublikamızın qonağı olanların əksəriyyətinə bəlli deyildi. Heydər Əliyev öz vətəni haqqında xoş soraqların eldən-elə, dildən-dilə yayılmasını arzulamış, burada yaşayan soydaşlarını, həmvətənlərini, xalqını sevərək sevdirməyə çalışmışdı. Ona görə də belə tədbirlər zamanı respublikanın qonaqları üçün özü

şəxsən marşrutlar seçir, cizgiləyir, Azərbaycan elləri haqqında mümkün qədər geniş və dolğun təsəvvür yaranmasına səy göstərirdi.

Sovet ədəbiyyatı günləri sona yetəndə, SSRİ Yazıçılar İttifaqının birinci katibi Georgi Markov çıxışında demişdir:

«Biz həm köhnə, həm təzə tikilən müəssisələrdə, kolxoz və sovxozlarda, elmi-tədqiqat institutlarında, mədəniyyət və məişət təsisatlarında, nəhayət, zəhmətkeşlərin evlərində, mənzillərində ola bildik.

Və Azərbaycanı «üfüqi» baxımdan öyrənməyimiz onun təbiətinin qənirsiz gözəlliyi, küçə və meydanların özünəməxsusluğu, binaların, bütövlükdə yaşayış məntəqələrinin təkrarsız memarlığı ilə bağlı bir çox heyrətamiz kəşflər gətirdisə, xalqın yaşam tərzinin dərinliklərinə varmağımız, onun «şaquli» kəsimi qarşımızda insanların öz mənəvi dünyasının zənginliyi, rəngarəngliyi yolunda, yeni insanın keyfiyyət və məziyyətlərinin möhkəmləndirilməsi yolunda mübarizəsinin qəribə cizgilərini açdı...»

Yazıçıların bu qonaq-qaralı tədbirlərinin gedişatında bir sıra maraqlı və məzəli əhvalatlar da baş verirdi. Onlardan birini Azad Şərifin dilindən eşitdim.

70-ci illər – 80-ci illərin əvvəllərində Azərbaycanda ümumittifaq miqyaslı mədəni törənlər bol-bol keçirilmişdi. Onlardan ən yaddaqalanlarına üz tutaq.

**1974-cü ilin aprelində** Bakıda VII Ümumittifaq kinofestivalı keçirilir. Yeri gəlmişkən, bu sənət bayramı həm də Vasili Şukşinin «Qızıl başınağacı» («Калина красная») filminin baş mükafat qazanması ilə əlamətdardır.

Azərbaycan KP MK-da görüşdə Nazirlər Soveti nəzdində Dövlət Kinematoqrafiya Komitəsi sədri F.Yermaş demişdir: «Azərbaycanın paytaxtı festivalın keçiriləcəyi yer kimi təsadüfi seçilməmişdir. Bununla Azərbaycan zəhmətkeşlərinin iqtisadiyyat və mədəniyyətin inkişafında uğurlarına, Azərbaycana həmişə şərəf gətirən dostluq və beynəlmiləlçilik ənənələrinə sovet kino xadimlərinin hörməti izhar edilmişdir...»





■ *Mərkəzi Komitənin mədəniyyət şöbəsinin sabiq müdiri Azad Şəriflə müsahibədən:*

**«– Heydər Əliyevin mədəniyyət xadimləri ilə ünsiyyətə həvəslə meyil etməsini siz nə ilə əlaqələndirirsiniz?**

– O, uzun illər, ömrünün yarısı boyu DTK məngənəsində olmuşdur – protokol, nizam-intizam, rejim, kölgədə qalmaq zəruriyyəti və i.a. Və birdən – belə ənginlik. 1974-cü ildə Bakıda ümumittifaq festival keçirildi. Yadımdadır, mənə «Qoskino»dan Yermaş zəng vurub soruşdu:

– Azad Kərimoviç, bəlkə, festivalı sizdə keçirək? Orada Heydər Əliyevdir. Bu miqyas qazandırar.

Əlbəttə ki, miqyas qazandırıldı. Həqiqətən, Azərbaycanın qonaqpərvərliyini bilərək, Bakıya sovet kinosunun «qaymaq»ları gəldi. Qonaqları respublikanın görməli yerlərində gəzdirdilər.

Heydər Əliyev sovet kinosunun elitasını: «Qoskino» rəhbərlərini, ünlü rejissorları, məşhur kinodramaturqları qəbul etdi.

Həmin kinofestivalda moskvalılar bizə Azərbaycanda «Mosfilm» günlərini keçirməyi təklif etdilər, sonralar keçirdik də. Heydər Əliyev «Nizami» kinoteatrında festivalın açılışında oldu, – binanı bu münasibətilə təzəcə təmir etdirmişdik.

**– Şukşinin «Kalina krasnaya» filminin baş prizə layiq görülməsi ölkədə səs-küyə səbəb olmuşdu. Axı Şukşini o vaxt az qala dissident sayırdılar...**

– Elədir. Özü də bu, Azərbaycan kino sənətçilərinin təklifi idi. «Kalina»nın əleyhdarları çox idi.

O ki qaldı dissidentlik məsələsinə, bu mövzuda bizdə heç vaxt söz-söhbət olmamışdı. Heydər Əliyev: «Biz dissident yox, istedadlar axtarırıq!» təkrarlamağı xoşlayırdı».

**1979-cu ilin oktyabrında** Azərbaycanda Ukrayna ədəbiyyat və incəsənət günləri gerçəkləşdi. Bir il öncə Ukraynada Azərbaycan mədəniyyəti Dekadası keçirilmişdi.

Oktyabrın 10-da ukraynalı qonaqların şərəfinə verilən qəbul zamanı Heydər Əliyev Səməd Vurğunun «Ukrayna partizanlarına» şeirini əzbər söylədi, qardaş Ukraynanın keçmişindən, bugünündən bəlağətlə söz açdı. Sonra da Boris Oleynikin «Həqiqət» şeirindən böyük bir parçanı səsləndirdi...

**1979-cu ilin noyabrı** Bakıda VIII Ümumittifaq televiziya filmlərinin festivalı ilə əlamətdar oldu.

**1980-ci ilin 27 oktyabrı** – Bakıda «Xalqlar dostluğu – ədəbiyyatların dostluğu. Yazıçı sözü – sovet adamının beynəlmiləlçilik və vətənpərvərlik ruhunda tərbiyəsində fəal qüvvədir» başlığı altında söz ustalarının Ümumittifaq yaradıcılıq konfransı açıldı. Toplantıya sovet yaradıcı ziyalılarının görkəmli nümayəndələri, həmçinin xarici ölkələrdən yazıçılar qoşuldular.

Konfransın tərkibi də, ab-havası da, səslənən çıxışlar da Azərbaycan kimi çoxmillətli respublikada vətəndaşların beynəlmiləlçilik ruhunda tərbiyəsində, tarazlı və ölçülüb-biçilmiş siyasət aparılmasında əldə edilmiş böyük uğurları təsdiqlədi.

**1981-ci ilin 17 noyabr günü.** Moskvada, İttifaqlar Evinin Sütunlu salonunda dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 840-cı ildönümünə həsr edilmiş təntənəli yubiley gecəsi keçirildi. Burada ölkənin partiya və siyasi elitası, o cümlədən Sov.İKP MK katibləri M.Qorbaçov və M.Zimyanin, müttəfiq respublikalardan yazıçılar təşkilatlarının rəhbərləri, şərqşünas alimlər və başqa mədəniyyət xadimləri iştirak edirdilər. Məruzə ilə Azərbaycan KP MK ideologiya üzrə katibi Həsən Həsənov çıxış etdi. Həsən müəllim mənimlə söhbət edərkən Heydər Əliyevin Sov.İKP Mərkəzi Komitəsinin gələcək baş katibi M.Qorbaçovla münasibətlərini səciyyələndirən maraqlı bir epizodu xatırladı:





«Mən bilavasitə tədbirin təşkili ilə məşğul idim. Heydər Əliyevin məsləhəti ilə məni məruzəçi kimi təsdiqlədilər. Biz bütün Siyasi Büro üzvlərinə, nazirlərə, Nazirlər Sovetinin yüksək vəzifəli əməkdaşlarına dəvətnamə göndərdik.

Yubiley günü gəlib çatdı, Sütunlu Salona yollandıq, tədbirin vaxtı yaxınlaşırdı. Mən Rəyasət Heyətinin otağına girib Heydər Əliyevə məlumat verirəm ki, salon doludur, bütün qonaqlar yığışıblar. O dedi: «İndi Siyasi Büronun iclasıdır, məni tədbir keçirdiyimə görə buraxıblar. Amma başqa Siyasi Büro üzvləri çətin ki, çatdıralar. Deməli, biz yubiley gününü təyin edəndə nəyisə nəzərə almamışıq». Biz bu söhbəti bitirməmişdik ki, qapı açıldı və Azərbaycanın daimi nümayəndəsi Ənvər Hüseynov o vaxt Mərkəzi Komitənin kənd təsərrüfatı üzrə katibi Mixail Qorbaçovu içəriyə ötürdü. O, daxil olub Heydər Əliyevi çox dostcasına salamladı. Sonra vəcdlə əlavə etdi: «Гейдар Алиевич, я отпросился ради Вас. Никого с заседания Политбюро не отпускали, но я настоял, что не могу проигнорировать приглашение Гейдара Алиевича».*

Heydər Əliyev qısaca: «Спасибо за внимание»** dedi. Sonra məni Qorbaçova təqdim edib bildirdi ki, MK-nın ideologiya üzrə katibiyəm və tədbirdə məruzəçi olacam, sonda da zarafata keçdi: «Если у вас есть какие-нибудь вопросы по Низами, смело обращайтесь к нему».*** Onlar salona keçdilər və tədbir başlandı.

Bu və bəzi başqa faktlar mənə bu nəticəyə gəlməyə əsas verir ki, Qorbaçov Heydər Əliyevlə çox hesablaşırdı, sadəcə hesablaşır demək azdır, hətta, demək olar ki, onun tərəfindən xoş münasibət qazanmaq və özünə qarşı rəğbət doğurmaq istəyirdi. Düşünürəm ki, Qorbaçovun Heydər Əliyevə münasibə-

* Heydər Əliyeviç, mən Sizə görə izin alıb gəldim. Heç kimi Siyasi Büronun iclasından buraxmırdılar, amma mən təkid etdim ki, Heydər Əliyeviçin dəvətini saymazlığa sala bilmərəm».

** «Diqqətinizə görə sağ olun».

*** «Nizamiyə aid hansı suallarınız varsa, cəsarətlə ona müraciət edin».

tində sonrakı dəyişmələr, qısaca ifadə etsək, sabiq baş katibin onu əhatə edən adamlara qeyri-səmimi və konyunktur münasibət bəslədiyinə dəlalət edir».

«Mən o vaxt artıq Moskvada işləyirdim. 1981-ci ilin yaz çağında biz Bakıda SSRİ Rəssamlıq Akademiyasının genişləndirilmiş iclasını keçirirdik. İki yüz nəfər gəlmişdi – hamısı da Rəyasət Heyətinin üzvləri. İttifaqın Moskva, Leninqrad, Kiyev, Tbilisidəki ən böyük institutlarının professorları idi. Bu, təsviri sənətin əsl bayramı idi. Tədbir çərçivəsində ölkə rəssamlıq institutlarının 1980-ci il buraxılışını təmsil edən tələbələrin diplom işləri sərgilənmişdi. Yadımdadır, Heydər Əliyev Elmlər Akademiyasında bir saat yarımlıq nitq söylədi, sərgiyə də gəldi».

*(Tahir Salahovun söhbətindən.)*

«Heydər Əliyeviç təbiətən ürəyi geniş idi – qonaqpərvərliyində əsl Şərq vüsəti vardı. İndiyədək sabiq müttəfiq respublikaların artistləri Azərbaycanda mədəniyyət və incəsənət dekadaları keçiriləndə necə qəbul olunduqlarını xatırlayırlar: «Əgər bizdə o vaxt ölkədə kommunizm vardısa, o da Əliyev kommunizmi idi». Hərdən iki-üç yüz nəfər axışıb gəlirdi, hamısı da Heydər Əliyevin qonağı olurdular: Bakı mehmanxanalarında onlar üçün kürü, ləziz yeməklər pulsuz-parasız idi...

Amma Heydər Əliyeviç nəinki qonaqları qəbul edir, özü də onların qonağı olurdu: demək olar, bütün konsertlərə, tamaşalara gəlirdi. Həm də sadəcə gəlmək yox, artistlərlə görüşə hazırlaşırdı ki, antraktda, ya çıxışlarından sonra səhnə arxasında onlarla öz professional dillərində, bərabər səviyyədə söhbətləşsin»[67].

*(Müslüm Maqomayevin xatirələrindən.)*

[67] М.Магомаев. Любовь моя – мелодия. С. 238-239.





Heydər Əliyevdə məni bir cəhət heyrətə gətirirdi. Mən bu insanı dahi sayıram, çünki o, sutkada 24 saat olmasa da, 18 saat, yəqin, işləyirdi. İstirahətinə cəmi 5-6 saat qalırdı.

Bax, tutaq ki, Rusiya Federasiyasının mədəniyyət günləridir. Onun qəbuluna Paxmutova və Dobronravov gəlirlər. Onunla söhbətdən sonra:

– O, əlbəttə ki, musiqiçidir, – deyirlər.

Rəssamlar gəlirlər, çıxanda:

– İlk dəfə partiya məmurunu görürük ki, Monenin kim olduğunu və postimpressionizmin nə olduğunu gözəl bilir, – deyirlər.

Yəni o hər kəslə onun dilində danışırdı».

*(Mais Məmmədovun xatirələrindən.)*

«Heydər Əliyev mənəvi tərbiyə, korrupsiya ilə mübarizə dalğasında yüksəlmiş siyasi fiqur sayılsa da, o, tarix, milli siyasət məsələlərinə çox diqqət yetirirdi. Ona görə də respublikada belə tədbirlər keçirilməsi ideyasını dəstəkləyirdi ki, onlar müəyyən məqamda Bakını, əslində, SSRİ-də beynəlmiləl problematikası mərkəzlərinin birinə çevirmişdi. Bizdə milli münasibətlər, beynəlmiləl siyasət problemləri üzrə ən sanballı elmi simpoziumlar keçirilirdi. Dünya şöhrətli, ən aparıcı alimlər bizə gəlirdilər. O, gələnləri qəbul edir və bütün başqa hallarda olduğu kimi, qonaqlar onun kabinetindən Azərbaycanın təbliğatçıları kimi çıxırdılar... Üstəlik, neçə il sonra Bakı konfransının materialları əsasında öz regionlarında doktorluq dissertasiyaları müdafiə etdiklərini mənə söyləyən adamlar da tanıyıram. Təbii ki, belə toplantılarda Heydər Əliyev çıxış edirdi, bu da onun ümumittifaq məkanında özünün imicinin formalaşmasında önəmli rol oynamışdır. Bu forumlar SSRİ Elmlər Akademiyası xəttilə, Sov.İKP MK nəzdində marksizm-leninizm İnstitutu bizim Elmlər Akademiyamızın müstəvisində keçirilirdi. Çox görümlü, zəngin məzmunlu iş gedirdi.

Və o, Moskvada işlədiyi və artıq bütün ölkə ilə üz-üzə qaldığı zaman artıq yeni bir şəxs deyildi. Onu Bakıda gördüyü işlərin sayəsində bütün İttifaq tanıyırdı».

*(Əfrand Daşdəmirovla müsahibədən.)*

70-ci illərin başlanğıcından Azərbaycanda beynəlxalq miqyaslı tədbirlər müntəzəm keçirilir. 24-cü Beynəlxalq Astronavtika Federasiyasının konqresi də bu qəbildəndir (Bakı, 1973-cü ilin oktyabr ayı). Diqqətəlayiq faktdır ki, əvvəlki iyirmi üç konqres SSRİ hüdudlarından kənarda keçirildiyi halda, ardınca gələn toplantının məkanı Bakı olmuşdur. Azərbaycana o zaman məşhur kosmonavtlar, astronavtlar, konstruktorlar, kainatın məchul üfüqlərinə yol açanları təmsil edən elm və əməl adamları gəlmişdilər. Və məhz bu toplantıda amerikalılar ilk dəfə çoxdəfəli «Şatl» kosmik nəqliyyat gəmisinin yaradılmasını açıqlamışdılar.

**1976-cı ilin 12 may** günü – Lenin adına Sarayda Asiya və Afrika Xalqları Həmrəyliyi Komitəsinin 20 illiyi ilə uzlaşdırılmış həmin nüfuzlu təşkilatın IV Sovet konfransı açıldı. Bakıya bütün respublikalardan, Moskvadan, Leninqraddan nümayəndə heyətləri, sosialist ölkələrindən, Afrika, Asiya dövlətlərindən qonaqlar, BMT, Afrika Birliyi Təşkilatı, Ümumdünya Sülh Şurasının təmsilçiləri gəlmişdilər. Asiya və Afrika Xalqları Həmrəyliyi Təşkilatının nüfuzlu nümayəndə heyətinə Baş katib Yusif əs-Sibayi başçılıq edirdi. Konfransın açılışında Heydər Əliyev nitq söylədi.

O vaxt Mərkəzi Komitənin ideologiya üzrə katibi vəzifəsinə seçilmiş Ramiz Məmmədzadə konfrans ərəfəsində görülən nəhəng təşkilat işlərini xatırlayır:

«Təbii ki, çoxsaylı məsələləri razılaşdırmaq üçün tez-tez Moskvaya uçmalı olurduq. Məşhur Rusiya alimləri Georgi Arbatov və Yevgeni Primakov bizə çox kömək göstərdilər. Yadımdadır, Heydər Əliyev məndən xahiş etdi ki, Moskvada Arbatovun necə adam, hansı dairələrlə bağlı olduğunu və i.a. araşdırıb öyrənim. Mənə dedilər ki, Arbatov Leonid İliç Brejnevlə çox yaxındır. Heydər Əliyeviç bundan respublikanın maraqları üçün faydalanmaq niyyəti ilə akademikə SSRİ Ali Soveti deputatlığına Şamaxı rayonundan namizədliyinin irəli sürülməsini təklif etdi.

Elə həmin vaxt, məhz bu konqres başlayınca, «Azərbaycan» mehmanxanasının inşası sona yetirildi».





**1977-ci ilin 26 may** tarixində Lenin adına Sarayda sovet xarici siyasətinin mühüm istiqamətini kəsb edən «Böyük Oktyabr Sosialist inqilabı və Asiya, Afrika və Latın Amerikası ölkələrində milli-azadlıq hərəkatı» mövzusunda beynəlxalq elmi konfrans işinə başladı.

Konfrans iştirakçılarına Sov.İKP MK baş katibi L.İ.Brejnevin təbrik məktubu çatdırıldı. Bakıya 70 ölkənin elçiləri – beynəlxalq kommunist, fəhlə və milli azadlıq hərəkatının nümayəndələri, sosialist dövlətlərin görkəmli siyasi və ictimai xadimləri, Asiya, Afrika, Latın Amerikası ölkələrinin milli-demokratik partiyalarının rəhbərləri, nüfuzlu sovet alimləri gəlmişdilər.

Qonaqların sırasında Çili kompartiyasının baş katibi Luis Korvalan, İrak kommunistlərinin lideri Əziz Məhəmməd, Braziliya Kommunist Partiyasının rəhbəri Luis Karlos Prestes, Asiya və Afrika Xalqları Həmrəylik Təşkilatının baş katibi Yusif əs-Sibayi, Kuba kompartiyası Mərkəzi Komitəsinin və Dövlət Şurasının üzvü Severo Aqirre del Kristo və başqa şəxslər vardı.

Heydər Əliyevin bu mötəbər məclisin kürsüsündən səsləndirdiyi məruzədə «Oktyabr inqilabının tarixi əhəmiyyəti» vurğulanır, Sovet Azərbaycanının nailiyyətlərindən bəhs edilir, milli-azadlıq hərəkatının müasir vəziyyəti və perspektivləri nəzərdən keçirilirdi.

Konfrans iştirakçıları respublikanın böyük sənaye müəssisələrində olmuş, Kirovabad, Quba və Şamaxı rayonlarına səfər etmişlər. Sonralar, respublika KP MK-nın iyunun 10-da keçirilən plenumunda Heydər Əliyev bu toplantının əhəmiyyətini belə dəyərləndirmişdir: «Bakı beynəlxalq elmi konfransı haqlı olaraq Böyük Oktyabr Sosialist inqilabının 60 illiyinə həsr olunmuş tədbirlər

sırasında layiqli yer tutmuşdur. Onun yekunları milli-azadlıq inqilablarının elmi-praktiki təhlilinə və qanunauyğunluqları, başlıca təmayülləri və inkişaf perspektivlərinin müəyyənləşdirilməsinə yeni təkan vermişdir. Bunlar, şübhəsiz ki, müstəqil inkişaf yoluna qədəm qoymuş ölkələrdə yeni cəmiyyət quruluşunun strategiya və taktikasının işlənilməsinə müvəffəqiyyətlə yardım göstərərək, onları mübarizə təcrübəsi ilə zənginləşdirərək, geniş kütlələrin, bütün sülh və tərəqqi qüvvələrinin siyasi fəallığının artırılmasında yeni stimul olacaq»[68].

**70-ci illərin sonları** – 80-ci illərin başlanğıcında Sovet Asiya və Afrika Ölkələri ilə Həmrəyliyi Komitəsində Mirzə İbrahimovun birinci müavini olmuş Aleksandr Dzasoxov sonralar Vaqif Mustafayevin çəkdiyi «Birinci» filmində xatırlayır:

«Bizim xahişlərimizə Heydər Əliyeviç tərəfindən diqqətli münasibət sayəsində biz Bakıda bir neçə böyük beynəlxalq forumlar keçirmək imkanı əldə etmişdik. O dövrün Azərbaycanı yüksəlməkdə idi. O, çox müasir idi, yeni, həm də tamamilə unikal sahəli sənaye yaradılırdı... Və respublika Elmlər Akademiyası çox nüfuzlu idi. Bütün bunlar Azərbaycan paytaxtına gələsi olanları maraqlandırır, burada, cavan dövlətlər üçün çox vacib olan təhsil, təbii sərvətlərdən rasional faydalanma haqqında hansısa yeni təsəvvürlər, deyək ki, əxz edə biləcəkləri, üzlərinə açıq, qapanmamış bir ocaq görürdülər.

Heydər Əliyevdə qonaqla ən düzgün davranış variantını tapmaq qabiliyyəti vardı, yəni o, əlbəttə, hər siyasətçinin ehtiyacı olan, lakin heç də hər biri belə məharət sahibi ola bilməyən hansısa bir «ədəb qaydalarına» malik idi. Xalq içində buna diplomatik bacarıq deyirlər, ancaq mən, diplomat olaraq bunu daxili mədəniyyət adlandırmaq istərdim. O, dərsliklərlə formalaşmır, necə deyirlər, doğma ocaqdan, evdən, ailədən qaynaqlanır».

[68] Бакинский рабочий. 1977. 11 июня.





A.Dzasoxovun sözlərinə qüvvət verərək, Heydər Əliyevin Çili kommunistlərinin lideri Luis Korvalanla görüşündən bir maraqlı epizod söyləmək istəyirəm. Bugünkü gənc nəslə onun adı, bəlkə də, heç nə demir, amma 70-ci illərdə Korvalan azadlıq rəmzi, Pinoçet diktaturasına qarşı mübarizənin bayrağı misalında idi. Sovet hökuməti dustaq olan Çili kommunistini dissident yazıçı Vladimir Bukovskiyə dəyişdirməyə nail olmuşdu, hərçənd Korvalan onun, əslində, sosializmin düşməninə tay edilməsini düşünərək bu dəyişmədən çox da məmnun qalmamışdı...

Korvalan Moskvaya gəlib çıxır, onun üçün Sovetlər ölkəsi boyu təmtəraqlı səfərlər təşkil olunur. Onu qarşılamaq Azərbaycanın da öhdəsinə düşür.

## Heydər Əliyevin Luis Korvalanla görüşü

*«Jurnalistləri bir-iki dəqiqəlik «birinci»nin kabinetinə buraxdılar. Sonra köməkçi qonağı dəvət etdi. Luis Korvalan, məşhur Luqo içəriyə daxil olur. Qaşqabaqlı, kəmiltifatlı. Heydər Əliyeviçlə quruca əl tutdu. Uzun taxta müştüyünü çıxarıb «Soyuz-Apollon» siqaretini ora dürtdü və ev yiyəsindən icazə almadan yandırıb tüstülətdi. Heydər Əliyeviçin kabinetində heç kəs heç vaxt siqaret çəkməzdi – o buna qarşı dözümsüz idi. Heydər Əliyev masa arxasından qalxıb istirahət otağına keçdi və qayıdıb qonağın qarşısına külqabı qoydu.*

*Xülasə, söhbət başladı. Heydər Əliyeviç ona Azərbaycandakı işlərdən, pambıqçılığın, üzümçülüyün inkişafından, bizim yaxşı şərab hazırlamağımızdan və sairə şeylərdən danışır, Korvalan birdən onun sözünü kəsir: «Biz deyirik Qərbdə kapitalizm xalqı içki düşkünü eləyir ki, sosial problemlərdən uzaqlaşdırsın. Siz isə öz şərabınızı tərifləyir, şərabçılıq sənayesinin inkişafından danışırsınız. Bu necə olsun?».*

*Heydər Əliyev bir qədər susub dedi: «Bilirsiniz, yoldaş Korvalan, məncə, alkoqol problemi – siniflərdən kənar problemdir. Mən bununla bağlı bir maraqlı lətifəni xatırladım. Bizim Qafqazda çoxdan üç böyük xalq – ermənilər,*

*gürcülər və azərbaycanlılar yaşayır. Onlar bir-birinə atmaca atmağı xoşlayırlar. Demək belə: bir dəfə gürcü, erməni və azərbaycanlı toplaşıb mübahisə edirlər ki, kimin konyakı daha yaxşıdır. Erməni döşünə döyür: «Bizim konyak hamıya bəllidir, dünyada ən yaxşısıdır». Gürcü deyir: «Onda bizim konyak İttifaqda ən yaxşısıdır». Azərbaycanlı başının ardını qaşıyıb deyir: «Bizə qalsa, təvazökar adamlarıq. Bizim konyak «Zaqafqazye»də ən yaxşısıdır». Korvalana lətifəni tərcümə etdilər. O, uşaq kimi uğunub getdi, məzələndi, açılışdı. Söz-sözü çəkdi, söhbətləri tutdu, yağ kimi axdı, vidalaşanda isə qonaq Heydər Əliyevlə qucaqlaşıb öpüşdü. Yəni onun yanından tamamilə başqa əhvalda çıxdı».*

*(Azərinformun sabiq müxbiri Vladimir Morozkovun söylədiklərindən.)*

**1981-ci ilin 3 sentyabrında** Bakıda «Gənclik, inkişaf və sülh» mövzusunda beynəlxalq gənclər konfransı açıldı. Burada 38 ölkənin elçiləri – Asiya, Afrika, Latın Amerikası, sosialist dövlətləri, beynəlxalq gənclər təşkilatları, ÜLKGİ, SSRİ Gənclər Təşkilatları Komitəsinin təmsilçiləri iştirak etdi. Konfransı BMT baş katibi Kurt Valdhaym və YUNESKO-nun baş direktoru Amadu M.M'Boy təbrik etdilər. Heydər Əliyev toplantının açılışında nitq söylədi.

**1981-ci ilin 21 sentyabrı** ümumi və tətbiqi kimya üzrə XII Mendeleyev qurultayının keçirilməsi ilə əlamətdar oldu. Tədbiri açan SSRİ EA vitse-prezidenti akademik Y.Ovçinnikov bu rəqəmləri səsləndirdi: qurultaya SSRİ-nin bütün bölgələri və respublikalarından 2 mindən artıq alim və sənaye xadimləri gəlmiş; sosialist ölkələrinin kimya sənayesinin rəhbərləri, dünyanın 20-dən artıq ölkələrindən kimya elminin adlı-sanlı təmsilçiləri qurultayda iştirak edirlər. Qurultayın açılışında təbrik sözü ilə çıxış edən Heydər Əliyev L.Brejnevin iştirakçılara ünvanlanmış məktubunu oxudu.

Bu forumun iştirakçısı U.Osmanov xatırlayır:

«Azərbaycan liderinin təbrik çıxışı bütün qurultay iştirakçılarını yüksək mədəniyyəti, professionallığı ilə məmnun etdi. Saf rus dilində, kağızsız-filansız söylədiyi nitq yeni fikir və ideyalar daşıyırdı və gur alqışlarla qarşılandı. İclaslararası fasilədə tanınmış sovet alimi, akademik Bonifati Kedrov qonaqların arasında qeyd etdi: «Azərbaycan kimyaçılarının bəxti gətirmişdir – onların Heydər Əliyevi var»[69].





## ■ Svetlana Qasımova ilə söhbətdən:

« – 70-ci illərdə Bakıda ümumittifaq əhəmiyyətli tədbirlər tez-tez keçirilirdi. Bunda Heydər Əliyeviçin böyük xidmətləri var. Mərkəzi Komitənin birinci katibi olaraq, o nəinki millətin şüurunu yüksəltdi, həm də millətin öz-özünə inamını dirçəltdi, tərbiyələndirdi. Eyni zamanda Azərbaycan xalqını Sovet İttifaqında tanıtdı.

**– Siz, yəqin, özünüz də o ümumittifaq miqyaslı tədbirlərin iştirakçıları ilə ünsiyyətdə olmusunuz?**

– Bəli, mən bütün tədbirlərdə iştirak edirdim. Və heç vaxt Heydər Əliyevi əhatə edən vurğunluq ab-havasını unutmayacam. Qonaqlarımız ondan ayrıla bilmirdilər. Onunla görüşəndən sonra təəssüratlarını bildirirdilər: «O elə bir nəhəngdir ki, elə fenomenal şəxsiyyətdir ki! O nə qədər zəngin biliklidir!». Kimyaçılar qurultayından tutmuş ədəbiyyat və incəsənət günlərinədək bütün tədbirlərin iştirakçıları belə deyirdilər.

1980-ci ildə Azərbaycanın 60 illiyinə müttəfiq respublikaların hamısından MK birinci katibləri öz xanımları ilə gəlmişdilər. Bakıda təntənəli yığıncaq oldu, xalq təsərrüfatı nailiyyətlərinə həsr olunmuş gözəl sərgi açıldı, orada hər nazir öz sahəsindən məlumat verdi. Sonra «Gülüstan» sarayında qəbul təşkil olundu. Bu, «Gülüstan»da keçirilən ilk tədbir idi. Təsəvvür edə bilərsiniz, hamımız necə həyəcan keçirirdik! Qəbulda, gərək ki, 976 nəfər iştirak edirdi. O cümlədən bütün MK birinci katibləri.

Heydər Əliyevin bu qəbulu necə aparması barədə söyləmək istəyirəm. O, Sovet İttifaqının bütün xalqları şərəfinə badə qaldırdı, sonra hər respubli-

---

[69] Угур Османов. Дорогой мне образ. Бакинский рабочий. 2004. 7 июля.

ka – Gürcüstan, Ermənistan, Özbəkistan və i.a. haqqında ayrıca söz dedi. O, elə şeylərdən danışırdı ki, bu barədə bəzən həmin respublikaların heç birinci şəxslərinin də xəbəri yox idi. Bu, Heydər Əliyev şəxsiyyətinin fenomenallığının, onun erudisiyası, intellektinin parlaq nümayişi idi. Tərtəmiz rus dilində, heç bir kağız-kuğuz olmadan. Bunu eşitmək gərək idi! Bizim hər birimizi Azərbaycanın rəhbərinə görə iftixar hissi riqqətə gətirirdi».

**Yevgeni Primakov** Azərbaycan paytaxtına 1981-ci ilin oktyabr ayında gəlişini xatırlayır. Oktyabrın 5-də o, Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Azərbaycan şöbəsinin təsisat yığıncağını açırdı. O vaxt Y.Primakov SSRİ EA Şərqşünaslıq İnstitutunun direktoru və Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin sədri kimi yalnız sabiq İttifaqda deyil, daha geniş miqyaslarda tanınmış şəxsiyyət idi.

«Biz Bakıya böyük nümayəndə heyəti ilə gəldik. O vaxt respublikada Nizaminin 840 illiyi qeyd olunurdu. Yadımdadır, Bakıda gözəl bir kitab aldım, indiyədək kitabxanamdadır, – «Nizaminin dövrü». Heydər Əliyeviç yubiley gecəsində çıxış etməyimi xahiş etdi. Dedim: «Heydər Əliyeviç, mən nə dilçi, nə də nizamişünasam». – «Xahiş edirəm sizdən, – dedi. – Siz çıxış etməsəniz, bu anlaşılmaz». Razılıq verdim, bütün gecə boyu hazırlaşdım.

Sonra çıxışımı bütün respublika qəzetləri yaydı. Mən Nizaminin, ümumiyyətlə, intibah tipli mütəfəkkir-sənətkar kimi nələrlə fərqləndiyini vurğulayırdım. Heydər Əliyev sonra mənə dedi ki, dübbədüz tutmuşam, çıxış xoşuna gəlib. Mən millətçinin vətənpərvərdən nə ilə fərqləndiyi barədə danışmışdım. Millətçi öz vətənini, şərtsiz ki, sevən adam olsa da, onu daima başqalarına qarşı qoyub deyir ki, onun vətəni hamısından yaxşıdır. Vətənpərvər isə öz vətənini sevir və öz yurdu üçün əlindən gələni əsirgəmir. Heç vaxt kiminsə daha yaxşı, kiminsə daha pis olduğunu düşünmür. Heydər Əliyeviç mənim çıxışımı çox təriflədi. Hərçənd çıxışımda uzaq hədəfə vuran mətnaltı məna vardı, və o bunu çox gözəl başa düşürdü. Ümumiyyətlə, o, mütərəqqi görüşlü insan idi».





## Oljas Süleymenovla söhbətdən:

«Biz Əliyev haqqında 1969-cu ildə o, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olanda eşitdik. Bilirdik ki, o, DTK-dan gəlib. Əliyevin ardınca Şevardnadze də hakimiyyətə gəldi. Qafqaz korrupsiyadan təmizlənməli idi, Zaqafqazye isə bu azara xüsusən «yoluxmuşdu». Onların təyinatları dərhal respublikaların hamısında diqqəti cəlb etdi. Ziyalılar arasında söz-söhbətlər gəzdi, yazıçılar bu barədə çox danışdılar, bu adamların hakimiyyətə gəlişinin bütün İttifaqda ab-havanın saflaşdırılmasına xidmət edəcəyinə müəyyən ümidlər bəslənirdi, çünki bu bəlanın mədəniyyətə, iqtisadiyyata, ümumiyyətlə, ölkənin imicinə necə ziyan vurduğunu biz bu və ya digər dərəcədə bilirdik.

Heydər Əliyev Qazaxıstana 70-ci illərin ortalarında, bizə Brejnev başda olmaqla respublikaların bütün MK birinci katibləri təşrif buyurduqları vaxt gəlmişdi. Bu bizim hansısa yubileyimizlə bağlı hadisə idi. Onda mən Heydər Əliyeviçi ilk dəfə gördüm. O çıxış edirdi, onların hamısı onda çıxış edirdilər, salonda olduğumdan mənim müqayisə etmək imkanım vardı. Bu adamın çıxışının mənə necə təsir bağışladığı indiyədək yadımdadır. Zabitsayağı şax duruşu, səsi. Və öz fikirlərini o, çox savadlı, məntiqli, sərrast ifadə edirdi.

Sonra isə Azərbaycana gəldim, burada, Bakıda Sovet ədəbiyyatı günləri keçirilirdi. Biz tanış olduq. Ancaq Heydər Əliyevlə söhbətləşmək yalnız 1981-ci ilin oktyabrında, Nizaminin yubileyində respublikada böyük şairin 840 illiyi qeyd ediləndə mənə nəsib oldu. Bu onun Moskvaya getməsindən əvvəl idi. Yadımdadır, biz birlikdə Gəncəyə səfər etmişdik. O vaxt ondan soruşmuşdum:

– Bəs 840 illik niyə? Axı biz yuvarlaq tarixlərə – 850 illik, 900 illik... – öyrəşmişik.

O cavab verdi:

– Belə şairlərin yubileyləri hər on ildən bir keçirilməlidir ki, poeziyaya, xüsusən də belə yüksək səviyyəli poeziyaya xalqın diqqət və marağını doğursun.

Çox sadə və inandırıcı.

Süfrə başında Heydər Əliyev mənim sağlığıma badə qaldırdı, o cümlədən belə dedi:

– Oljas yalnız qazaxlara deyil, Oljas bütün türklərə lazımdır.

Görünür, bu, «Az-Ya» kitabının və müəllifinin aqibəti haqqında gəzən şayiələrə, söz-söhbətə dolayısı cavab idi. Əliyev, Sov.İKP MK Siyasi Bürosunda mənim kitabımla bağlı gedən diskussiyalardan xəbərdar idi. O öz mövqeyini açıq-aydın bildirdi. Və bu mənim üçün o zaman çox vacib idi».

90-cı illərin əvvəllərində, haçansa «qardaş» müttəfiq respublikalar arasında mədəni əlaqələrin qırılıb dağılması öz apogeyinə çatdıqda, «Literaturnaya qazeta» sabiq SSRİ yazıçılarının keçmiş dostluğu və indiki özgələşməsi mövzusunda diskussiya açdı. Bu kitabın müəllifi də həmin mükaliməyə öz səsini qatmışdı. Birbaşa bizim mövzumuzla bağlı olduğuna görə məqalələrimin birindən parça gətirməyi rəva bilirəm:

«Arxiv tozunu uda-uda, on illik çoxdanın sənədlərini eşələyir, Azərbaycan Yazıçılar Birliyinin başqa respublikalarımızın yaradıcılıq ittifaqları ilə məktublaşmasını nəzərdən keçirirəm və cəmiyyətin coşğun «aşkarlıq və demokratizasiya» dövrünə doğru irəlilədikcə ədəbiyyatlararası təmasların səngiyib azalan silsiləsinə heyrətlənirəm. Durğunluğun «çiçəklənən» dövrünə aid qalın qovluqları vərəqləyib düşünürəm: durğunluq nə gəzir! Həyat kükrəyir, bulaq kimi qaynayır, yazıçılar konfransını «dəyirmi masa» əvəz edir, poeziya bayramları Sovet ədəbiyyatı günlərinin ardınca gəlir. Tərcümə topluları, müştərək antologiyalar... Hələ bir adlara bax, vüsətə bax! Doğrudan da, «küll bayraqlar bizə qonaq» gələrdi... Amma qovluqlar get-gedə nazilir, birliklərin məktublaşması seyrəlir, birgə ədəbi tədbirlər azalır. Son 2-3 il ərzində «Müttəfiq respublikaların Yazıçılar Birlikləri – məktublaşma» qrifli qovluqlar açmağa heç ehtiyac da duymurlar. Dairə qapanır, ədəbi əlaqələrin qırılması, deyəsən, son həddinə çatmışdır.





Yazıçılar İttifaqının keçirdiyi bir çox önəmli ədəbi aksiyaların iştirakçısı, tanınmış Azərbaycan şair-tərcüməçisi Səyavuş Məmmədzadəyə zəng vurub onunla öz narahat düşüncələrimi bölüşürəm və cavabında ağrılı-acılı monoloqunu eşidirəm:

– Bəzi həmkarlarımdan həmin tədbirlərdə guya heç bir yaxşı və uzunömürlü cəhət olmamasını eşidəndə, mənim yaddaşım üsyan edir. Mən şəxsən hesab edirəm ki, bu qəbildən olan, biz bəzən ironiya ilə «drujba i panibratstvo literatur» adlandırdığımız ədəbi «büsatlarda» belə bir çox pozitiv rüşeymlər əkilmişdi. Axı bütün bu pirotexnika və atəşfəşanlıqdan sonra qəlbimizdə uzun müddət insan ünsiyyətinin istisi qalırdı. Mədəniyyət suveren yaşaya bilməz. Bir-birindən sərhəd dirəkləri və tikanlı məftillərlə çəpərlənmək olar, amma mədəniyyət kosmikdir...

– Səyavuş, bir çox ədəbiyyatçılar, həm də tək respublikamızda yox, 1975-ci ili, Azərbaycanda Sovet ədəbiyyatı günlərini nostalji hisslə yad edirlər...

– Eh, unudulmaz günlər idi! İndiyədək o vaxt hökm sürən könül açıqlığı, qarşılıqlı cazibə ab-havasını duyuram. Hər bir ünlü qonağımızın arxasında onun torpağı, xalqı, onun mədəni ənənələri dururdu. Onlar bizi tanıyır, biz onların içindən dost qazanırdıq. Biz mücərrəd şəkildə «ədəbi əlaqələr» deyirik, amma axı ədəbi əlaqələr canlı insanlardı!»[70]

## YENİ KONSTİTUSİYA
## DİL MƏSƏLƏSİ

Əvvəlki bölmələrdə biz Heydər Əliyevin ana dilinə münasibətindən, Azərbaycan dili sahəsində tədqiqatlar aparmış bir qrup dilçi alimlərin Dövlət mükafatına layiq görülməsi, yazıçılarla səmimi söhbətlərdə milli özgürlüyün başlıca daşıyıcısı, saxlancı olan ana dilinin qorunması və inkişaf etdirilməsi haqqında

[70] Литературная газета. 1991. 5 июня.

vurğuladığı fikirlər, Heydər Əliyevin ictimaiyyət qarşısında azərbaycanca çıxış etməyə hər bir fürsətdən yarınması barədə bəhs etmişdik.

«O zaman respublikamızda ilk dəfə olaraq müstəqil Dilçilik İnstitutu yaradılmış, bu da doğma dilin ictimai-siyasi nüfuzunun möhkəmləndirilməsinə rəvac vermiş, dil tarixi, dialektologiya və bir çox başqa problemlər üzrə miqyaslı araşdırmalar aparmağa imkan vermişdir. Rus dilinin beynəlmiləl ünsiyyət dili kimi fəal təbliğ edildiyi həmin illərdə Heydər Əliyev respublikada tam dəyərli ikidillilik ab-havasının təsbitlənməsinə tərəfdar çıxırdı»[71].

Heydər Əliyevin ana dilinə bəslədiyi məhəbbəti 1978-ci ildə respublikada Yeni Konstitusiya qəbul edilən zaman siyasi ehkamlardan irəli gələn ciddi sınaqlardan keçməli oldu. SSRİ Konstitusiya Komissiyasının üzvü kimi o, Əsas Qanunu hazırlayan ölkə rəhbərlərindən biri idi.

1977-ci ilin 24 may günü SSRİ Konstitusiya layihəsi məsələsini müzakirə edən Sov.İKP MK plenumu keçirildi. İki gün sonra bütün respublikaların aparıcı informasiya vasitələrində yayımlanan «Pravda»nın baş məqaləsində yeni Əsas Qanunun qəbul edilməsinin zəruriyyəti belə əsaslandırılırdı ki, əvvəlki (Stalin) Konstitusiyası qəbul edildikdən sonra ötən 40 ildə ölkədə və cəmiyyətdə dərin və prinsipial dəyişikliklər baş vermiş, SSRİ-də «inkişaf etmiş sosializm cəmiyyəti» qurulmuşdur, iqtisadiyyatda sosialist mülkiyyəti tam hökm sürür; vahid və qüdrətli xalq təsərrüfatı mexanizmi formalaşmış və uğurla işləyir; sovet cəmiyyətinin sosial siması da başqalaşmışdır. «Millətlər bərabərliyi bizdə yalnız hüquqi deyil, faktiki olaraq da gerçəkləşmişdir. Bütün sovet respublikaları indi yüksək inkişaf səviyyəsinə yetmişlər. Fəhlə sinfi, kolxozçu kəndli və xalq ziyalılarının sarsılmaz dostluğu daha da möhkəmlənmişdir. Əsas sosial qruplar arasında mühüm fərqlər tədricən silinir, ölkənin bütün millətləri və xalqları daha sıx yaxınlaşır. İnsanların yeni tarixi toplumu – sovet xalqı təşəkkül tapmışdır.

[71] Бакинский рабочий. 2003. 23 мая.





...Sovet İttifaqının beynəlxalq durumu da xeyli dəyişmişdir. Ölkəmizin kapitalist əhatəsinə son qoyulmuşdur. Sosializm cahanşümul sistemə çevrilmişdir. Kapitalizmin mövqeləri əhəmiyyətli dərəcədə zəiflədilmişdir. Sabiq müstəmləkələrin yerində onlarla gənc müstəqil dövlət yaranmışdır. Sovetlər ölkəsinin beynəlxalq nüfuzu və təsiri ölçüyəsığmaz dərəcədə artmışdır...

Bütün bu dəyişikliklər yeni Konstitusiya layihəsində öz əksini tapmışdır...»

*Bu sətirləri oxuyaraq, inanmaq olmur ki, on ildən azca artıq ötəcək və nəhəng, həqiqətən də, qüdrətli bir məmləkət süquta uğruyacaq və onunla bərabər yeni tarixi toplum – sovet xalqı haqqında qəşəng əfsanə də xam xəyala çevriləcək... Yeni Konstitusiyada deyildiyi kimi, «daha da sıx yaxınlaşan» bir çox millətlər və xalqlar isə desentralizasiya, suverenləşmə və bir çox hallarda aqressiv separatçılığın qızğın tərəfdarları olacaq...*

İyunun 10-da keçirilən Azərbaycan Kommunist Partiyasının plenumu SSRİ Konstitusiya layihəsi və L.Brejnevin Sov.İKP MK may (1977-ci il) Plenumundakı çıxışından irəli gələn respublika partiya təşkilatının vəzifələri haqqında məsələni müzakirə etdi.

**İyulun 7-də** Dzerjinski adına klubda Azərbaycan SSR Ali Soveti onuncu çağırışının beşinci sessiyası açıldı. Heydər Əliyev SSRİ Konstitusiyası layihəsi və zəhmətkeş deputatları sovetlərinin vəzifələri haqqında məruzə etdi. O, yeni ümumittifaq Əsas Qanunu layihəsini ətraflı təhlil etdi və ayrı-ayrı maddələrinin əhəmiyyətini açıqladı.

Layihənin 75-ci və 81-ci maddələrinə uyğun olaraq hər müttəfiq və muxtar respublika öz konstitusiyalarına malik olmalıydı. Ona görə sessiyada Azərbaycan SSR Konstitusiya layihəsinin hazırlanması üzrə Komissiya yaradılması və onun tərkibi barədə təklif qəbul olunur. Layihə 1977-ci ilin dekabrı – 1978-ci ilin yanvarında ümumxalq müzakirəsinə verilmək üçün təqdim olunmalı və

gələn ilin birinci rübündə Azərbaycan Ali Sovetinin növbədənkənar sessiyasında baxılmalı idi. Həmçinin Azərbaycan SSR himninin yeni redaksiyası qarşıda duran işlərdən idi.

Əsas Qanun hazırlanmasında ortaya çıxan əngəllərdən biri dövlət dili haqqında maddə oldu, Moskvadan bu maddənin layihədən istisna edilməsi barədə «komanda» verilmişdi.

Heydər Əliyev çox mürəkkəb vəziyyətdə qalmışdı.

İlk dəfə Azərbaycan dilinin dövlət dili olması haqqında maddə 1956-cı ildə, İmam Mustafayevin dövründə Konstitusiyamıza daxil edilmişdi. Yeri gəlmişkən, eyni səciyyəli maddə Azərbaycandan çox-çox əvvəl Gürcüstan və Ermənistanda qüvvəyə mindirilmişdi.

Konstitusiyaya ilk dəfə bu düzəlişin daxil edilməsinin təşəbbüskarı Azərbaycan Ali Soveti Rəyasət Heyətinin sədri Mirzə İbrahimov olmuşdur ki, müasirlərin şəhadətinə görə, bu əsl hünər idi. Akademik Ə.Daşdəmirovun mənə söylədiyinə görə, burada Mirzə müəllimin bir uzaqgörən gedişi də vardı ki, əvvəlcədən SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri K.Voroşilovun razılığı ilə dəstəklənmiş, halbuki MK birinci katibi İ.Mustafayev bu məsələni nə Siyasi Büroya, nə də Sov.İKP MK Rəyasət Heyəti səviyyəsinə çıxarmamışdı. Yəni Azərbaycan rəhbərliyi faktiki olaraq Mərkəzi Komitəyə məlumat verməmiş və yalnız SSRİ Ali Sovetinin razılığı ilə kifayətlənmişlər. Daha sonra bu məsələni operativ surətdə respublika Ali Soveti sessiyasının gündəminə daxil etmiş, sessiya Konstitusiyaya düzəlişi qəbul etmiş və qərar elan edilmişdir. Moskvada xəbər tutanda iş-işdən keçmişdi...

«Lakin 1978-ci ildə, yeni Konstitusiya hazırlanmağa başlananda, – Əfrand Daşdəmirov söyləyir, – bəyan edildi ki, artıq yeni sosialist toplumu – sovet xalqı əmələ gəlmiş, hamı qaynayıb-qarışır və bu «əmmə» ilə dil haqqında maddələri çıxarmağı buyurdular. Bu «komanda» üç Cənubi Qafqaz respublikasına ünvanlanmışdı, – yalnız onların dövlət dili haqqında belə maddələri vardı.





Və çox mürəkkəb vəziyyət yarandı; bizim ziyalılarımız da, ermənilər də narazı qaldı; Gürcüstanda isə daha o yana getdilər, orada əməlli-başlı mərəkə qopdu, professorlar, tələbələr dövlət dili haqqında maddənin ləğv olunmasına qarşı nümayişlərə axışdılar. Gürcü intelligensiyası o vaxt yamanca qalxdı».

**Həmin hadisələri Gürcüstan KP MK katibi Soliko Xobeişvili belə xatırlayırdı:**

«Bu, 1978-ci ilin 14 aprelində baş verdi; minlərlə qızışmış cavanlar çox kəskin şüarlarla Hökumət Evi qarşısında mitinq keçirir və şərt qoyurdular: «ya belə-ya elə». Hökumət Evinin yaxınlığında artıq hər şey hazır vəziyyətdə idi. Respublika rəhbərliyi arasında, yeri gəlmişkən, o anlarda elə adamlar da tapıldı ki, «Hanı ordu?» – deyə qəzəblə çığırırdılar. Büroda bir həmkarıma acıya-acıya cavab verdim: yəni, demək, yenə 1956-cı ilin 9 martı, Xruşşovun təqsirindən Tbilisidə cavanları qırdıqları gün təkrarlanacaq?.. Və biz o zaman məsələnin dinc yolla həllini tapdıq»[72].

İctimai rəydə böhranlı vəziyyət Azərbaycanda da baş verdi. Bir müddət Mərkəzi Komitədə ideologiya üzrə katib vəzifəsində işləmiş Ramiz Məmmədzadə bununla bağlı xatırlayırdı:

«Yadımdadır, Heydər Əliyeviç dedi: «Mən Kapitonovla Azərbaycan dili haqqında maddə səbəbi ilə danışdım, öz rəyimi bildirdim ki, bu maddə daxil edilməlidir. Kapitonov isə etiraz etməyə başladı, yəni ki bir çox müttəfiq respublikalarda bu maddə yoxdur, siz niyə onu daxil etməlisiniz?» Onda Heydər Əliyeviç baş katibə müraciət etməli oldu».

Azərbaycanın partiya liderinin dövlət dili məsələsində inadkarlığı bəzi müttəfiq respublika rəhbərləri tərəfindən anlaşılmazlıqla və hətta əsəbiliklə qarşılanırdı...

«Xatirimdədir, o vaxt başqa respublika rəhbərləri ilə kəskin danışıqlarımız oldu. Ukrayna rəhbəri Şerbitski ilə mənim kəskin danışıqlarım xatirimdədir. O

[72] Караулов А. Вокруг Кремля. М., 1993, т.1. С. 398.

buna çox etiraz edirdi, belə əsaslandırırdı ki, siz belə yazdığınız halda gərək onda biz də yazaq ki, Ukraynanın dövlət dili Ukrayna dilidir. Mən ona dedim ki, sizə heç kəs mane olmur. Siz bizdən də böyük respublikasınız və Sovetlər İttifaqında sizin çəkiniz bizimkindən qat-qat artıqdır. Siz istəsəniz bunu yaza bilərsiniz. Ancaq siz nə üçün bizə mane olursunuz? Mübahisəmiz çox gərgin oldu»[73].

«Şaquli» istiqamətdə gərgin danışıqlarla yanaşı, üç Cənubi Qafqaz respublika liderləri arasında intensiv fikir mübadiləsi, məsləhətləşmələr aparılırdı. Əliyev, Dəmirçiyan və Şevardnadze «bir dalğaya köklənmişdilər». Milli respublikalarda dövlət dili haqqında maddə olmalıdır! Zənnimcə, bu yetərincə nadir, amma ibrətamiz hallardandır ki, Qafqazyanı respublika rəhbərlərinin həmrəyliyi «Kreml qocaları»nın inadkarlığını qırmağa və milli maraqlarını qorumağa kömək etmişdir. Əminəm ki, birinci katiblərdən kimsə tərəddüd edib geriləsəydi, qalan ikisinin dərhal yolunu kəsəcəkdilər. Ancaq hazırkı təqdirdə cürət etmədilər...

Respublikanın daxilində də, o cümlədən Konstitusiya Komissiyasında gur və canlı diskussiyalar gedirdi. Həm də MK-nın birinci katibi özü bu fikir mübadiləsinə (bəzən də «mücadiləsinə») rəvac vermiş, demək olar ki, «quruluşçu rejissor» kimi düşünmüşdü; iclaslara kənardan da mütəxəssisləri, məsələn, fəlsəfə elmləri doktoru Əfrand Daşdəmirovu, yaxud konstitusion hüquq üzrə səriştəli alim, respublikanın ən nüfuzlu hüquqşünaslarından biri Zakir Qasımovu dəvət etmişdi. Bu adamlar müzakirələrdə yetərincə açıq çıxış edir, rəsmi Moskvanın fikri ilə üst-üstə düşməyən nəzər nöqtələrini bildirirdilər. Bu da kitabımızın qəhrəmanı, böyük diplomata Kremllə söhbətlərdə Azərbaycan dili haqqında maddənin Əsas Qanundan çıxarılmasının qətiyyən əleyhinə olan ictimai rəyə istinad etməyə imkan verirdi.

[73] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1998, k. 4. S. 427-428.





Üstəlik, Dağlıq Qarabağ məsələsində Azərbaycana «badalaq vurmaq» fürsətini əldən verməyən erməni millətçiləri baş qaldırmışdılar. Sonralar o mürəkkəb dövrü xatırlayan Heydər Əliyev DQMV statusuna yenidən baxılması, vilayətin Ermənistana verilməsi haqqında Sov.İKP MK və Siyasi Büroya ünvanlanan təklif və xahişlərin gurlaşan axınını qeyd edirdi. Erməni lobbiçilərindən kimsə, hətta bu məsələnin SSRİ Konstitusiya Komissiyasında baxılmasına cəhd göstərmişdi. Yalnız Siyasi Büro üzvlüyünə namizəd Heydər Əliyevin böyük səyləri bahasına bu məsələ gündəmdən çıxarılmışdı.

**1978-ci ilin 20 aprelində** Azərbaycan Ali Sovetinin (doqquzuncu çağırış) növbədənkənar yeddinci sessiyası işə başladı – gündəmdə respublikanın Əsas Qanunu dururdu. «Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyası (Əsas Qanunu) layihəsi və onun ümumxalq müzakirəsinin yekunları haqqında» Heydər Əliyevin məruzəsi dinlənildi.

Sovet Azərbaycanı tarixində respublikanın Əsas Qanunu üç dəfə – 1921, 1925 və 1937-ci illərdə qəbul edilmişdi.

1921-ci ilin Konstitusiyası Azərbaycanda «proletariat diktaturası»nın qurulmasını və onun tərəfindən sosialist milli dövlətçiliyi – Azərbaycan Sovet Sosialist Respublikasının yaradılmasını qanunvericiliklə təsdiqlədi.

Azərbaycan SSR Zaqafqaziya Federasiyası tərkibində digər sovet respublikaları ilə vahid müttəfiq dövlətə birləşməsi IV Ümumazərbaycan Sovetlər qurultayı tərəfindən 1925-ci ilin mart ayında qanunvericiliklə təsdiqlənmişdir.

Sovet dövlətinin keyfiyyətcə yeni inkişaf mərhələsi sosializmin qələbəsi ilə bağlıdır, – bu da 1936-cı il SSRİ Konstitusiyasında öz əksini tapmış və təsdiqlənmiş, sonuncunun əsasında Azərbaycanın qırx il qüvvədə olacaq Konstitusiyası qəbul edilmişdir.

Heydər Əliyev geniş və ətraflı məruzəsində yeni Konstitusiyanın mahiyyətini açıqladı.

Layihədə, – məruzəçi qeyd edirdi, – Azərbaycan SSR sosialist ümumxalq dövləti kimi göstərilir, sosializm quruluşunun dayaqları – istehsal vasitələrinin

zəhmətkeşlərin özlərinə mənsub olması, istismardan azad əmək, planlı təsərrüfat sistemi – təsdiqlənir. Sosializmin ümumi prinsiplərini təsdiqləyən layihə, İttifaq Konstitusiyası kimi, «yetkin sosializm iqtisadiyyatının yeni cəhətlərini», 40 il ərzində Azərbaycanın xalq təsərrüfatı, elm və mədəniyyətində baş vermiş köklü dəyişiklikləri əks edir.

Layihədə Respublika Ali Soveti və Nazirlər Sovetinin səlahiyyət dairələri daha dəqiq və dolğun açıqlanır, əmək kollektivlərinin dövlət və ictimai əhəmiyyətli məsələlərin həllində rolu, vətəndaşların dövlət, ictimai orqanlarına onların işinin yaxşılaşdırılması haqqında təkliflər yürütmək, nöqsanlarını tənqid etmək, vəzifəli şəxslərin qanunsuz hərəkətlərinə aid şikayət vermək hüququ haqqında maddələr daxil edilmişdir.

Konstitusiyada vətəndaşların əsas hüquqları və azadlıqları – əmək və peşə seçimi hüququ, istirahət, sağlamlığın qorunması, qocalıqda maddi təminat, təhsil, yaşayış yeri (ilk dəfə) ilə bağlı hüquqlar öz əksini tapmışdı.

Layihənin 33-cü maddəsi respublikada qadın və kişinin bərabər hüquqlu vətəndaş olduqlarını təsdiqləyirdi...

Daha sonra Heydər Əliyev ən «yaralı» məsələyə keçərək, öz məmnuniyyətini gizlətmədən bildirir ki, ümumxalq müzakirəsi gedişatında irəli sürülən təklifləri nəzərə almaqla «Azərbaycan SSR milli-dövlət və inzibati-ərazi quruluşu» bölməsini dil haqqında xüsusi maddə ilə tamamlamaq məqsədəuyğun görünür».

73-cü maddəni aşağıdakı şəkildə ifadə etmək təklif olunur:

«Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir.

Azərbaycan SSR Azərbaycan dilinin dövlət və ictimai orqanlarında, mədəniyyət, maarif və digər orqanlarda işlədilməsini təmin edir və onun hərtərəfli inkişafına dövlət tərəfindən qayğı göstərir.

Azərbaycan SSR-də bərabərhüquqluluq əsasında bütün bu orqan və müəssisələrdə rus dilinin, eləcə də əhalinin istifadə etdiyi başqa dillərin azad işlədilməsi təmin edilir. Bu və ya digər dillərin işlədilməsində hər hansı imtiyazlara, ya məhdudiyyətlərə yol verilmir».





Bu, əlbəttə, Azərbaycan liderinin böyük qələbəsi və bəlkə də, onun gələcək Azərbaycan dövlətçiliyi naminə atdığı ən vacib addımlardan idi.

Yeni Konstitusiyada 73-cü maddənin yer tutması ilə millətin əsas mənəvi sərvəti – Azərbaycan dilinin qorunması və gələcək inkişafına etibarlı hüquqi zəmin yaradılmışdır.

**1978-ci ilin 21 aprelində** Azərbaycan Ali Sovetinin 7-ci sessiyası Azərbaycan SSR Yeni Konstitusiyasını qəbul etdi.

## «ƏZİZ HEYDƏR ƏLİYEVİÇ» HEYDƏR ƏLİYEVİN YARADICI ZİYALILARLA MƏKTUBLAŞMASINDAN

Sovet mədəniyyət xadimlərinin Heydər Əliyevə ünvanlanan və onun şəxsi arxivində saxlanılan bir çox məktub və teleqramları ilə tanış olmaq imkanı mənə müyəssər oldu. Bu yazışma, əhvallaşma, bayramlaşmalardan da onu ən müxtəlif respublikaların, ən fərqli millətlərin sənətkarları ilə bağlayan canlı və səmimi dostluq, qarşılıqlı ülfət və rəğbət telləri görünür, duyulur.

Mən Azərbaycan bəstəkarları Qara Qarayev, Fikrət Əmirov, Rauf Hacıyev, müğənnilərimiz Zeynəb Xanlarova, Rauf Atakişiyev, Müslüm Maqomayevdən, aktyorlardan, şair və nasirlərdən gəlmiş çoxsaylı məktubları oxudum. Burada ən müxtəlif məsələlərlə bağlı məqamlar – respublikada yenicə yaradılmış estrada-simfonik orkestrinin təşkilindən tutmuş mənzil verilməsi barədə xahişədək – nəzərə çarpır.

Bir çoxları Heydər Əliyevə qayğı və diqqətinə görə – dövlət mükafatı, fəxri ad aldığına və s. şükranlığını bildirirlər. Bu sırada Cəfər Cabbarlı ailəsinin böyük dramaturqun abidəsinin açılışı münasibətilə təşəkkür məktubu, rəhmətlik Qara Qarayevin ömür yoldaşı Tatyana Qarayevanın kövrək səmimiyyətlə təsirləndirən məktubu, gələcək dünya çempionu Harri Kasparovun minnətdarlığını izhar edən teleqramlar...

Heydər Əliyevə «Literaturnaya qazeta»nın baş redaktoru Aleksandr Çakovski, «Drujba narodov» jurnalının baş redaktoru Sergey Baruzdin (sonuncu ünvan sahibinə jurnalda çıxış etmək barədə «xahişnamələri» əsirgəmir!), SSRİ EA prezidenti Mstislav Keldış, görkəmli pianoçu Emil Gilels, SSRİ Rəssamlar İttifaqının sədri Nikolay Ponomaryov, dramaturq Mixail Şatrov, tanınmış söz ustaları Aleksey Surkov, Konstantin Simonov, İrakli Abaşidze, Nikolay Qribaçov və bir çox başqaları yazırlar.

Məktubların bir qismi rəsmi minnətdarlıq izhar edilməsindən uzaqdır və xüsusən diqqətəlayiqdir.*

▶ *«Əziz Heydər Əliyeviç! Mənim altmış illiyim və Sosialist Əməyi Qəhrəmanı adı almağım münasibətilə Sizin xeyirxah, ürəkdən gələn salam və təbrik sözlərinizdən son dərəcə təsirləndim. Buna görə və ümumiyyətlə, yazıçılara gözəl münasibətinizə görə mənim dərin, səmimi təşəkkürümü qəbul edin. Azərbaycanda sovet ədəbiyyatı dekadası zamanı Sizinlə görüşlərim haqqında işıqlı xatirələrimi hələ də saxlayıram. Şükranlıqla əllərinizi sıxır, Sizə ən yaxşı arzularımla qalıram.*

*Sizin **Mustay Kərim**.*

*03.XI.79».*

▶ *«Əziz Heydər Əliyeviç!*

*Sizə dəvətinizə görə səmimi-qəlbdən təşəkkür edirəm. Bu iki gün ərzində mən əsl bayram ovqatını, bir çox insanların təşkil olunmuş deyil, ürəkdən gələn sevincini aydın hiss etdim. Bütöv bir xalqın bayramına qoşulmaq imkanına görə Sizə çox-çox sağ olun deyirəm!*

* Təqdim edəcəyimiz mətnlər rusca yazılmışdır və burada onları tərcümədə veririk.





*Əvvəlkitək ya Moskvada, ya Bakıda Sizinlə görüşməyi arzulayıram. Sizinlə çox şeylər haqqında ciddi, məhrəm bir söhbət ürəyimdən keçir, - axı Azərbaycanın son 10-ildəki təcrübəsi göstərir ki, bizim ümidlərimiz, inamımız əsassız deyil.*

*Kommunist salamı ilə*

*Sizin **Mixail Şatrov**.*

*28.04.80».*

▶ *«Möhtərəm Heydər Əliyeviç!*

*Mənim əməyimə belə yüksək qiymət verdiyinizə görə Sizə qarşı bəslədiyim dərin təşəkkür və səmimi minnətdarlıq hissini bütün dolğunluqla ifadə etməyə acizəm. Yalnız mənim böyük, əbədi «sağ olumu» qəbul etməyinizi xahiş edə, sizin yüksək etimadınızla xoşbəxt olduğumu deyə bilərəm. Parlaq, görkəmli siyasi xadim istedadınızı tam sərf etdiyiniz respublikadakı nəhəng, ümumxalq əmək və quruculuğun bir zərrəsi kimi öz əməyimi duymaq mənim üçün fərəhlidir. Mənə Sosialist Əməyi Qəhrəmanı kimi yüksək adın verilməsində Sizin şəxsi qayğı və diqqətinizin, başçılıq etdiyiniz respublika partiya təşkilatının nüfuzunun şəhadətini görürəm. İcazə verin, Sizi əmin edim ki, mənim əməyim indən belə də bütövlüklə doğma musiqi mədəniyyətimizə xidmətə həsr olunacaq. İcazə verin bir daha sizə ürəkdən təşəkkür edim, səmimi-qəlbdən möhkəm can sağlığı, xoşbəxtlik, Sovet Azərbaycanının, bütün böyük vətənimizin çiçəklənməsi naminə yeni uğurlar arzulayım.*

*Sizi həmişə sevən **Niyazi**.*

*3 sentyabr 1982-ci il».*

▶ *«Əziz, çox istəkli Heydər Əliyeviç!*

*Sizə mənim ən ağır günlərimdə göstərdiyiniz böyük köməyə görə dərin təşəkkürümü bildirirəm. Bildiyiniz kimi, Bakıda, mədə xərçəngi olduğunu güman edib dərhal cərrahiyyə əməliyyatına getməyimi təklif etdilər. Moskvada, Sizin köməyinizlə düşdüyüm Onkoloji Elmi Mərkəzdə əsaslı müayinədən sonra*

*məndə heç bir şiş olmadığını aşkarladılar. Mən, əlbəttə ki, ömrümün 76-cı yaşında bu ağır əməliyyata tab gətirə bilməzdim. İndən belə, əziz Heydər Əliyeviç, mən Sizə yalnız uğurlarıma görə deyil, həyatıma görə də borcluyam. Mənə bəxş etdiyiniz həyatı da belə fədakarlıqla xidmət etdiyiniz böyük amal yolunda qurban verməyə hazıram.*

*Sizə Moskvada çıxmış şeirlərimin toplusunu, həmçinin yenə də Sizin şəxsi təşəbbüsünüzlə mənim haqqımda çıxan kitabçanı göndərməyi özümə borc bilirəm.*

*Sizə bir daha təşəkkür edir, möhkəm cansağlığı və uzun-uzun ömür arzulayıram.*

*Sizə sadiq*

***Samvel Qriqoryan.***

*21.X.82».*

▶ *«Möhtərəm Heydər Əliyeviç!*

*Yalnız indi, Qara Əbülfəzoviçin ölümündən yarım il keçəndən sonra Sizə məktubla müraciət etməyə özümdə taqət tapdım, hərçənd, əlbəttə ki, bunu çox-çox əvvəl etməliydim.*

*Mən bilirəm ki, əziz Heydər Əliyeviç, Siz Qarayevə necə məhəbbət və hörmətlə yanaşmısınız, onun üçün nə qədər yaxşılıqlar, nə qədər xeyirxahlıqlar etmisiniz! Lap son günlərinədək Siz onun yanında oldunuz, kömək etdiniz, ürək-dirək verdiniz. Qaçılmaz olanın qaçılmazlığı bilinəndə isə, əcəl yaxınlaşanda, Siz onun son iztirablarını, son saatlarını yüngülləşdirməyə çalışırdınız. Və buna görə də Sizə böyük, səmimi, İNSANİ (məktubda iri hərflərlə yazılıb – E.A.) Sağ olun deyirəm!*

*Bizim dərdimizi elə bil heç nə toxdada bilməyəcəyi ağır may günlərində, Siz bizim yanımızda oldunuz və öz diqqətiniz və həyanlığınız, qayğı və mehrinizlə bizə ağır sınağa dözüm gətirməyə kömək etdiniz, dərdimizə doğma, yaxın adam kimi şərik oldunuz.*





*Onun ölümündən sonra, lap son günlərədək mən Sizin ailəmizə qarşı istiqanlı, deyərdim ki, qədirbilən münasibətinizi duyuram. Və bizim üçün elədiyiniz yaxşılıqlara görə mən dönə-dönə Sizə ən səmimi, ürəkdən gələn təşəkkürlərimi bildirmək istəyirəm.*

*Sizin qayğınız sayəsində mən Bakıda gözəl, abad mənzildə yaşaya bilirəm, hər hansı məişət qayğılarından azad, heç nədən korluq çəkmədən. Və xüsusən, bir ana kimi, oğluma böyük diqqət yetirməyiniz, onun fəaliyyətinə bunca yüksək qiymət verdiyiniz üçün Sizə təşəkkür etmək istəyirəm.*

*Öz pərakəndə məktubumu sona yetirərək... əziz Heydər Əliyeviç, Sizə, Sizin ailənizə, Sizin övladlarınıza möhkəm can sağlığı, xoşbəxtlik, könül xoşluğu və uzun ömür arzulayıram.*

*Dərin hörmətlə,*

***Qarayeva Tatyana Nikolayevna.***

*4 noyabr 1982-ci il».*

İndi isə şahmat üzrə gələcək dünya çempionu Harri Kasparovun iki teleqramına yer verirəm. İnanıram ki, aşağıdakı sətirləri yazanda o, tamamilə səmimi hisslərini izhar etmişdir:

▶ *«Əziz Heydər Əliyeviç! Fərəhlə Sizə Moskvadakı zonalararası turnirin uğurla başa çatmasını bildirirəm. Bütün bu günlər boyu Sizin qayğı və diqqətiniz elə açıq duyulurdu ki, mən göstərilən etimadı doğrultmaya bilməzdim. Bu qələbəm, doğma respublikanın partiya və hökumət tərəfindən bunca yüksək qiymətləndirilmiş nəhəng əməllərinə mənim sadəcə bir kiçik töhfəm sayılsa, xoşbəxt olaram.*

***Harri Kasparov*».**

▶ *«Əziz Heydər Əliyeviç! Vətənimiz Sizə yenə də göstərdiyi yüksək etimad münasibətilə Sizi ürəkdən təbrik edirəm! Sizin qarşıda yola düşməyiniz*

*ümumi sevincə bir qədər göynərti qatsa da, məhz indi ömrümdə göstərdiyiniz atalıq qayğınıza və bilavasitə həyanlığınıza görə Sizə təşəkkür etmək istərdim.*

*Çox yaxşı anlayıram ki, doğma respublikanın bütün uğurları qırılmaz tellərlə Sizin adınızla bağlı olduğu kimi, mənim də uğurlarım Sizinlə bağlıdır. İcazə verin, çətin, lakin nəcib işinizdə Sizə yeni, daha böyük müvəffəqiyyətlər arzulayım.*

***Harri Kasparov*».**

Nəhayət, bu sıranı Heydər Əliyevin sadiq dostu və əvəzsiz köməkçisi Yefim Qurviçin oğlu Qriqori Qurviçin şeirindən sadə və təsirli misralarla bitirmək istəyirəm. Həmin şeir də Heydər Əliyevin şəxsi arxivində saxlanılan yadigardır.*

*«Əziz Heydər Əliyeviç!*
*Gəminiz sahildən ayrılmaqdadır,*
*Yeni yollar açır alatoranda.*
*Hər vida yenə də bir ibtidadır,*
*Amma nələr qalır, nələr arxada...*

*Motorlar gurlayır, üfüqlər əngin,*
*Qədim yurd ardınca yaylıq yelləyir...*
*Hər böyük gəminin bəxtidir yəqin,*
*Onu böyük səfər, ümman gözləyir...*

*Sizə sadiq,*
***Qriqori Qurviç.***
*1.XII.82».*

Heydər Əliyevin köməkçilərinin söylədiyinə görə, onun ziyalılardan aldığı heç bir məktub, xüsusən hansısa xahiş bildirən müraciət cavabsız qalmırdı.

* Ruscadan Səyavuş Məmmədzadənin tərcüməsində verilir – *E.A.*





Heydər Əliyevin cəmiyyətin bu kövrək «təbəqəsi»nə xüsusi münasibətindən şəxsi arxivində qəribə bir diqqətcilliklə yığıb saxladığı, demək olar ki, bütün məktublar, teleqramlar, sərgilərdən yadigar qalmış, rəngləri soluxmuş, saralmış bukletlər, köhnə konsert, tamaşa proqramları xəbər verir... Bu yadigarlar öz yiyəsi ilə Bakıdan Moskvaya köçmüş, sonra da geri qayıtmış, müxtəlif rəsmi iqamətgahlarda – qovluqlarda, qutularda qalıb onun ardınca növbəti ünvanlara daşınmışlar. Onunla ünsiyyətdə olan, məktublaşan, bir çoxları dünyasını dəyişmiş bu adamların xatirəsi onun üçün əziz idi, əvəzsiz idi.

Öz yaradıcılığı, sənəti, istedadı ilə o dəyərli şəxsiyyətlər, onun rahatlıq nə olduğunu bilməyən gündəlik həyatına təzə nəfəs, gümrahlıq aşılayan enerji gətirir, işində-gücündə ruhlandırırdı. Həmin sənətkar müsahiblərinə həmişə qayğı göstərdiyi kimi onlar dünyalarını dəyişəndən sonra da ailələrini unutmadı, onların xatirəsini əziz tutdu...

*Heydər Əliyevin mədəniyyət xadimlərinə bəslədiyi hörmət və rəğbət qarşılıqlı idi. Və bu sədaqətli bağlılıq, vəfadarlıq onun dar günlərində, istefaya çıxdığı zamanlarda da özünü göstərdi, – sabiq Siyasi Büro üzvü Moskva ətrafında, Barvixada qəribsəyəndə yanına Tahir Salahov, Rüstəm İbrahimbəyov gəlib əhvallaşanda da, Moskva mənzilinə Elçin və Anar zəng vuranda da, Bakıya qayıdandan sonra Yazıçılar qurultayında söz ustaları başına yığışanda, hərarətlə alqışlayanda da... Və bu sədaqət, bu qədirbilənlik dünən «piyada», bu gün «atlı» olan məmurların, Mərkəzi Komitədə vaxtilə onunla çiyin-çiyinə işləyən bəzi unutqanların, parlamentdə onu «gözümçıxdıya» salmaq istəyən «millət naqqalları»nın hay-küyü, dönüklüyü ilə kəskin bir təzad təşkil edirdi...*

*Bütün bunlar barədə növbəti fəsildə söhbət açacağıq.*

"Naxçıvan Heydər Əliyevi,

Heydər Əliyev isə Naxçıvanı xilas etdi".

IV FƏSİL

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN YARADICI ZİYALILARI

*(Naxçıvan illəri)*

Bu fəsildə biz Heydər Əliyevlə tamamilə yeni tarixi dövrdə qarşılaşırıq. Bu, SSRİ-nin dağılması və onun dağıntıları üzərində gənc müstəqil dövlətlərin yaranması kimi çətin bir zamana təsadüf edir. Azərbaycan üçün belə taleyüklü saatda kitabımın qəhrəmanı doğma respublikasında baş verən proseslərdən kənarda qala bilməzdi və bu səbəbdən də, tarixi vətəninə qayıtmağa qərar verdi. Mənim altıcildlik «Heydər Əliyev. Şəxsiyyət və Zaman» roman-araşdırmamın beşinci kitabında Heydər Əliyevin həyatının bu mərhələsi barədə geniş danışılır.

Mən onun qayıdışının ən çətin mərhələlərindən birinə toxunmaq istəyirəm, o zaman Naxçıvandan respublika parlamentinin deputatı seçilən Heydər Əliyev AR Ali Sovetinin XII çağırışının birinci sessiyasında iştirak etmək üçün 1991-ci ilin fevral-mart aylarında Bakıya gəlmişdi. Eyni zamanda, mən keçmiş parti-

ya yoldaşlarının, həmkarlarının onu necə qarşılamasından və bütün bunların Heydər Əliyevə yaradıcı ziyalıların münasibətilə nə qədər böyük ziddiyyət təşkil etməsindən danışmaq niyyətindəyəm.

**1991-ci il fevralın 5-də**, müddəti uzadılmış fövqəladə vəziyyət şəraitində iki ay gecikmədən sonra XII çağırış Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyası işə başladı.

Mən mərkəzi nəşrin xüsusi müxbiri kimi parlamentdə akkreditə olunmuşdum, Ali Sovetin, demək olar ki, bütün iclaslarında iştirak edirdim və deputatların öz məşhur həmkarlarını necə ehtiyatla, hətta düşmənçiliklə qarşıladıqlarını yaxşı xatırlayıram. Respublikanın keçmiş partiya lideri iclasın fasilələrində foyedə praktik olaraq ya tək qalır, ya da Naxçıvan nümayəndə heyətindən kimsə yanında olurdu. Demək olar ki, heç kəs ona yaxınlaşmırdı. Heydər Əliyevlə salamlaşmaq və bir-iki kəlmə söhbət etmək üçün ona yaxınlaşan deputatları isə hökmən «yuxarıya» çağırıb sorğu-sual edirdilər: onunla nə haqda danışırdınız, nəyi müzakirə edirdiniz və sair və ilaxır.

Heydər Əliyev XII çağırış Azərbaycan Ali Sovetinin birinci sessiyasında çıxış etdi, ancaq parlamentin birinci yox, üçüncü iş günündə, fevralın 7-də. Heydər Əliyevin qayıdışından sonra parlament tribunasından bu ilk çıxışında inqilabi və cəsarətli məqamlar çox idi: Qorbaçovu (o hələ SSRİ-nin prezidenti idi) və onun siyasətini kəskin tənqid etməsi də, bizim Dağlıq Qarabağı itirməyimiz haqda sözləri də, Ermənistanı təcavüzkar elan etmək təklifi də, bir sıra başqa məsələlər də.

Təəssüf ki, zalda oturan deputatların əksəriyyəti deputat Əliyevin çıxışında irəli sürülmüş yüksək həddi aşa bilmədi. Üstəlik, Ayaz Mütəllibovun tərəfdarları Heydər Əliyevin çıxışına mane olmağa çalışır, «reqlament, reqlament!» deyə qışqıraraq onun sözünü kəsirdilər. Amma bütün bunlara baxmayaraq, o, çıxışını tamamladı və sakitcə, ləyaqətlə keçib öz yerində oturdu. Mən «Literaturnaya qazeta»da dərc edilmiş məqalələrimin birində yazmışdım ki, «DQMV problemi və onun həlli yolları haqqında geniş nitqlə çıxış etmiş respublikanın sabiq partiya liderinə əlbir hücum qabaqcadan hazırlanmış tamaşanı xatırladırdı». Və yanılmamışdım.





Növbəti gün Heydər Əliyevin çıxışından sonra Azərbaycanın tanınmış şairi Bəxtiyar Vahabzadə parlamentdə göründü. O, çıxış üçün söz alıb əsl vətəndaş və həqiqi ziyalı kimi nitq söylədi. Bəxtiyar müəllim Heydər Əliyevin dünənki çıxışını və bütün bunların hansı şəraitdə baş verdiyini xatırladı, sonra isə bildirdi ki, televiziyada bütün bu tamaşaya baxaraq kəskin xəcalət hissləri keçirmişdir.

Həmin nitqdən geniş sitat gətirməyə dəyər:

«...Heydər Əliyev yoldaşın dünənki çıxışına mən diqqətlə qulaq asdım. O bizi Qarabağ məsələsinin dərin təhlilinə çağırdı. O bizə onu demək istəyirdi ki, Qarabağ məsələsində bu üç illik mübarizəmizdə bizim vahid konsepsiyamız olmamışdır. Məgər düz demirdi? Əliyev dedi ki, biz həmişə müdafiədə olmuşuq. Amma onu da bacarmamışıq.

Nəhayət, o bizi hücuma çağırdı. Axı böyük sərkərdələrdən birinin dediyi kimi, ən böyük müdafiə hücumdur. Biz bu gün bu məsələləri müzakirə etmək əvəzinə, bu mühüm məsələni kənara qoyub, Əliyevdən keçmiş ədavətimizin intiqamını almağa çalışdıq. Mən Əliyevi müdafiə etmək fikrində deyiləm. Şübhəsiz, Əliyevin fəaliyyətində müəyyən qüsurlar olmuşdur. Lakin bu qüsurların bir çoxu zamanın qüsurları idi. Mən dünən televizora baxarkən xəcalət çəkdim. Mən dədələrimizdən bizə miras qalan əxlaq normalarının, insanlıq qaydalarının dağılmasına acıdım.

Onu da unutmayaq ki, ermənilər 1970-ci illərdən tam hazır olmalarına baxmayaraq, yalnız Əliyev vəzifədən gedəndən sonra bizim başımıza bu oyunu aça bildilər. Əliyev sipər kimi onların qabağında dayanmışdı. Biz bu gün böyük həyat təcrübəsinə və siyasi diplomatik biliklərə malik olan, bütün ömrü boyu siyasət qazanında qaynayıb bərkiyən bu vətən oğlunun ağlından, təcrübəsindən istifadə etmək əvəzinə Vətənin taleyinə tüpürüb şəxsi ambisiyalarımızı qabağa çəkdik.

Bəs hanı ağsaqqala hörmət ənənəsi? Dünən danışmaq üçün növbəyə duranlara belə bir sualım var: bu gün dediyiniz sözləri bəs o zaman niyə demirdiniz? Onda qorxurdunuzsa, bu gün dırnaqarası «qəhrəmanlığınızla» çox da öyünməyin. Dünən qarşısında tir-tir əsib səcdə elədiyinin bu gün enməsindən istifadə edib onun üzünə sillə çəkmək heç bir millətdə kişilik sayılmayıb.

... Bu gün, Vətənin və millətin taleyi həll olunan bu ağır günlərdə gəlin şəxsi mənafeyimizdən və şəxsi ədavət hissimizdən əl çəkək. Vətənin taleyində yumruq kimi birləşək. Quru yer üstündə xalqımız üçün ilk müstəqil dövlət yaradan böyük atamız M.Ə.Rəsulzadəni eşidək. O, vaxtilə demişdir: «İstiqlaliyyəti olmayan xalqın xırda çəkişmələrlə məşğul olmağa ixtiyarı yoxdur».

Gəlin bu müdrik sözləri qulaqlarımıza sırğa edək və iki atalar sözünü də yada salaq: «Gedənin dalınca danışmazlar», bir də «Yıxılan ağaca balta çalmazlar»[74].

Vaxtilə mən şairin bu nitqindən bir hissəni «Literaturnaya qazeta»da sitat gətirmiş və qeyd etmişdim ki, 360 deputatdan yalnız şair Bəxtiyar Vahabzadə «aqressiv çoxluğa» qarşı getməyə cürət etdi və həqiqi ziyalıya layiq nitqlə çıxış etdi. Bu gün, bu nitqi təkrar oxuyaraq, görkəmli şairin xatirəsi qarşısında dönə-dönə baş əyir və onu xəyalən alqışlayıram.

Həmin günlərdə «Literaturnaya qazeta»nın redaksiyasına göndərdiyim xidməti informasiyada Ali Sovetdə Heydər Əliyevin «daşqalaq edilməsi»nin nəticələri haqqında yazırdım:

«Sessiyada H.Əliyevə qarşı təşkil edilmiş ictimai məzəmmətdən sonra sadə xalqın ona rəğbəti kəskin artmışdır. Heydər Əliyev şəhərə çıxan kimi, ona rəğbət bəsləyən insanlar dərhal ətrafında toplaşırlar. Yaxın vaxtlarda o, əslən Cənubi Azərbaycandan olan məşhur şairə Mədinə Gülgünün dəfn mərasiminə gəlmişdi, oradakı adamlar onu az qala gurultulu alqışlarla qarşıladılar. O, ziyalılarla, sənət adamları ilə ünsiyyət saxlayır, mağazalara, ictimai iaşə

[74] Bu nitq 16 fevral 1991-ci ildə "Respublika" qəzetində dərc edilmişdi.





müəssisələrinə baş çəkir. Onun mübariz əhvali-ruhiyyədə olmasından görünür ki, təslim olmaq niyyətində deyil».

Ancaq, Heydər Əliyevlə şəxsi ünsiyyət təcrübəmdən bilirəm ki, parlamentdə ona qarşı təşkil edilmiş obstraksiya, xüsusilə öz komandasının keçmiş üzvlərinin davranışı ona çox ağır təsir etmişdi.

**Elçinin** «Tarixlə üz-üzə» adlı məqaləsində bu barədə çox maraqlı bir pasaj var:

«...Onun irəli çəkdiyi və minlərlə (televiziyanın sayəsində, milyonlarla) tamaşaçının gözləri qarşısında onun barmağının bircə işarəsi ilə ona qulluq göstərməyə müntəzir olan və buna görə özlərini xoşbəxt sayan insanlar Heydər Əliyev hakimiyyətdən kənarlaşdırılandan sonra ona qara yaxmağa başladılar. Bu, xüsusən Heydər Əliyevin emosionallığını nəzərə alsaq, ona təsir etməyə bilməzdi...

Heydər Əliyev öz müsahibələrində, çıxışlarında dəfələrlə qeyd edirdi ki, yaxın dostları olmamışdır, yaxın ətrafı isə onun iş yoldaşlarından ibarət olmuşdur. Açıq deyəcəyəm, bu etiraf mənim üçün çox faciəli səslənirdi, çünki bu, onun daxili tənhalığına, gizli iztirablarına dəlalət edirdi. Cox böyük mənəvi sərvətə malik (həm də, təbiətən yaradıcı şəxsiyyət) olan bu emosional insan hər hansı şəxsi münasibətləri öz həyatından istisna etmişdi. Mən bir yazıçı kimi deyə bilərəm, bu bizim onsuz da asan olmayan həyatımızda çox ağırdır... Görəndə ki, iş yoldaşların, sənin üzünə gülümsəyən və səni tərifləyən insanlar sənə xəyanət edirlər, gizlicə sənə intriqa torbası tikirlər, və ya başqa birisinin sənə «torba tikdiyini» bilərək susurlar, bəlkə, Allah özü də sarsılardı...

Xəyanət – dünyada ən iyrənc təzahürlərdən biridir, amma öz iş yoldaşlarına böyük sədaqət və sevgi göstərən insana münasibətdə xəyanət ikiqat iyrəncdir».

90-cı illərin əvvəllərində Heydər Əliyevin ən fəal silahdaşlarından biri olmuş, Naxçıvan dövründə onunla tez-tez ünsiyyət saxlamış yazıçı və publisist **Sirus Təbrizlinin** xatirələrindən:

«... Hələ tanışlığımızın ilk günlərində söhbətlərimizin birində o dərin fikrə getdi, sonra isə dedi:

– Nə baş verir?! Mənim irəli çəkdiyim, vəzifə verdiyim, ordenlərlə, medallarla təltif etdiyim insanlar yanıma gəlmir, heyfsilənirəm ki, o cür insanları irəli çəkmişəm. Amma tamam başqa insanlar gəlir – Ziya Bünyadov, Sirus Tebrizli, Xəlil Rza. Görünür, siz elə o vaxtlar da Vətən haqqında, xalq haqqında düşünürdünüz.

– Beləəri Stalinə də xəyanət edirdilər, – mən Əliyevə dedim, – Xruşşova da, sizi də satdılar – cəmiyyət belədir. İndi siz müstəqil Azərbaycana rəhbərlik edəcəksiniz. Siz əsl milli lider olacaqsınız. Bu, tamamilə başqa hakimiyyətdir. Belə bir yazıçı vardı, İlya Erenburq, yəqin, bilirsiniz?

– Əlbəttə, bilirəm.

– 1952-ci ildə Erenburq «Tufan» adlı bir roman yazmışdı, ədəbiyyat aləmi bu əsəri pis qarşılamışdı. Erenburqu az qala antisovetizmdə ittiham edirdilər. Yazıçılar İttifaqında romanın müzakirəsinə ictimaiyyətin nümayəndələri, Akademiyanın üzvləri toplaşmışdı, Erenburqu da dəvət etmişdilər. Yüksək vəzifəli akademik, fəhlə sinfinin nümayəndələri, kolxozçular, ziyalılar məruzələrlə çıxış edirdilər. Üç saat hamı deyirdi ki, İlya Erenburq çox zərərli əsər yazmışdır. Sözün qısası, buradan ona bir yol var – Sibirə. İlya Erenburq susaraq bütün bunlara qulaq asır. Sonra ona da, müttəhim kimi, son söz verirlər. O, tribunaya çıxır və deyir:

«Təbii ki, hər yeni əsər müxtəlif fikirlər doğurur – həm müsbət, həm də mənfi fikirlər. Amma mənə çox ağır gəlir ki, bu gün bu zalda bircə insan tapılmadı ki, mənim yeni romanım haqqında heç olmasa bir xoş söz desin. Amma Sovet İttifaqı yalnız bu zaldan ibarət deyil. Mən müxtəlif oxuculardan məktublar alıram. Bir teleqramı oxumaq istəyirəm: «Sizin yeni romanınızı oxudum, böyük həzz aldım. Bu gözəl əsər üçün çox sağ olun». Kimsə yerdən qışqırır: «Bunu hansı axmaq yazıb?» O, teleqramı yenidən oxumağa başlayır:





«Sizin yeni romanınızı oxudum, böyük həzz aldım. Bu gözəl əsər üçün çox sağ olun. İosif Stalin!».

Yaxşı, «axmaq» sözünü kim dedi?»

Mən belə anlar üçün ömrümün yarısını verərdim.

Qayıdın, özünüz tikdiyiniz saraya gəlin, qoy bu yaltaqlar sizi yenidən alqışlasınlar, mədhiyyələr yazsınlar. Qoy sizi təhqir edən həmin zal yenidən sizə əl çalsın. Bu sizin zəfəriniz olacaq!

Yeri gəlmişkən, hər şey belə də oldu».

Bəzi keçmiş «silahdaşlarından» fərqli olaraq, respublikanın əhalisi, o cümlədən yaradıcı ziyalılar Heydər Əliyevi dəstəkləyirdi. O zaman Naxçıvana, Cəlal Əliyevin ev ünvanına rəğbət bildirən yüzlərlə teleqram və məktub gəlirdi, Heydər Əliyev özü isə Bakının küçələrində görünən kimi, fərəhlənən insanlar dərhal onu əhatə edirdilər. Oxşar mənzərəni iki il sonra – 1993-cü ilin fevral ayında da görmüşəm, o vaxt Heydər Əliyev üçün narahatlıq keçirən hakimiyyət onun gəzintiyə çıxdığı yerə gücləndirilmiş polis dəstələri göndərmişdi.

Görkəmli sovet dramaturqu Cəfər Cabbarlının qızı Gülarə Cabbarlı 1991-ci ildə dramaturqun 90 illiyinin təntənəli şəkildə qeyd edilməsi ilə bağlı maraqlı bir epizodu xatırlayır.

Cəfər Cabbarlının 70 illiyi də, 80 illiyi də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin iştirakı ilə keçirilmişdi, dramaturqa Bakıda, vağzalyanı meydanda abidə qoyulması, həmçinin Cabbarlı muzeyinin açılması ideyası da Heydər Əliyevə məxsus idi. Heydər Əliyev dramaturqun ailəsinə həmişə səmimi münasibət göstərmişdir.

1991-ci ilin mart ayı. Yubiley gecəsinin keçirildiyi Opera və Balet Teatrının foyesi. Tədbirin başlanmasına 10-15 dəqiqə qalır.

### ■ Gülarə Cabbarlının xatirələrindən:

«...Oğlum Bəhlül gəlib həyəcanla dedi ki, ay ana, Heydər Əliyev gəlib

tədbirə. Əvvəlcə qulaqlarıma inanmadım. Sonra onu görüb, cəld yaxınlaşdım. Zəhmət çəkib gəldiyinə görə təşəkkür elədim. Heydər Əliyev: «Cabbarlının yubileyinə gəlməyə bilməzdim» deyib, atam haqqında xeyli xoş sözlər dedi. Ürək sözləri idi bu sözlər.

Birinci hissə qurtardı. Hamı foyeyə çıxdı. Birdən gördüm ki, Heydər Əliyev müşayiətçiləri ilə bir kənarda durub. Onun iş başına gətirdiyi, o dövrdə də vəzifədə olan dövlət və hökumət məmurlarından heç biri ona yaxınlaşmağa, hətta ona tərəf baxmağa belə cürət etmirdi. Tez ona tərəf getdim. «Heydər müəllim, burada niyə durmusunuz?» – soruşdum.

Ətrafdakıları acı bir istehza ilə süzüb dedi:

– Gülarə xanım, bunları görürsünüz? Elə bil, məni heç tanımırlar... dünyanın işinə bir bax.

– Yəqin, görməyiblər sizi, – deyib, qolundan tutdum. – Heydər müəllim, istəyirəm bu gecədən bir xatirə olaraq şəkil çəkdirək. Etiraz etmirsiniz?

O güldü:

– Bir vaxt vardı ətrafımda fotomüxbirlər, kinooperatorlar qarışqa kimi qaynaşardılar. Amma indi biri də yoxdur, – dedi.

– Eybi yoxdur, Heydər müəllim, sizin yaratdığınız Cəfər Cabbarlının ev-muzeyinin fotoqrafı buradadır. O çəkər şəklimizi.

Həmin fotoşəkli indi muzeyin ən dəyərli eksponatı kimi qoruyub saxlayırıq»[75].

## ■ Publisist *Xeyrəddin Qoca ilə söhbətdən:*

**«E.A. – 1991-ci ildə Heydər Əliyev bir neçə dəfə Bakıya gəlmişdi. Bu zaman siz onunla görüşürdünüzmü?**

X.Q. – Əlbəttə. Bir dəfə Bakıda olarkən mənə dedi:

– Məşhur Cənubi Azərbaycan şairi Balaş Azəroğlunun xanımı Mədinə Gülgün vəfat edib. Gedək, ailəsinə başsağlığı verməklazımdır.

---

[75] «Mədəniyyət» qəzetinin xüsusi buraxılışı. 2008. May ayı.





Biz «Jiquli»yə minib ikilikdə Aktyor evinə getdik. Orada hamı Heydər Əliyevi çox yaxşı, mehribanlıqla qarşıladı. Yazıçıların çoxu onun ətrafında toplaşdı. Yadımdadır, yazıçı-ədəbiyyatşünas Qulu Xəlilov bizə yaxınlaşdı.

– Heydər Əliyevlə söhbət edə bilərəmmi? – deyə məndən soruşdu.

– Məndən niyə soruşursunuz? – dedim. – Sizi məndən daha çox tanıyırlar.

O, Əliyevə yaxınlaşıb dedi:

– Heydər Əliyeviç, yəqin, məni tanımırsınız.

– Niyə tanımıram? Siz Qulu Xəlilovsunuz. İstefamdan sonra mənə qarşı sifarişli məqalələr yazan adam.

O imtina etməyə, üzr istəməyə başladı.

Demək istəyirəm ki, Heydər Əliyev çox yaxşı yaddaşa malik idi və insanların ona münasibətini hiss edirdi.

Heydər Əliyev mənə danışırdı ki, bir dəfə o, metrodan 28 May küçəsinə tərəf gedərkən adamlar ikibir-üçbir onun ətrafına yığışır. Nəticədə bütöv bir izdiham toplaşır, insanlar onunla ünsiyyət saxlamağa, söhbət etməyə başlayırlar. Bu arada Bakı Şəhər Milis İdarəsinin rəisi Nofəl Kərimov ona yaxınlaşıb deyir:

– İnsanları öz ətrafınıza yığmayın. Bakıda fövqəladə vəziyyət rejimi qüvvədədir.

– Mən heç kəsi yığmıram, – deyə Əliyev cavab verir. – İnsanlar özləri yaxınlaşırlar, əgər bacarırsınızsa, onlara qadağan edin».

Əlamətdar haldır ki, parlamentdə Heydər Əliyevi partiya nomenklaturunun hücumlarından qorumuş yeganə adam şair idi. Həmin günlərdə və aylarda elmi və yaradıcı ziyalıların xeyli hissəsi keçmiş partiya lideri ilə həmrəylik nümayiş etdirmişdi. Bu fakt 1991-ci ilin martında, Azərbaycan yazıçılarının IX qurultayı keçirilən dövrdə xüsusilə aşkar göründü.

O vaxt Heydər Əliyev, əvvəlki kimi, qardaşı Cəlalın evində yaşayırdı. Axşamlar tez-tez onunla zəngləşirdik. Yadımdadır, Heydər Əliyeviç mənə acı ritorik suallar verirdi: «Nəyə görə mən də, başqa deputatlar kimi öz fikrimi deyə bilmirəm? Niyə mənim çıxışlarım vaxtı həmişə belə tufan qopur?»

Onu bacardığım kimi sakitləşdirməyə çalışırdım, hərçənd nə cavab verəcəyimi özüm də bilmirdim. Elə hey düşünürdüm, onun keçmiş silahdaşlarından incik, narahat qəlbini necə sakitləşdirim, onu acı düşüncələrdən necə yayındırım.

Nəhayət, mandat almaq üçün Yazıçılar İttifaqına gəlib qurultaya dəvətnamələri görəndə, məndə belə bir ideya yarandı: bəlkə, Heydər Əliyevi də fəxri qonaq kimi yazıçıların yığıncağına dəvət edək? Əvvəlcə bu ideyanı dilə gətirməyə ehtiyat edirdim, fikirləşirdim ki, onun reallaşdırılması ilə əlaqədar, ittifaqımızın sədri Anar pis vəziyyətə düşə bilər. Axı bu addımına görə «yuxarılar» ondan çox narazı qalardılar.

Məni sevindirən bu oldu ki, Anar bircə dəqiqə də tərəddüd etmədi. Dərhal dedi: «Əlbəttə, amma bunu necə edək?» – «Heydər Əliyeviç qardaşının mənzilində yaşayır, – dedim, – mənim oraya gediş-gəlişim var. Siz bileti imzalayın, mən özüm ona apararam». Belə də razılaşdıq. Sonralar, müstəqil Azərbaycanın Prezidenti Heydər Əliyev onun həyatında bu mühüm epizodu yazıçıların X qurultayında belə xatırlayırdı:

«Elmira xanım mənə bildirdi ki, Yazıçılar Birliyinin qurultayı var, məni oraya dəvət ediblər. Mən dedim ki, Elmira xanım, çox sağ olun, ancaq güman edirəm, mənim oraya gəlməyim lüzumsuzdur. Çünki indi mən kiməm ki, oraya gəlim? Yazıçı deyiləm ki, oraya yazıçı kimi gəlim. Eyni zamanda o elə bir dövr idi ki, o vaxt həm Sovetlər İttifaqının rəhbərliyində, həm də Azərbaycanın rəhbərliyində mənə qarşı çox ədalətsizliklər edirdilər. Mənim əleyhimə böhtanlar quraşdırırdılar və yayırdılar. Mən çox böyük təzyiq və təqib altında idim. Elmira xanım məni çox inandırdı ki, yox, sizi qurultaya dəvət ediblər. Fikirləşdim ki, bəlkə, xatir naminə dəvət ediblər, bilirlər ki, getməyəcəyəm. Sonra da məlum olacaq ki, dəvət etdilər, mən gəlmədim. Ondan (Elmira Axundovadan – ***E.A.***) xahiş etdim, dedim ki, sən bir daha dəqiqləşdir. Bir qədər sonra o mənə zəng edib dedi ki, mən Anar müəllimlə bu barədə danışdım. Anar müəllim dedi ki, biz onu ürəkdən dəvət etmişik, bu, formal bir xarakter daşımır, ona görə də əgər gəlsə, biz məmnun olarıq. Mən bundan sonra ürəkləndim, dedim ki, əgər





belədirsə, pis olmaz, gedim görüm yazıçılar necədirlər. Gəldim. Bunu burada xatırlatdılar, – siz məni hörmətlə rəyasət heyətinə dəvət etdiniz. Bu təklifi gərək ki, şair Məmməd Aslan vermişdi. Ancaq mən təşəkkür edib dedim ki, indi də aşağıda oturub yuxarıya baxmaq istəyirəm. O vaxt mən salonda oturarkən çox düşünürdüm. Gərək ki, mənim sağımda Xəlil Rza, solumda isə Rəfiq Zəka oturmuşdular.

Ətrafımda da yazıçılar var idi, çox mehriban söhbət edirdik. Mən bu faktı niyə bir də xatırlayıram? Çünki müqayisə etmək istəyirəm. Mən o dövrdə, fevral-mart aylarında Ali Sovetin sessiyasında olmuşdum. Xatirinizdədir, Ali Sovetin sessiyasında o salonda oturanların 99 faizi mənimlə bir yerdə və mənim rəhbərliyim altında işləmiş adamlar idilər. Ancaq orada mənə çox hörmətsizlik etdilər, pis münasibət göstərdilər. Hətta mənim çıxışımı da kəsdilər və mənim çıxışımdan sonra cürbəcür böhtançı çıxışlar da etdilər. O cümlədən, o vaxt bir yazıçı da deputat idi, o da bunu etdi. Yəni o vaxt mənim orada müdafiəyə ehtiyacım yox idi. Bilirdim ki, mənə qarşı belə edəcəklər. Ancaq o vaxt cəsarət edib çox kəskin çıxış edən Bəxtiyar Vahabzadə oldu.

... O salonda oturanların əksəriyyəti ilə mən gecə-gündüz bir yerdə işləmişdim. Onlar böyük vəzifələr almışdılar. Bəxtiyar Vahabzadə isə şair idi, şair olaraq da qalıbdır, indi də şairdir. Onun şairlikdən savayı bir vəzifəsi yoxdur. Ancaq baxın, – o, həmin insanların münasibəti, bu da şairin münasibəti. Nəhayət, Ali Sovetdə, o sessiyada, o salonda, – hansı ki, həmin binanı vaxtilə mən tikib yaratmışdım, o salonda ki, orada məni həmişə böyük hörmət, ehtiramla qarşılayırdılar, – ancaq orada (Ali Sovetin sessiyasında – ***E.A.***) mənə qarşı o qədər hörmətsizlik və ədalətsizlik olduğu halda, Filarmoniyanın salonunda, yazıçıların qurultayında mənə çox mehribanlıq, çox istiqanlılıq, çox yüksək hörmət göstərildi. O vaxt mənim imkanım olmadı ki, belə geniş təşəkkür edim. Altı il keçəndən sonra məhz o hadisəyə görə mən sizin hamınıza təşəkkür edirəm. Çox sağ olun».

Heydər Əliyev ikinci dəfəyə respublikaya rəhbərlik edəndə yaradıcı ziyalıların ona bu cür alicənab münasibətinin əvəzini artıqlaması ilə ödədi. Bu haqda kitabımızın 5-ci fəslində təfərrüatı ilə danışacağıq.

* * *

**1991 il, 3 sentyabr. Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin sədri seçilir.**

**Naxçıvan Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli sessiyasında Heydər Əliyevin çıxışından:**

«... Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə nəinki deputatların, binanın qarşısında, ətrafına toplaşmış naxçıvanlıların qoyduqları vəzifənin icrasından geri çəkilsəm, bu, xalqın ağır günündə qaçmaq deməkdir. Ona görə belə bir ziddiyyətli vəziyyətdəyəm və bu vəziyyətdə də qalıram... Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm»[76].

*Muxtar Respublikaya rəhbərlik etdiyi iki ildən az müddətdə o, başlıca məqsədinə nail olmuşdu – Naxçıvanı işğaldan xilas etmiş, sərt blokadanı aradan qaldırmış, Naxçıvan sakinlərini aclıqdan və soyuqdan qorumuşdu. Ona görə də bu gün respublikada tez-tez təkrarlayırlar: «Naxçıvan Heydər Əliyevi, Heydər Əliyev isə Naxçıvanı xilas etdi».*

90-cı illərin əvvəllərində Azərbaycan mədəniyyət və incəsənət xadimləri Heydər Əliyevi görmək, onunla söhbət etmək üçün tez-tez muxtar respublikanın paytaxtına gəlirdilər. Heydər Əliyev həmin adamları məmnuniyyətlə qəbul edirdi. Şahidlərin sözlərinə görə bu görüşlər onun üçün bir növ psixoloji relaksasiya, mənəvi istirahət idi. Bunun sayəsində o öz titanik fəaliyyəti üçün

[76] Qayıdış. Bakı, 1996. S. 135.





sanki yeni qüvvə toplayırdı. İndi dəbdə olan təbirlə desək, Heydər Əliyev «qan qrupuna görə» ona yaxın olan insanlarla ünsiyyətsiz yaşaya bilmirdi.

Heydər Əliyevin sadiq dostu, dünya şöhrətli rəssam Kamil Əliyev dəfələrlə Naxçıvana gəlmişdi. Dostları ona riskə getməməyi məsləhət görür, düşmənləri isə açıq-aşkar hədələyirdilər ki, ona divan tutacaqlar. Svetlana Mirzəyeva 90-cı illərin əvvəlində Naxçıvanda səfərdə olarkən Heydər Əliyevə söyləmişdi ki, Kamil Əliyevin emalatxanasında onun iki portreti əvvəlki kimi fəxri yerdə asılıb. S.Mirzəyeva yazır: «Heydər Əliyev adamların etibarsızlığına görə acı məyusluq hissləri keçirdiyi dövrdə bu rəssam, respublikanın ovaxtkı prezidentinin onun emalatxanasına gələcəyini bilə-bilə Heydər Əliyevin portretlərini divardan çıxarmağı heç ağlına da gətirməmişdi. Bunu eşitmək Heydər Əliyev üçün nə qədər xoş olduğunu təsəvvür edirəm»[77].

## ■ Əkbər Axundovun xatirələrindən:

«Heydər Əliyev insanlara, öz həmfikirlərinə çox diqqətli, humanist adam idi. 1992-ci ildə mənim həyat yoldaşım qəflətən vəfat etdi. Heydər Əliyev bildirdi ki, axşam mənim yanıma gələcəkdir. Gəldi, təxminən saat yarım əyləşdi, adamlarla söhbət etdi, elə təsirli, səmimi sözlər deyirdi ki, bizim kədərimiz bir qədər azaldı.

Yadımdadır, bir dəfə məşhur rəssam Kamil Əliyev Heydər Əliyevin yanına gəldi. Kamil müəllim zarafatcıl adam idi və o vaxt Heydər Əliyevi yaxşıca güldürdü. Heydər Əliyeviç ona dedi: «Səni Allah saxlasın, Kamil, on ildi bu qədər gülməmişdim». O məndən xahiş etdi ki, Naxçıvanın əlamətdar yerlərini Kamil Əliyevə göstərim. Biz onunla bir qədər gəzişdik, sonra rahat bir yerdə əyləşdik. Kamil müəllim nə isə fikirli idi.

[77] Светлана Мирзоева. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. С. 102-103.

– Sizə nə olub, Kamil müəllim? Bir az əvvəl zarafat edirdiniz, gülürdünüz, indi isə nədənsə kədərlisiniz.

– Heç, sadəcə fikirləşdim ki, siz və yaxınlarınız Heydər Əliyevə bu qədər təmənnasız və sədaqətlə xidmət etdiyinizə görə ən yüksək tərifə layiqsiniz.

– Nəinki mən və yaxınlarım, burada, Naxçıvanda çoxları onun bircə əmri ilə ölməyə də hazırdır.

İrandan və Türkiyədən humanitar yardım və enerji təchizatına kömək təşkil edən, naxçıvanlıları aclıqdan qurtaran, ikinci cəbhə açılmasının qarşısını alan bu böyük insana başqa cür münasibət bəsləmək olardımı?!».

Kitabımın qəhrəmanı ilə Naxçıvanda görüşənlərdən biri də yazıçı **Maqsud İbrahimbəyov** olub. O mənimlə söhbətində həmin illər haqqında xatirələrini bölüşdü:

«Mən Kremldə də onun yanında olmuşam, Naxçıvanda da. Pəncərədən o tərəfdə baş verənləri nəzərə almasaq, eyni adam idi, yəni bu adam dəyişməmişdi, Naxçıvanda da özünü Kremldəki kimi aparırdı. Naxçıvanda onunla işləyənlər Moskva məmurlarından yalnız sifətcə fərqlənirdilər – Naxçıvanda azərbaycanlılar idi, lakin Kremldə olduğu kimi, bu adamların da hamısı ütülü köynək geyinir, qalstuk bağlayırdı, burada da eyni intizam vardı. Buna onun necə nail olduğunu bilmirəm.

Mən Naxçıvanda olarkən Azərbaycanı tərk edən iki rusiyalı general onun yanına gəldi. Heydər Əliyev onlara dedi:

– Yeri gəlmişkən, sizdə yüzdən artıq yük maşını var. Onları neyləyəcəksiniz?

– Aparacağıq, Heydər Əliyeviç.

Özü də bu söhbət belə gedir: Heydər Əliyev əyləşib, mən əyləşmişəm, iki general isə ayaq üstə dayanıb. O, generallara əyləşməyi heç təklif də etmədi.

– Onlar sizin nəyinizə lazımdır? Köhnə yük maşınları Rusiyanın nəyinə gərəkdir? Bizə isə onlar çox lazımdır. Özünüz görürsünüz, burada demək olar ki, heç bir texnika yoxdur. Yük maşınlarını qoyun Naxçıvanda qalsın.

– Baş üstə, – dedilər.





Heydər Əliyev belə adam idi. Haraya düşməsindən asılı olmayaraq, ondan hakimiyyət impulsları gəlirdi. O sanki hakimiyyət üçün doğulmuşdu.

Axı bu adamlar Rusiya ordusunun nümayəndələri idi, amma Heydər Əliyevə tabe oldular. Ona görə yox ki, ondan qorxurdular. Ona görə ki, **hörmət edirdilər**. Onun buna çalışmasına da ehtiyac qalmadı, sadəcə xahiş etməsi kifayət idi...».

Naxçıvan MR-in sabiq mədəniyyət naziri **Fəttah Heydərov** 90-cı illərin əvvəlində Bakıdan teatr kollektivlərinin Naxçıvana gəlməsini və Ali Məclisin sədri ilə onların səmimi görüşlərini xatırlayır:

«Bir neçə epizod danışım. Məşhur aktyor və rejissor Hacıbaba Bağırov öz teatrını yaratmışdı, onun kollektivini Naxçıvana dəvət etdim ki, gəlib burada bir tamaşa göstərsinlər. O vaxt iqtidarın incəsənətə münasibəti dəyişmişdi, mədəniyyət xadimlərinin həyatında çətin bir dövr idi. Onlar Naxçıvana gəldilər. Hacıbaba Bağırov təkidlə dedi ki, Heydər Əliyeviçlə görüşmək istəyir.

Mən Hacıbaba müəllimin xahişini Heydər Əliyevə çatdırdım.

O bir qədər fikirləşib dedi:

– Görüşərik. Axı mən tamaşaya gələcəyəm.

O vaxt bizə çoxlu musiqi və teatr kollektivləri gəlirdi. Lakin muxtar respublikanın rəhbərləri özlərini elə göstərirdilər ki, onlarla görüşməyə, tamaşalara getməyə vaxtları yoxdur. Heydər Əliyev isə həmişə bu tədbirlərə gəlir, yaradıcı kollektivlə söhbət edirdi.

Hər halda mən Hacıbaba Bağırovu Heydər Əliyevin evinə gətirdim. Onlar Azərbaycan teatrında, Azərbaycan mədəniyyətində vəziyyət haqqında iki saat yarım söhbət etdilər. Bizimlə bir türkiyəli qonaq da vardı. Hacıbaba müəllim susur, yalnız hərdənbir Heydər Əliyevin sözlərini təsdiqləyirdi. Heydər Əliyeviç isə Azərbaycan mədəniyyətinin keçmişini və indiki vəziyyətini o qədər parlaq təhlil etdi ki, elə bil ömrü boyu bu işlə məşğul olub. Hacıbaba müəllimlə söhbətdən sonra dedi:

– Axşam sizin tamaşaya gələcəyəm.

Tamaşadan əvvəl mən səhnəyə çıxdım və dedim ki, Azərbaycanın dahi oğlu, Azərbaycanı bütün dünyada şöhrətləndirən, iki dəfə Sosialist Əməyi Qəhrəmanı Heydər Əliyev bizim aramızdadır. Bu teatr da onun sayəsində və onun rəhbərliyi altında tikilib. Daha sonra dedim: qarşıdan seçkilər gəlir və ümid edirəm ki, bütün xalqımız bir nəfər kimi Heydər Əliyevə səs verəcəkdir. Bundan sonra gurultulu alqışlar səsləndi!...

Tamaşadan sonra biz bütün artistləri yuxarıya dəvət etdik. Orada qəbullar təşkil etmək üçün gözəl otaqlarımız vardı. Heydər Əliyev növbə ilə hər bir artistlə söhbət edir, onun hakimiyyətdə olduğu dövrdə həmin artist üçün nə edildiyini, kimə mənzil, kimə ad verdiyini yada salırdı. Hər kəsdən soruşurdu – indi haradadır, nə ilə məşğuldur. Sözün qısası, görüş çox gözəl keçdi.

Bir dəfə mədəniyyət nazirinin müavini Ədalət Vəliyev Azərbaycan Dram Teatrının kollektivini Naxçıvana gətirdi. Aktyorlar arasında Muxtar Avşarov, Sofya Bəsirzadə və digər əməkdar artistlər vardı. Tamaşadan sonra Heydər Əliyev onlarla da görüşdü. Bu görüşdən bəzi xırda, lakin maraqlı detallar yadımda qalıb.

Heydər Əliyeviç Muxtar Avşarova dedi:

– Elə əvvəlki kimisən, heç dəyişməmisən.

– Allah Sizə ömür versin, yoldaş Əliyev, həmin illərdə siz mənim üçün filan-filan işləri görmüsünüz.

– Sofya, – Heydər Əliyeviç dedi, – sən də yaxşı görünürsən. Yadındadırmı, 1943-cü ildə ... – o, Şekspirin tamaşalarından birinin adını çəkdi, – əsərinin tamaşası zamanı sən bir azca büdrədin və çaşaraq bir sözün əvəzinə başqa sözü dedin. – Bu halda o, aktrisanın deməli olduğu sözləri, həmçinin onun çaşaraq dediyi sözləri olduğu kimi xatırladı.

Biz hamımız şokda idik. Sofya xanım isə kövrəldi, gözləri yaşardı.

Bax, onda mən başa düşdüm ki, Heydər Əliyev teatrı, musiqini necə sevir, bütün bunlar onun daxilində necə dərin kök salıb və vaxtaşırı üzə çıxır...»





Naxçıvanda Heydər Əliyevlə görüşməyə nail olanlardan biri də gələcək xarici işlər naziri Vilayət Quliyev olub. **Vilayət Quliyev** məxsusi olaraq, mənim altıcildliyim üçün öz xatirələrini yazıb, daha doğrusu, mənim suallarıma ətraflı cavablar verib. Bu, son dərəcə maraqlı bir materialdır. Çünki, Vilayət Quliyevin yaxşı müşahidə qabiliyyəti və möhkəm yaddaşı ilə yanaşı, həm də güclü qələmi və incə bədii zövqü var. Buna görə də 2-ci kitabda Vilayət müəllimlə bağlı müsahibəni məmnuniyyətlə oxuyacaqsınız.

... Heydər Əliyevin yanında daha bir görüş haqqında yazıçı, alim, akademik Kamal Abdullanın sözləri ilə danışmaq istərdim. O vaxt **Kamal Abdulla** Naxçıvana Respublika Mədəniyyət Fondunun sədri kimi gəlmişdi.

**«E.A. – Heydər Əliyev Naxçıvan parlamentinin spikeri olduğu dövrdə siz orada konfrans keçirmişdiniz. Xahiş edirəm bu barədə danışın.**

**K.A.** – Bəli, bu 1993-cü ildə, Heydər Əliyevin hakimiyyətə gəlişindən bir qədər əvvəl oldu. Biz onunla tam təsadüfən görüşdük. Məni parlamentin iclasına dəvət etdilər. İclası Heydər Əliyev aparırdı. Mən qarşımda bir lider gördüm: o, başqa ölkələrin ən yüksək vəzifəli rəhbərlərinin yanında da söyləyə biləcəyi fikirləri olduqca sakit, ətraflı və dərindən şərh edirdi. Bu adam istənilən auditoriyada insanları inandırmağı bacarırdı. BMT-nin tribunasından çıxış edərkən məntiqli, məqsədyönlü, olduqca prinsipial, çox böyük təcrübəyə malik olan müdrik insan təsiri bağışlayan Heydər Əliyev Naxçıvan parlamentində də belə idi. Yəni o özü üçün bir yuxarı hədd müəyyən etmişdi və heç vaxt onu aşağı salmır, başqalarını da özünün intellektual, siyasi səviyyəsinə qaldırmağa çalışırdı.

Məni ona təqdim etdilər. Bizi öz kabinetinə dəvət etdi, xeyli söhbətləşdik. O, muxtar respublikanın bu cür dəhşətli vəziyyətə düşməsinin səbəblərini izah edərək, Naxçıvanı xilas etmək üçün gördüyü tədbirlər haqqında danışdı. Təəssüf ki, Heydər Əliyev Azərbaycanda hakimiyyətə gec gəldi. Əgər o, bir qədər əvvəl gəlsəydi, Qarabağla əlaqədar problemlərin çoxu, bəlkə də, yaranmazdı. O vaxt mən sadəlövhlüyüm üzündən ona belə bir sual verdim: «Siz

Mədəniyyət Fondunun Naxçıvan bölməsinin sədri vəzifəsinə kimin seçilməsini məsləhət görərdiniz?» O vaxt biz tez-tez döyüş əməliyyatları bölgələrinə gedir, əsgərlərimizlə görüşür, onları ruhlandırır, onlar üçün dava-dərman gətirirdik. Mədəniyyət Fondu respublikada gözəçarpan təşkilatlardan biri idi.

Heydər Əliyeviç cavab verdi: «Bu, sizin işinizdir. Kimi layiq bilirsinizsə, seçin. Qoy adamlar özləri həll etsinlər». Mən onda başa düşdüm ki, müsahibim, həqiqətən, demokratik adamdır. Biz onunla Azərbaycan mədəniyyəti haqqında, ölkəmizin mədəni inkişafına töhfə vermiş naxçıvanlılar haqqında danışdıq, Hüseyn Cavidin cənazəsinin Sibirdən Bakıya gətirilməsi barədə onun təşəbbüsünü xatırladıq. Sovet dövründə belə bir aksiya praktiki olaraq qeyri-mümkün idi, amma Heydər Əliyev bunu etdi.

Heydər Əliyev heç kəsi məzəmmət etmir, heç kəsin arxasınca danışmırdı. O, ictimaiyyətin obyektiv əhvali-ruhiyyəsini və öz şəxsi fikrini ifadə edirdi. Ümumiyyətlə, o, ötəri əhvali-ruhiyyədən uca adam idi, çünki əbədi dəyərlərlə yaşayırdı.

**E.A. – Bu adamın Azərbaycana lazım olmasını o vaxt hiss edirdinizmi?**

**K.A.** – Mən əvvəl də bilirdim ki, əgər o, hakimiyyətə qayıtmasa, bizim çox işlərimiz gərgin olacaqdır. Onunla söhbətdən sonra isə bunu daha çox yəqin etdim. Sizinlə şəxsi söhbət edən Heydər Əliyev və tribunadan çıxış edən Heydər Əliyev bir qədər fərqli adamlardır. Heydər Əliyev nə qədər səmimi, onunla söhbət etmək nə qədər xoş idi! O özünün ucalığını hiss etdirmirdi, çox sadə və təvazökar insan idi. Özü də bunlar sonradan qazanılmış xüsusiyyət deyildi, bu ona fitrətən xas olan keyfiyyətlər idi. O, prezident olandan sonra da beləcə qaldı. Bu adamla beşcə dəqiqə söhbətdən sonra ona vurulmamaq mümkün deyildi».

Gələcək akademik **İsa Həbibbəyli** Naxçıvanın hakimiyyət dəhlizlərində Bakıda yaşayan ziyalılar üçün bir növ «bələdçilik» edir, mədəniyyət xadimləri ilə Heydər Əliyev arasında əlaqə yaradırdı. O həmin görüşləri belə xatırlayır:

«Naxçıvana Heydər Əliyevlə görüşmək üçün ən çox gəlib gedənlərdən biri akademik Fərəməz Maqsudov idi. Mən onların söhbətlərində iştirak etməmişəm.





Ancaq Heydər Əliyevlə görüşəndən sonra dəfələrlə Fərəməz Maqsudovla söhbət etmişəm. Maqsudovlar ailəsinə yaxın olduğum üçün Fərəməz müəllim həmin görüşlərin təəssüratları barədə mənə çox şeylər danışıb. Onun danışıqlarından belə aydın olurdu ki, Heydər Əlievin Bakıya qayıtmaq, yenidən vəzifə tutmaq fikri yoxdur. Fərəməz müəllim bundan çox narahat idi. O, yana-yana deyirdi ki, Azərbaycanın Heydər Əliyevə böyük ehtiyacı var. Biz bu yolda çalışmalıyıq. Fərəməz Maqsudovun fikrincə, Heydər Əliyev respublika rəhbərliyinin ona və Naxçıvana anlaşılmaz münasibətindən narazıdır. İkincisi isə o, vaxtilə ad-san qazandırdığı adamların dönük çıxmalarını da «zamanın tərs üzü» kimi qarşılayır. Nəhayət, Heydər Əliyev yaranmış çətin hərbi-siyasi şəraitdə Naxçıvanda yaşayıb, muxtar respublika ərazisinin əhalisini Ermənistanın təcavüzündən qorumağı müstəqil Azərbaycan dövləti və Azərbaycan xalqı qarşısında məsuliyyətli bir borc hesab edirdi.

Hesab edirəm ki, akademik Fərəməz Maqsudov Bakıda yaşayan ziyalılarla Heydər Əliyev arasında bir körpü funksiyasını yerinə yetirmişdir. Keçmiş siyasi elita Heydər Əliyevin gözündə etibarını itirdiyi üçün ünsiyyət baxımından ziyalılar ön mövqeyə çıxmışdılar. Mən müxtəlif vaxtlarda Bəxtiyar Vahabzadənin, Xəlil Rza Ulutürkün, Murtuz Ələsgərovun Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyevlə görüş üçün Naxçıvana gəldiklərini müşahidə etmişəm. Heydər Əliyevin Yeni Azərbaycan Partiyasını yaratmasında ona Murtuz Ələsgərov və Fərəməz Maqsudov çox dəstək olmuşlar.

Görkəmli dövlət xadimi Heydər Əliyevlə 1990-cı ildə olan bir görüşü də yada salmağı vacib sayıram. Həmin ilin noyabr ayında o vaxt Moskvada «Literaturnaya qazeta»ya Azərbaycan üzrə yenicə xüsusi müxbir təyin olunmuş filologiya elmləri namizədi Elmira Axundova mənə zəng çalaraq redaksiyanın Heydər Əliyev haqqında müsahibə hazırlamaq tapşırığı ilə əlaqədar Naxçıvana gəlmək istədiyini bildirdi. Mən o zaman böyük siyasi xadim Heydər Əliyevin görüşünə gedib Elmira Axundovanın arzusunu ona çatdırdım. Qeyri-adi dərəcədə yaddaşa, xüsusi hafizəyə malik olan Heydər Əliyev vaxtilə Moskvada fərdi təqaüdçü kimi

yaşadığı illərdə Elmira Axundovanın «Bakinski raboçi» qəzetində Azərbaycan həqiqətləri mövzusunda «Мы все вышли из прошлого» adlı obyektiv mövqedən yazılmış məqaləsini oxuduğunu xatırladı, şəxsən tanımadığı bu jurnalist qadın haqqında cəmi bir-iki suala cavab aldıqdan sonra onu qəbul etməyə razılıq verdi. Elmira Axundova ilə birlikdə dekabr ayında iki gün Heydər Əliyevin «qonağı» olduq. Və bu iki günlük yaxın ünsiyyət mənim Heydər Əliyevi daha dərindən tanımağıma şərait yaratdı. Yaxşı xatırlayıram ki, Heydər Əliyev Kreml rəhbərliyi, şəxsən SSRİ adlanan böyük dövlətin başçısı Mixail Qorbaçov haqqında «Literaturnaya qazeta»nın azərbaycanlı xüsusi müxbirinə sərt, lakin çox arqumentli, əsaslandırılmış fikirlər söyləyir, bəyanatlar verir, irəli sürdüyü mülahizələrin dəyişdirilmədən, olduğu kimi müsahibədə öz əksini tapmasını tələb edirdi. Belə söhbətlərin birində Elmira Axundovanın bu cür qəti mövqedən çıxış edərkən tabeliyində böyük qüvvə olan, nəhəng bir dövlətin başçısından ehtiyat etməməsi barədəki sualına cavabında Heydər Əliyev tərəddüd etmədən «yox» dedi. Və bildirdi ki, Mixail Qorbaçovun hakimiyyəti yalan və boş illüziyalar üzərində qurulduğu üçün tezliklə məhvə məhkum olacaqdır, zaman bunun əsl gerçəklik olduğunu ən qısa vaxtda meydana qoyacaqdır. Bu uzaqgörən sözlərin həqiqətə çevrilməsi üçün cəmisi bir il vaxt lazım gəldi.

... Heydər Əliyevin Sabir Rüstəmxanlı ilə görüşünü də xatırlayıram. Aspirantura dövründən dostluq etdiyim Sabir Rüstəmxanlı Azərbaycan Respublikasının Mətbuat Komitəsinin sədri vəzifəsində ikən o zaman hələ viza rejiminin də, «Ümid körpüsü»nün də olmadığı şəraitdə Türkiyədə ali təhsil alan oğlu Gündüzü Sədərək – Aralıq – Dilucu nəzarət – buraxılış məntəqəsindən keçirmək üçün Naxçıvana gəlmişdi. Mən onu aeroportda qarşılayıb evimə apardım. Sabir Rüstəmxanlı rəsmi qarşılanmağı düşünməsə də, Heydər Əliyevlə görüşmək arzusunda idi.

... Az sonra Naxçıvan MR Ali Məclisinin sədrinin məsul nümayəndəsi bizə zəng vurdu. Heydər Əliyev telefon danışığı zamanı Sabir Rüstəmxanlıya dedi ki, siz deputat və komitə sədri kimi rəsmi şəxssiniz və protokol qaydalarına





görə səfəriniz barədə əvvəlcədən məlumat verməli idiniz. Sabir Rüstəmxanlı isə səmimiyyətlə bildirdi ki, İsa Həbibbəyli ilə çoxillik dostluğumuz boyu məni həmişə o qarşılayıb və daim onların evində qonaq olmuşam.

... Sabir Rüstəmxanlı gənclik illərində onun taleyində Heydər Əliyevin xüsusi rol oynadığını dəfələrlə etiraf edib. Mən də, Sabir Rüstəmxanlı da həmişə o fikirdə olmuşuq ki, şair dostumun zamanı çox qabaqlayan «Gəncə qapısı», «Sağ ol, ana dilim» kimi bir sıra əsərləri yalnız Heydər Əliyev epoxasının ab-havasında ictimai mühitə çıxa bilərdi. Sabir Rüstəmxanlını əvvəlcədən yaxından tanıyan, ona dəstək olan Heydər Əliyev sadəcə olaraq cavan millət vəkilinə onun Naxçıvana gəlişindən xəbərdar olduğunu işarə etdi. Və Sabir Rüstəmxanlı xüsusi bir dəvət gözləmədən Naxçıvan MR Ali Məclisi sədrinin qəbuluna getdi. Üç saatdan çox çəkən görüşdən sonra bizə gələn Sabir Rüstəmxanlı Heydər Əliyevlə söhbətlərini sanki ümumiləşdirərək dedi:

– Heydər Əliyev nəhəng şəxsiyyətdir. İndi yaranmış vəziyyətdə onu Nuhla müqayisə etmək olar. Vaxtilə Nuhun gəmisi dünya tufanından keçərək Naxçıvandakı Gəmiqayada yerə enmişdi. Keşməkeşli tale yaşamış Heydər Əliyevi də müasir Naxçıvan qəbul edib. Heydər Əliyev də Nuh kimi əbədidir.

Heydər Əliyevin Sabir Rüstəmxanlıya münasibətində rəsmilikdən qat-qat çox yaradıcı insanlara münasibət dayanırdı. Həmin görüş zamanı da Naxçıvan MR Ali Məclisinin sədri Mətbuat Komitəsinin rəhbəri qarşısında heç bir ciddi vəzifə qoymadı, onlar ədəbiyyatdan, sənətdən, etibardan bəhs etdilər. Hansı partiyanı təmsil etməsindən asılı olmayaraq Heydər Əliyev həmişə istedadlı insanlara, yaradıcı şəxslərə böyük diqqət yetirir, dəstək verirdi. Sabir Rüstəmxanlı ilə görüş də bunun təzahürlərindən biri idi.

Heydər Əliyevin müxalifətlə münasibətlərinin ciddi olduğu bir dövrdə, 1996-cı ilin may ayında Sabir Rüstəmxanlının Opera və Balet teatrında keçirilən 50 illik yubileyi mərasiminə gəlməsi və axıra qədər iştirak etməsi ilk növbədə əvvəlcədən yaxşı tanıdığı Sabir Rüstəmxanlıya və onun yaradıcılığına hörmətin böyük ifadəsi idi. Bu hadisə həm də ümumiyyətlə, Heydər Əliyevin

istedadlı insanlara, yaradıcı şəxsiyyətlərə illərdən bəri bəslədiyi yüksək və qayğıkeş münasibətin yeni tarixi epoxadakı konkret əməli təzahürlərindən biri kimi böyük əhəmiyyət kəsb edirdi. Eyni zamanda, dövlət başçısının bu addımı ölkədə gerçək demokratik proseslərin inkişaf etdirilməsi baxımından da mühüm hadisə idi. Mənim də Sabir Rüstəmxanlı haqqında əsas məruzəçi qismində iştirak etdiyim həmin geniş yubiley mərasimi Azərbaycan müxalifətinə sənətə, sənətkara, yaradıcı şəxsiyyətlərə, ümummilli məsələlərə necə, hansı səviyyədə yanaşmağı öyrədən bir dərs oldu».

İsa Həbibbəyli Heydər Əliyevin professor Vilayət Quliyevlə görüşünü də yada salır:

«... Heydər Əliyev adını mətbuatdan tanıdığı Vilayət Quliyevlə onun elmi araşdırmaları ətrafında geniş söhbət etdi, haqqında monoqrafiya yazdığı Mirzə Kazımbəyin xidmətlərini yüksək qiymətləndirdi. Eyni zamanda, Heydər Əliyevin görkəmli şərqşünas Mirzə Kazımbəyin tərcümeyi-halının bəzi görünməyən tərəfləri, xüsusən də böyük alimin nəslinin davamçılarının fəaliyyətləri barəsində söylədikləri mənim üçün də, bu şəxsiyyətin tədqiqatçısı Vilayət Quliyev üçün də yeni idi. Bundan başqa, o vaxta qədər mətbuatdakı yazılarından tanıdığı Vilayət Quliyev haqqında təəssüratlar bu görüş zamanı canlı və çox səmimi ünsiyyəti ilə yaddaşa çevrildi».

Öz adımdan onu əlavə etmək istəyirəm ki, Vilayət Quliyev olduqca istedadlı alimdir, lakin onun tədqiqatlarının predmeti hər halda çox spesifikdir, kütləvi auditoriya üçün nəzərdə tutulmayıb. Buna görə də, Heydər Əliyevin bu qədər təlatümlü və mürəkkəb bir vaxtda özünün bütün dövlət qayğıları ilə yanaşı onun elmi araşdırmalarını, yeri gəlmişkən, Azərbaycanın bir sıra görkəmli ədəbiyyat və incəsənət xadimlərinin yaradıcılığını da izləməyə macal tapması şəxsən mənim üçün müəmmadır. O bunlara necə vaxt tapırdı? Bu informasiyanı harada, hansı mənbələrdən əldə edirdi? Ağlasığmazdır...





■ *Publisist Xeyrəddin Qoca ilə söhbətdən:*

**«E.A. – Siz, demək olar ki, hər həftə Naxçıvana gedir, Ali Məclisin sessiyalarında iştirak edir, Heydər Əliyevin çıxışlarını dinləyir və yəqin ki, onunla söhbət edirdiniz. Həmin dövrdə onun barəsində sizdə necə təəssürat yaranmışdı?**

**X.Q.** – Biz onu sərt bir adam kimi təsəvvür edirdik – hər halda Azərbaycanın sabiq rəhbəri, Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olmuşdu. Amma əslində, o çox sadə, səmimi adam idi. Özünü elə aparırdı ki, elə bil onun köhnə dostusan. Bir dəfə də eşitmədim ki, səsini ucaltsın. Biz tez-tez onunla birlikdə səhər yeməyi yeyir, müxtəlif mövzularda söhbət edirdik. Deyirdi ki, siyasətə qayıtmaq istəmir. Mən etiraz edirdim: «Mənim yanıma çox adam gəlir, xahiş edirlər sizə çatdırım: «Heydər Əliyeviç, siz qayıtmalısınız». Mən öz məqalələrimin birində yazmışdım: «O hökmən qayıdacaq». Bəzi jurnalistlər mənə gülürdülər: sən nədən danışırsan, o artıq qocalıb, siyasətdən gedib, daha heç vaxt qayıtmayacaq. Belə söhbətlər məni özümdən çıxarırdı.

Demişəm, yenə deyirəm: «Əgər Heydər Əliyev sağ olsaydı, o, yenə prezident olardı». Çünki bu adam birinci olmaq üçün doğulmuşdu. Onun uzaqgörənliyi, nadir zəkası, yüz addım irəlini görmək bacarığı məni hər dəfə heyran edirdi...

Yadımdadır, Moskvada çıxan «Nedelya» qəzetinin müxbiri (onun soyadını xatırlamıram) ondan müsahibə götürmək istəyirdi. Heydər Əliyevdən xahiş etdim ki, müxbiri qəbul etsin, xüsusən ona görə ki, bu, tanınmış jurnalist idi, Sov.İKP MK Siyasi Bürosunun sabiq üzvlərinin hamısı haqqında yazırdı.

– Axı artıq gecdir, demək olar ki, gecə saat üçdür, – deyə Əliyev cavab verdi, – evə getmək vaxtımdır.

– Xahiş edirəm, – deyə yalvardım. – O, bir neçə gündür ki, sizin qəbulunuzu gözləyir, sabah isə Moskvaya qayıtmalıdır.

– Yaxşı, qoy gəlsin.

Heydər Əliyev səhər saat beşə-altıya qədər müsahibə verdi, tezliklə həmin müsahibə «Nedelya» qəzetində dərc edildi.

Bir dəfə məşhur yazıçı Fərman Eyvazlı ilə birlikdə Naxçıvana gəldik. «Qaçaq Kərəm» romanının müəllifi Fərman öz qəhrəmanının izi ilə İrana getməyi qərara almışdı. Heydər Əliyev bizi yaxşı qarşıladı, Naxçıvanın daxili işlər nazirinə bu səfər üçün hər cür şərait yaratmağı tapşırdı. O, jurnalistlərə, yaradıcı adamlara çox diqqətli idi».

Maraqlıdır ki, Naxçıvan Ali Məclisinin sədri hətta ona müxalifətdə olan yaradıcı ziyalılarının nümayəndələrini qəbul edirdi. Əkrəm Əylislinin Naxçıvan səfərlərindən biri ilə əlaqədar Heydər Əliyevin parlamentdəki müavini **Rəşid Həsənovun** maraqlı xatirələri var:

«Bir dəfə MK-nın sabiq katibi İsa Məmmədov və mənim tanımadığım bir adam Heydər Əliyevlə görüşmək üçün Naxçıvana gəldilər. Əvvəlcə kabinetimə gəldilər. Hamı deyirdi ki, İsa Məmmədov Heydər Əliyevin dostudur. Biz onlara çay verdik. İsa Məmmədov öz yol yoldaşını – yazıçı Əkrəm Əylislini mənə təqdim etdi.

Bu arada yaxın günlərdə Heydər Əliyevlə bir söhbətimizi xatırladım. Heydər Əliyeviç mənə deyirdi ki, Əkrəm Əylisli «Ədəbiyyat və incəsənət» qəzetində onun barəsində böyük bir neqativ məqalə dərc etdirib.

İndi bu adam Heydər Əliyevin yanına gəlmişdi.

Əvvəlcə Əkrəm Əylislinin adını çəkmək istəmədim, amma sonra fikirləşdim ki, deməsəm, Heydər Əliyev qəzəblənəcəkdir.

Sədrin otağına keçdim, dedim ki, onun yanına qonaqlar gəlib.

– Kimlərdir?

– İsa Məmmədov və Əkrəm Əylisli.

– İsanı qəbul etməyəcəyəm, qoy çıxıb getsin, Əkrəmə isə de ki, onu axşam saat səkkizdə qəbul edəcəyəm.

Öz kabinetimə qayıtdım, fikirləşirəm ki, bu sözləri onlara necə çatdırım.

– Heydər Əliyeviç məşğuldur, – dedim, – telefonla Süleyman Dəmirəllə danışır, bu gün sizi qəbul edə bilməyəcək.

Görünür, İsa Məmmədov hər şeyi başa düşdü və dedi:





– Mən elə bu gün saat beşdə uçan təyyarə ilə qayıtmalıyam.

– İsa müəllim, əgər Heydər Əliyeviç soruşsa, deyərəm ki, sizin Naxçıvanda ləngiməyə vaxtınız yox idi.

İsa getdi, Əkrəmə isə dedim:

– Siz qalın, Heydər Əliyev dedi ki, axşam saat səkkizdə sizi qəbul edəcəkdir.

Səkkizə on beş dəqiqə qalmış Əkrəm gəldi. Heydər Əliyev təxminən doqquzun yarısında kabinetinə gəldi. Heydər Əliyeviç Bakıdan gələn qonaqları adətən tək qəbul edirdi. Bu dəfə isə hər ikimizi dəvət etdi.

– Gəlin.

Biz daxil olduq. Qarşılıqlı hal-əhvaldan sonra Heydər Əliyeviç danışmağa başladı – onun necə yaddaşa malik olmasını isə hamı bilir. O həmin məqalədəki neqativ məqamların hamısını bir-bir sadalayaraq onları faktlarla təkzib etməyə başladı.

– Heydər Əliyeviç, mən səhv etmişəm, – Əkrəm Əylisli peşman halda dedi. – Mən haqsız olmuşam, bağışlayın.

Sonradan başa düşdüm: Heydər Əliyev məni məxsusi olaraq dəvət etmişdi ki, Əylislinin öz məqaləsini bütünlüklə təkzib etməsinin şahidi olum.

Lakin bundan sonra da o, Əkrəm Əylisli ilə görüşürdü. Bəlkə də, Heydər Əliyeviç onunla ona görə bu cür loyal idi ki, Əylisli yazıçıdır? Onun yaradıcı insanlara xüsusi münasibəti vardı, başqalarına bağışlamadığını onlar üçün keçirdi».

* * *

Heydər Əliyevin yanına yaradıcı ziyalılarla yanaşı, sabiq məsləkdaşları, həmkarları, həmfikirləri də gəlirdi. Onunla görüşmək üçün hər kəsin öz səbəbləri, hər səfərin öz məqsədi vardı. İşinin hədsiz çox olmasına baxmayaraq, Heydər Əliyeviç qonaqların hər biri ilə söhbət etməyə imkan tapırdı.

**Azərbaycan Prezidenti Administrasiyasının şöbə müdiri Süleyman İsmayılovun xatirələrindən:**

«1992-ci ilin noyabr ayında mən Naxçıvan MR-in Daimi Nümayəndəliyinin əməkdaşı vəzifəsinə təsdiq edildim. Heydər Əliyevlə ilk görüşümüz isə həmin ilin aprel ayında Naxçıvanda oldu. O görüşümüzü ən kiçik təfərrüatına qədər hələ də xatırlayıram. Bu möhtəşəm insan zəif işıqlandırılmış balaca bir otaqda əyləşib, tələsmədən, çox səmimi və məhrəm söhbət edirdi. Bəzən inana bilmirdim ki, bu insan uzun illər boyu Azərbaycana rəhbərlik edən və yaxın keçmişdə Sovet İttifaqının ali rəhbərliyində çalışan Heydər Əliyevdir.

O həmin dövrdə necə işləməsi və indi hansı şəraitdə işləməyə məcbur olması barədə danışırdı. Ürək yanğısı ilə, qəhərlənə-qəhərlənə deyirdi ki, vaxtilə etimad göstərdiyi, yüksək vəzifələrə tövsiyə etdiyi, irəli çəkdiyi adamlar onu unudublar. Onların çoxu indi Naxçıvana gələndə onunla görüşməyə qorxur.

Heydər Əliyev Azərbaycanda ictimai-siyasi vəziyyətlə maraqlanır, deyirdi ki, blokada ucbatından indi onun məlumatı azdır, televiziya işləmir, qəzetlər gətirilmir; Bakıdakı vəziyyət barədə ətraflı soruşurdu: adamlar nə haqda danışırlar, onların ovqatı, paytaxtda şərait necədir? Dağlıq Qarabağ ətrafında yaranmış vəziyyət Heydər Əliyevi xüsusilə narahat edirdi. Bakıya beynəlxalq vasitəçilərdən kimlərin gəldiyini, orada kimi və necə qəbul etdiklərini soruşurdu. Bu problemin həlli barədə öz mövqeyini də şərh edirdi. Deyirdi ki, bu vəziyyətdən çıxış yolu var, lakin məsələni vaxtında həll etmək, təxirəsalınmaz tədbirlər görmək lazımdır.

Mütəllibov hakimiyyətdə olanda Naxçıvana səfərləri, xüsusən ziyalıların nümayəndələrinin, respublikada tanınmış şəxsiyyətlərin oraya getməsini nəzarətdə saxlayırdı. Buna görə də Heydər Əliyev sözün tam mənasında blokadada idi. O deyirdi ki, insanlar çox vaxt Qarabağın kəndlərindən, rayonlarından onun yanına gəlir, məsləhətləşir, ondan kömək istəyirlər: «Axı mən onlara necə kömək edə bilərəm, mən bu işə necə müdaxilə edə bilərəm? Mənim ki heç bir səlahiyyətim yoxdur!». Bununla belə, o, çox vaxt, xüsusən hərbi əsirlərin dəyişdirilməsi məsələlərində kömək etməyə çalışır, erməni silahlıları bizim həlak olmuş oğullarımızın cəsədlərini vermək istəməyəndə bu insanların valideynlərinə öz övladlarını tapmaqda köməyini əsirgəmirdi. Axı onun Ermənistanda da çox böyük nüfuzu vardı.





Heydər Əliyev o qədər səmimi danışırdı ki, qarşısındakı insanda dərhal özünə rəğbət hissi oyadır, o adam da sakitləşir və ürəkli söhbət edirdi. Söhbətimizin sonunda Heydər Əliyev mənim əvvəllər harada və kiminlə işləməyimlə maraqlandı, həmin adamların çoxunun soyadlarını xatırladı. Mən hələ o vaxt onun qeyri-adi yaddaşına valeh oldum. Axırda Heydər Əliyev dedi:

– Bilirsən ki, Bakıda Naxçıvanın daimi nümayəndəliyi var. Mən onu yaratmışam ki, Bakıdan informasiya alım, keçirdiyim görüşlər barədə məlumat verim. İstəyirəm ki, sən orada işləyəsən. Bu saat Həsən Zeynalova zəng vuraram, deyərəm ki, səni özünün müavini təyin etsin.

Yadımdadır, ilk görüşümüzdə mən Bakıda baş verənlər barədə ona həvəslə danışırdım, o isə maraqla dinləyirdi. Bir tərəfdən, başa düşürdüm ki, o həqiqətən çox şeyi bilmir, işlərin durumu barədə məlumatı yoxdur, digər tərəfdən, danışdıqca fikirləşirdim: bu böyük insana hansısa xırda məsələlər barədə nə üçün danışıram? Amma bütün bunlar onun üçün maraqlı idi, o hər bir məsələnin təfsilatı ilə maraqlanırdı».

Yeni Azərbaycan Partiyasının fəallarından və onu yaradanlardan biri, professor **Fikrət İsmayılov** mənimlə söhbətində Naxçıvanda Heydər Əliyevlə görüşləri barədə danışdı:

«1990-cı ildə Naxçıvana, bacım qızının toyuna getmişdim. O vaxt Heydər Əliyev Vasif Talıbovun evində yaşayırdı, ona baş çəkməyi qərara aldım. Heydər Əliyev Moskvadan qayıdandan sonra onunla ilk görüşümüz idi. Onun yanında rusiyalı bir müxbir vardı. Heydər Əliyevin xahişi ilə bizə çay verdilər, mən özümlə bərabər gələn adamları ona təqdim etdim. Heydər Əliyev dedi:

– Fikrət müəllim, siz burada söhbət edin, mən baxım görüm bu moskvalı qonaq nə istəyir.

Onlar o biri otağa keçdilər.

Heydər Əliyev qayıdandan sonra Bakıda vəziyyət barədə xeyli söhbət etdik. O, dinməzcə qulaq asırdı, sonra mənim nə ilə məşğul olmağım barədə ətraflı soruşdu. Bizim getmək vaxtımız çatanda Heydər Əliyeviçdən icazə istədim ki, müxbiri özümlə götürüm, qoy o da Azərbaycan toyunu görsün. Heydər Əliyev əvvəlcə tərəddüd etdi. Mən söz verdim ki, biz müxbirin yanında olacağıq və vəziyyətə nəzarət edəcəyik. Beləliklə, Heydər Əliyev müxbiri özümüzlə aparmağa icazə verdi.

Bundan sonra biz muxtar respublikaya mütəmadi səfərlər etməyə başladıq. Məsələn, yadımdadır, 1992-ci ildə Heydər Əliyevin tərəfdarlarının bir qrupu – jurnalist Səyyad Aran, akademik Nadir Seyidov, BDU-nun dosenti Məzdək Hüseynov və mən, demək olar ki, bütün Naxçıvan Muxtar Respublikasını gəzdik. Sədərəkdə, Badamlıda, Şahbuzda olduq, şəhid ailələri ilə görüşür, onlara yardım edir və eyni zamanda Heydər Əliyevin xeyrinə təbliğat aparırdıq.

Naxçıvana gələn kimi Ali Məclisə, Heydər Əliyevin yanına getdik. Yadımdadır, parlamentin deputatı Etibar Məmmədov qəbul otağında idi. Bir neçə dəqiqədən sonra məşhur aktrisa Nəsibə Zeynalova Heydər Əliyevin kabinetindən çıxdı. O məni görcək qucaqlayıb öpdü:

– Sizə qurban olum, bu böyük şəxsiyyəti qoruyun.

... Axşam saat onda biz üçümüz – Nadir Seyidov, Səyyad Aran və mən Heydər Əliyevin kabinetinə daxil olduq, o, gecə saat on ikiyə qədər bizimlə söhbət etdi, səfərimiz barədə, partiyanın yaradılması ilə bağlı problemlər haqqında danışdıq. Mən ona dedim ki, tərəfdarlarının çoxu partiyaya daxil olmaq istəyir, amma əleyhdarları da var.

Heydər Əliyev dedi:

– Bu təbiidir, əleyhdarlar olmasa mübarizə də olmaz. Köhnə ilə yeninin mübarizəsi olan yerdə hökmən əleyhdarlar olmalıdırlar.

Gecə saat on ikidə biz artıq getməyə hazırlaşırdıq, birdən Heydər Əliyev Səyyad Arandan xahiş etdi ki, o dayansın. Onlar qəzet üçün materiallar üzərində işləməli idilər. Biz kabinetdən çıxdıq və gördük ki, qəbul otağında hələ 7-8 adam Əliyevlə görüş gözləyir.





– Səyyadın nə vaxt çıxacağı məlum deyil, – Vasif Talıbova dedim, – yəni, doğrudanmı, Heydər Əliyeviç bundan sonra da qəbulu davam etdirəcək?

– Bəli, hamını qəbul etməyincə getməyəcək, – deyə Vasif Talıbov cavab verdi.

Səhər saat onda isə onun yeni iş günü başlayırdı. Hər gün də belə!

Biz vidalaşanda Heydər Əliyev hamımıza tapşırdı ki, ertəsi gün Naxçıvan Muxtar Respublikasında dislokasiya edilmiş Rusiya ordusunun yola salınması və hərbi texnikanın təhvil-təslimi haqqında müqavilə imzalanması mərasiminə gələk.

Müqavilə imzalanandan sonra Heydər Əliyev ona hörmət və ehtiram əlaməti olaraq, qarşısında «farağat» vəziyyətində düzülmüş Rusiya əsgərlərinin sırası önündən keçdi. Naxçıvan parlamentinin rəhbəri onların qarşısında nitqlə çıxış etdi, sonra əsgərlər nizami addımlarla Heydər Əliyevin qarşısından keçdilər. Bütün bu hadisələr şəhərin mərkəzində baş verdi və çox güclü təsir bağışladı».

* * *

Blokadada olan muxtar respublikanın üzləşdiyi çətinliklərə baxmayaraq, Heydər Əliyev burada müxtəlif mədəni aksiyaların təşkilinə məmnuniyyətlə razılıq verirdi. Məsələn, 1992-ci ildə martın 31-dən aprelin 7-dək Naxçıvanda görkəmli Azərbaycan şairi Şəhriyarın poeziya günləri keçirildi. Bu münasibətlə İrandan ədəbiyyat və incəsənət xadimləri gəldilər, elmi konfrans keçirildi, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dram Teatrında təşkil edilən gecədə isə tədbir iştirakçıları qarşısında şəxsən Naxçıvan parlamentinin spikeri çıxış etdi. Yeri gəlmişkən, İsa Həbibbəyli xatırlayır ki, Məhəmmədhüseyn Şəhriyarın Bakıda keçirilən yubileyinə Naxçıvandan heç kəsin, xüsusən də ziyalıların dəvət olunmaması Heydər Əliyevin xoşuna gəlmədi.

## Akademik İsa Həbibbəyli xatırlayır:

«Hüseyn Cavidin 110 illiyinin Naxçıvanda keçirildiyi günlərdə də Heydər Əliyev sanki bu böyük sənətkara müstəqillik dövründə gerçək bəraət vermək, onu xalqa qaytarmaq missiyasını yerinə yetirirdi. O, Cavidin 110 illiyinin Bakıda qeyd olunmamasını da həmin dövr Azərbaycan rəhbərliyinin zəifliyi və fəaliyyətsizliyinin əlaməti hesab edirdi.

Naxçıvan teatrının binasında keçirilən yubiley gecəsində o deyirdi ki, biz sovet hakimiyyəti illərində Cavidi xalqa tanıtmaq üçün bir çox işlər gördük. «İblis» əsəri Azdramada tamaşaya qoyuldu, cənazəsinin qalıqları Sibirdən Azərbaycana gətirildi, anadan olmasının yüz illiyinin dövlət səviyyəsində qeyd olunması üçün qərar qəbul etdik. Lakin bütün bunlar Hüseyn Cavidin sənəti ilə müqayisədə azdır. Müstəqil Azərbaycan dövləti Cavidi xalqa qaytarmaq üçün çox iş görməlidir».

Naxçıvan MR-in sabiq mədəniyyət naziri **Fəttah Heydərov** bu hadisəni belə xatırlayır:

«... Heydər Əliyevin mənə mədəniyyət naziri kimi birinci tapşırığı Hüseyn Cavidin məqbərəsinin layihəsini hazırlamaq və ona abidə qoyulması barədə idi. Hər dəfə rəhbərlik dəyişəndə bu abidə məsələsini qaldırırdım. Deyirdim ki, vaxtilə Heydər Əliyev böyük səylər bahasına Hüseyn Cavidin cənazəsini Sibirdən Azərbaycana gətirtdi. İndi məqbərə tikmək lazımdır, axı onu orada sadəcə dəfn ediblər, üstəlik, məzarüstü plitə çatlayıb. Mənim təkidimdən sonra bir qədər hərəkətə gəlirdilər: yer qazıldı, bünövrə bərkidildi. Lakin planlar və rəhbərlər tez-tez dəyişirdi, sonra isə bütün bu hadisələr başlandı.

Yeri gəlmişkən, biz Hüseyn Cavidin 110 illiyi ilə əlaqədar təntənəli tədbirlər keçirdik, amma Bakıda bu əlamətdar tarixi heç bir şəkildə qeyd etmədilər. 1992-ci il oktyabrın 23-də Cavidin məzarı yanında izdihamlı mitinqdə Heydər Əliyev təxminən saat yarım çıxış etdi. Sonra Cəlil Məmmədquluzadə adına teatrda tədbirin bədii hissəsi keçirildi. Bakıdan bu tədbirə «Göyərçin» jurnalının baş redaktoru, şair Tofiq Mahmud və ədəbiyyatşünas, Bakı Dövlət Universitetinin professoru Şamil Qurbanov gəldi. Onlardan başqa paytaxtdan heç kəs gəlmədi – nə Yazıçılar İttifaqından, nə Mədəniyyət Nazirliyindən, nə





də Elmlər Akademiyasından. Hərçənd mən onların hamısını dəvət etmişdim. Bəzilərinin buraya gəlməyə maddi imkanı yox idi, digərləri sadəcə qorxurdu.

Mitinq başa çatandan sonra biz teatra piyada gedirdik, yolda Heydər Əliyevə bu gözəl çıxışına görə təşəkkür etdim. Cibimdə Hüseyn Cavidin həyatı ilə bağlı, çoxlarına məlum olmayan faktların qeyd edildiyi kiçik bir vərəq vardı. Həmin qeydləri Heydər Əliyevə vermək istəyirdim. Buna görə soruşdum ki, teatrda da çıxış edəcəkmi?

Onun əhvalı yaxşı idi, buna görə sualıma zarafatla cavab verdi:

– Sənə nə var, istəyərəm, çıxış edərəm, istəmərəm etmərəm.

– Sadəcə olaraq, gecənin aparıcısı mənəm, ona görə bilmək istərdim.

O, çıxış etməyə razılıq verdi. Onda mən həmin kağızı ona uzatdım:

– Heydər Əliyeviç, burada maraqlı faktlar var. Ola bilsin ki, siz onları bilmirsiniz...

– Saxla, özünə lazım olar. Mən isə sənin köməyin olmadan da bu işin öhdəsindən gələrəm, – Heydər Əliyev yenə zarafatla cavab verdi.

Teatrda rəhbərlik zalda əyləşdi, mən isə aparıcı kimi səhnəyə çıxdım. Hər şey əla idi. Hüseyn Cavidin pyeslərindən parçalar göstərildi, yerli şairlər çıxış etdilər. Heydər Əliyeviç yenə Azərbaycanda ədəbiyyatın, incəsənətin, mədəniyyətin vəziyyəti barədə böyük nitqlə çıxış etdi. O bütün bu məsələləri dərindən təhlil etdi, özü də dediklərinin hamısını Hüseyn Cavidin yaradıcılığı və taleyi ilə əlaqələndirdi. Bu, çox gözəl nitq idi, həmin çıxışın videoyazısı məndə qalır. Bilirsinizmi, nədənsə, həmin gün xatırladım ki, 1941-ci ilin qışında blokadada olan Leninqradda böyük Azərbaycan şairi Nizami Gəncəvinin 800 illiyi qeyd edilmişdi. İstər-istəməz müqayisələr aparırdım: əlli il keçəndən sonra oxşar vəziyyət blokadada olan Naxçıvanda təkrarlanırdı. Qızdırılmayan soyuq zalda, zəif işıqlandırılan səhnədə, müharibə şəraitində gözəl poeziya bayramı təşkil edilmişdi və bu bayramın canı Heydər Əliyev idi!

Yubileydən sonra o, məqbərənin layihəsini hazırlayıb ona göstərmək barədə konkret tapşırıq verdi. Sonra abidənin nə vəziyyətdə olmasını soruşdu. Cavab

verdim ki, abidə praktiki olaraq, hazırdır, sökülmüş vəziyyətdə emalatxanadadır. Görünür, bundan sonra Heydər Əliyev kiməsə zəng etdi və abidənin ucaldılması işinə başladılar.

Mən Naxçıvanın bütün heykəltaraşlarını topladım, onlar 10-12 eskiz hazırladılar. Biz həmin eskizləri Heydər Əliyeviçin kabinetinə gətirdik, o, eskizləri gözdən keçirib onları tamamlamağı əmr etdi. Bundan əlavə, qardaşı oğlu Rasim Əliyevi Bakıdan çağırmağı və onun da bu layihəyə cəlb olunmasını xahiş etdi.

Bir neçə eskiz hazırlandı. Sonra Heydər Əliyeviç Bakıya getdi və burada işlər daha geniş miqyasda bərpa olundu.

Bu abidənin ideyası nədən ibarət idi? Naxçıvanda 800 il bundan əvvəl ucaldılmış Ana abidəsi – Möminə Xatun türbəsi var. Lakin Hüseyn Cavidin abidəsi faciəli tale yaşamış bir şairin abidəsidir, bu abidə daha möhtəşəm, daha əzəmətli olmalıdır. Özü də bu abidə bir tərəfdən ənənələrə, digər tərəfdən müasir reallıqlara uyğun olmalıdır. Heydər Əliyev Naxçıvanda da, sonradan Bakıya gələndə də bunu heykəltaraşlara deyirdi.

Bilirsinizmi, o, Naxçıvana gələnin ertəsi günü Hüseyn Cavidin məzarını ziyarət etmişdi. Heydər Əliyev Cavidin poeziyasını dərindən bilir, ona sitayiş edirdi. Gərək ki, Hüseyn Cavidin qardaşı Heydər Əliyevə məktəbdə dərs demişdi...».

Bu fəsildə danışılanları yekunlaşdırarkən qeyd emək lazımdır ki, Heydər Əliyevin Azərbaycanın yaradıcı ziyalıları ilə əlaqə və ünsiyyətləri, bir dəqiqə də olsun, kəsilməmişdi – hətta Naxçıvan üçün ən çətin zamanlarda belə. Yazıçılardan başqa parlamentin spikeri həm yerli, həm də Moskvadan gəlmiş alimlər, rəssamlar, jurnalistlərlə də (məsələn, Andrey Karaulovla) görüşürdü.

Burada ümumi qaydada söz açdığımız bəzi ünsiyyət və görüşlər barədə oxucu ikinci kitabdan ətraflı öyrənəcək. Hələliksə biz birinci kitabı yekunlaşdıran «Heydər Əliyev və müstəqillik dövrü mədəniyyəti» fəslinə keçirik.



## V FƏSİL

# HEYDƏR ƏLİYEV VƏ MÜSTƏQİLLİK DÖVRÜ MƏDƏNİYYƏTİ

Kitabımızın ilk fəsillərində biz Heydər Əliyevin yaradıcı insanlara meyl göstərməsindən, mədəni hadisə və aksiyalara xüsusi marağından, həyata keçməyən rəssam və ya memar olmaq arzusundan danışmışdıq.

Heydər Əliyev ikinci dəfə respublika rəhbərliyinə gələndən sonra ədəbiyyat və incəsənət xadimləri ilə görüşlər, çoxsaylı mədəniyyət layihələri onun üçün böyük təsəlli, sanki bir udum təmiz hava idi. O, sadəcə bunlarsız yaşaya bilmirdi. Bu fəsildə biz 90-cı illərin əks-səda doğurmuş mədəni aksiyalarından danışacaq, Heydər Əliyevin bütün həyatı boyu sevdiyi və himayə etdiyi ədəbiyyat və incəsənət xadimlərini yada salacaq, onların bu kitabın müəllifinə verdiyi eksklüziv müsahibələrdən parçalar təqdim edəcəyik.

### «BİZ – DƏDƏ QORQUD ÖVLADLARIYIQ»

Heydər Əliyev ölkə prezidentliyinə namizəd qismində 1993-cü il sentyabrın 21-də Azərbaycan Milli Elmlər Akademiyasında ziyalılarla görüşəndə o, müharibə və iqtisadiyyatdan daha çox mədəniyyətdən danışdı. Məsələn, o,

mütəfəkkir şair Məhəmməd Füzulinin qarşıdan gələn yubileyinin yüksək səviyyədə keçirilməsinin vacibliyini vurğuladı: «Bizim mədəniyyətimiz, elmimiz çox zəngindir. Biz Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, böyük filosoflar kimi, dünyaya, dünya mədəniyyətinə, elminə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq. Gələn il Füzulinin 500 illiyi tamam olacaq. Biz bu yubileyə yaxşı hazırlaşmalıyıq. Biz Füzulini dünyamiqyaslı filosof kimi, böyük alim kimi dünyaya tanıtmalıyıq»[78].

Bu sözlər hərbi sahədəki uğursuzluqlarla və torpaqlarımızın bir hissəsinin işğalı ilə yanaşı, Azərbaycanda terror və sui-qəsd cəhdlərinin davam etdiyi, anarxiya meyillərinin güclü olduğu, ölkənin ziddiyyətlər məngənəsində boğulduğu bir zamanda deyilmişdi. Bunun səbəbi çox sadədir və Heydər Əliyevin siyasi mövqeyi ilə bilavasitə bağlıdır. O öz ölkəsinin xilasını yalnız silahda, hərbi gücdə deyil, həm də bu torpaqda yaradılmış qədim və bənzərsiz mədəniyyəti xalqa qaytarmaqla onun milli ruhunun dirçəldilməsində görürdü. Heydər Əliyev, eyni zamanda, bu milli-mənəvi dəyərlərin bütün dünyada tanıdılmasına da böyük əhəmiyyət verirdi.

1994-cü il martın 16-da prezident Məhəmməd Füzulinin anadan olmasının 500 illiyinin bayram edilməsi ilə bağlı fərman imzaladı. Bu mədəniyyət və incəsənət bayramı beynəlxalq əks-səda doğurdu və Parisdə, YUNESKO-nun mənzil-qərargahında, İraqda, Mərkəzi Asiya ölkələrində, İranda, Türkiyədə, Rusiyada qeyd edildi. Son iki ölkədə keçirilən yubiley təntənələrində Azərbaycan Prezidenti şəxsən iştirak etdi.

Anar xatırlayır ki, Heydər Əliyevin Moskvada, Füzulinin yubileyi keçirilən Sütunlu zalda çıxışından sonra rəyasət heyətində əyləşən Sergey Mixalkov ondan soruşur: «Heydər Əliyevin filoloji təhsili var?» – «Yox, – dedim, – tarixçidir».

[78] Бакинский рабочий. 1993. 28 сентября





## Prezidentin şəxsi fotoqrafı Rafiq Bağırovla söhbətdən:

«Heydər Əliyev yaradıcı şəxsiyyət, böyük zövqə malik insan idi. Mənə danışmışdı ki, cavanlıqda fotoqrafiya ilə maraqlanıb fotoaparatı olub. Onun ailə arxivində Heydər Əliyevin Kislovodskda yaxınlarını çəkdiyini əks etdirən kadrlar saxlanılır. O, rəssamla, arxitektorla, istənilən mədəniyyət xadimi ilə professional səviyyədə mübahisə apara bilirdi. O, hərtərəfli inkişaf etmiş insan idi.

Məsələn, mən onun memarlıq layihələrinə düzəlişlər, özü də ciddi düzəlişlər etdiyini görmüşəm. Şəhidlər Xiyabanındakı abidənin müzakirəsini xatırlayıram. Müsabiqəyə yüzlərlə müxtəlif layihə təqdim olunmuşdu. Heydər Əliyev isə məcbur etdi ki, layihə milli üslubda hazırlansın. Bilirəm ki, o bu layihələri evə aparır, ertəsi gün isə iradları ilə birlikdə qaytarırdı.

**E.A. – Siz indi bu barədə dediniz, mənimsə ağlıma maraqlı bir fikir gəldi. Belə çıxır ki, o özünü memarlıq sahəsində professional kimi göstərə bilmişdi, yəni gənclik arzularını yerinə yetirmişdi. Biz tez-tez deyirik və yazırıq ki, o, memar ola bilməmişdi, amma KP MK-nın birinci katibi işləyəndə, sonra prezident postunu tutanda faktiki olaraq o öz istedadını reallaşdıra bildi. Onun dəstəyi, onun təşəbbüsü ilə görün nə qədər memarlıq layihəsi həyata keçirilib!**

**R.B.** – Onun ideyaları hətta bu gün də həyata keçirilir, məsələn, Füzuli küçəsini başdan-başa bulvar-bağçaya çevirmək ideyası. Heydər Əliyevin ideyaları əsasında tikilən bizim «Şəhidlər Xiyabanı» da necə möhtəşəm görkəm almışdır!

Yaxud götürək Hüseyn Cavidin məqbərəsini!.. Onun axı heç bir layihə xoşuna gəlməmişdi. Mən ilk layihələri görmüşdüm, belə də adi işlər idi... Lakin onun ideyalarına uyğun həyata keçirilən layihə nadir mükəmməlliyi ilə seçilir».

Hüseyn Cavidin məqbərəsinin layihəsinin müəllifi Azərbaycanın Əməkdar memarı **Rasim Əliyevdir.** 2-ci kitabda o, işin tarixçəsini təfərrüatı ilə xatırlayır.

Azərbaycan baş nazirinin müavini **Abid Şərifov** xatırlayır:

«Üç il bundan əvvəl (söhbət 1999-cu ildən gedir) cənab prezidentimiz ABŞ-a səfəri zamanı Dünya Bankının prezidenti cənab Vulfensonla görüşdü

və Azərbaycanda tarixi abidələri bərpa etmək üçün güzəştli kreditlər ayrılması üçün ona müraciət etdi. Deməliyəm ki, Dünya Bankı tarixi abidələrin bərpası üçün heç vaxt pul ayırmır, mövcud olduğu müddətdə heç vaxt bunu etməyib. Lakin belə oldu ki, Dünya Bankı Azərbaycana bu iş üçün 40 il müddətinə 6 milyon dollar məbləğində güzəştli kredit verdi (on il bitənə qədər ödənmə şərtilə – 0,75 faizlə).

Müqaviləyə əsasən layihəyə dörd abidə daxil edildi: Şəki Xan Sarayı, Şirvanşahlar Sarayı, Naxçıvandakı Möminə Xatun və Qarabağlar türbələri».

Yazıçı Hidayətin dəqiq qeyd etdiyi kimi, «qlobal miqyasda düşünmək istedadına malik olan Heydər Əlirza oğlu çox gözəl bilirdi ki, Azərbaycan xalqı ayrı-ayrı hallar istisna olmaqla bütün tarixi boyu birliyini, bütövlüyünü, etnik mövcudluğunu və özgürlüyünü, həm də milli bədii sözün qüdrəti hesabına qoruyub saxlayıbdır.

...Ordusu olmadığından sərhədlərini qoruyub saxlaya bilməyən xalqın etnik mövcudluğunu, milli varlığını onun ordusuna çevrilmiş bədii sənət nümunələri və yaradıcı qüvvələr qorudular»[80].

Heydər Əliyevin tanınmış Azərbaycan şairi Süleyman Rüstəmin 90 illiyində Respublika Sarayındakı çıxışı (26 mart 1998-ci il) çoxlarının yadındadır:

«...Biz Hüseyn Cavidin, Mikayıl Müşfiqin və bizim başqa görkəmli şəxslərin repressiya qurbanları olması haqqında on illərdir ki, böyük ürək ağrısı ilə danışırıq. Onlar əlimizdən getdi. Əgər hamısı getsəydi, onda bizim bu ədəbiyyatımızı, elmimizi, mədəniyyətimizi kim yaradacaqdı?

İndi kimsə hesab edir ki, o vaxtlar gərək Səməd Vurğunu da həbs edib öldürəydilər, Rəsul Rzanı, Süleyman Rüstəmi də öldürəydilər. Onda deyərdilər ki, bunlar qəhrəman idi və biz oturub onları da on illərlə ağlayacaqdıq. Yenə də deyirəm, biz Allaha şükür etməliyik ki, belə insanlar o ağır dövrdə o xatalardan qurtara bildilər. Əgər 30-cu illərdə o itirdiklərimizlə yanaşı, Səməd

[80] Гидаят. Гейдар Алиев и национальная политика Азербайджана. Баку, 2001. С. 30, 31.





Vurğun, Rəsul Rza, Süleyman Rüstəm və bizim o nəsildən olan görkəmli başqa şairlərimiz olmasaydı, onlar yazıb-yaratmasaydılar, o əsərlərimiz olmasaydı, indi bizim o dövr tariximizin ədəbiyyatı, mənəviyyatı, mədəniyyəti nədən ibarət olardı? Mən bizim ədəbiyyatımızı Səməd Vurğunsuz da, Rəsul Rzasız da, Süleyman Rüstəmsiz də təsəvvür edə bilmirəm.

... Süleyman Rüstəm, Səməd Vurğun, Rəsul Rza kimi böyük şairlərə, onların yaradıcılığında bugünkü günə uyğun olmayan hansısa nüansları tapıb irad tutmaq, hesab edirəm ki, mənəviyyatsızlıqdır»[81].

80-ci illərin sonu – 90-cı illərin əvvəllərində sovet dövründə yaşayıb yaratmış bir çox şairləri «müasirlik gəmisindən tullamağa», onların əsərlərini isə köhnəlmiş, hətta ideoloji baxımdan ziyanlı elan etməyə cəhd göstərirdilər. Guya bu şairlər komsomolu, partiyanı, Lenin ideyalarını tərənnüm etmişlər, odur ki, onların yaradıcılıq irsi müstəqil Azərbaycan dövlətini quranlara gərək deyil. Heydər Əliyev gənc şair və yazıçıları nihilizmdən, öz istedadlı sələflərinə sayğısız münasibət göstərməkdən çəkindirir, keçmiş dövrün hər bir mədəniyyət xadiminə onların öz xalqının elmi, mədəni, mənəvi inkişafına verdiyi real töhfələri dəyərləndirərək layiq olduqları qiyməti verməyə çağırırdı.

Heydər Əliyev deyirdi: «Şübhəsiz ki, Səməd Vurğunun əsərləri öz dövründə yazılıbdır. O dövrün hökmü, tələbləri Səməd Vurğunun əsərlərində də öz əksini tapıbdır... Səməd Vurğun komsomola həsr etdiyi poemasında da, Kommunist Partiyasına həsr etdiyi «Zamanın bayraqdarı» poemasında da öz əqidəsinə xidmət edib, öz əqidəsinə sadiq qalıbdır, eyni zamanda yüksək şeir sənətini nümayiş etdiribdir. Şərqdə həmişə şeir böyük hörmətə layiq olubdur və hər bir şair öz dövrünün aşiqi olubdur, öz dövrünü yazıbdır. Biz buna görə keçmiş əsrlərin heç bir şairinə hər hansı bir mənfi münasibət göstərə bilmərik və kimisə qınaya bilmərik. Səməd Vurğunu da heç kəs qınaya bilməz ki, o

[81] Azərbaycan qəzeti. 1998. 27 mart.

şeirləri, poemaları yazıbdır. Səməd Vurğun öz xalqına, millətinə sadiq insan olubdur. O öz millətinin oyanışına, milli dirçəlişinə xidmət edibdir…

Bu gün biz azad, müstəqil ölkəmizdə yaşayarkən keçmiş nəsillərə minnətdar olmalıyıq, bizdən qabaq yaşamış, yaratmış insanlara daim minnətdarlığımızı bildirməliyik. Çünki bugünkü Azərbaycan əzəmətli, böyük bir binadır. Bu binanı kərpic-kərpic qoyan indiyə qədər yaşamış, yaratmış nəsillərdir. Bu binaya hərə öz payını qoyubdur – kimi çox, kimi az. Amma bu insanların tam əksəriyyəti Azərbaycanı qurmağa, yaratmağa və inkişaf etdirməyə çalışmışdır. Onlardan da ən görkəmlisi böyük şairimiz Səməd Vurğundur»[82].

* * *

Heydər Əliyev hələ sovet dönəmində Şimali və Cənubi (İran) Azərbaycanın yazıçıları arasında ədəbi-mədəni əlaqələrin inkişafına yönəlmiş bir sıra təşəbbüslərlə çıxış etmişdi. Biz Elmlər Akademiyasında xüsusi şöbənin yaradılması, Yazıçılar İttifaqının Cənubi Azərbaycanla əlaqələr üzrə katibi vəzifəsinin təsis edilməsi, Cənubi Azərbaycan ədəbiyyatı antologiya və kitablarının nəşr olunması haqqında artıq danışmışdıq. Heydər Əliyev bu xətti müstəqillik dövründə də davam etdirdi. Bu baxımdan prezidentin «Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 90 illiyinin keçirilməsi haqqında» 1997-ci il 29 oktyabr tarixli fərmanı xüsusi maraq doğurur. Həmin fərmana uyğun olaraq Bakı, Tehran və Təbrizdə möhtəşəm tədbirlər keçirildi ki, bu da Arazın hər iki tayındakı yazıçı və ziyalılar arasında ədəbi-mədəni əlaqələrin möhkəmlənməsinə xidmət etdi.

---

[82] Xalq şairi Səməd Vurğunun 90 illik yubileyinə həsr edilmiş gecədə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi – Respublika Sarayı, 7 mart 1997-ci il. http://library.aliyev-heritage.org, ƏSƏRLƏRİ / MƏDƏNİYYƏT





### ■ Heydər Əliyev haqqında kitabında Anar yada salır:

«1995-ci il avqustun axırlarında «Manas» dastanının 1000 illik yubileyinə Bişkekə getdik. Burada da təntənəli iclasda Heydər Əliyev əsl filoloq kimi «Manas»ın ədəbi və tarixi əhəmiyyətindən, türk xalqlarının ortaq bədii dəyərlərindən danışdı. Yubileyə Türkiyənin və türkdilli dövlətlərin başçıları gəlmişdi. Onların zirvə toplantısına prezidentimiz məni və Yusif Səmədoğlunu da dəvət etmişdi. Hamısından məntiqli və müdrik Heydər Əliyevin danışdığını müşahidə edəndə qürur duyurduq.

Təntənəli yubiley gecəsində əfsanəvi Manasın və rəhmətlik Çingiz Aytmatovun yurdu Talas vadisinə gəldik. Burada möhtəşəm teatrlaşmış tamaşa hazırlanmışdı, alaçıqlar qurulmuş, xalılar döşənmişdi. Lap Dədə Qorqud şölənləri yada düşürdü. Məşhur qırğız kinorejissoru Bolot Şəmçiyevin qurduğu tamaşada minlərlə atlı iştirak edirdi. Cıdır, ox atma və qılınc yarışları, rəqslər… çox əlvan və parlaq bir bayram idi.

Sonra çadırlara dəvət olunduq. Heydər Əliyevə Milli qırğız xələti və papağı hədiyyə etdilər, geyindi, boy-buxununa çox yaraşırdı. Sanki qarşımızda qədim türk Xaqanlarından biri canlanmışdı. Bu insanın bütün başqa xüsusiyyətlərindən başqa Allah vergisi olan uca qaməti, uzun barmaqlı ifadəli əlləri, hərəkətlərində bir kübarlıq vardı.

– Fürsətdən istifadə edib: – cənab Prezident, biz də belə, bundan da gözəl Dədə Qorqud yubileyi keçirə bilərik, – dedim.

– Dədə Qorqudun neçə illiyidir ki?

– 1300 illiyini qeyd edə bilərik.

– Niyə 1300?

– Əlbəttə, dastanın motivləri, qaynaqları daha qədimdir, amma əlimizdəki mətndə Dədə Qorqudun Həzrət Məhəmmədin müasiri olduğu bildirilir, bu tutarqanı əsas götürmək olar.

– Bakıya gələndə bu barədə təkliflərini yaz, – dedi.

Bakıda xarici işlər naziri Həsən Həsənovun və mənim imzalarımızla Dədə Qorqud yubileyi haqqında təkliflərimizi yazdıq. Alimlər arasında dastanın yaşı barədə mübahisələr başladı…

Heydər Əliyevə bütün tərəflərin arqumentləri çatdırılandan sonra o bizim təklifimizi qəbul etdi, fərmanla Dədə Qorqudun 1300 illik yubileyinin keçirilməsini təsdiqlədi. Bunun çox böyük, ümumdünya əhəmiyyəti vardı. Türkiyə də, YUNESKO da bu rəqəmi qəbul etdi.

Ona qədər «Kitabi-Dədə Qorqud»u X-XI əsrlərin abidəsi sayırdılar, ədəbiyyat tariximizi Herodotun nəql etdiyi Midiya əfsanələrilə, Davdakın bizə erməni dilində çatmış şeirilə, ərəb, fars dilində yazan şairlərlə başlayırdılar. «Kitabi-Dədə Qorqud»un 1300 illiyinin təsdiq edilməsi ədəbiyyat tariximizi öz ana dilimizdə yaranan bu nəhəng abidə ilə başlamağa imkan verdi.

Yubiley komissiyasının iclasında dedim ki, bu cəhətdən 1300 rəqəminin təsdiq olunması ədəbiyyatımız üçün çox böyük əhəmiyyətə malikdir. Heydər Əliyev çıxışıma müdaxilə edərək: – Tək ədəbiyyatımız üçün yox, həm də tariximiz üçün, – dedi və bu da tamamilə doğru idi.

Dədə Qorqud yubileyinin yüksək səviyyədə keçirilməsi bütün xərclənən vəsaitə dəyərdi. Dastan haqqında neçə-neçə dəyərli kitablar çıxdı. Neçə ildən bəri Yazıçılar Birliyinin təşəbbüsü ilə hazırlanan (Kamil Vəli Nərimanoğlunun baş redaktorluğu ilə) Dədə Qorqud Ensiklopediyası qısa bir müddətdə nəfis şəkildə işıq üzü gördü. Drezdendən «Kitabi-Dədə Qorqud» əlyazmasının orijinala tam uyğun kopiyası gəldi və prezidentə hədiyyə edildi, o isə bu nüsxəni yanılmıramsa, Əlyazmalar İnstitutuna verdi…

Yubiley günlərində mənim ssenarim əsasında Mərahim Fərzəlibəyov möhtəşəm tamaşa hazırlamışdı. Səhnədə türk dünyasının böyük simaları – Nizami, Manas, Yunis İmrə, Nəsimi, Nəvai, Xətai, Füzuli, Vaqif, Maxtumqulu, Natəvan, Abay, Sabir gəlib Dədə Qorqudu təbrik edirdilər. Tamaşa çox effektli alınmışdı, salonda onu seyr edən dövlət başçıları heyran qalmışdılar. Qırğızıstanın ovaxtkı prezidenti Əsgər Akayev bizi bir neçə dəfə təbrik etdi.





Süleyman Dəmirəl də riqqətlənmişdi, – tamaşanı mütləq Türkiyədə də göstərmək lazımdır – dedi. Ən çox sevinən, fərəhlənən isə, təbii ki, Heydər Əliyev idi»[83].

**1997-ci il yanvarın 31-də** Heydər Əliyev Elmlər Akademiyasının elmi-tədqiqat institutlarının direktorları və aparıcı alimləri ilə görüşdü, onların qarşısında Azərbaycanın yeni çoxcildlik tarixi, XIX-XX əsr Azərbaycan tarixi, Azərbaycanın qədim şəhərlərinin tarixi haqqında kitabların hazırlanmasına dair konkret vəzifələr qoydu. Bu fundamental işlər bir neçə ilə yerinə yetirildi: 7-cildlik «Azərbaycan tarixi», 2-cildlik «XIX-XX əsr Azərbaycan tarixi», həmçinin «Azərbaycanın tarixi coğrafiyası».

**2000-ci il dekabrın 18-də** H.Əliyevin sərəncamı ilə avqustun 2-si Azərbaycan kinosu günü elan edildi, həmin gün eyni zamanda kinematoqrafçıların peşə bayramı kimi qeyd olunmağa başladı. Kəskin büdcə defisitinə baxmayaraq H.Əliyev kino çəkilməsinə vəsait ayrılması barədə sərəncamlar imzalayırdı. 1994-1996-cı illərdə hər il iki film istehsalatda olurdu, 1998-ci ildən isə dövlət sifarişi ilə çəkilən filmlərin sayı dördə çatdı.

*Təəssüf ki, ədəbiyyata və incəsənətə olan belə böyük sevgisinə baxmayaraq, Heydər Əliyev yazıçı, daha dəqiq desək memuarist olmadı, öz xatirələrindən ibarət bir kitab belə buraxmadı. Bu işə onu heç kim sövq edə bilmədi. Prezidentin Maqomayev-Sinyavskaya cütlüyü ilə növbəti görüşü zamanı Müslüm Maqomayev prezidentə danışdı ki, «Vaqrius» nəşriyyatı planetin görkəmli siyasi xadimlərinin memuarlarını buraxmağa başlayıb və ondan xahiş edib ki, Heydər Əliyevə öz memuarlarını nəşr etdirməyi təklif etsin. «Yəqin ki, sizə belə təkliflər çox olub», – deyə Müslüm əlavə etdi.*

*Cavabında Heydər Əliyev maraqlı bir əhvalatı yada saldı:*

---

[83] Anar. Unudulmaz görüşlər. Bakı, 2009. S. 93-95.

*«... Mənə dəfələrlə müraciət etmişlər (memuarlar kitabı nəşr etmək təklifi ilə – **E.A.**) – əvvəlcə Moskvada, sonra isə bura Amerika Birləşmiş Ştatlarından adamlar gəldi, razılığa gəlmək ümidi ilə burada 10 gün oturdular. Özü də bunu hansısa nəşriyyatlarda çap edəcəklərindən, böyük maraqdan danışırdılar. Mənə çoxları müraciət edib. Təəssüf ki, vaxtım yoxdur».*

*Eyni zamanda, o belə bir kitaba vaxt ayıra bilmədiyinə görə təəssüflənirdi, çünki özü söylədiyi kimi «indi artıq sağ qalan adamlardan – mən geniş miqyasda götürürəm, – mənim bildiklərimi, mənim ictimaiyyətə çatdıra biləcəklərimi, bəlkə də, heç kim bacarmaz. O cümlədən Kreml haqqında, bir çox başqa şeylər barədə...»*[84]

* * *

90-cı illərin əvvəllərində bütün respublika kimi Azərbaycan mədəniyyəti də kəskin böhran yaşayırdı: Yazıçılar İttifaqının ədəbi-bədii jurnalları demək olar ki, çap edilmir, öz lazımsızlıqlarını hiss edən, ağır maddi cəhətdən əziyyət çəkən yazıçılar bir-birinin ardınca vəfat edirdilər (əgər daha firavan vaxtlarda yazıçıların qurultayları arasındakı müddətdə 5-10 nəfər dünyasını dəyişirdisə, 1986-1991-ci illərdə Yazıçılar İttifaqının 100-ə yaxın üzvü gözlərini əbədi yummuşdu), sənət adamları – bəstəkarlar, ifaçı-musiqiçilər, alimlər qazanc dalınca Türkiyə və digər ölkələrə üz tuturdular. Opera və Balet Teatrı sözün həqiqi mənasında can üstündə idi, Dövlət Simfonik Orkestri bağlanmaq üzrə idi.

Heydər Əliyev nə etdi? Birincisi, kəskin büdcə defisitinə baxmayaraq, Azərbaycan incəsənətinin inkişafına böyük töhfələr vermiş mədəniyyət xadimləri – yazıçılar, rəssamlar, bəstəkarlar, kinematoqrafçılar, arxitektorlar üçün prezident təqaüdü təsis etdi. Onun təşəbbüsü ilə Mədəniyyət Nazirliyi aparıcı artistlər

[84] Россия – Азербайджан. Новые взаимоотношения. Новые горизонты. Баку, 2002. С. 473.





üçün fərdi təqaüdlər təsis etdi, Opera və Balet Teatrının solistləri üçün fərdi məvaciblər tətbiq etdi. H.Əliyev simfonik orkestrin musiqiçilərinin əmək haqqını bir neçə dəfə artırdı, respublika Yazıçılar İttifaqının ədəbi-bədii jurnallarının və «Ədəbiyyat qəzeti»nin dövlət büdcəsi hesabına nəşr olunması barədə misli görünməmiş qərar qəbul etdi.

Demək olar ki, bütün görkəmli ədəbiyyat və incəsənət xadimləri müstəqil Azərbaycan Respublikasının mükafatları ilə təltif edildi. Məsələn, o vaxt respublikanın ali mükafatı olan «İstiqlal» ordeni ilə təltif edilən 33 nəfər arasında xalq şairləri Xəlil Rza, Məmməd Araz, Bəxtiyar Vahabzadə, Mirvarid Dilbazi, xalq yazıçıları Anar, Elçin, Əkrəm Əylisli, bəstəkar Arif Məlikov, əfsanəvi rəqqasə Əminə Dilbazi, rəssamlar Mikayıl Abdullayev, Tahir Salahov, Kamil Əliyev, heykəltaraş Ömər Eldarov və digərləri var idi.

90-cı illərin əvvəlində mədəniyyət sahəsindəki vəziyyət, ortada olan çətinliklər və bu çətinliklərin Heydər Əliyevin köməyi ilə dəf edilməsi barədə mənimlə söhbətdə sabiq mədəniyyət naziri, Azərbaycan Respublikasının Xalq artisti **Polad Bülbüloğlu** yada salır. Onunla söhbət kitabın 2-ci cildində dərc olunub.

Ölkə müharibə alovu içində idi. Buna baxmayaraq, prezident andiçmə mərasimindən cəmi 20 gün sonra Xalq şairi Məmməd Arazın yubiley gecəsində iştirak etdi. O bunu belə izah etdi ki, Məmməd Araz Azərbaycan xalqının milli özünüdərkinin təşəkkül tapmasında müstəsna xidmətləri olan qələm sahiblərindəndir.

Yaxud digər misal: 1995-ci il aprelin 15-də Heydər Əliyev şairlər Bəxtiyar Vahabzadə, Məmməd Araz və Xəlil Rzanın Azərbaycanın ən ali mükafatı – «İstiqlal» ordeni ilə təltif edilməsi haqqında üç fərman imzaladı.

Ertəsi gün Məmməd Arazın «Azərbaycan, dünyam mənim» yaradıcılıq gecəsinə gələn prezident öz qərarının səbəblərini belə izah etdi:

«Mən bir neçə aydır bu haqda düşünürəm. Çox götür-qoy eləmişəm və xeyli müddət bundan qabaq belə qərara gəlmişəm ki, bu orden bax, bizim görkəmli şəxsiyyətlərimizə çatmalıdır. Bu şəxsiyyətlər buna birinci növbədə layiq görülməlidir. Buna görə də dünən mən fərmanlar verdim. Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsində xüsusi xidmətlərinə görə hörmətli şairimiz Bəxtiyar Vahabzadə, hörmətli şairimiz Məmməd Araz və çox hörmətli şairimiz mərhum Xəlil Rza bu ordenlə təltif olundular. Güman edirəm ki, mən doğru addım atmışam və hesab edirəm ki, xalqımız, ictimaiyyətimiz bunu yaxşı qarşılayacaq»[85].

Azərbaycan Prezidenti çox vaxt ədəbiyyat və incəsənət xadimlərinin həyatını, sözün həqiqi mənasında, xilas edirdi, xaricdə böyük vəsait tələb olunan müalicələrini təmin edir, mənəvi və maddi dəstək verirdi. O, şair Məmməd Araza, yazıçı Yusif Səmədoğluna, jurnalist Nəcəf Nəcəfova Almaniyada müalicə olunmağa kömək etdi, Naxçıvanın daimi nümayəndəsi Həsən Zeynalovun, publisist Xeyrəddin Qocanın, məşhur nəsr ustası Maqsud İbrahimbəyovun və bir çox digərlərinin xaricdə cərrahiyyə əməliyyatı olunmasını maliyyələşdirdi.

Svetlana Mirzəyeva görkəmli Azərbaycan rəssamı **Elmira Şaxtaxtinskaya** ilə bağlı hadisəni xatırlayır: o, çoxdan və ağır xəstə idi, 90-cı illərin ortalarında isə onun təcili Moskvaya getməsi lazım olur.

«Qohumlarının müşayiəti ilə o, evdən çıxırdı, təyyarəyə tələsirdi. Birdən onlara yaxınlaşan maşın onu götürdü və Prezident Sarayına apardı. Elmira xanım narahat oldu: «Təyyarəyə gecikə bilərəm». Ona nəzakətlə cavab verdilər: «Narahat olmayın, xanım, sizə həyəcanlanmaq olmaz… Lazım olar – təyyarəni saxlayarıq!»

Elmiranın Bakını tərk etməyə hazırlaşdığından xəbər tutan Azərbaycan Prezidenti onu böyük hörmətlə qarşıladı, içərisində böyük məbləğdə pul olan

[85] Heydər Əliyev mədəni irsimizin keşiyində. Bakı, 2001, I cild. S. 253.





zərfi ona özü təqdim etdi, üzündən öpdü, sağalmasını arzuladı və dərhal özü Moskvaya zəng vurdu ki, maşın xəstəni təyyarənin pilləkəninin önündə qarşılasın. O bundan əvvəl artıq həkimlərlə söhbət etmişdi, demişdi ki, əgər yüzdə bir şans varsa mübarizə aparmaq lazımdır, Şaxtaxtinskayanın həyatını xilas etmək üçün sonacan mübarizə aparmaq lazımdır…»[86]

Tanınmış Azərbaycan şairi **Vaqif Səmədoğlu** (böyük Azərbaycan şairi Səməd Vurğunun oğlu) xatırlayır ki, 90-cı illərin əvvəllərində, sürətli dəyişikliklər dövründə, Azərbaycan mədəniyyətinin böyük xadimlərinin ailələri sanki həyatdan kənarda qalmışdılar, yaddan çıxmışdılar. Bir çoxları maddi cəhətdən korluq çəkirdi, mənəvi dəstəyə, sadəcə olaraq diqqətə ehtiyacları vardı.

«1993-cü ilin iyununda Heydər Əliyev hakimiyyətə rəhbərlik etmək üçün AXC hökuməti tərəfindən dəvət ediləndən sonra bu ailələrdən heç biri irad tuta bilməzdi ki, niyə bizimlə maraqlanmırsan?..

Yadımdadır, avqust ayı idi, hələ prezident seçilməmişdi, anama zəng edib dedi:

– Xavər xanım, dolanışığınız necədir, indi başım qarışıqdır, açılan kimi hökmən sizinlə görüşəcəyəm...

Sonra məlum oldu ki, təkcə bizə yox, bütün tanınmışların ailələrinə zəng edib onların güzəranı ilə maraqlanıb. Yəni demək istəyirdi ki, mən həmin adamam, dəyişməmişəm. Həqiqətən də, prezident seçildikdən sonra bir parça çörəyə möhtac qalan ziyalılarımıza – mədəniyyət və incəsənət xadimlərinin ailələrinə kömək etdi. Həmçinin kənd təsərrüfatı, ağır sənaye və iqtisadiyyat sahəsində gecə-gündüz əlləşib əlləri qabar olmuş, Sosialist Əməyi Qəhrəmanı adını almış, ancaq acından ölən insanları da yaddan çıxarmırdı. Heydər Əliyev hər kəsi bir-bir yadında saxlamışdı. Çox güclü və iti hafizə sahibiydi»[87].

[86] Светлана Мирзоева. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. С. 120.
[87] Heydər Əliyev mənim həyatımda. Bakı, 2005. S. 217.

Rus Dram Teatrının qocaman aktrisası Vera Karlovna Şiryenin hekayəti ibrətamizdir. Heydər Əliyev aktrisanın Süleyman Rüstəmin «Ana və poçtalyon» şeirini iki dildə necə gözəl oxumasını daim yada salaraq onu «poçtalyon» deyə çağırırdı.

İqtisadi cəhətdən ağır vaxtlar idi. Vera Şirye kiçik təqaüd alırdı, teatr rəhbərliyinin onun ştat vəzifəsini saxlamasına və aylıq maaş ödəməsinə baxmayaraq, dolanışığı çətin idi. Belə olanda prezident ona ömürlük fərdi təqaüd ayırdı, bir neçə ildən sonra, 80 illik yubileyi günündə isə aktrisa «Şöhrət» ordeninə layiq görüldü.

Rus Dram Teatrının direktoru M.İbrahimov Nodar Şaşıqoğlunun taleyindən söz açaraq deyirdi ki, «aktyor ömrünün qürub çağında vətənə qayıdanda burada artıq nə qohum-əqrəbası, nə də başının üstündə damı vardı. Belə vəziyyətdə prezidentin göstərişi ilə ona daimi yaşamaq üçün əvvəlcə mehmanxanada otaq, sonra isə mənzil, fərdi təqaüd verdilər. Əlbəttə ki, Heydər Əliyev əfsanəvi aktyorun yaradıcılıq taleyi ilə maraqlanırdı. Bir dəfə Nodar mənim kabinetimdə olanda zəng gəldi. Aktyor və prezidentin bu 20 dəqiqəlik söhbətində hər şeydən danışıldı: sənətdən, Nodarın oynamağa can atdığı Lir rolundan. Əfsus ki, prezident teatrımızın səhnəsində sevimli aktyoru bu rolda görə bilmədi»[88].

## «O, İNCƏSƏNƏT ALƏMİ İLƏ TƏMASDA OLMAĞI SEVİRDİ...»

Bundan əvvəlki fəsillərdə Heydər Əliyevin yaradıcı ziyalıların nümayəndələri ilə qeyri-formal şəraitdə ünsiyyətdə olmağa can atmasından, respublikanın rayonlarına səfərə çıxanda yazıçıları, şairələri, bəstəkarları dəvət etməsindən yazmışdıq. Heydər Əliyev onlarla söhbət etməyi, gülüb-danışmağı sevirdi, gündəlik ağır partiya işinin yaratdığı psixoloji gərginliyi aradan götürmək üçün özünə bu yolla özünəməxsus relaksasiya təşkil edirdi.

[88] Эхо. 2008. 7 мая.





**Anar** Heydər Əliyevin hələ Azərbaycan KP MK-nın birinci katibi olduğu dövrə aid bir maraqlı epizod yada salır. Bir dəfə H.Əliyev böyük Azərbaycan şairi Vaqifin məqbərəsinin açılışı münasibətilə bir qrup yazıçı ilə Şuşaya gəlir. Onları hər yerdə Dağlıq Qarabağ vilayət partiya komitəsinin katibi Gevorkov müşayiət edirdi.

«Axşam ziyafətdə, – Anar yazır, – Gevorkov sözünə belə başladı ki, hərdənbir biz vilayət rəhbərləri yığışıb yeyib-içirik.

Heydər Əliyev onun sözünü zarafata saldı:

– Deməli, siz burada yeyib-içməklə məşğulsunuz?

Gevorkov da söz altında qalmadı:

– Böyük müəllimimiz Karl Marks demişkən, heç bir insani cəhət bizə yabançı deyil.

Gevorkov azərbaycanca təmiz danışırdı, hətta bir dəfə Tofiq Fikrətin şeirini əzbər oxuyanda mat qalmışdım. Gevorkovun sözünün məğzi bu idi ki, biz, vilayət rəhbərləri yığışanda, rəsmi iclaslarda da, dost məclislərində də həmişə deyirəm: Dağlıq Qarabağın xoşbəxtliyidir ki, o, Azərbaycanın tərkibindədir.

Bu sözlərin nə dərəcədə səmimi deyildiyi qoy Gevorkovun vicdanında qalsın.

... Şuşada o axşamkı ziyafətdə isə Heydər Əliyevin iti gözləri birdən sezdi ki, Lütfiyar İmanov məclisdə yoxdur.

– Bəs Lütfiyar hanı? – deyə xəbər aldı. Gedib çağırdılar, Lütfiyar gəldi. Gözlərini ovuşdururdu.

Heydər Əliyev:

– Lütfiyar, deyirlər gedib yatmısan, – dedi.

Lütfiyar:

– Heydər Əliyeviç, yuxumda sizi görürdüm, – dedi.

Heydər Əliyev qəhqəhə çəkdi.

Fikir vermişdim ki, ziyalılar olan məclislərdə o, həmişə özünü daha rahat, daha sərbəst, daha şən hiss edirdi, ərk elədiyi adamlarla zarafatlaşmağı xoşlayırdı.

Şuşadan qayıdanda Bakı vağzalında birdən gözəl bəstəkarımız, ovaxtkı mədəniyyət naziri Rauf Hacıyevi soruşdu:

– Rauf Hacıyev haradadır? – dedi. – Eşitmişəm Dağlıq Qarabağda siyasi sığınacaq istəyib...

Başqa bir vaxt Bakı vağzalında başqa bir sözü yadıma düşür.

Hər dəfə rayonlara səfərə çıxanda yazıçılardan da bir dəstə özü ilə aparırdı. Bir səfərinə mən də dəvət olunmuşdum. Bakı vağzalında perronda bizimlə söhbət edirdi. Birdən gözləri aktyor Nodar Şaşıqoğluna sataşdı.

– Sən də buradasan? – deyə soruşdu, – sən ki, siyahıda yoxdun.

Nodar:

– Heydər Əliyeviç, xahiş edirəm məni də özünüzlə aparasınız. Sizi müşahidə etmək istəyirəm. Bəlkə, haçansa sizin rolunuzu oynamalı oldum.

Heydər Əliyev:

– Mənim rolumu oynamaq lazım deyil. Mən öz rolumu çox yaxşı oynayıram»[89].

* * *

90-cı illərdə, xüsusən respublikada vəziyyət bir qədər sabitləşəndə, onun çox sevdiyi yaradıcı ziyalıların nümayəndələri ilə dost məclisləri davam etdi. İncəsənət xadimləri arasında, sözsüz ki, onun ən çox sevdiyi insanlardan biri, doğma oğlu kimi himayə etdiyi Müslüm Maqomayev idi.

■ *Müslüm Maqomayevlə söhbətdən:*

**«E.A. – Heydər Əliyev ünsiyyət saxlamağı bacaran adam idi, incəsənət xadimləri ilə təmasda olmağı çox sevirdi, bütün premyeralarda, konsertlərdə olurdu, xarici ölkələrin mədəniyyət xadimlərini qəbul edir, Tahir**

[89] Anar. Unudulmaz görüşlər. S. 80-81.





**Salahov, Mstislav Rostropoviç, Nikas Safronovla şəxsən dostluq edirdi... Nədən yaranırdı bu meyil? Partiya çərçivələri onu sıxırdı?**

**M.M.** – Bizim incəsənət aləmi ilə təmasda olmağı sevirdi, buna həvəsi vardı. Bəs mənim ad günlərimi necə keçirirdi! O, gözəl bilirdi ki, mənim üçün fərqi yoxdur – bu günü qeyd edəcəyik, ya yox. Mənim üçün əsas o idi ki, o yanımdadır, ünsiyyətdə ola biləcəyik. Mən hər il gəlirdim, gələ bilməyəndə isə o inciyirdi (söhbət 90-cı illərdən, Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıdandan sonrakı vaxtdan gedir – *E.A.*).

«Deməli, deyir, ayın filanında yığışarıq». Sonra vaxt yetişəndə zəng vurub soruşur: «Yaxşı, mən mədəniyyət xadimlərini yığım?» Mən gülürəm: «Heydər Əliyeviç siz hələ məndən soruşursunuz? Mən ki sizin qonağınızam!» – «Yox, axı ad günü sənindir!»

Zuğulbaya, şəhərin kənarındakı rezidensiyaya gəlirik. Heydər Əliyev yanımıza gəlməyincə bağçada gəzirik. O, çox adamları dəvət edirdi – tanınmış bəstəkarları, rəssamları, yazıçıları. Mənə yaxınlaşıb soruşurlar: «Bilmirsən, prezident bizi bu gün bura niyə yığıb?» – «Xəbərim yoxdur», – deyirəm. Sonradan Heydər Əliyev elan edəndə ki, məclisin «səbəbkarı» Müslüm Maqomayevdir və onun ad günüdür, onlar mənə əyri-əyri baxırdılar: ay xatakar, biz ondan soruşurduq, o isə çiyinlərini çəkirdi.

**E.A. – Necə keçirdi bu məclislər?**

**M.M.** – Deyirdik, gülürdük, zarafatlaşırdıq, cürbəcür əhvalatlar danışırdıq, o, işimizlə maraqlanırdı, yeri gələndə bəzi problemləri həll edirdi. Onun üçün bu istirahət idi, eyni zamanda həm də iş idi, yəni ziyalılarla görüşürdü. Necə deyərlər, həm ziyarət, həm ticarət...»

Heydər Əliyev Müslümü həddən çox sevirdi, onun bütün konsertlərində olmağa çalışırdı. O, müğənninin 1997-ci il oktyabrın 17-də «Respublika» Sarayında keçirilən yubiley gecəsində iştirak etdi. O vaxt böyük müğənninin anadan olmasının 55, səhnə fəaliyyətinin 35 illiyi qeyd olunurdu. Konsertdən

sonra çıxış edən Heydər Əliyev onun şərəfinə gözəl nitq söylədi. Bəlkə də, o hələ heç kimin haqqında bu cür heyranlıqla, bu dərəcədə qürurla danışmamışdı:

«...Bəli, biz bilməliyik, özü də həmişəlik bilməliyik ki, bax, burada dayanan Müslüm Maqomayev nadir və bənzərsiz müğənnidir, Allah vergisidir, ancaq eyni zamanda özünün gərgin, yorulmaq bilməyən zəhməti ilə cilalanmış istedaddır... Onu fərqləndirən bir cəhət də istedadının çoxşaxəli olmasıdır. Onun gözəl səsi, əla ifa texnikası var. O, gözəl oxuyur, musiqi alətlərində gözəl çalır, çoxlu gözəl mahnılar bəstələyib. Gözəl şəkil çəkməsinə, heykəltaraşlıq istedadına gəldikdə, bu da məlumdur. Görün, bir insanda nə qədər çoxşaxəli, böyük istedad cəmləşibdir. Sevinirik ki, bizim Azərbaycanın belə övladı, Azərbaycan musiqisinin, Azərbaycan incəsənətinin belə layiqli nümayəndəsi var...

Bilirsiniz, böyük incəsənət ustaları bəzən cəmi bir əsər yaradaraq tarixi şəxsiyyətə çevrilirlər. Əgər Müslümün heç nəyi olmasaydı da, mənim fikrimcə o, təkcə «Azərbaycan» mahnısına görə ən yüksək hörmətə, ən böyük ehtirama layiqdir»[90].

2002-ci ilin sentyabrında Müslüm Maqomayevin 60 illiyi bayram edilirdi, Heydər Əliyev yenə də onun yanında idi. Sentyabrın 6-da isə Heydər Əliyev öz sevimli müğənnisinə Azərbaycanın ən yüksək mükafatını – «İstiqlal» ordenini təqdim etdi.

Müslüm də öz növbəsində ona olan sevgisini nümayiş etdirməyə çalışırdı. Heydər Əliyevin anadan olmasının 75 illiyi ərəfəsində Müslüm ona öz çəkdiyi peyzajı bağışladı. Bir müddət sonra isə prezidentin portretini hazırladı. Bununla əlaqədar prezident dedi: «...Portret mənim üçün çox dəyərlidir... birincisi onu Müslüm çəkib, ikincisi isə bilirəm ki, o bunun üzərində uzun müddət çalışıb. Deməli ürəkdən işləyib, hisslərini əks etdirib».

[90] Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin məşhur müğənni və bəstəkar Müslüm Maqomayevin yubiley gecəsində nitqi – Respublika Sarayı, 17 oktyabr 1997-ci il, http://library.aliyev-heritage.org, ƏSƏRLƏRİ / MƏDƏNİYYƏT





Heydər Əliyevi məşhur heykəltaraş Ömər Eldarovla uzun illərin dostluğu və qarşılıqlı mehriban münasibətlər birləşdirirdi. Bu barədə Ömər müəllim kitabımın 2-ci hissəsində söhbət açacaq. Heydər Əliyev öz təşəbbüsü ilə yaratdığı Milli Rəssamlıq Akademiyasına rəhbərlik etməyi məhz ona həvalə etdi.

Heydər Əliyev öz qərarını Ömər Eldarovun yanında elan edəndə heykəltaraş özünü saxlaya bilməyib «ura!» qışqırdı. Çünki rəssamların, heykəltaraşların, digər əlaqəli ixtisasların nümayəndələrinin Moskva, Leninqrad, yaxud Tbilisidə ali peşə təhsili almaq üçün nə qədər əziyyət çəkdiyini o hamıdan yaxşı bilirdi.

### ■ Ömər Eldarovun xatirələrindən:

«Bu tamamilə yeni iş, yeni vəzifə idi. Bir çoxları deyirdi ki, prezident az qala məni nəzərdə tutub Akademiyanın yaradılması haqqında fərman imzalayıb. Cəfəngiyyatdır. O hələ KP MK-nın birinci katibi olanda SSRİ Rəssamlıq Akademiyasının səyyar sessiyası Bakıda rəssamlıq üzrə ali məktəb yaradılmasına həsr edilmişdi. Lakin moskvalılar məsləhət görmədilər. Dedilər: «Niyə birdən-birə ali məktəb, İncəsənət Universitetinin nəzdində fakültə açın». O vaxt elə də etdilər. Rəssamlıq fakültəsi açdılar. Lakin Heydər Əliyev bu ideyanı yaddan çıxarmadı. Və günlərin bir günü, 2000-ci ildə, o ali məktəblər haqqında qərarda gözlənilmədən belə bir əlavə etdi: «İncəsənət Universitetinin rəssamlıq fakültəsi və Ə.Əzimzadə adına rəssamlıq məktəbinin bazasında Azərbaycan Rəssamlıq Akademiyası yaradılsın. Rəssamlıq məktəbi Akademiyanın nəzdində kollec kimi fəaliyyət göstərsin».

Sonra mənə dedilər ki, bir çox namizədlərin uzun müzakirəsindən sonra Heydər Əliyev Akademiyanın rektoru vəzifəsini mənə təklif etmək qərarına gəlib. Bununla əlaqədar biz tez-tez görüşürdük. Demək lazımdır ki, Zərifə xanımın doğum günü və rəhmətə getdiyi gün mən həmişə onun abidəsinin yanında olurdum. Belə bir özünəməxsus ənənə yaranmışdı. Biz onunla abidə haqqında da danışırdıq, məsələn, nəyisə düzəltmək, qaydaya salmaq. Həmişə məndən soruşardı: «Hə, nə sualların var? Nə təkliflər var?». Məndə adətən

Akademiya ilə bağlı suallar olurdu, problemlərdən, maliyyələşmədən danışırdıq. Bizə 30-cu illərdə tikilmiş texniki-peşə məktəbinin binası verilmişdi, onu təmir edirdik. Əslinə qalsa, tikili adicə anbar idi. Biz orada yenidənqurma işləri apardıq, Heydər Əliyeviç bütün bu illər bizə kömək edirdi, işləri nəzarətdə saxlayırdı. Söhbətlərimizdə işlərin necə getməsi ilə maraqlanırdı.

Çox əlamətdar və onun üçün xarakterik olan daha bir epizod. Mən başa düşdüm ki, Nazirlər Kabineti işimizi əngəlləyir, tikinti işlərinin öhdəsindən gələ bilməyəcəyik, pul yoxdur. Belə olanda Heydər Əliyevdən xahiş etdim ki, məni qəbul etsin. O vaxt o artıq ağır xəstə idi və müalicəyə gedirdi, sonra məlum oldu ki, sonuncu dəfə. Bu artıq onun «Respublika» Sarayında yıxılmasından sonra idi. O məni qəbul etdi və soruşdu: «Nə problemlər var?». Mən hər şeyi ona açıq dedim: bizə pul lazımdır, ancaq Nazirlər Kabineti pul vermir, biz də sizin başladığınız işi qurtara bilmirik. Qəbula yazılanda mən əvvəlcədən söhbətin nə barədə olacağını demişdim. O mənə cavab verdi ki, hər şey qaydasındadır. «Hər şey həll olunub». O mənim yanımda maliyyə naziri Əvəz Ələkbərova zəng vurdu. Sonra dedi: «Mənə məruzə edirlər ki, siz həddindən çox istəyirsiniz». – «Bəli, – deyirəm, – orada iş də çoxdur». O dedi: «Bir milyondan çox verə bilməyəcəyik». Mən isə deyəsən, milyon yarım istəyirdim. «Yaxşı, bir milyona biz hər şeyi edərik». O, Əvəz Ələkbərova göstəriş verdi ki, bütün məsələləri həll etsin, kimi lazımdır cəlb etsin. «Görün sizinlə necə böyük bir iş gördük, – Heydər Əliyev söhbəti yekunlaşdırdı. – Akademiyanı mənə tərif edirlər, yaxşı işləyir». O mənə gah «sən», gah «siz» deyirdi. Mən isə ona həmişə «siz» deyə müraciət edirdim.

Səhəri gün məni yenə də çağırırlar. Ən maraqlısı da elə budur. Heydər Əliyev öz xalqını necə də gözəl tanıyırdı, xalqdan da qabaq, bu ağrılı nöqtələri, bütün bu məmur bürokratiyasını. O məni prezident katibliyinin rəisi Dilarə Seyidzadə və şöbə müdiri Fatma Abdullazadə ilə bir yerdə qəbul etdi. Televiziya işçiləri onun yanına girib-çıxırdılar, fikirləşdim ki, yəqin, hansısa vacib qonağı gözləyirlər, Dilarə xanım isə dedi ki, bütün bunlar məndən ötrüdür. Bu-





dur, Heydər Əliyevin kabinetinə daxil oluram. Əgər dünən Heydər Əliyeviçin əynində «vodolazka» idisə, bu gün, görürəm, kostyum geyinib, qalstuk taxıb. Mətbuat nümayəndələri yığıldı. Və bir gün əvvəl olanlar yenidən təkrarlanır. Yəni Akademiyaya vəsait ayrılması məsələsi həll olunur. O bütün bunları təkrar edir, lakin daha rəsmi, qərar çıxarmaqla. Yalnız o vaxt başa düşdüm ki, Heydər Əliyev bunu ona görə efirə vermək qərarına gəlib ki, o gedəndən sonra işi batırmaq cəhdləri olmasın. Bənzərsiz insan idi!».

1997-ci ildə ABŞ-də olarkən Heydər Əliyev tanınmış heykəltaraşın evinə zəng vuraraq onu 70 illiyi münasibətilə təbrik edir, ən yüksək dövlət mükafatı – «İstiqlal» ordeni ilə təltif etdiyini deyir.

Onun iki gözəl opera müğənnisi – Fidan və Xuraman Qasımova bacıları ilə münasibətləri xüsusi simpatiya və sevgi ilə seçilirdi. Bacılar H.Əliyevi «onları qoruyan mələk» adlandırırdılar, o isə Fidan və Xuramanın yaradıcılığını diqqətlə izləyir, əl tutur, yeni uğurlara ruhlandırırdı. 2-ci kitabda həm Fidan xanım, həm də Xuraman xanımın çox qiymətli xatirələri durur.

«Heydər Əliyev: lider, siyasətçi, dost» kitabının müəllifləri yazır ki, bir dəfə Üzeyir Hacıbəylinin «Koroğlu» operasının yeni tamaşasının premyerasında Heydər Əliyev Qasımovalar ailəsinə yaxınlaşıb Fidandan soruşur: «Bəs nə vaxt sizi Nigar rolunda görəcəyik?». Fidan tutulur, bilmir nə desin. Prezident əlavə edir: «Gözləyəcəyik». Bundan sonra Fidan Nigar partiyasını öyrənməyə başlayır.

«...Olduqca çətin Nigar partiyası onun həyatında bu janrda birinci iş oldu. Tamaşanın lent yazısına baxan prezident onun oxuması və oyunu barədə tərifli sözlər deyir. İllər sonra görüşdükləri vaxt o, Fidanın ömür boyu qulağında saxladığı sözləri dedi: «Üzeyir Hacıbəyli Koroğlu partiyasını Bülbül üçün yazmışdı. Nigar partiyasını isə gələcək gözəl ifaçı arzulayaraq yazmışdı. Fidan Qasımova dahi bəstəkarın bu arzusunu gerçəkləşdirdi...»[91]

[91] М.Забелин, В.Татаренко. Гейдар Алиев: лидер, политик, друг. Баку, 2005. С. 77-78.

Heydər Əliyevin göstərişi ilə Qasımova bacıları ən mühüm hökumət konsertlərinin iştirakçıları sıralarına salınırdı, onları özü ilə xarici səfərlərə aparırdı, bütün solo konsertlərinə gəlirdi. Fidan və Xuramana 1998 və 2001-ci illərdə yüksək dövlət təltiflərini – «Şöhrət» ordenini öz əli ilə təqdim etdi.

İkinci dəfə Azərbaycana qayıdandan sonrakı dövrdə Heydər Əliyev özünün bütün sevimli artist, musiqiçi, rəssam və yazıçılarını «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif etdi. Əlamətdar haldır ki, o, xəstəlik üzündən evdən bayıra çıxa bilməyən tanınmış mədəniyyət xadimlərinə şəxsən baş çəkir və mükafatları onlara təqdim edirdi.

Heydər Əliyevi tanınmış yazıçı, dramaturq Rüstəm İbrahimbəyovla səmimi dostluq münasibətləri bağlayırdı. Bu kitabın müəllifi ilə şəxsi söhbətində dramaturq dahi şəxsiyyətlə bağlı xatirələrini bölüşdü.

## ■ Rüstəm İbrahimbəyovla söhbətdən:

**«E.A. – Sizin Heydər Əliyevlə münasibətlərinizin uzun tarixi var. Siz onu müxtəlif mərhələlərdə görmüsünüz: şöhrətin zirvəsində də, ağır günlərində də. Sizcə, bu insanın unikallığı nədən ibarətdir?**

**R.İ.** – Heydər Əliyev, həqiqətən, mənim rastlaşdığım insanlar arasında ən unikal, miqyaslı, çoxcəhətli, özündə ən ziddiyyətli keyfiyyətləri ehtiva edən şəxsiyyətlərdən biridir.

...Sovet vaxtı o, bir dəfə məndən soruşdu ki, Bakıda Daşkənddəkinə bənzər beynəlxalq kinofestival keçirmək olarmı? Cavab verdim ki, bu cür qərarlar Siyasi Büro səviyyəsində qəbul edilir. Hətta Daşkənd festivalı iki ildən bir keçirilir. Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıdanda mən ona, müstəqil Azərbaycanın Prezidentinə müraciət etdim, söhbətimizi yadına saldım və üç ildən sonra dünya kinosunun yüzilliyi ilə əlaqədar birinci Bakı Beynəlxalq kinofestivalı keçirildi.





Sonradan festivalın maliyyələşdirilməsini Amerika tütün şirkəti «Filipp Moris» öz üzərinə götürdü. Lakin iki ildən sonra onu Azərbaycan bazarından sıxışdırdılar, mən isə artıq gələcək festivalın anonsunu vermişdim. Odur ki, kömək üçün yenidən prezidentin yanına getməli oldum.

– Sənə nə qədər lazımdır? – Heydər Əliyev soruşdu.

Mən məbləği manatla dedim.

– Dollarla bu nə qədər olacaq?

Mən məbləği ona dollarla dedim:

– 100 min.

O təəccübləndi:

– Niyə belə çox?

– Bu çox deyil, bu çox azdır.

Bir də ona dedim ki, «Respublika» Sarayında aparatura pis gündədir, onu dəyişmək lazımdır.

– Bəs bunun qiyməti nə qədər olacaq?

– Yarım milyon dollar, – dedim.

– Nə danışırsan, bizim bu qədər pulumuz yoxdur. 100 mini isə sənə verərik.

– Zəhmət olmasa maliyyə nazirinə zəng vurun, – mən xahiş etdim.

– Zəng edərəm, – məni arxayın etdi. – Narahat olma.

– Xahiş edirəm, mənim yanımda zəng edin. Hər şey tükdən asılıdır.

O, narazı halda mənə baxdı, dəstəyi qaldırıb dedi:

– Rüstəm İbrahimbəyov sənə müraciət edəcək, festival üçün ona pul verərsən.

Festivalın taleyi maliyyə nazirinin qəti imtinası ilə yekunlaşan bir neçə aylıq danışıqlardan sonra bir zənglə həll olundu. Mən getmək üçün ayağa qalxdım, ancaq birdən özüm də gözləmədiyim halda dedim:

– Heydər Əliyeviç, olar sizi öpüm?

– Niyə? – o, təəccüblə soruşdu.

– Mən müxtəlif ölkələrə hörmətli adamlara dəvətnamələr göndərmişəm, siz kömək etməsəydiniz biabır olacaqdım.

Ona yaxınlaşdım və o, yanağını mənə tərəf tutdu.

Bir ildən sonra isə Bakı Beynəlxalq festivalının ənənəvi olması barədə fərman imzaladı.

O hər il açılış mərasiminə gəlirdi, festivalın qonaqları ilə görüşürdü. Nə ondan əvvəl, nə də sonra dövlət rəhbərinin fəaliyyətinin bu sferasını onun qədər dərindən heç kim dərk edə bilmirdi. O illərdə Azərbaycan informasiya blokadasında idi. Heydər Əliyev bilirdi ki, belə tədbirlər blokadanın yarılmasında effektiv üsullardan biridir. Axı o vaxt dünya kinematoqrafiyasının qaymaqları Bakıya gəlirdi. Heydər Əliyev qonaqlarımızda silinməz təəssürat yaradırdı...»

Heydər Əliyevin bütün ömrü boyu dostluq münasibətlərində olduğu yaradıcı ziyalılardan biri də böyük Azərbaycan bəstəkarı, 26 yaşında möhtəşəm əsər – «Məhəbbət əfsanəsi» baletini yazan və belə gənc vaxtında dünyada şöhrət qazanan Azərbaycan bəstəkarı **Arif Məlikov** idi. Arif müəllim Heydər Əliyevin iqamətgahında Azərbaycan bəstəkarlıq məktəbinin qaymaqlarının iştirak etdiyi məclisləri xoş duyğularla xatırlayır. Heydər Əliyev dəfələrlə Bakıda, Moskvada onun premyeralarında iştirak etmişdi, «Məhəbbət əfsanəsi»nə isə bəlkə də, bir on dəfə baxmışdı. Hər dəfə də bənzərsiz Məlikov-Qriqoroviç tandeminə heyranlığını ifadə edirdi.

Bir dəfə Arif müəllim özünü pis hiss elədi və Mərkəzi Klinik Xəstəxanaya yollandı. Onu müayinə etdilər, dedilər ki, təcili olaraq stend qoymaq lazımdır. Ancaq o harada olmağını heç ailəsinə də deməmişdi. İndi budur, əməliyyata gedəndə ona dedilər ki, baş prezident Heydər Əliyev məsələdən xəbərdardır və səhiyyə nazirini «kömək» üçün xəstəxanaya göndərib. Yüksək rütbəli məmur bəstəkarın səhhəti haqqında prezidentə məruzə etmək üçün hər gün gəlirdi. Xəstəxanadan çıxanda Arif müəllim müalicə haqqını ödəmək istəyəndə ona dedilər ki, bu məsələ artıq həll olunub. Arif müəllim onun cərrahiyyə əməliyyatı olunması haqqında prezidentə kimin xəbər çatdırdığını bilmir. Axı ən yaxın adamlarının da bu işdən xəbəri yox idi. Bir dəfə isə... Yaxşısı budur, sözü Arif Məlikovun özünə verək:





Heydər Əliyev yaradıcı ziyalılarla ünsiyyətdə olmaqdan zövq alırdı. Soldan sağa: Qabil, Anar, S.Rüstəmxanlı, H.Əliyev, Y.Səmədoğlu, E.Quliyev, M.İbrahimbəyov, Z.Yaqub.



Prezidenti Bolqarıstana və Rumıniyaya müşayiət edən yazıçılarla xatirə şəkli. Soldan sağa: Fikrət Qoca, Həsən Həsənov, Rəfiq Zəka, Vəfa Quluzadə, Elmira Axundova, Səyavuş Məmmədzadə.



Rusiya rəssamı Nikas Safronov Heydər Əliyevə onun həyat yoldaşının – Zərifə xanımın portretini təqdim edir.



Heydər Əliyev və Azərbaycan Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov. Solda – İran rəssamı Vədud Moəzzen Səlim.



Heydər Əliyev bütün teatr premyeralarında olurdu. Prezident Azərbaycanın...



... və Rusiyanın yaradıcı kollektivləri ilə.



■ Heydər Əliyev öz sevimliləri – Fidan və Xuraman Qasımova bacıları ilə





■ Heydər Əliyev ilk Azərbaycan balerinası Qəmər Almaszadə ilə



■ Heydər Əliyev Maqsud İbrahimbəyovun yubileyində. 14 may 1995-ci il.



Heydər Əliyev "İslam sivilizasiyası Qafqazda" beynəlxalq konfransının açılışında. Sağda – baş nazirin müavini Elçin Əfəndiyev və Şeyxülislam Allahşükür Paşazadə.



Heydər Əliyev Bakı Filarmoniyasına tanınmış Azərbaycan şairi Fikrət Qocanın yubileyinə gəlib. 1995-ci il.



Heydər Əliyev və görkəmli Azərbaycan şairi Bəxtiyar Vahabzadə



Heydər Əliyev yazıçıları özü ilə səfərə aparmağı xoşlayırdı. Soldan sağa – Yusif Səmədoğlu, Maqsud İbrahimbəyov, Anar



■ Heydər Əliyev "Şərq-Qərb" beynəlxalq kinofestivalın iştirakçıları ilə





■ Heydər Əliyev rəsm sərgilərini ziyarət etməyi xoşlayırdı. Ömər Eldarovla...



■ ...və Fərhad Xəlilovla



■ Azərbaycanın Xalq şairi Mirvarid Dilbazi prezidentə öz şeirlərini oxuyur.



■ "İstiqlal" ordeni ilə təltif edilmiş Azərbaycanın ədəbiyyat və incəsənət xadimləri ilə xatirə şəkli



■ Heydər Əliyev rus baletinin əfsanəsi Maya Plisetskaya ilə



■ Jurnalist Svetlana Mirzəyeva Heydər Əliyevə onun gənclik illərində çəkdiyi rəsmi təqdim edir.



■ Heydər Əliyev Yelena Obraztsova və Xuraman Qasımova ilə



■ Heydər Əliyevin hökumət mükafatlarına layiq görülmüş ədəbiyyat, elm və incəsənət xadimləri ilə xatirə şəkli



■ Heydər Əliyev ona "Jurnalistlərin dostu" mükafatının təqdimatında. Mart 2002-ci il.



■ Bu gözəl əsər nümunəsinə Heydər Əliyev həmişə xüsusi incəliklə yanaşırdı.



■ Naxçıvanda Hüseyn Cavidin məqbərəsi



■ Heydər Əliyev və Hüseyn Cavidin qızı – Turan Cavid – dahi Azərbaycan şairinin məqbərəsində



■ Səfərlərin birində məşhur Rostropoviç-Vişnevskaya cütlüyü Bakıya yeni doğulan körpələr üçün gepatit C əleyhinə 1 mln dollar həcmində vaksin gətirmişdilər.





■ Heydər Əliyev Maqomayev-Sinyavskaya cütlüyü ilə görüşməyi çox sevirdi.





«O vaxt mən səkkizinci simfoniya üzərində düşünürdüm. Ümumiyyətlə, böyük simfoniya yazmağa hazırlaşarkən insan istər-istəməz əbədiyyət haqqında düşünür. Məhz bu ülvi düşüncələrlə yaşadığım günlər idi. Bu əbədi mövzuda nə yazacağımı hələ aydınlaşdırmamışdım. Lakin beynimdə əbədiyyəti ehtiva edən nəsə yetişirdi. Yəni bu böyük mövzunun havası məni vururdu. Elə bu ərəfədə mənə zəng elədilər ki, Heydər Əliyev Səudiyyə Ərəbistanına səfərə hazırlaşır, sizin də getməyinizi istəyir. Təbii ki, razılıq verdim. Məkkədə və Mədinədə bütün vacib dini mərasimlərdə iştirak etdik. Onu da deyim ki, mən hələ neçə il əvvəl Quranın rus dilində bütün tərcümələrini oxumuşdum. Bir müsəlman kimi İslam dini haqqında kifayət qədər məlumatlı idim. Lakin bilməklə görməyin arasında fərq çox böyükdür. Bu müqəddəs torpaqdakı ab-havadan, elə bil, insanın qəlbinə işıq düşür. Mən buradakı auranı, onun sehrini dilə gətirməyə çətinlik çəkirəm. Bax, belə bir məqamda birdən Heydər Əliyev mənə dedi:

– Bilirsən, səni niyə bura gətirmişəm? Mən istəyirəm ki, sən burada ruhlanasan, bu ilahi ab-havadan qidalanasan və böyük bir simfonik əsər yazasan.

Bu söz məni tutdu. Gördüm ki, yox, bu sözü yalnız dahilər, nadir insanlar deyə bilər. Bu düşüncədə böyük işıq vardı.

Mən onda Heydər Əliyevə cavab vermədim».

Bakıya qayıdandan sonra bəstəkar simfoniya üzərində işləməyə başlayır. Mstislav Rostropoviçin ad günü münasibətilə keçirilən konsertdə Arif Məlikov bu böyük musiqiçiyə sonata və çəkdiyi bir rəsm əsərini bağışlayır. Çıxış edəndə isə deyir ki, hazırda böyük simfoniya üzərində işləyir və həmin simfoniya prezident Heydər Əliyevə həsr olunacaq. Ondan sonra prezident hansı tədbirdə Arif Məlikovu gördüsə mütləq soruşurdu:

– Mənim simfoniyam necə oldu?

Hətta Arif Məlikova «İstiqlal» ordeni təqdim olunanda da təbrik əvəzinə prezident ona sualla müraciət etdi:

– Mənim simfoniyam necə oldu?

...Nəhayət ki, çox mürəkkəb bir əsər hazır oldu. Filarmoniyanın da əsaslı təmiri başa çatdı. Əsərin ilk ifası 2003-cü ilin baharında – prezidentin ad günündə nəzərdə tutulmuşdu. Lakin Heydər Əliyev ağır xəstələndi və ona sevimli bəstəkarının əsərini dinləmək qismət olmadı. Arif Məlikovun «Əbədiyyət» adlanan səkkizinci simfoniyası bir ildən sonra – 2004-cü il mayın 10-da, Ümummilli Liderin ad günündə ilk dəfə ifa olundu[92]...

90-cı illərin əvvəlində Türkiyəyə işləməyə gedən Azərbaycan pianoçusu və bəstəkarı Zöhrab Adıgözəlzadə mənimlə maraqlı xatirələrini bölüşdü. Onu Heydər Əliyevlə həmişə dostluq telləri bağlayırdı. Xatirələrdən biri Heydər Əliyevin Azərbaycanda partiya rəhbəri olduğu son dövrə aiddir. O vaxt o, Vaqif poeziya günlərində iştirak etmək üçün Şuşaya gəldi, Zöhrab Adıgözəlzadə isə açıq havada təşkil olunmuş konsertdə iştirak etdi.

## ■ Zöhrab Adıgözəlzadənin söhbətindən:

«**Z.A.** – Cıdır düzündə xeyli adam toplaşmışdı. Mənim üçün çıxış etmək xüsusilə xoş idi, çünki bilirdim: Heydər Əliyev fortepiano musiqisini xoşlayır. Hər şey improvizə edilmiş səhnədə baş verirdi. Ora royal gətirmək, onu kökləmək lazım idi. Sonra royalı götürmək lazım idi, çünki məndən sonra həmin o səhnədə rəqs ansamblı çıxış etməli idi. Başa düşürdüm ki, bunu Heydər Əliyevin xətrinə edirlər. İfa üçün mən Fikrət Əmirovun «Miniatürlər»ini seçdim, 12 pyesdən altısını çalmağı qərara aldım. Onlar ritm, axıcılıq, ürəyəyatımlıq baxımından bir-birindən fərqlənirlər. Dinləyicilərin çoxu azərbaycanlılar idi, onlar Əmirovun musiqisini sevir, başa düşürlər. Üstəlik, fikirləşdim ki, bu pyeslər açıq səma altında çox yaxşı səslənər.

Konsert sona çatandan sonra, «Şuşa» mehmanxanasında təşkil edilən kokteyldə bizim çox maraqlı söhbətimiz oldu. Heydər Əliyev mənə yaxınlaşıb dedi:

---

[92] Mədəniyyət. Xüsusi buraxılış. 2008. May.





– Təbiətin qoynunda Fikrət Əmirovun əsərləri necə də gözəl səsləndi. Bəstələyəndə sanki bunu qabaqcadan görmüşdü.

– Əlbəttə, Heydər Əliyeviç, bütün böyük bəstəkarlar təbiətə çox bağlı olublar. Çaykovskini yada salmaq kifayətdir. O, bir çox əsərlərini rus təbiətinin təsiri altında yazmışdı. Yaxud Amerikaya köçüb rus təbiəti üçün darıxan Sergey Raxmaninov. Əsərlərində çatışmayan məhz bu idi!

**E.A. – Qəribədir ki, musiqi təhsili olmayan Heydər Əliyev Fikrət Əmirovun pyeslərinin məhz bu cəhətinə diqqət yetirdi.**

**Z.A.** – Söhbətimiz də, əslinə qalsa, elə bundan başladı. O dedi ki, zalda Əmirov musiqisi tam başqa cür səslənir. Təbiətin qoynunda daha təsirlidir. Bu olduqca incə müşahidə idi. Birdən o soruşdu:

– Zöhrab, bəs sən burda yarıuçmuş kilsəni gördün?

– Nəinki gördüm, hələ hər tərəfini gəzdim də. Çox pis vəziyyətdədir.

– Necə bilirsən, orda kamera musiqisi zalı düzəltmək olar?

– Əlbəttə, olar. Mən xaricdə də, Sovet İttifaqının müxtəlif yerlərində də muzeylərdə, kilsələrdə dəfələrlə çalmışam. Oradakı həm akustik şərait, həm mənəvi ab-hava musiqini daha dərindən duymağa məcbur edir. Orada axı, hər şeydən əlavə, ovallıqdan savayı künclər də var, onlar akustika üçün lazımdır.

– Hansı künclər? – o, təəccüblə soruşdu.

– Bu, akustika üçün çox vacibdir. Çoxları elə bilir ki, zal əgər ovaldırsa, orada mütləq özü-özündən səs «yığılır» və əks-səda əmələ gəlir. Lakin bu heç də yaxşı hal deyil. Əgər künclər yoxdursa, onları xüsusi olaraq düzəldirlər. Səsin keyfiyyətini yaxşılaşdırmaq üçün hətta sütunlar qoyurlar. Buradakı kilsədə isə hər şey var. Şuşada kamera musiqisi zalı yaratsaq orada festivallar, Bəstəkarlar İttifaqının plenumlarını keçirmək, qonaqlar dəvət etmək olar.

– Düşünmək lazımdır, – dedi.

Müəyyən vaxtdan sonra həmin kilsənin kamera musiqisi zalı üçün rekonstruksiya edilməsi barədə qərar çıxdı. Daha bir müddətdən sonra layihə hazır oldu. Mən raykom katibinə zəng vurub orada kimin işləməsini soruşdum.

– Ermənistandan olan qrup, – deyə cavab verdi.

Bu məni bir qədər təəccübləndirdi. Bəlkə, onlar tikilini erməni kilsəsi kimi saxlamaq istəyirlər?

Lakin rekonstruksiya başa çatdırılmadı. Heydər Əliyev getdi, sonra isə bütün bu hadisələr başlandı.

**E.A. – Siz başqa bir kuryoz hadisə barədə danışmadınız: siz Fikrət Əmirovun əsərlərini çalıb qurtarar-qurtarmaz güclü leysan başladı. Camaat çox dözə bilmədi. Hamı avtobuslara qaçışdı. Cıdır düzündə isə yağışın altında Heydər Əliyev və həyat yoldaşı, bir də bəzi məmurlar qaldı.**

**Z.A.** – Mən çıxışımı başa vurana qədər Heydər Əliyev yerindən tərpənmədi».

*Heydər Əliyev xaricdə diaspor qarşısındakı çıxışlarında dəfələrlə bir incə mövzuya toxunub: o qeyd edib ki, yaradıcı ziyalıların nümayəndələrinin xaricə getməsini təbii hal kimi qarşılayır. Vurğulayıb ki, bu insanlar qardaş olan ölkələrdə – Türkiyədə, İranda, Kiprdə mədəni ənənələrin yaranmasına və inkişaf etməsinə kömək edirlər, bununla da Azərbaycanın və azərbaycanlıların xaricdə imicini yüksəldirlər. Gedənlərdən bəziləri Heydər Əliyevin xeyir-duası ilə vətənə qayıtdı, digərləri bura daha tez-tez gəlməyə başladılar və Bakıda keçirilən mədəniyyət tədbirlərinin «tamhüquqlu» iştirakçısı oldular. Heydər Əliyev Zöhrab Adıgözəlzadə kimi insanların qədrini bilir, onları qoruyurdu, başa düşürdü ki, dünyanın hansı nöqtəsində çalışmalarından asılı olmayaraq onlar Azərbaycanın milli sərvətidir.*

Heydər Əliyev öz yaradıcılığı ilə məhdudlaşmayan, maarifləndirmə ilə məşğul olan, xalqın milli ruhunu, köklərini, mənəvi dəyərlərini əks etdirən əsərlər yaradan mədəniyyət xadimlərini xüsusilə yüksək qiymətləndirirdi.





Prezident Anarın Azərbaycan xalqının keçmişi ilə bağlı əsərlərini yüksək dəyərləndirirdi. «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyinin keçirilməsi ilə bağlı komissiyanın iclasında H.Əliyev dedi:

«... Anarın xidmətlərini xüsusi qeyd etmək istəyirəm. Mənə belə gəlir ki, biz bu gün, müəyyən zaman keçəndən sonra Anarın bu sahədəki axtarışlarına, xidmətlərinə daha da yüksək qiymət verməliyik. Bəlkə də, Anar uşaqlar üçün Dədə Qorqud haqqında kitab yazanda, yaxud başqa kitablarını yazanda çoxları bunun nə qədər əhəmiyyətli olduğunu o dərəcədə dərk edə bilmirdilər. Amma indi biz artıq öz milli dəyərlərimizi, köklərimizi, tariximizi olduğu kimi təsvir etməyə çalışarkən vaxtilə atılmış belə addımların nə qədər qiymətli olduğunu dərk edirik. Mən Anarın bu münasibətlə yaratdığı filmi də yüksək qiymətləndirirəm»[93].

Heydər Əliyevin hələ 70-ci illərdə yaradıcılığını diqqətlə izlədiyi Azərbaycan «altmışıncılar»ı pleyadasının digər nümayəndəsi Elçin idi. Respublikanın rəhbərliyinə qayıdan H.Əliyev onu baş nazirin müavini təyin etdi, bütün humanitar istiqaməti ona tapşırdı.

2003-cü ildə prezident Elçini ölkənin ən yüksək mükafatı – «İstiqlal» ordeni ilə təltif etdi. Elçin müəllim özü mənə danışıb ki, bu onun üçün gözlənilməz olub, o, anadan olmasının 60 illiyi ərəfəsində hər hansı dövlət təltifi haqqında düşünmürdü. O qeyd edir ki, düzünə qalsa, bu barədə düşünmək belə yersiz idi: o vaxt hamını Ümummilli Liderin səhhəti narahat edirdi. «Hamımızın fikrində yalnız bu idi». Birdən gözlənilməz xəbər yayıldı: Heydər Əliyev nəinki yazıçını «İstiqlal» ordeni ilə təltif etmək qərarına gəldi, hətta onun ünvanına təbrik məktubu da göndərdi. Məktubda «ədəbiyyatımızda yeni mərhələ formalaşdıran» Elçinin çoxşaxəli istedadı qeyd olunurdu.

O ki qaldı Elçinin atası – Azərbaycan dramaturgiyasının klassiki İlyas Əfəndiyevə – o, 1994-cü ildə o dövr üçün ən yüksək mükafat olan «Şöhrət»

[93] Heydər Əliyev mədəni irsimizin keşiyində. I cild. S. 1819.

ordeninə layiq görülmüş ilk yazıçı oldu. Böyük dramaturqun vəfatından sonra Azərbaycan Dram Teatrında İ.Əfəndiyevin «Hökmdar və qızı» pyesinə baxan Heydər Əliyev tamaşadan sonra pərdə arxasına keçib aktyor və quruluşçularla görüşdü. Bu görüşdə o, dramaturqun yaradıcılığını çox gözəl təhlil edərək vurğuladı ki, İ.Əfəndiyevin əsərlərini Azərbaycan xalqının tarixinin mühüm səhifələrini əks etdirdiyinə görə dəyərləndirir. Prezidentin qeyd etdiyi kimi, İlyas Əfəndiyevin xidməti ondan ibarətdir ki, o «xalqımızı həm tarixə hörmət bəsləməyə sövq etmişdir və bu barədə xidmətlər göstərmişdir, tarixi bilmək üçün xalqımıza yardım etmişdir, eyni zamanda yaşadığımız zamanda mənəviyyat, əxlaq, insanlıq Vətənə və millətə sədaqət ruhunu aşılamışdır… hesab edirəm ki, o, xalqımız qarşısında öz borcunu, daha doğrusu, öz missiyasını şərəflə yerinə yetirmişdir, xalqımıza, mədəniyyətimizə, teatrımıza, ədəbiyyatımıza çox böyük irs, böyük sərvətlər qoyub getmişdir…»[94]

Bir müddət sonra Heydər Əliyev İlyas Əfəndiyevin xatirəsinin əbədiləşdirilməsi haqqında fərman imzaladı. Ümumiyyətlə, onun Azərbaycan mədəniyyəti xadimlərinə son dərəcə diqqətli münasibətinə heyran olmamaq mümkün deyil! Özü də ki, prezident onlar tərəfindən hər hansı cavab jesti barədə fikirləşmirdi, öz ünvanına mədhiyyələrin əleyhinə idi. O yalnız bir şey xahiş edirdi: Azərbaycan mədəniyyətinin şöhrəti naminə layiqli əsərlər yaratmaqda davam edin…

*Bununla bağlı Heydər Əliyevin Azərbaycan «kənd nəsri»nin görkəmli nümayəndəsi – yazıçı Əkrəm Əylisli ilə münasibətlərinin tarixinə toxunmaya bilmərəm. 1997-ci ildə nasirin anadan olmasının 60 illiyi münasibətilə prezident onu «Şöhrət» ordeninə, 1998-ci ildə isə «Azərbaycanın Xalq yazıçısı» adına layiq gördü, 2002-ci ildə isə ali dövlət mükafatı – «İstiqlal» ordeni ilə təltif etdi. Mən Heydər Əliyevin 70-ci illərdə gənc yazıçıları, o cümlədən Əkrəm*

[94] Heydər Əliyev: Müstəqilliyimiz əbədidir. Bakı, 2004, 12-ci cild. S. 156.





*Əylislini ədəbi «generalların» hücumlarından, konservatorların tənqidlərindən daim müdafiə etməsindən söhbət açmışam. Lakin Əylislinin öz münasibəti belə səmimiyyətlə seçilmirdi. Belə ki, Ayaz Mütəllibovun hakimiyyəti dövründə Əylisli tanınmış Azərbaycan yazıçıları arasında H.Əliyevi və onun sovet Azərbaycanına rəhbərlik metodlarını açıq tənqid edən yeganə adam idi. Sonralar, H.Əliyevin «ulduzu» siyasi səmada yenidən parlayanda, Əylisli «valı dəyişdi», yəni mən həmişə deyirdim: belə təcrübəli siyasətçi ölkənin rəhbərliyinə qayıtmalıdır. Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələndən sonra Əkrəm müəllim onu «hər gün bizim qaranlıq nöqtələrimizi işıqlandırmağa çalışan əziz, sevimli prezidentimiz» adlandırırdı. Əylisli hər dəfə Heydər Əliyevin əlindən növbəti mükafatı alanda təmtəraqlı nitq söyləyir və prezidentə öz sadiqlik hisslərini pafosla ifadə edirdi[95].*

*Təəssüf ki, Əkrəm Əylisli ikiüzlü adam imiş – həm həyatda, həm də ədəbiyyatda. Ümummilli Lider həyatdan köçəndən sonra Əylisli son dərəcə qərəzli, Azərbaycan xalqının milli heysiyyətini təhqir edən, onu oxuyan hər bir kəsdə hiddət doğuran «Daş yuxular» romanını yazdı. Onun son romanlarındakı Heydər Əliyev obrazının özü də oxuculara neqativ işıqda təqdim edilir. Əkrəm Əylislinin yaradıcılıq bioqrafiyasındakı bu qara ləkə ömürlük onun üstündə qalacaqdır.*

Heydər Əliyevlə Tahir Salahovun çoxillik dostluğu haqqında biz artıq danışmışıq. 90-cı illərdə Heydər Əliyev yenidən respublikanın rəhbərliyinə qayıtdıqdan sonra dünya şöhrətli rəssamın vətənə get-gəli daha da sıxlaşdı, uzunmüddətli oldu. O, Heydər Əliyevi xarici səfərlərdə müşayiət edir, Bakıda

[95] Bax: Heydər Əliyev mədəni irsimizin keşiyində. I cild. S. 164-165, 383, 410 və s.

və ölkənin regionlarında keçirilən irili-xırdalı bütün əhəmiyyətli tədbirlərdə iştirak edirdi. Məsələn, o, prezidentlə birlikdə Naxçıvana, Hüseyn Cavidin məqbərəsinin açılışına getməsini (29 oktyabr 1996-cı il) belə xatırlayır.

## ■ Tahir Salahovun söhbətindən:

«Hüseyn Cavidin məqbərəsinin açılışında mən prezidentlə birlikdə idim. Ertəsi gün, o, İran nümayəndə heyəti ilə görüşən zaman biz boş idik və mən kəndlərdən birinə getmək istədim.

Sirus Təbrizli, Zəlimxan Yaqub və mən Nehrəm kəndinə getdik. Cəlil Məmmədquluzadənin muzeyində olduq, fotoşəkillər çəkdik, sonra mənim xahişimlə kəndə döndük. Mənə bir rəssam kimi oranı görmək maraqlı idi. Qabaqlar mən Naxçıvanı çox gəzib-dolaşmışam, ancaq çoxdandı ki, bu yerlərdə olmurdum.

Gördük ki, kəndin bazar meydanında camaat yığışıb. Adamlar şikayət edirdilər ki, işıq yoxdur, iş yerləri yoxdur, nasoslar işləmir, su vurmur. Camaat bizi görüb başladı xahiş etməyə ki, problemlərin həllinə kömək edək. Biz də söz verdik.

Lakin Naxçıvanda biz Heydər Əliyevlə daha görüşmədik, təyyarədə də onunla danışmaq imkanımız olmadı. Odur ki, artıq Bakıda mən prezidentə zəng elədim.

– Hə, necədir, razı qaldın? – soruşdu.

– Bəli Heydər Əliyeviç, çox yaxşı idi. Yalnız orada başa düşdüm ki, Hüseyn Cavidin cənazəsini vətənə gətirməklə siz necə böyük iş görmüsünüz, o vaxta qədər emosional səviyyədə bunu dərk etmirdim. Siz bu böyük şairə qarşı edilmiş bütün haqsızlıqları düzəltdiniz, tarixi ədaləti bərpa etdiniz... Ertəsi gün, siz İran nümayəndə heyəti ilə görüşən vaxtı biz Nehrəmə getdik, sonra isə kənd camaatı ilə görüşdük.

– Hə, nə gördünüz?





– Görüşümüz qısa oldu, ancaq hiss etdik ki, nehrəmlilər ağır vəziyyətdədirlər. Onlar mənə öz problemlərindən danışdılar. Çox xahiş edirəm, kənddəki sosial şəraitə diqqət edəsiniz: işıq, su, iş yoxdur.

– Yaxşı ki, bunları mənə danışdın. Və nə yaxşı ki, sən ora getdin. Naxçıvanda mənim heykəlimi sökmək istəyəndə bütün nehrəmlilər gecə-gündüz onun yanında növbə çəkiblər. Onlar – mənə sadiq adamlardır! Mən bu saat Naxçıvana zəng vuraram, tədbir görərik. Çox sağ ol.

Guya xırda məsələdir, ancaq o necə də hər şeyi düz qəbul etdi! O, insanlarda sadiqliyi qiymətləndirirdi».

Tanınmış Azərbaycan bəstəkarı Cövdət Hacıyevin oğlu **İsmayıl Hacıyev** həyatında Heydər Əliyevin mühüm rolu barədə maraqlı xatirələrini bizimlə bölüşdü:

«Mənim birinci ixtisasım bəstəkarlıqdır, dahi Qara Qarayevin sinfini fərqlənmə ilə bitirmişəm. İkinci diplomu nəzəriyyə üzrə almışam. Sonra isə taleyimdə gözlənilməz dəyişiklik baş verdi. Yadınızdadırsa, Heydər Əliyev hər həftə filarmoniyaya cümə konsertlərinə gəlirdi. Bu tədbirlərin əsas təşkilatçısı maestro Niyazi idi.

Belə axşamların birində Heydər Əliyev hamını – mədəniyyət nazirini də, maestro Niyazini də gözlənilməz sualla çaşdırdı.

Bildiyimə görə, orkestrdə dirijor əsas şəxsdir. Ayrı-ayrılıqda hər bir musiqiçinin və bütövlükdə orkestrin ifaçılıq məharətinin səviyyəsi ondan asılıdır. Ona görə, düşünürəm ki, dirijor vacib simadır. Onun funksiyası musiqini kütlələrə çatdırmaqdır. Hamımız bioloji varlığıq. Bu gün varıq, vaxt gələcək olmayacağıq. Bizi kimsə əvəz etməlidir. Odur ki, mən bilmək istəyirəm – konservatoriyamızda dirijorluq şöbəsi varmı? Maestro Niyazi, siz yeni kadrlar hazırlayırsınızmı?

Məlum oldu ki, nə şöbə var, nə yeni kadrlar.

– Onda mənim daha bir sualım var: hazırda ölkənin mərkəzi ali təhsil müəssisələrində – Moskvada, Leninqradda bizim musiqiçilərdən dirijorluq şöbəsində kim oxuyur?

Bəlli oldu ki, heç kim oxumur. Bu həm maestroya, həm də nazirə ikinci zərbə oldu.

Mən sizdən xahiş edirəm, ən qısa müddətdə bütün imkanları nəzərdən keçirib bir neçə layiqli musiqiçini ölkənin mərkəzi ali məktəblərinə göndərəsiniz. Onlara məqsədli təyinat düzəldəsiniz...

O vaxt Leninqrad Konservatoriyasının dirijorluq fakültəsinə yalnız ali savadı olanları qəbul edirdilər. Bütün İttifaqdan ora ildə cəmi 4-5 nəfər götürürdülər. Leninqraddakı dirijorluq kafedrası dünyada ən yaxşısı hesab edilirdi. Orada, demək olar ki, sovet pedaqoqlarının qaymaqları yığılmışdı.

Beləliklə, Heydər Əliyevin təşəbbüsü ilə mən 1975-ci ildə Leninqrad Konservatoriyasının dirijorluq şöbəsinə oxumağa göndərildim. Elşad Bağırov da mənimlə birlikdə getdi. Mən ən yaxşı müəllimlərdən olan İlya Aleksandroviç Musinin sinfinə düşdüm. Valeri Qerqiyev, Yuri Temirkanov, SSRİ-nin və dünyanın digər ən yaxşı dirijorları onun şagirdi idilər. Ancaq Musinin yanında təhsil aldığım sonuncu il o, mikroinfarkt keçirtdi, odur ki, təhsilimi Valeri Qerqiyevin yanında bitirməli oldum. O vaxt onun yeganə şagirdi idim.

Təhsilimi uğurla başa vurandan sonra, məni məşhur Leninqrad Filarmoniyasının simfonik orkestrinə assistent qismində qəbul etdilər. Orkestrə Aleksandr Dmitriyev rəhbərlik edirdi».

Təcrübənin ikinci ilində İsmayıl Hacıyev böyük musiqiçi Yevgeni Mravinskinin diqqətini cəlb etdi: o, televiziya ilə İsmayıl Hacıyevin idarə etdiyi orkestrin ifasında simfonik konsertə qulaq asandan sonra, gənc dirijoru yanına çağırıb onun assistenti olmağı təklif edir. Təklif Azərbaycan musiqiçisinə möcüzə kimi gəldi, o artıq məşhur orkestrlə Üzeyir Hacıbəylinin, Qara Qarayevin, Fikrət Əmirovun, Cövdət Hacıyevin və b. əsərlərini necə ifa edəcəyini göz önünə gətirirdi. Lakin o dövrün qanunlarına görə köməkçi-assistent qismində İsmayılın işi iki ildən çox çəkə bilməzdi. O vaxta qədər bu qaydadan istisnalar olmamışdı. Məsələ yalnız SSRİ Nazirlər Soveti səviyyəsində həll oluna bilərdi.





«Mən bütün bunları Yevgeni Aleksandroviçin nəzərinə çatdırdım, – deyə İsmayıl müəllim söhbətinə davam edir, – o da Heydər Əliyevə şəxsən məktubla müraciət etməyə hazır olduğunu bildirdi və bir qədər sonra dediyini yerinə yetirdi. Sonrakı hadisələr hamımız üçün tamamilə gözlənilməz oldu».

Bir neçə gündən sonra Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Əliyev Leninqrad Filarmoniyasına, sonra isə Yevgeni Mravinskinin evinə zəng elədi, Azərbaycan mədəniyyətinin görkəmli xadimlərinin ailəsində böyümüş (İ.Hacıyevin anası əfsanəvi Azərbaycan rəqqasəsi Əminə Dilbazidir) gənc musiqiçinin taleyinə göstərdiyi diqqətə görə böyük dirijora hörmət və sayğısını bildirdi. O həmçinin dedi ki, sovet musiqi mədəniyyətinin görkəmli nümayəndələrinin Azərbaycan musiqisi ilə əlaqələrinin möhkəmlənməsini arzulayır, vurğuladı ki, Moskvada onun kabinetinin qapıları Mravinskinin üzünə hər zaman açıqdır. Mravinski sonradan həyat yoldaşına etiraf edir ki, Əliyevlə söhbət ona o dərəcədə təsir etmişdi ki, hətta gözləri yaşarmışdı. Tezliklə, İ.Hacıyevin Leninqradda stajirovkasının uzadılmasına rəsmi icazə verildi.

Bir müddətdən sonra isə İ.Hacıyevin rəhbərliyi altında Neva sahillərindəki şəhərdə Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət seriya konsertlər keçirildi. Onlardan ən yaddaqalanları Üzeyir Hacıbəylinin 100 illiyinə, Fikrət Əmirovun 60 illiyinə həsr olunmuş konsertlər, həmçinin Cövdət Hacıyevin «İnsan. Torpaq. Kosmos» simfoniyasının səsləndiyi konsert oldu.

Heydər Əliyev ikinci dəfə respublikanın rəhbərliyinə gələndən sonra da mədəniyyət xadimləri ilə görüşməyə vaxt tapırdı: dediyimiz kimi, onların konsertlərinə, tamaşalarına, yubiley gecələrinə gəlirdi, hökumət təltiflərini şəxsən təqdim edirdi, mükafatlandırılanların hər biri üçün mehriban, səmimi sözlər tapırdı. 2001-ci ildə prezidentin katibliyinin rəisi Dilarə Seyidzadə «Mədəni irsimizin keşiyində» ikicildliyini, 2011-ci ildə isə sonuncu, üçüncü cildi nəşr etdirdi. Bu fundamental cildlərdə Heydər Əliyevin ədəbi-mədəni tədbirlərdə

nitq və çıxışları, sənət adamlarına ünvanladığı təbriklər və s. yer alıb. Cildləri vərəqlədikcə heyrətlənirsən: o hər bir məsələnin mahiyyətinə necə də dərindən varırdı, söz açdığı predmeti necə də hərtərəfli bilirdi, öz şöhrətli həmsöhbətlərinin hər biri üçün məxsusi, ürəkdən gələn, təsirli sözlər tapırdı. Həqiqətən, Heydər Əliyev şəxsiyyətinin miqyası ölçüyəgəlməzdir!

*Tanınmış Azərbaycan şairi Fikrət Qocanın anadan olmasının 60 illiyi yadımda qalıb. F.Qocanın öz xahişi ilə Azərbaycan Yazıçılar Birliyinin sədri Anar hökumət təltifi üçün təqdimat yazmadı, ancaq prezidenti şairin yubiley gecəsinə, filarmoniyaya dəvət etdi. Yubileydən xəbər tutan Heydər Əliyev elə həmin gün Fikrət müəllimin «Şöhrət» ordeni ilə təltif olunması haqqında fərman imzaladı, axşam isə filarmoniyaya gəldi və rəsmi hissədən sonra Yazıçılar Birliyinin katibliyi ilə səmimi söhbət etdi.*

*Qonaqlar üçün ayrılmış otağa yığışanlar arasında məni görəndə, prezident təəccübləndi:*

*– Elmira? Sən burda neynirsən?*

*– Necə yəni nə? – qürurla cavab verdim. – Hər şey bir yana, mən Yazıçılar Birliyinin katibiyəm. Elə sizin də iştirak etdiyiniz IX qurultayda seçilmişəm.*

*– Mən heç bilmirdim, – prezident marağını gizlətmədi. – Bu vaxta qədər sənə yaxşı jurnalist kimi yanaşırdım, indi isə həm də yaradıcılıq birliyinin rəhbəri kimi yanaşacağam.*

*Gülüşdük. Naxçıvana birinci dəfə gəlməyimi yada saldıq...*

*– Mən elə bilirdim ki, prezident mənim «katiblik» statusumu yaddan çıxarıb. Sən saydığını say... Yaxın vaxtlarda Şərqi Avropa ölkələrinə – Bolqarıstana, Rumıniyaya səfər gözlənilirdi. Mənə protokol şöbəsindən zəng vurub dedilər: sən nümayəndə heyətinin tərkibində yola düşürsən.*





*– Mən həmişə nümayəndə heyətinin tərkibində yola çıxıram.*

*– Sən adətən prezidenti müşayiət edən jurnalistlərin tərkibində gedirsən, – protokol şöbəsinin rəhbəri cavab verdi. – İndi isə rəsmi nümayəndə heyətinin tərkibində – Yazıçılar Birliyinin katibi kimi.*

*Bizim zarafatyana söhbətimiz xarici səfər zamanı statusumun yüksəlməsinə səbəb oldu. Bu fenomenal insan heç nəyi yadından çıxarmırdı.*

Prezident tez-tez xarici kollektivlərin tamaşalarında, konsertlərində olurdu. Rusiya mədəniyyət xadimlərinə xüsusi məhəbbəti vardı. 90-cı illərin ortalarında o Bakıda İosif Kobzonun, Lyudmila Zıkinanın, Alla Puqaçovanın, Gennadi Xazanovun konsertlərində, görkəmli balet ustaları Maya Plisetskayanın, Nadejda Pavlovanın, Vyaçeslav Qordeyevin yaradıcılıq gecələrində, dünya şöhrətli İqor Moiseyevin ansamblının konsertində, Nikas Safronovun əsərlərinin sərgisində olmuşdu. Konsertdən sonra mütləq səhnəyə qalxaraq «ulduz»lara çıxışlarına görə təşəkkür edərdi, onlara çox səmimi sözlər deyər, bundan əvvəl onlarla harada və hansı şəraitdə görüşdüyünü xatırlayardı.

Rusiya mədəniyyət xadimləri onun bu münasibətinə qarşılıqlı sevgi ilə cavab verirdilər. Məsələn, Nikas Safronov bir neçə tablo çəkmişdi – Heydər Əliyev və onun həyat yoldaşı Zərifə xanımın portretlərini, bir də Naxçıvan peyzajını. Prezidentlə görüşlərinin birində Nikas Safronov demişdi: «Azərbaycanı mən daim öz vətənim hesab edəcəyəm. Heydər Əliyevlə hər görüş mənim üçün böyük ilham mənbəyidir»[96].

---

[96] Азербайджан – Россия. Новые взаимоотношения. Новые горизонты. Баку, 2002. С. 476.

## Fəxriyyə Xələfova ilə söhbətdən:

«1989-cu ilin mayında mən anam və qardaşımla Moskvada Heydər Əliyevə baş çəkdik. Heydər Əliyev mənimlə və qardaşımla söhbət etdi.

– Sən nə ilə məşğul olmaq istəyirsən? – məndən soruşdu.

– Biofakda oxuyuram. Ümumiyyətlə, isə moda ilə məşğul olmaq istəyirəm.

– Moda ilə? – təəccübləndi. – Bəs niyə moda ilə?

– Mən bu işi çox sevirəm.

İllər ötdü, mən fəal surətdə moda ilə məşğul olmağa başladım və kütləvi informasiya vasitələrinin köməyi ilə bir qədər tanınandan sonra Heydər Əliyevlə ikinci şəxsi görüşüm oldu. O vaxt Heydər Əliyev məni və Valentin Yudaşkini artıq prezident aparatında qəbul etdi. Mən düşündüm: nə yaxşı alındı! 1989-cu ildə mən ona dedim ki, moda ilə məşğul olmaq istəyirəm, bu gün isə mən, həqiqətən, istədiyim işlə məşğulam və modelyer qismində onun qəbulundayam. Bu gün o, sadəcə mənim dayım deyil, nə vaxtsa ona moda ilə məşğul olmaq arzumu dediyim insandır, sonra bu arzunu həyata keçirdim və indi ona bu barədə məruzə edirəm.

Yadımdadır, Fatma xanım Abdullazadə dedi ki, görüş baş tuta bilər, ancaq prezidentin qrafiki çox sıxdır. Cəmi iyirmi dəqiqəsi var. Əgər bu vaxtı ayırsa, deməli görüş olacaq.

Və mən çox sevindim ki, o bu iyirmi dəqiqəni tapa bildi. Düşünürəm ki, bu dəqiqələr də bir növ tarixidir, çünki Heydər Əliyev bir rəhbər kimi həyat salnaməsinə daha bir səhifə yazdı. Çünki onun səviyyəsində olan heç də hər adam moda deyilən anlayışa iyirmi dəqiqə ayıra bilməzdi.

Bir də fikirləşirəm: nə yaxşı ki, o vaxt mən ürəyimin dərinliyində gizlətdiyim arzumu onunla bölüşdüm. O bunu unutmadı və sonra mən onun xeyir-duasını aldım».





## Anar Məmmədxanovla söhbətdən:

«Prezident incəsənəti, mədəniyyəti çox sevirdi, sənət adamları ilə ünsiyyətdən zövq alırdı. Saşa Abdulov son günlərinə qədər onun adını ovsun kimi təkrar edirdi. Çünki Heydər Əliyev Yeltsinin çəkilişini qadağan etdiyi «Şizofreniya» filmini Azərbaycanda çəkməyə Abdulova icazə vermişdi. Bir də Heydər Əliyev Saşaya icazə vermişdi ki, «Bremen musiqiçiləri» filmini də Bakıda çəksin. O, Abdulovu, təxminən dörd dəfə qəbul etmişdi, birinci kanalın aparıcısı Leonid Yakuboviçi də qəbul etmişdi. Çoxları təəccüblənirdi – o niyə Yakuboviçi qəbul edir, nəyinə lazımdır? O hara, Yakuboviç hara… Bu adamlar başa düşmürdülər ki, o vaxt ölkədə elə vəziyyət yaranmışdı ki, Azərbaycanın piarı üçün təkcə Yakuboviç yox, hər kim olsa lazım idi. Onların sonradan Moskvada «Azərbaycanda nə yaxşıdır» demələri üçün. Heydər Əliyev bunu başa düşürdü. Odur ki, hətta «Makdonalds»ın açılışına gedirdi, o vaxt bu, lazım idi».

Böyük musiqiçi Mstislav Rostropoviç, onun Bakıya dörd səfəri, məhz Heydər Əliyevin «Slava»ya onun doğulduğu şəhəri qaytarması barədə kitabımda artıq yazmışam. Əfsanəvi rus violonçel ustasının Azərbaycan Prezidenti ilə dostluğundan filmlər çəkməyə dəyər.

1997-ci il aprelin əvvəlində Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Rusiya mədəniyyəti günləri keçirildi. Çıxışlarının birində özünün qeyd etdiyi kimi, bu hadisə onun respublikanın partiya rəhbəri olduğu dövrdə Azərbaycanda keçirilən Rusiya mədəniyyəti günlərindən 25 il sonra baş tutdu. O, demək olar ki, bu bayram çərçivəsində keçirilən bütün tədbirlərdə iştirak etdi – «Respublika» Sarayında Mədəniyyət günlərinin açılışında və bağlanışında, Dövlət Tretyakov Qalereyası incilərinin sərgisində, Vaxtanqov adına Moskva Akademik Teatrının «Mehriban yalançı» tamaşasında.

Həmin ilin iyununda Bakıda Rusiya paytaxtının 850 illiyinə həsr olunmuş Moskva mədəniyyət günləri açıldı. Rusiyanın incəsənət ustalarından ibarət çoxsaylı «desant» yenidən Azərbaycana gəldi. 2000-ci ildə isə Rusiya və

Moskvanın mədəniyyət günləri Bakıda ikinci dəfə keçirildi. Prezidentimiz bu mahnı və rəqs bayramlarında yenə də ən əziz qonaq idi...

Heydər Əliyev rus ədəbiyyatını, rus poeziyasını sevirdi və onlara dərindən bələd idi. Yəqin ki, 2001-ci il oktyabrın 12-də Bakıda dahi rus şairi Aleksandr Sergeyeviç Puşkinin abidəsinin məhz Heydər Əliyev tərəfindən açılması əlamətdardır. Həmin gün mən məqaləmdə yazmışdım: «Əlamətdar haldır ki, Heydər Əliyev və Vladimir Putin Azərbaycanla Rusiya arasında diplomatik əlaqələr yaradılmasının on illiyini sərhəd dirəklərinin qurulması və ya viza məhdudiyyətlərinin tətbiq edilməsi ilə yox, hər iki respublikanın paytaxtında dünyanın iki dahi vətəndaşının – Puşkinin və Nizaminin heykəllərinin ucaldılması ilə qeyd etdilər».

Yuxarıda mən prezidentin yaradıcı ziyalıların məşhur nümayəndələrini Müslüm Maqomayevin ad günündə öz rezidensiyasına necə yığması barədə danışmışam. Bu isə yazıçı **Maqsud İbrahimbəyovun** təxminən həmin mövzuda xatirələridir:

«Vəfatından təxminən il yarım əvvəl o öz bağında bir masa arxasında Polad Bülbüloğlunu, Rauf Abdullayevi, Müslüm Maqomayevi, Eldar Quliyevi, Rüstəmi, Anarı, məni topladı. «Bu gündən mən sizdən xahiş edirəm: heç bir intriqa olmasın. Siz – dostsunuz, bizim bir vətənimiz var, siz bunu yadınızda saxlamalısınız».

Bir çox tanınmış yazıçılar, musiqiçilər mənimlə söhbətlərində etiraf edirdilər ki, Heydər Əliyev dünyadan köçəndən sonra onlar sanki dayaq nöqtələrini itirib sözün hərfi mənasında «yetim qalıblar».

## «...ƏN DƏRİNDƏN ÖZ AZƏRBAYCAN DİLİMİZİ ÖYRƏNİN»

Heydər Əliyev ikinci dəfə respublikanın rəhbərliyinə gələndə, təmiz Azərbaycan dilində danışmağa başladı. Baxmayaraq ki, sovet dönəmində respublika onun rəsmi çıxışlarını əsasən rus dilində eşidirdi. Ona sual etməyə başladılar:





Azərbaycan dilini belə təmiz o haradan bilir? Çoxlarının ağlına belə gəlmirdi ki, prezident baza təhsilini ana dilində alıb.

Bütün bu suallara Heydər Əliyev belə cavab verirdi: «Mən ömrüm boyu rus dilini işlətmişəm, ruslar da qeyd edirlər ki, mən rus dilində bir çox ruslardan pis danışmıram. Ancaq təbiidir ki, mən birinci növbədə öz dilimi ailəmdə öyrənmişəm... İkincisi, orta məktəbdə, sonra pedaqoji texnikumda. Pedaqoji texnikumda da bizə Azərbaycan dilinin incəliklərini öyrədən, Azərbaycan dilinin qrammatikasını, ədəbiyyatı öyrədən gözəl müəllimlərimiz var idi. Amma bu müəllimlərin içərisində Lətif Hüseynzadə xüsusi yer tutur.

İndiyə qədər neçə il keçibdir, 1939-cu ildə mən ondan ayrılmışam. Təsəvvür edin, 63 il keçibdir. Amma mən bu gün də o dərsləri çox yaxşı xatırlayıram»[97].

### ■ *Anarın xatirələrindən:*

«Heydər Əliyevin bir vacib məsələdə xidmətini də yada salmaq istəyirəm. On bir il müddətində Milli Məclisin Mədəniyyət məsələləri üzrə daimi komissiyanın sədri olduğum zaman komissiyamız 13 mühüm qanun hazırladı və hamısı Məclis tərəfindən qəbul olundu. Ən çətin keçən qanunlardan biri «Dil haqqında» qanun idi. Qanuna çoxlu «əmma» qoyanlar vardı. İzah edirdik ki, bu qanun heç bir milli azlığın, o sıradan rusdillilərin də hüquqlarını pozmur, söhbət dövlət dilinin nüfuzundan, tutduğu yerdən, bununla bağlı tədbirlərdən və nəhayət, dilin saflığının, təmizliyinin qorunmasından, əcnəbi sözlərin təcavüzünün qarşısının alınmasından gedir. Layihəyə Azərbaycan dilinin türk sistemli dil olduğu haqqında maddə də salmışdıq və bu bəzi deputatların ən çox etirazlarına səbəb olurdu.

Bu qanunun hazırlanması, işlənməsi və çətin mərhələlərdən keçməsi əsnasında Heydər Əliyevin «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» fərmanı çıxdı. Bilmirəm, Heydər Əliyevin dil qanununun qəbul olunmasında

[97] Azərbaycan. 2002. 15 avqust.

əngəllərdən, «türk» sözünə etirazlardan xəbəri vardı, ya yox. Yəqin ki, hər halda vardı. Amma 2001-ci il iyunun 18-də imzaladığı fərmanda azı on yerdə dilimizin türk mənşəli olduğu təsdiq edilir, türk dil ailəsinin oğuz qrupuna aidliyi xatırlanır, «türk xalqları», «türk etnosları», «türk dünyası» ifadələri yer alırdı. Maraqlı o idi ki, bizim qanun layihəmizdə «türk» sözünə etiraz edənlər indi bu fərmanı iki əllə alqışlayırdı.

«Kufə əhli» məsələsi qədim məsələdir...»[98]

2003-cü ilin fevralında türkdilli ölkələrin mədəniyyət nazirləri ilə görüşən Heydər Əliyev çıxışının az qala yarısını dil məsələlərinə həsr edir, vurğulayır ki, «Azərbaycan dilinin bundan sonra da inkişaf etməsi mənim həyatımın ən birinci vəzifəsidir. Çünki millətin dilini əlindən alsan, onu öz dilindən məhrum etsən, o millət çox şey itirər. Amma millətin öz doğma dili, ana dili olanda onu heç nə dəyişdirə bilməz... Bizim gənclərə deyirəm ki, rus dilini yaxşı bilin, ingilis, fars, ərəb, fransız dillərini də yaxşı bilin. Amma bunların hamısından yaxşı öz Azərbaycan dilimizi öyrənin. Əgər bunu bilməsən, sən tam azərbaycanlı olmursan...»[99]

AXC-nin hakimiyyəti dövründə türkçülüyün qızğın pərəstişkarı olan Əbülfəz Elçibəy dövlət dilinin adını dəyişərək «Azərbaycan dili» əvəzinə «türk dili» adlandırmaq qərarına gəldi. 1992-ci il dekabrın 22-də Azərbaycan Milli Məclisi məsələni tələsik müzakirə edərək prezidentin arzusunu yerinə yetirdi. Həmin qərar milli azlıqların etirazına səbəb oldu, cürbəcür strateji araşdırma mərkəzləri və etnomədəni cəmiyyətlər tərəfindən ruhlandırılan separatçılığa münbit zəmin yaratdı.

Maraqlıdır ki, özlərini demokrat adlandıran adamlar bu qərarı, necə deyərlər xəlvəti qəbul etmişlər, hər halda ictimaiyyətin, alimlərin iştirakı olmadan, referendumsuz. Bu həm də ona görə yolverilməz idi ki, Azərbaycan kimi

[98] Anar. Unudulmaz görüşlər. S. 125-126.
[99] Azərbaycan. 2003. 8 fevral.





polietnik dövlətdə qəbul edilirdi. Dövlət dilinin adlandırılması kimi qlobal məsələ ümumxalq səsverməsi yolu ilə həll olunmalı idi. Üstəlik, bir qrup alim bu düşünülməmiş qərara qarşı səsini ucaltmağa cəhd göstərəndə polis onlardan bir neçəsini «xuliqan element» kimi həbs etmişdi. Dərsliklərin adını tələm-tələsik dəyişdirməyə başladılar, digər düşünülməmiş addımlar atdılar.

O vaxt Naxçıvanda yaşayan Heydər Əliyev məsləkdaşlarına bu qərarın qeyri-legitimliyini və tələskənliyini izah etsə də, hadisələrin gedişinə təsir göstərə bilmirdi.

1993-cü ilin iyununda hakimiyyətə gələn və bir müddət sonra dilin adlandırılması ilə bağlı məsələ ilə məşğul olmağa başlayan Heydər Əliyev demokrat Elçibəydən fərqli olaraq administrativ yol seçmədi. O, elmi-tədqiqat müəssisələrində, ali məktəblərdə, Elmlər Akademiyasında geniş müzakirələr apardı. Bir neçə müzakirədə şəxsən iştirak etdi.

Dövlət dilinin adı ilə bağlı məsələnin necə həll olunduğunu izləmək maraqlıdır. Əvvəlcə müstəqil Azərbaycanın birinci Konstitusiyasının layihəsinin hazırlanması üzrə Komissiyada müzakirələr oldu. Prezidentin iştirakı ilə Konstitusiya komissiyasının iclasları 1995-ci il iyulun 26-da, oktyabrın 3-ü və 12-də, noyabrın 2-si, 5-i və 10-da keçirildi. Eyni zamanda yeni Konstitusiya layihəsində yer almış dövlət dili haqqında maddənin müzakirəsi 1995-ci il oktyabrın 31-də Elmlər Akademiyasının Rəyasət Heyətində oldu.

1992-ci ildə dilin adlandırılması haqqında tarixi qərarın necə qəbul edilməsini yada salan Heydər Əliyev qanunun xalqın iradəsi nəzərə alınmadan, Milli Məclisdə, «lehinə» 26 səslə, yəni sadə çoxluqla qəbul edilməsindən hiddətini gizlətmirdi. Halbuki məlumdur ki, konstitusiya qanunları üçdə iki səs çoxluğu ilə qəbul olunmalıdır. Beləliklə də, bu qanun, nə qədər paradoksal görünsə də, qanun pozuntuları ilə qəbul edilmişdi.

H.Əliyev vurğulayır ki, bu gün vəziyyət tam başqadır: yeni Konstitusiyanın layihəsi ümumxalq müzakirəsinə verilmişdir, komissiyaya müxtəlif maddələr üzrə minlərlə təklif gəlmişdir, onların cəmi 18-də Azərbaycan dilinin türk dili

kimi yazılması göstərilmişdir. Elmi-tədqiqat institutlarında, ali məktəblərdə, dilçilik kafedralarında keçirilən müzakirələrin gedişində alimlərin əksəriyyəti dövlət dilinin «Azərbaycan dili» adlandırılmasına tərəfdar olmuşlar. Buna baxmayaraq, Heydər Əliyev bütün iştirakçıları öz fikirlərini maksimal dərəcədə sərbəst ifadə etməyə çağırdı: «Hansı qərarı qəbul etsəniz Konstitusiyamızda onu da yazarıq»[100].

Tanınmış yazıçılar Anar, Bəxtiyar Vahabzadə və Elçin azlıqda qalaraq aşağıdakı variantları təklif edirdilər: «Azərbaycan türkcəsi», «Azərbaycan türk dili», «azəri türkcəsi».

Anarın fikrincə «türk» etnolinqvistik əlamətindən imtina etmək «keçmişimizdən və klassik irsimizdən, Cənubi Azərbaycandakı soydaşlarımızdan imtina etmək olardı, bu çox ciddi məsələdir, gələcək məsuliyyətlə bağlıdır».

Bəxtiyar Vahabzadə və Elçin də bu ruhda çıxış etdilər. Maraqlıdır ki, müzakirənin bütün gedişi milli televiziya ilə göstərilirdi.

Müzakirənin gedişində Heydər Əliyev heç kimə təzyiq göstərmir, hər bir Komissiya üzvünün, yaxud dəvət olunmuş şəxsin fikrini dinləyirdi. O deyirdi ki, bu çox incə məsələdir və hətta bir nəfər belə çoxluqdan fərqlənən öz fikrini bildirirsə, ona qulaq asmaq lazımdır. Bu müzakirədən qane olmayan prezident, 1995-ci il noyabrın 2-də Konstitusiya komissiyasının daha bir iclasını keçirir və yenə də vaxtın çox hissəsi dövlət dilinin adlandırılması məsələsinə həsr olunur.

Lakin bu müzakirənin gedişində də iştirak edənlərin tam əksəriyyəti «Azərbaycan dili» ifadəsinə tərəfdar olduqlarını bildirdilər. Nəticədə bu ifadə AR Konstitusiyasının 21-ci maddəsinə daxil oldu. Orada deyilir:

«1. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir.

2. Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir».

[100] Azərbaycan. 1995. 1 noyabr.





Heydər Əliyev nə millətin etnogenezisinin, nə də dilin adının türk mənşəli olduğunu inkar etmirdi:

«Mən bir dəfə dedim ki, biz gərək öz milli mənliyimizi heç vaxt itirməyək. Xalqların hər biri tarixi yol keçib, hər birinin də özünəməxsus nailiyyəti var. Bizim ərazimizdə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunmuş hüdudlar çərçivəsində Azərbaycan Respublikasında yaşayanlar azərbaycanlılardır. Bizim keçmişimiz məlumdur, biz onu inkar etmirik, – yenə də deyirəm, biz türk mənşəli bir xalqıq. Bizim dilimiz türk dilləri qrupuna məxsus dildir... Lakin bizim öz dilimiz var. Mən bunu demişəm, yenə də deyirəm, – türk dilləri qrupuna məxsus olan digər dillər, ola bilər, həsəd apara bilərlər ki, bizim dilimiz nə qədər zəngindir.

Mən hər bir dilə öz hörmət və ehtiramımı bildirirəm. Amma hesab edirəm ki, öz dilimizlə, **Azərbaycan dili ilə** (seçmə bizimdir – ***E.A.***) hər birimiz fəxr edə bilərik. Çünki bu, zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın adı da tanınıb, respublikamızın adı da tanınıb, dilimizin adı da tanınıb. Bu reallıqdır»[101].

Heydər Əliyev ömrünün çox hissəsini rus dilində danışmaq məcburiyyətində qalsa da, ana dilini mükəmməl bilirdi. AzərTAC-ın baş redaktoru **Yaşar Quluzadə** dəfələrlə Heydər Əliyevin çıxışlarını geniş auditoriyaya sinxron tərcümə etmişdir. Sonralar həyatının bu unudulmaz anlarını o belə xatırlayır:

«Yadıma gəlir, atam bütün ailəmizi az qala zorla televizorun qabağına yığardı ki, öyrənin, Əfrasiyab Bədəlbəyli danışacaq. Başqa vaxt Mehdi Məmmədova qulaq asardıq. Gözəl natiqlərdi, dilimizi də incəliklərinə qədər bilirdilər. Əfrasiyab müəllim muğamdan, Mehdi müəllim isə dramaturgiyadan danışardı. Ancaq Heydər Əliyev... Görəsən, Heydər Əliyevin toxunmadığı və ən yüksək səviyyədə açmadığı mövzu varmı? Heydər Əliyev istedadının bu qolu – natiqlik ustalığı istər-istəməz heyrət və qibtə doğurur. Bunu yalnız bir sözlə, əcnəbi

[101] Azərbaycan. 1995. 6 noyabr.

sözü «fenomen»lə səciyyələndirmək olar. Ömrüm boyu Heydər Əliyevin bütün çıxışlarına, müsahibələrinə, söhbətlərinə qulaq asmağa çalışmışam. Hər dəfə onu dinləyəndə ana dilimizin gözəlliyinə, ən çətin mətləbləri açа bilmək qüdrətinə, üslub imkanlarının genişliyinə heyran olurdum. Heydər Əliyev heç vaxt təmtəraqlı, gurultulu ifadələr işlətməzdi, buna ehtiyacı yox idi – dəbdəbəli sözlər cılız fikirləri ört-basdır etməyə çalışanların silahıdır. Ərəb və fars tərkiblərindən də çox az istifadə edirdi, çünki dilimizi dərindən bilirdi, söz ehtiyatı tükənməz idi.

Tale elə gətirdi ki, Heydər Əliyevin çıxışlarını lap yaxından izləmək, müəyyən mənada, hətta onların iştirakçısı olmaq mənə də qismət oldu. Dəfələrlə yüksək dövlət mərasimlərində Heydər Əliyevin çıxışlarının sinxron tərcüməçisi kimi iştirak etmişəm. Heydər Əliyevin yüksək nitq mədəniyyəti, aydın tələffüzü, rəngarəng intonasiyası, ürəyə yatan səs tembri, güclü məntiqə söykənən fikir ardıcıllığı kimi keyfiyyətləri ilk baxışda tərcüməçinin işini asanlaşdırmalı idi. Amma prezident nitqinin ictimai və siyasi əhəmiyyəti onun hər sözünün, hər ifadəsinin çəkisini birə yüz artırır. Tərcüməçi bu məsuliyyəti daim hiss edir. Sinxron tərcümədə psixoloji amil mühüm rol oynayır. Çalışırsan natiqin obrazına girəsən, keçirdiyi hiss və həyəcanı duyasan ki, dediklərini dəqiq qavrayıb bir anın içində, həqiqi mənada ildırım sürəti ilə tərcümə edə biləsən. Soyuqqanlı sinxronçu yüksək professional ola bilməz. Prezidentimizin dedikləri elə təsirli, energetikası elə güclü idi ki, bəzən bir anlığa özümü unudurdum, elə bilirdim çıxış edən özüməm...

Bir dəfə, gərək ki, «Qafqazda islam mədəniyyəti» beynəlxalq konfransında prezidentin çıxışını tərcümə edən zaman bir də gördüm yanımda oturan Seyfəl Həsənov (adətən yüksək səviyyəli sinxron tərcümələrə ikimiz gedirdik) ayağını ayağıma vurur. Sən demə, elə yüksək emosional gərginlikdə olmuşam ki, Heydər Əliyevin məşhur, çox sevilən şaqraq gülüşünü də «tərcümə» etmişəm...»[102]

---

[102] İki sahil. 2013. 4 may. S. 15.





H.Əliyev dövlət dilinin inkişafına və təkmilləşdirilməsinə böyük diqqət yetirirdi. Azərbaycan Respublikası öz müstəqilliyinin bərpasına nail olandan sonra Azərbaycan dili dövlət dili kimi xalqımızın ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında müstəsna əhəmiyyət kəsb etməyə başladı. Heydər Əliyevin 2001-ci il 18 iyun tarixli «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» və 2003-cü il 2 yanvar tarixli ««Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» fərmanları sayəsində ədəbi dilimizin tətbiqi sferası daha da genişləndirilmiş, onun müxtəlif üslublarının potensialı yenidən üzə çıxarılmış, dil mədəniyyətimizin qarşısında isə yeni üfüqlər açılmışdır.

2001-ci il avqustun 9-da Heydər Əliyevin daha bir, həqiqətən, inqilabi fərmanı ilə ölkədə bütün çap işi latın əlifbasına keçirildi. Fərman «Azərbaycan əlifbası və Azərbaycan dili Gününün təsis edilməsi haqqında» adlanırdı.

Qəzetlər də, kitab naşirləri də təcili olaraq, özü də olduqca ağrılı surətdə işlərini yenidən qurmalı oldular, çünki bütün söz-söhbət və nəsihətlərə baxmayaraq («Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında» Qanun hələ 1991-ci ilin dekabrında qəbul olunmuşdu), mətbuat, eləcə də kitablar əsasən Kiril əlifbası ilə çap olunurdu. Dövri mətbuat orqanlarının redaktorları və nəşriyyat rəhbərləri tirajın düşməsindən, ahıl və orta yaşlı əhalinin latın əlifbası ilə çap olunan qəzet və jurnallara marağının itəcəyindən ehtiyat edirdilər (özü də tam əsaslı olaraq).

Nəticədə qəzet bazarında, həqiqətən, böhran yaşandı. Bu böhrandan, digər səbəblər də nəzərə alınmaqla bu günədək çıxmaq mümkün olmamışdır. Bununla belə Heydər Əliyev on illər sonra öz əlifbasını xalqa qaytarmaq missiyasını yerinə yetirdi.

Həmin fərmanları rəhbər tutaraq, prezident İlham Əliyev dövlət dilinin qorunması və təkmilləşdirilməsi sahəsində öz dahi sələfinin xəttini uğurla davam etdirmiş və inkişaf etdirmişdir. 2004-cü il yanvarın 12-də Milli Ensiklopedi-

yanın, dünya və Azərbaycan ədəbiyyatının ən yaxşı əsərlərinin latın qrafikası ilə nəşr olunması haqqında fərman imzalandı. Qısa zamanda nəşr olunmuş yüz cildlərlə kitab gənclərin, tələbələrin pulsuz istifadəsi üçün universitetlərə və məktəb kitabxanalarına təmənnasız hədiyyə edildi.

* * *

Qeyd etdiyimiz kimi, prezidentlik dövrünün əvvəlində H.Əliyev tarixçilər və mədəniyyət xadimləri qarşısında Azərbaycan xalqının həqiqi, ideoloji tör-töküntüdən təmizlənmiş tarixini yaratmaq vəzifəsini qoydu. Bu əsas vəzifəsini o, 1997-ci il yanvarın 31-də Elmlər Akademiyasının rəhbərliyi, akademiklər, institutların direktorları və aparıcı əməkdaşları ilə görüşdə bir daha ifadə etdi. Konyunkturadan uzaq əsl tarix, hər bir tarixi dövrü həqiqətdə olduğu kimi tədqiq etmək imkanları mövzusu onu daim narahat edirdi.

Görüşlərdə Heydər Əliyev xatırlayırdı ki, çox böyük çətinliklərə, yuxarıdan təzyiqlərə baxmayaraq, o, adına «millətçi» damğası vurulmuş Nəriman Nərimanovun 100 illiyini keçirməyə, ona Bakıda və Ulyanovskda abidə ucaltmağa, paytaxtımızda və Tbilisidə ev-muzeyini açmağa nail oldu.

Heydər Əliyevi ən müasir dövr tarixində sapıntılar narahat edirdi. O, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən olan Məhəmməd Əmin Rəsulzadənin xidmətlərini haqlı olaraq qiymətləndirən, lakin Azərbaycanın müstəqilliyi uğrunda onunla çiyin-çiyinə vuruşan Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Əlimərdan bəy Topçubaşov kimi böyük tarixi şəxsiyyətləri «unudan» mədəniyyət xadimlərimizi haqlı olaraq tənqid edirdi.

O özü böyük sələflərinə eyni dərəcədə hörmətlə yanaşırdı, xatirələrini və Azərbaycan dövlətçiliyi qarşısında xidmətlərini əbədiləşdirməyə çalışırdı. Belə ki, 1998-ci il yanvarın 30-da o, Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin bayram edilməsi haqqında sərəncam imzaladı. Elə həmin il Şərqdə ilk demokratik respublikanın tarixini əks etdirən material və sənədlərin 7 cildliyi nəşr edildi.





Bundan başqa, Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumət sədri Fətəli xan Xoyskinin anadan olmasının 120 illik yubileyinin keçirilməsi haqqında fərman imzaladı, Parisdə AXC parlamentinin ilk sədri, xarici işlər naziri Əlimərdan bəy Topçubaşovun məzarını ziyarət etdi, qəbiri düzəltmək və ətraf ərazini abadlaşdırmaq barədə göstəriş verdi. 2003-cü il fevralın 1-də isə «Bakı şəhərində Azərbaycan Xalq Cümhuriyyətinə abidə qoyulması haqqında» sərəncam imzaladı.

Böyük Vətən müharibəsinin tarixi, Azərbaycan xalqının qəhrəmanlığını, faşizm üzərində qələbədə Bakı neftinin və rəşadətli Azərbaycan neftçilərinin rolunu inandırıcı surətdə əks etdirən tarixi əsərlərin və ensiklopediyaların yaradılması sovet dönəmində daim H.Əliyevin diqqət mərkəzində idi. Odur ki, hakimiyyətə gələn Elçibəyin 9 may gününü Azərbaycan təqvimindən silməsi xəbəri onu məyus etdi. Hakimiyyətə qayıdandan sonra prezident tarixi ədaləti bərpa etdi və 9 may yenidən faşizm üzərində Qələbə günü oldu.

Sonralar H.Əliyev milli-tarixi yaddaşın bərpasına, tarixşünaslığımızdakı boşluqların doldurulmasına yönəlmiş bir sıra fərman və sərəncamlar imzaladı – ««Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyi haqqında» (20 aprel 1997-ci il), «Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında» (13 mart 1998-ci il), «Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında» (4 fevral 1999-ci il), «Bakı şəhərində İçərişəhər tarix-memarlıq qoruğunun mühafizəsi və bərpası ilə bağlı bəzi tədbirlər haqqında» (17 fevral 2003-cü il) və s.

Naxçıvan Muxtar Respublikasının 75 illiyinin geniş qeyd olunmasını təklif edən Heydər Əliyev «Naxçıvan ensiklopediyası»nı yaratmaq məqsədilə Milli Elmlər Akademiyasının nəzdində redaksiya heyətinin yaradılması təşəbbüsünü irəli sürdü. 2002-ci ildə belə bir ensiklopediya yaradıldı. Bu da AMEA-nın Naxçıvan şöbəsinin təsis edilməsi ilə birlikdə respublikanın tarixi-mədəni həyatında əlamətdar hadisə oldu.

1997-1998-ci illərdə Heydər Əliyev respublikanın xalqları və bütün dünya birliyi qarşısında son iki yüzillikdə Azərbaycan xalqına qarşı törədilən soyqırımı sistemini üzə çıxaran mühüm sənədlər qəbul etdi.

Ölkə prezidentinin «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiya edilməsi haqqında» (18 dekabr 1997-ci il) və «Azərbaycanlıların soyqırımı haqqında» (26 mart 1998-ci il) fərmanları problemin dərin və hərtərəfli elmi, politoloji, kulturoloji tədqiqatının aparılmasına, silsilə kitablar nəşr edilməsinə, filmlərin, elmi və bədii-publisistik əsərlərin yaranmasına, bütün dünyada təbliğat və maarifləndirmə kampaniyalarının aparılmasına təkan verdi. Başlıcası isə 31 mart azərbaycanlıların soyqırımı günü elan edildi və hər il respublikada hüzn günü kimi qeyd olunur.

Akademik İsmayıl Hacıyevin fikrincə, bu sənədlər «bizim tarixi yaddaşımızın qayıtması demək idi, çünki orada iki əsr ərzində Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə aparılan etnik təmizləmə siyasəti, soyqırımı siyasəti ifşa edilirdi.

Əfsus ki, ifrat tolerantlıq, bəzənsə öz tariximizin faciəli səhifələrinə açıq-aşkar biganəlik bizə nə vaxtsa bu acı həqiqəti gənclərə çatdırmağa, böyüməkdə olan nəslin tərbiyəsində mühüm amilə çevirməyə mane oldu. Bu mənada prezidentin fərmanları qarşımızda tarixi yaddaşın dirçəldilməsi və möhkəmləndirilməsi, milli-tarixi dəyərlərə söykənən mənəvi tərbiyə sisteminin yaradılması kimi mühüm vəzifələr qoyur…»[103]

Əlbəttə ki, ən sanballı və dəyərli tarixi-siyasi sənəd Azərbaycanın üçüncü minilliyə qədəm qoyması ilə əlaqədar Heydər Əliyevin müraciəti oldu.

Bu ciddi sənəddə, əslində, Azərbaycan xalqının çoxəsrlik tarixi, ədəbiyyatı və incəsənəti, mədəniyyəti təhlil olundu. Prezidentin müraciətində XX əsr və onun Azərbaycan xalqının dövlətçiliyinin təşəkkülündə rolu xüsusilə dərindən izah olunur. H.Əliyevin fikrincə, tariximizdə XX əsr 4 mərhələyə bölünür.

[103] Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası. Bakı, 2003. S. 32, 34.





**Birinci mərhələ** – əsrin əvvəlidir. Bu vaxt mədəniyyət, maariflənmə, milli mətbuat sahəsində qazanılan nailiyyətlər tarixi şəraitlə birlikdə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması üçün zəmin yaratdı.

**İkinci mərhələ** – 1918-1920-ci illər müstəqil Azərbaycan Respublikasının mövcud olduğu qısa dövrdür. Müraciətdə AXC banilərinin fəaliyyətinə yüksək qiymət verilir, onların xalq və dövlət qarşısında xidmətlərindən danışılır.

**Üçüncü mərhələ** – 1920-ci ilin aprelindən 1991-ci ilə qədər – Azərbaycanın SSRİ-nin tərkibində mövcudluğudur. H.Əliyev 20-30-cu illərdə iqtisadiyyat sahəsindəki uğurları, Stalin repressiyalarının nəticələrini, Böyük Vətən müharibəsi dövründə xalqın qəhrəmanlığını, müharibədən sonrakı dövrdəki uğurları qeyd edir.

**Dördüncü mərhələ** Azərbaycanın müstəqilliyinin elan olunmasından sonra başlanıb.

### ■ *Heydər Əliyevin üçüncü minilliyin ərəfəsində xalqa müraciətindən:*

«Başa vurduğumuz yüzillik bəşəriyyətin yaddaşında sürətli elmi-texniki tərəqqi ilə və iki dünya müharibəsində tökülmüş qanlarla, imperiyaların süqutu və yeni suveren dövlətlərin yaranması ilə, «soyuq müharibə»nin doğurduğu gərginliklə, sülh, sabitlik və əmin-amanlıq naminə göstərilən kollektiv səylərlə qalacaqdır.

XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti, şübhəsiz ki, müstəqil Azərbaycan dövlətinin yaradılmasıdır. Öz müstəqilliyini bərpa edən Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlini qoymuşdur. Məhz bu müddət ərzində Azərbaycan xalqı öz müstəqil dövlətinin Konstitusiyasını qəbul etmiş, qanunvericiliyini, hakimiyyətin bölünmə prinsiplərini, hüquq normalarını dünya standartlarına uyğunlaşdıraraq digər dövlətlərlə hərtərəfli əməkdaşlığa hazır olduğunu nümayiş etdirmişdir. Bu illər ərzində yaşayışımızın bütün sahələrini əhatə edən köklü dəyişikliklər və dərin islahatlar həyata keçirilmişdir. Azərbaycan öz milli neft strategiyası və konsepsiyasını həyata

keçirməyə başlamış, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələr bağlayaraq dünya iqtisadiyyatına qovuşmasını təmin etmişdir.

Bu gün biz müstəqilliyimizin əldə olunması, qorunub saxlanılması yolunda böyük xidmətləri olan şəxsiyyətlərin, istiqlalımız naminə şəhid olan Azərbaycan övladlarının əziz xatirəsini dərin ehtiram hissi ilə yad edirik. Bu əziz gündə Azərbaycan Xalq Cümhuriyyəti banilərinin ruhu qarşısında, bolşevik terrorunun, repressiyaların, kütləvi deportasiyaların, soyqırımların, Qanlı Yanvar faciəsi qurbanlarının və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş bütün vətəndaşlarımızın xatirəsi qarşısında baş əyib Allahdan onlara rəhmət diləyirik»[104].

Bu müraciət mühüm tarixi sənəddir. Orada Azərbaycan dövlətçiliyinin tarixi konseptual təhlil edilmiş, XXI əsrin mürəkkəb təhdidləri və çağırışları fonunda müstəqil Azərbaycan Respublikasının siyasi və sosial-iqtisadi inkişafının əsas istiqamətləri və perspektivləri müəyyən edilmişdir.

İnanıram ki, Heydər Əliyevin müraciətinin əhəmiyyəti zaman keçdikcə daha da artacaq, alimlərin, politoloqların, tarixçilərin, ümumiyyətlə, ölkəmizin keçmişi və gələcəyi ilə maraqlanan hər bir kəsin diqqətini cəlb edəcəkdir.

## HEYDƏR ƏLİYEV VƏ «BAKILI OĞLANLAR» KOMANDASI

Müsahibələrinin birində prezident demişdi ki, «Respublika» Sarayında Bakının Şən və Hazırcavablar Klubu («KVN») komandasının konsertlərində məmnuniyyətlə olur.

«Mənim üçün ona görə maraqlıdır ki, istedadlı uşaqlar çıxış edir. Onların yumoru çox incə və çox orijinaldır. Onlar səhnədə məni təsvir etməkdən də

[104] Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni Əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti – Bakı şəhəri, 29 dekabr 2000-ci il. Library.aliyev-heritage.org. ƏSƏRLƏRİ / PROQRAM ÇIXIŞLARI





çəkinmirlər. Nə olsun ki, mən baxıb gülürdüm. Adama özünü kənardan görmək həmişə maraqlı gəlir»[105].

Əminəm ki, istedadlı «Bakılı oğlanlar» öz konsertləri ilə qəhrəmanımın ömrünü uzatdılar. Çünki o, Bakı KVN komandasının konsertlərindən başqa heç yerdə və heç vaxt belə ürəkdən gülmürdü.

Çox təəssüflər olsun ki, bu əfsanəvi komandanın kapitanı Anar Məmmədxanov həyatdan belə tez getdi. Anar çox istedadlı insandı, ona da Heydər Əliyev kimi «birinci» epiteti çox yaraşırdı. XX əsrdə məğlubedilməz komandaya rəhbərlik edən, KVN klubunda birincilər sırasında birinci olan kapitan, Azərbaycan parlamentinin belə cavan yaşda (25 yaşında) seçilmiş ilk deputatı, Azərbaycanda ən populyar və ən çox oxunan sayt (day.az) yaratmış birinci insan idi. Həyatdan belə erkən köçməsəydi, o hələ çox işlərdə birinci ola bilərdi…

Xoşbəxtlikdən biz Anarla söhbətləşməyə imkan tapdıq və o mənə prezident Əliyevlə «Bakılı oğlanlar» komandasının münasibətlərinin tarixçəsindən danışdı. Məncə bu çox maraqlı və ibrətamizdir, odur ki, söhbətimizin böyük fraqmentini oxucuların diqqətinə çatdırmaq istəyirəm.

**«Elmira Axundova – «Bakılı oğlanlar» komandası necə yarandı? Zəhmət olmasa, komandanın Heydər Əliyevlə münasibətlərindən danışın.**

**Anar Məmmədxanov** – Komanda 1987-ci ildə, Moskvada KVN bumu başlayanda yaradıldı. Bakıda, axı, hələ Yuli Qusmanın dövründən KVN ənənələri güclü idi. Qəti olaraq komanda 1991-ci ildə formalaşdı, birinci oyunumuzu isə 1992-ci ildə keçirdik, elə həmin il MDB çempionu olduq. 1993-cü ildə ikinci dəfə MDB-də çempionluğa yiyələndik. Növbəti, 1994-cü ildə biz demək olar ki, heç bir işlə məşğul olmurduq, hərdənbir Bakıda hansısa yubileylərdə çıxış edirdik.

Heydər Əliyevlə dostluğumuzun tarixi 1995-ci ildən başladı. Həmin il fevral ayının 4-də Polad Bülbüloğlunun yubileyini bayram edirdilər. Polad bizi

[105] М.Гусман. Формула власти. Москва, 2005, т. 1. С. 92.

çağırıb xahiş etdi ki, onun 50 illiyi münasibətilə bayram hazırlayaq. O vaxt Bakıya xeyli qonaq gəlmişdi: Kobzon, Leşşenko, Vinokur, Tolkunova, Brunov, «Nana» qrupu, bir sözlə Rusiya estradasının qaymaqları. Polad dedi:

Mənə konferans lazım deyil, istəyirəm ki, gecəni «Bakılı oğlanlar» aparsın.

Bundan əvvəl isə yanvarda mən İlham Əliyevlə tanış olmuşdum. Xeyli söhbət etdik, mən ona planlarımızdan danışdım, bizi dəstəklədi. Heydər Əliyevlə isə heç bir əlaqəmiz yox idi. Düzdür, mən bilirdim ki, biz Moskvada oynayanda o, televizorla KVN-ni izləyib və çıxışlarımız onun xoşuna gəlib. Sonradan biz belə bir zarafat fikirləşdik: mən səhnədən deyirdim ki, Heydər Əliyevin ən sevimli mahnısı budur – «Mən, nə qədər, nə qədər qoca olsam da, dəyərəm min cavana...» Bu onun çox xoşuna gəldi.

Bəli, 1995-ci ildə Poladın yubileyini keçirdik. Bütün artistləri parodiya etdik – Poladın özünü, Kobzonu, Kikabidzeni, Breqvadzeni...

Heydər Əliyev də ailəsi ilə birlikdə zalda idi. O vaxt Bakıda hələ komendant saatı ləğv olunmamışdı. Konsert iki hissədən ibarət idi. Birinci hissədən sonra fasilə elan etdilər və prezident istirahət otağına keçdi. Belə alındı ki, biz otağa ondan qabaq daxil olmuşduq. Dayanmışıq: mən, Ənvər Mansurov və Tima Vaynşteyn. Birdən Heydər Əliyev otağa daxil olur. Bizə sarı elə baxdı ki, guya otaqda yoxuq. Gərginlik hiss etdik, pərt olan kimi olduq. Nə yaxşı ki, digər qonaqlar gəldi, o, yubilyarla, onun dostları ilə söhbət etməyə, zarafatlaşmağa başladı. Mən isə yaxınlıqda dayanmışam. Bu vaxt Polad üzünü çevirib dedi:

– Heydər Əliyeviç, tanış etmək istəyirəm sizi. Bu, «Bakılı oğlanlar» komandasıdır, kapitanları isə Anar Məmmədxanov.

O, birdən döndü, məni qucaqlayıb dedi:

– Onlar, ümumiyyətlə, qoçaqdılar. Çıxışları da ki, super. Çox xoşuma gəldi. Bu bizi ürəkləndirdi.

Polad qayğılı halda ona deyir:

– Bir azdan komendant saatı başlayır, qonaqların isə hələ hamısı çıxış etməyib. Nə edək?





Prezident dedi:

– Usubovu çağırın bura, – nazir gələndə göstəriş verdi. – Get bütün postları xəbərdar elə ki, adamlar Polad Bülbüloğlunun yubileyindən çıxıb evə gedəndə hamını buraxsınlar. – Sonra mənə tərəf dönüb əlavə etdi. – Sən bu barədə səhnədən elan edə bilərsən?

Bu onun mənə ilk tapşırığı idi. Mən çıxıb dedim:

– Bu gün yubilyar xeyli hədiyyə alıb. Ancaq ən böyük hədiyyənin müəllifi Heydər Əliyevdir. Bu gün komendant saatı birgünlük ləğv edilir. Odur ki, konsertin axırına qədər rahat otura bilərsiniz, hansı postda sizi saxlasalar, parolu deyin: «Polad Bülbüloğlu. Əlli yaş».

... 1995-ci ilin aprelində İlham Əliyev zəng vurur mənə:

– Anamın xatirə gecəsi olacaq. Atam «Bakılı oğlanlar»ı orada çıxış etməyə dəvət edir, – mən şokda idim, bu axı xatirə gecəsidir. – Bilirsən, – İlham deyir, – o, çox şən qadın idi. Atam da istəyir ki, siz bir məzəli nömrə hazırlayasınız. Bu mümkündür?

– Əlbəttə, – cavab verirəm.

– O istəmir ki, başdan-ayağa ağlaşma olsun.

O vaxt biz maraqlı bir nömrə hazırladıq. Guya müxtəlif siyasətçilər – Əbülfəz Elçibəy, Rəsul Quliyev, Etibar Məmmədov «Pole çudes» oyunu oynayırlar və divarda yazılmış sözü tapmalıdırlar. Sonra gəlib deyirəm: «Yəni, heç kim tapa bilmir?» Bu vaxt Heydər Əliyevin nəvəsi Leyla zaldan səhnəyə qalxır və deyir: «Mən bu sözü bilirəm – «müstəqillik». Müstəqillik azadlıq deməkdir, azadlıq isə məhəbbətdir. Məhəbbət isə mənim babam və nənəm haqqındadır». Çox məzəli və səmimi alınmışdı.

Parlamentin spikeri Rəsul Quliyev də zalda idi. Onunla münasibətlərimiz çox gərgindi, hətta demək olar ki, pis idi. Bizim yumorumuz onun xoşuna gəlmirdi. Bir dəfə məsələnin məntiqinə varmadan «Nə? Harada? Nə vaxt?» komandasından soruşmuşdu ki, onlar bizə qalib gələ bilərlərmi? Ancaq bu

artıq Poladın yubileyindən sonra, Heydər Əliyevin bizi tərifləyən çıxışından sonra olmuşdu.

Leyla zaldan «Mən bu sözü bilirəm» qışqıranda prezident təəccüblə ona baxdı. Leyla qaça-qaça səhnəyə qalxıb əvvəlcə hazırlanan sözləri deyəndə prezident oğlundan soruşur: «Onlar bunu əvvəlcədən məşq etmişdilər?». Həmin axşam o bizi öz stoluna dəvət etdi. Tədbir öz axarı ilə davam edirdi: hamı çıxıb Zərifə xanım haqqında nəsə danışırdı – Həsən Həsənov, Polad Bülbüloğlu… Rəsul Quliyev də çıxdı. Və çox hirsli tərzdə dedi:

– Burada məni yamsılayandan sonra mənimçün çıxış etmək çətindir.

Hamı təəccüblə ona baxdı. Heydər Əliyevdən başqa. O, «ötürməni» qəbul etdi və sakitcə soruşdu:

– Səni haçan yamsılayıblar, Rəsul.

Rəsul özünü itirdi.

– Görürsünüz də, Heydər Əliyeviç, parodiya o qədər uğursuz idi ki, siz hətta başa düşməmisiniz.

– Səni haçan yamsılayıblar? Mən nəsə fikir vermədim.

– Uşaqlar çıxış edəndə…

– Hə, bunu deyirsən? Bu normal idi, sözünü danış.

Rəsul ağappaq oldu və çıxışını birtəhər mızıldayıb bitirdi.

Prezidentin komandamıza ilk dəfə auditoriya qarşısında qiymət verməsi maraqlı oldu. Zərifə xanımın xatirə gecəsindən təxminən ay yarım sonra, evdə oturub televizora baxıram. Heydər Əliyevin «Nə? Harada? Nə vaxt?» klubunun üzvlərini qəbul etməsini göstərirlər. Prezident onlarla söhbət edir və birdən görüşün haradasa beş ya yeddinci dəqiqəsində deyir:

– Ancaq bizim üçün KVN daha böyük əhəmiyyət kəsb edir. Bu yaxınlarda Polad Bülbüloğlunun yubileyi oldu. Xeyli sayda gözəl və böyük aktyorlar gəlmişdi. Lakin hamıdan yaxşı «Bakılı oğlanlar» çıxış etdi. Mən onlarla fəxr edirəm! Bir müddət sonra onların burada Odessa ilə oyunları olacaq…





Mən sözün yaxşı mənasında şoka düşmüşdüm. Təkcə mən yox, dövlət başçısının dilindən səslənən bu komplimentlərdən sonra bütün komanda fövqəladə məsuliyyət hiss etdi. Bu qiymət bizi son dərəcə ruhlandırdı!

O vaxt biz KVN-in superkuboku uğrunda Odessa komandası ilə oyuna hazırlaşırdıq. İki dəfə onlar, iki dəfə biz çempion olduq. İndi isə superkubok uğrunda oynamaq lazım idi. Son dəfə Bakı və Odessa komandaları arasında oyun 1970-ci ildə olmuşdu. O vaxt Bakı qalib gəlmişdi və Odessa bütün bu illər revanş arzusu ilə yaşayırdı. Odessalılar oyunda çox güclü idilər, demək olar ki, KVN-in əsasını qoymuşdular. Odur ki, biz oyuna var gücümüzlə hazırlaşırdıq. Bütün hiss və duyğularımızı, bacarıq və qabiliyyətimizi səfərbər etməli idik. Bakıda heç olmasa bir yaxşı zarafat fikirləşə bilən kim vardısa mən onu dərhal komandaya cəlb edirdim.

Ancaq Odessa ilə oyundan qabaq baş vermiş bir hadisə mənə Heydər Əliyevin necə fantastik intuisiyaya malik olmasını anlatdı… Görüşdə Yuli Qusman çıxıb bir neçə kəlmə söyləməliydi, Maslyakov isə ondan soruşacaqdı:

– Hə, Yulik, bəlkə, köhnə vaxtlardan nəsə xatırlayasan?

– Nə deyim axı, qoca adamam…

Sonra Qusman özünün yetmişinci illərə aid tryukunu təkrar etməli idi: əvvəlcədən üzünü qırxıb, səhnəyə qoyma saqqal və bığla çıxmaq, sonra isə camaatın gözü qabağında onları çıxarmaq.

Qusmanın nə hazırladığı barədə yalnız üç nəfər bilirdi, o cümlədən də Maslyakov. Qusman özü ilə saqqal və bığ gətirmişdi. Hətta Qusman üçün tapdığımız qrim ustası da nə etmək lazım olduğunu hələ bilmirdi.

Oyundan bir gün qabaq Heydər Əliyev Maslyakovu, münsiflər heyətini, Odessa komandasını və bizi qəbul etdi. Çox mehriban, səmimi söhbət gedirdi. Bir məqamda prezident Yulika nəsə deyir və Qusman cavab verir:

– Nə danışırsınız, Heydər Əliyeviç, mən artıq qoca adamam…

Prezident ona tərəf çevrilib deyir:

– Nə deyirsən? Haran qocadır? Sabah bığ-saqqalını qırx – olacaqsan yenə cavan oğlan.

Qusman mənə baxır, guya Heydər Əliyevə sirri mən açmışam, Maslyakov Qusmana baxıb fikirləşir ki, dili dinc durmayan odur, mən də onlara baxıb hər ikisindən şübhələnirəm. Bax, həmin vaxt mənə aydın oldu ki, bu dahi insanın kosmosla əlaqəsi var.

Saqqalı və bığı çıxarmaqla bağlı səhnə mizanı zamanı zalı göstərəndə mən bilərəkdən prezidentə baxırdım. Ondan başqa hamı təəccüblənmişdi. O sanki bunu gözləyirdi. Heyrətamiz intuisiya idi…

Maraqlısı bir də odur ki, Heydər Əliyev öz KVN komandasına azarkeşlik etməyə gələn ilk prezident idi. Mənə deyirlər ki, Yeltsin də KVN-ə gəlib. Bəli, gəlib, lakin bu 1989-cu ildə, o hələ Rusiya Prezidenti olmamışdan qabaq idi. İlk təşəbbüs Əliyevdən gəlmişdi, Yeltsin, Putin, Nazarbayev sonranın işidir. Birinci isə Heydər Əliyev idi və bu, KVN tarixinə yazılıb.

Odessa ilə həmin oyunu biz üç xal üstünlüklə udduq. Bakı camaatı axı qonaqpərvərdir, səmimidir – oyun zamanı rəqabətə baxmayaraq, bizi də, qonaqları da alqışlayırlar. Yalnız Heydər Əliyev əl çalmırdı. Rəqabətdir, deməli, rəqabət aparaq. Səhnədə Odessa komandası olanda o, sakitcə oturub baxırdı. Bizə isə ürəklə əl çalırdı.

Dostluğumuz belə başlandı. O, deyəsən, mənə göz qoymağa başlamışdı: haradasa çıxış etmişəm, haradasa müsahibə vermişəm. Və birdən mənə deputat olmağı təklif etdilər. Azərbaycan tarixində mən ən cavan deputat idim. O vaxt mənim 25 yaşım təzəcə tamam olmuşdu.

Heydər Əliyeviç mənə atalıq münasibəti göstərirdi. Ancaq düzünü desəm, mən bu təklifdən qorxdum. Qorxurdum ki, məni oyunçu, qeyri-ciddi adam kimi qəbul edərlər. Çəkinirdim ki, deyəcəklər: «Kloun, təlxək…». Heydər Əliyev isə bunu sonradan mənə Tahir Salahov danışdı, opponentlərimə belə cavab vermişdi:





– Niyə Rusiyada Qusmanı Dövlət Dumasına seçiblər, Anarı isə Azərbaycanda seçə bilmirlər? Qusmanın dövründə KVN komandasının tərkibi beynəlmiləl idi, Anar isə bizim öz milli komandamızı yaradıb, bu komanda hətta o birisindən də yaxşıdır.

Əlqərəz, Heydər Əliyev təkidlə tələb edib ki, mən Milli Məclisə seçkilərdə iştirak edim. Bax, belə olmuşdu bu məsələ…

1996-cı ildə, artıq deputat seçiləndən sonra mən prezidentin köməkçisi Tariyel Ağayevə zəng vurdum, çünki İlham Əliyev Bakıda yox idi və dedim ki, «Respublika» Sarayında konsertimiz olacaq. Heydər Əliyev o vaxt bizim, demək olar ki, ilk solo konsertimizə gəlib baxdı. O necə gülürdü!

O vaxt biz ilk Milli Məclisi parodiya «atəşinə» tutduq. Konsertdən sonra o, pərdə arxasına gəldi. Ardınca da Rəsul Quliyev. Qabaqda isə prezidentlə mən gedirəm, arxamızca da qonaqlar. Birdən arxadan gülüş səsləri eşidilir. O, arxaya baxmadan məndən soruşur:

– Nə olub orda?

– Rəsul yaxınlaşıb uşaqlara, – deyirəm.

O dayandı, çevrilib əks istiqamətdə addımladı, Rəsulun artıq-əskik danışmayacağına əmin olmaq üçün. Necə uşağı dilə tuturlar ki, sən hamıdan ağıllısan, hamıdan yaxşısan, Heydər Əliyev də həmin tonda deyir:

– Yox, Rəsul, parodiya sənə oxşamırdı.

– Nə deyirsiniz, Heydər Əliyeviç, – Rəsul dillənir, – bu dəfə onlar hər şeyi yaxşı elədilər, sözüm yoxdur… Bax, beləcə başladı dostluğumuz.

… Bir dəfə o mənə tapşırdı ki, Moskvaya gedib Azərbaycanda bir neçə müxbir məntəqəsinin – RTR, ORT, NTV, «Komsomolskaya pravda», «Moskovski komsomolets», «Arqumentı i faktı» – açılması haqqında razılaşım. Mən iki həftə Moskvada qalıb bu məsələ üzərində çalışdım. Sonra konsertdə prezidentlə görüşəndə danışıqların nəticələri barədə ona danışdım. O, dediklərimi böyük maraqla dinlədi və dedi:

– Sənin barəndə yanılmamışıq.

... Azərbaycanda heç bir artist öyünə bilməz ki, Heydər Əliyev onun konsertində yeddi dəfə olub. «Bakılı oğlanların» solo konsertlərində isə o düz yeddi dəfə olmuşdu. Mən hələ yığma konsertləri demirəm. Komandamız ona həmişə müsbət emosiyalar bəxş edirdi, o gülürdü, necə deyərlər, qəlbən istirahət edirdi. Bəlkə, elə buna görə bizə əsl atalıq münasibəti göstərirdi.

Münasibətlərimizdə bir neçə ən yüksək nöqtəni, necə deyərlər zirvə nöqtəsini qeyd etmək olar. Onlardan birincisi 1998-ci ilə – prezident seçkiləri ilinə təsadüf etdi. Mənə seçkiqabağı kampaniyanın sonuncu konsertini təşkil etmək tapşırıldı. Ona ad fikirləşdim «Ulduzlar HƏ deyir». Konsertdən sonra Heydər Əliyev çıxış edir, bununla da seçkiqabağı kampaniya bitir. Konsert İdman Sarayının nəhəng zalında təşkil olunmuşdu. Gecə-gündüz məşq edirdik, yazırdıq. Mən heç vaxt belə əsəbiləşməmişdim, heç vaxt özümə bu qədər düşmən qazandırmamışdım. Budur, nəhayət son çıxış: əvvəlcə Müslüm Maqomayev, sonra da biz. Bizdən sonra artıq Heydər Əliyev çıxır. Bu onun son seçkiqabağı çıxışıdır. O vaxt, bildiyiniz kimi, müxalifət ilə güclü qarşıdurma vardı. Heydər Əliyev onlarla çox kəskin debatlar aparırdı. Ancaq son çıxışında gözlənilmədən dedi:

Mən müxalifət barədə bəzi şeyləri əlavə etmək istəyirdim, ancaq «Bakılı oğlanların» çıxışından sonra bunu etməyəcəyəm. Onlar nə lazımdırsa dedilər.

Dərhal da məni iri planda göstərirlər. Başa düşdüm ki, zirvə elə budur. Əgər ölkə prezidenti belə sözlər deyirsə...

İkinci dəfə başqa hadisə baş verdi. Bomarşenin belə ifadəsi var: «Gülməli olan qorxulu olmaz». Yadınızdadır Mirzə Xəzər «Azadlıq» radiosu ilə Azərbaycana qarşı necə aqressiv çıxışlar edirdi? Belə olduqda biz Mirzə Xəzərə parodiya hazırladıq və DTK-nın yubileyindəki çıxışımızda göstərdik. Bu parodiya ilə biz Mirzə Xəzər mövzusunu birdəfəlik bağladıq. Çünki o öz tanınan tələffüzü ilə efirə çıxan kimi bir balaca yumor hissi olan hər kəsi gülmək tuturdu.

Beş aydan sonra rastlaşanda Heydər Əliyeviç dedi:

– Çox ağıllı çıxış idi...





Yəni çıxış onun o qədər xoşuna gəlmişdi ki, az qala yarım il keçəndən sonra bu barədə xatırladı.

Daha bir məqam. 2000-ci ildə XX əsr çempionatının yarımfinalında biz Odessanı udduq. Növbəti oyun ermənilərlə final idi. Ancaq aprel ayında bizim daha bir ənənəvi konsertimiz oldu. Mən səhnəyə çıxıb emosiyadan aşıb-daşaraq dedim:

– Bəli, biz finalda oynayacağıq, sizə söz verirəm ki, XX əsrin çempionu «Bakılı oğlanlar» olacaq.

Həmişəki kimi Heydər Əliyev pərdənin arxasına gəldi, bizimlə söhbət etdi, sonra mənə tərəf dönüb dedi:

– Söz verdin, qalib gəlmək lazımdır.

Bu oyuna biz Odessa ilə oyundan da fərqli hazırlaşırdıq. Bu oyuna biz hər saniyə, hətta yuxuda da hazırlaşırdıq.

Heydər Əliyev bizə görə çox həyəcan keçirirdi. Hey təkrar edirdi: «Ruslar sizi udmağa qoymayacaq». Mən onu inandırmağa çalışırdım ki, biz mütləq qalib gələcəyik.

– Cavansan, – deyirdi, – çılğınsan, çox şeyi bilmirsən.

Ancaq mən bilirdim ki, qalib gələcəyik. Biz qalib gələndə Bakı sözün yaxşı mənasında şokda idi. O vaxt Mehriban xanım xeyriyyə konserti təşkil etdi. Keçmiş sovet estradasının bütün ulduzları Bakıya gəldi. Bizi də dəvət etdilər, özü də dedilər ki, heç danışmaq da lazım deyil. Biz, onsuz da, oyundan sonra halsız idik. Bir neçə zarafatyana ifadə işlədib səhnəni tərk etdik. Zal bizi on dəqiqə alqışladı. Heydər Əliyev pərdənin arxasına keçdi.

Kefi çox yaxşı, oynaq idi.

O dayanıb bizə azərbaycanca nəsə deyirdi. Sonra dönüb soruşdu:

– Bəs Məmmədxanov hanı?

Mən artistlərin arasında, Larisa Dolina, A-Studio qrupu, digərlərin dayandığı yerdəyəm.

– Buradayam, – deyirəm.

– Bəs niyə dediklərimi qonaqlara tərcümə etmirsən? Nədir, XX əsrin oyununu udandan sonra lovğalanırsan?

– Xeyr, Heydər Əliyeviç, – utana-utana deyirəm, ürəyimdə isə fikirləşirəm ki, axı mən nə vaxt sizi tərcümə etmişəm? – Sizin sözləriniz o qədər dərindir ki, tərcümə etməyə mənim gücüm çatmaz, burda professional lazımdır.

O hamıya tərəf döndü:

– Bilirsiniz, mən çox həyəcan keçirirdim, necə olacaq, onlar orada nə edəcək? Onlar isə çox qoçaq çıxdılar. Halal olsun bizim bakılı oğlanlara!

O bu sözləri deyib mənə elə baxdı ki, ürəyim qürur hissi ilə doldu.

Təxminən ay yarım sonra, biz Çempionlar Kubokunu artıq rəsmi alandan sonra o, komandamızı qəbul etdi. Bu, 2000-ci il dekabrın 30-da olmuşdu. Hamı ilə danışırdı, sonra bizim tamaşadan hansısa epizodu xatırlayıb başladı gülməyə. Az qala beş dəqiqə güldü. O axı emosiyalarını həmişə cilovlamağı bacaran adam idi. Burda isə özünü saxlaya bilmədi. Nazarbayevlə bağlı zarafata gülürdü.

**E.A. – Biz bu zarafatı yada salanda hamımızın ürəyi gedir: «Nazarbayev bilsəydi ki, portretini kim tutub, heç bura gəlməzdi». Bu görüşdə Heydər Əliyevin gülüşü isə ömür boyu yadımdan çıxmaz.**

**A.M.** – 1998-ci ildə andiçmə mərasimindən sonra keçirilən konsertə bizi dəvət etmədilər. Yaxınlıqdan keçən Heydər Əliyev məndən soruşur:

– Siz niyə iştirakçılar arasında yox idiniz?

– Bizi çağırmamışdılar, – dedim.

İndi budur, 2001-ci ildə Putin Bakıya gəlir. Heydər Əliyeviç bizə dedi:

– Çıxış etməyə gəlin.

Konsertdə – «Bakılı oğlanlar» – elan ediləndə o, Putinə işarə ilə diqqətini cəlb etdi. Konsertdən sonra yanımıza gəldi – həmişə narahat olurdu ki, onu yamsılayan Muradın boyu balacadır. Mən zarafata salırdım ki, onu dartıb uzadacağıq. İndi budur, o, Murada yaxınlaşıb, Putin isə Emil Abbasova yaxınlaşıb dedi: «Siz məni çox gözəl yamsılayırdınız». Heydər Əliyev isə Putinin qulağına elə dedi ki, hamı eşitsin:





– Onlar, yeri gəlmişkən, ermənilərə qalib gəliblər.

Bizim münasibətlərimizdə onun bir siyasətçi kimi də bənzərsizliyi özünü büruzə verirdi. Səhnədə göstərdiklərimiz hamı tərəfindən birmənalı qarşılanmırdı. Əlbəttə, parodiyaya tuş gəlmək hər adamın xoşuna gəlmir, ancaq Heydər Əliyeviç bundan ləzzət alırdı. Özü də heç vaxt bizə göstəriş verməzdi, deməzdi ki, haradasa ağını çıxarırıq. Əksinə. Bizim bir səhnəciyimiz vardı – «Letargiya yuxusu». Mən Heydər Əliyevin yerinə olsaydım, «Bakılı oğlanları» yox edərdim. Səhnəciyin mahiyyəti ondan ibarətdi ki, bir nəfər 1981-ci ildə yuxuya gedir, 1996-ci ildə isə oyanır. Oyanır və arvadından soruşur – nədir, nə olub, işlər necədir? Sonluğu isə belədir. O maraqlanır:

– Bəs hakimiyyətdə bu gün kimdir? – Əliyevin vaxtında yuxuya getmişdin…

– Yox, indi hakimiyyətdə kimdir?

– Əliyev.

– Qohumudur?

–Yox.

– Soyadları eynidir?

– Yox. Həmin o Əliyevdir.

– Lap yaxşı.

O, pəncərəyə yaxınlaşır və soruşur:

– Bəs niyə küçələr çala-çuxurdu? İşıqfor niyə işləmir? Niyə bizim quşxananın yerində kommersiya dükanıdır? Burda nə baş verir?

Mən bu gün başa düşürəm ki, bütün bunları dinləmək ona xoş deyildi. Ancaq o başa düşürdü ki, bu, lazımdır. Heç vaxt bizə demirdi ki, nədəsə həddini aşırıq. O bizi yalnız tərifləyirdi. Həmişə bizə deyirdi:

– Əgər məmurlardan kimsə sizə narazılığını bildirsə, deyin ki, mənim xəbərim var, icazə vermişəm.

Bəziləri elə bilirdilər ki, o, əvvəlcədən bizim mətnlərlə tanış olur. Bu, əlbəttə ki, boş söhbətdir. O yalnız deyirdi:

– Hər şeyi düz eləyirsiniz. Bəs bütün bunları kim deməlidir? Sizdən başqa kim?

Başa düşürsünüz, bir var qonşun gəlib sənə desin ki, saç düzümün pisdir, bir də var ki, eyni sözü sənə doğma qardaşın deyir, bu tamam başqa məsələdir. O bilirdi ki, biz onun yolunda, Azərbaycanın yolunda canımızı verərik. Biz ona qarşı loyal münasibətdəyik, həmişə kömək göstərməyə, dəstəkləməyə hazırıq. Və əgər ki, biz kimin, yaxud nəyin barəsindəsə tənqidi fikirlər söyləyirik, deməli bunu göydən götürməmişik, məsələnin içindəyik.

Baxın bizim süjetlərimizə – «Polis», «Məktəb», «Xəstəxana»... Biz orada baş verənləri göstərirdik, o da bizim tənqidimizə çox yaxşı, müsbət münasibət göstərirdi.

... Mən iki dəfə gənclər forumlarında çıxış etmişəm, özü də çox kəskin çıxış etmişəm. 2001-ci ildə parlamentdə «Qarabağ dinləmələrində» də kəskin danışmışam.

Heydər Əliyev çox gözəl görürdü ki, mənim siyasi ambisiyalarım yoxdur. Mən dövlətçiyəm, ikincisi, mən o vaxt da ona böyük hörmətlə yanaşırdım, indi də xatirəsinə eyni hörmətlə yanaşıram. Sənə hörmət eləyən adam deyəndə ki, bax, burada nəsə işlər pisdir, deməli, həmin adam yalan danışmır.

2001-ci ildə biz səhnə ilə vidalaşmağa başlayanda o bizim haqqımızda dedi ki, biz nə aktyoruq, nə də siyasətçi, biz camaat arasında çox populyar olan unikal bir janr yaratmışıq. O vaxt o, məsləhət gördü:

– Siz ayrılsanız, düzgün olmaz. Yaxşısı budur gələn il filan və filan işləri görün...

Lakin biz bu tapşırığı yerinə yetirmədik və mən çox təəssüf edirəm. Mən səbəbini ona izah etməyə çalışdım.

Haradasa oxumuşam ki, istənilən kollektiv on ildən çox yaşamır. Sırf fiziki cəhətdən on ildən çox mövcud ola bilmir. Adamlar böyümüşdü, ailə qurmaq, onu dolandırmaq lazım idi. KVN onları maliyyə cəhətdən təmin edə bilmirdi. Mən isə KVN-ni gəlir mənbəyinə çevirmək istəmirdim. Çünki o vaxt bu artıq KVN olmazdı.





«Bakılı oğlanlar»dan çoxu həyatda öz yerini tapdı, uğur qazandı. Tima Vaynşteyn uğur qazanmış Rusiya prodüseridir, Ənvər Mənsurov Moskvada rejissordur, Elçin Əzizov – Böyük Teatrın solisti olmuş ilk azərbaycanlıdır, Azər Məmmədzadə – «Simens»in aparıcı menecerlərindən biridir, Murad Dadaşov «Lider» telekanalının baş prodüseri vəzifəsinə yüksəlib (hal-hazırda «Xəzər» telekanalının prezidentidir – ***E.A.***), Emil Abbasov ciddi biznesmendir, Çində işləyir...

Lakin həmin o janr əfsus ki, yaşamadı. Orada vəziyyət başqa cür idi – KVN Moskvada yaranmışdı, «Bakılı oğlanlar» məhz orada görünməyən populyarlıq qazandı və sonradan Bakıya gəlib burada çıxış etməyə başladılar. «Bakılı oğlanlar» məhz Moskvada, böyük millətlər sırasında öz üstünlüyünü sübut etdilər. Bir dəfə Heydər Əliyevə dediyim sözlər yadımdadır:

– Azərbaycanlıların eksport variantını yığmaq lazımdır.

O güldü.

Üç-dörd dil bilən, cazibədar, simpatiya doğuran insanları ki, onlar xaricdə boşluğu doldursunlar və dünyaya göstərsinlər – əsl azərbaycanlı bizik. Bunu etmək olar. «Bakılı oğlanlar» postsovet məkanında bunu sübut etdi. ORT kanalında ««Bakılı oğlanlar»ın benefisi» proqramı olanda Maslyakov mənə zəng vurub dedi:

– Bilirsən bu proqramın reytinqi necə yüksək idi?

Mən demək istəyirəm ki, Heydər Əliyev olmasaydı, bu qələbələr də olmazdı...».

* * *

**Bu fəsildə biz «Heydər Əliyev və Azərbaycan mədəniyyəti» adlanan aysberqin yalnız yuxarı hissəsinə toxunduq. Əminəm ki, gələcək əliyevşünaslar bu mövzuya kitablar həsr edəcək, kinematoqrafçılar isə Heydər Əliyevin öz ölkəsində dissidentləri yox, istedadları axtarması və bu işin öhdəsindən necə gözəl gəlməsi haqqında hamını heyran qoyan film çəkəcəklər!**

**Elmira Axundova. Sizin aranızda ən böyük dissident mən idim**
*Heydər Əliyev və yaradıcı ziyalılar.* I CİLD
Bakı: "Tuna" QSC, 2025.

**Tərtibat və cildin dizaynı:** İlkin Abdulla
**Korrektor:** Ləman Qoca

Çapa imzalanmışdır. 17.04.2025.
Format 60x90 1/12. Fiziki çap vərəqi 35,25
Sifariş 102. Tiraj 500.
"Tuna" QSC-nin mətbəəsində çap olunmuşdur.

Bakı AZ1031, Nizami r-nu Keşlə qəs.,
1-ci Önünə küç.19
e-mail: sales@tuna.az
Tel. +994 (12) 447-15-25
+994 (12) 567-96-84

«Heydər Əliyev sənət adamlarını, yaradıcı insanları daim duymuş, anlamış, onlara xüsusi həssaslıqla yanaşmış, problemlərinin, fikir ixtilaflarının, münaqişələrinin məğzinə varmağa çalışmışdı. Yaradıcı insanlar bir çox hallarda çətin, mürəkkəb təbiətli, incik, necə deyərlər, ürəyinazik, «dəymədüşər», uşaq kimi dəyişkən ovqatlı olurlar. Respublikada bir çoxları indiyədək birinci katibin Azərbaycan musiqisinin korifeyləri, münasibətləri heç də «hamar» olmayan dirijor Niyazini, bəstəkarlar Qara Qarayevi, Fikrət Əmirovu barışdırmaq üçün nə qədər səy göstərdiyini xatırlayırlar.

Üstündən uzun illər keçəndən sonra bəstəkar Arif Məlikovun yaradıcılıq gecəsində Azərbaycanın Prezidenti Heydər Əliyev görkəmli sənətkarları barışdırmaq üçün göstərdiyi səylərini xatırlayacaq:

«Xatirimdədir, mən onlarla vaxtaşırı görüşüb danışarkən bir-biri ilə münasibətlərinin gərgin olduğunu hiss edirdim. Biri yanıma gələndə deyirdim ki, filankəs səni çox tərifləyirdi. Bu birisi yanıma gələndə deyirdim ki, o da mənim yanıma gəlmişdi, səni çox tərifləyirdi. Bilirsiniz ki, istedadlı adamlar həmişə qəribə olurlar. İstedadlı olanların hər birinin özünəməxsus xüsusiyyəti var. Mənim kimi siyasət adamı, respublikaya rəhbərlik edən adam gərək hərənin öz dilini bilsin, hərəni öz dili ilə dindirsin. Çalışsın ki, münasibətlər yaxşı olsun, mehriban olsun. Mən buna çalışırdım».

... Yaradıcı ziyalılarla, xüsusən yazıçılarla danışmağı sevməyən və bacarmayan bir çox partiya məmurlarından fərqli olaraq Heydər Əliyev üçün bu ünsiyyət bir udum təmiz hava kimi idi. O, Moskvada Vorovski adına (indi Povarskaya adlanan) küçədə yerləşən SSRİ Yazıçılar İttifaqında iki dəfə olmuş, sadəcə baş çəkməmiş, respublikada gedən proseslər haqqında parlaq nitqlərlə çıxış etmiş, ölkənin yazıçılar elitasının ən kəskin suallarını cavablandırmışdı...»

Ümummilli Liderimiz Heydər Əliyev barədə çox kitablar, monoqrafiyalar, elmi araşdırmalar işıq üzü görüb. Amma oxuyacağınıza ümid etdiyim bu kitab unikaldır. Əvvəla, o, böyük liderin həm sovet dövründə, həm də müstəqillik zamanında yaradıcı ziyalılarla münasibətləri kimi az tədqiq olunmuş mövzuya həsr olunub. İkincisi, kitabda Heydər Əliyevlə şəxsən tanış olmuş, onunla ünsiyyət saxlamış, yaradıcılıqları prezident tərəfindən yüksək qiymətləndirilmiş, dövlət mükafatlarına layiq görülmüş ədəbiyyat və mədəniyyət xadimlərinin səsləri sanki qulaqlarımızda canlı səslənir. Bu söhbətlərdə təkcə Heydər Əliyevin obrazı, yaxud bu və ya digər cəhəti deyil, elə müsahiblərin özləri də oxucu üçün bəzən gözlənilməz, naməlum tərəflərdən açılır. Onlar müəlliflə çox canlı, səmimi, bəzən çox məhrəm dialoq aparır, təkcə müsahibənin qəhrəmanı barədə deyil, həm də öz həyatları haqda danışırlar və quru rəsmiyyətdən uzaq söhbətlər oxucu ictimaiyyətində, şəksiz, maraq doğuracaq.

TUNA

9 789952 578416